DƏRS VƏSAİTİ

**A.P. Qradov**

# MİLLİ İQTİSADİYYAT

2-ci nəşri

«Milli iqtisadiyyat» və digər iqtisadi ixtisaslar üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti kimi milli iqtisadiyyat və əməyin iqtisadiyyatı üzrə elmi-metodik şura tərəfindən tövsiyə olunmuşdur.

MUHASIBAT.AZ

Sankt-Peterburqun 300 illiyi şərəfinə ali məktəblər üçün 300 daha yaxşı dərsliklər seriyasından

nəşriyyat proqramı

RF Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilir

**B A K I - 2 0 0 8**

MUHASIBAT.AZ

**KBT 65.9**

**UOT 339.97**

**Q76**

Dərslik Azərbaycan Dövlət İqtisad Universitetinin "Makroiqtisadi tənzimlənmə" kafedrasının əməkdaşları tərəfindən rus dilindən tərcümə olunmuşdur: i.e.d., prof. M.A. Əhmədov (Sözönü, giriş, nəticə); i.e.n., dos. Ə.M. Əhmədov (Fəsil 1.1.;1.2.; 1.3.); i.e.n.,dos. M.M. Mahmudov (Fəsil 2.1.) i.e.n., dos. K.S. Qafarov (Fəsil 2.2.;2.3.), i.e.n., dos. M.S. Məmmədov (Fəsil 3.1.;3.2.), i.e.n., dos. G.Ş. Mikayılzadə (Fəsil 4.1.; 4.2.; 4.3.), i.e.n., dos. M.M. Sadıqov (Fəsil 5.1.; 5.2.; 5.3.; 5.4.), i.e.n., İ.M. Mahmudova (Fəsil 6.1.; 6.2.; 6.3.), i.e.n., M.Ə Əliyev. (Fəsil 7.1.; 7.2.; 7.3.; 7.4.; 7.5.), i.e.d., dos. F.P. Rəhmanov (Fəsil 7.6.), i.e.n. dos. G.F. Cəmilova (Fəsil 8.1.; 8.2.), b.m. Z.S. Əsgərova (Fəsil 8.3.)

Tərcümənin ümumi elmi redaktoru: i.e.d. prof. **M.A.Əhmədov**

**Qradov A.P. Milli iqtisadiyyat. 2-ci nəşri ("Dərsliklər"**

**Q76 seriyasından) / Rus dilindən tərcümə.**

**Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2008**

ISBN 5-469-00747-2

Vəsaitdə milli iqtisadiyyat anlayışı sahə və regional səpgidə araşdırılır. İqtisadi, siyasi və ideoloji qaydaların formalaşmasının institusional problemləri nəzərdən keçirilir. Milli sərvətin istifadə edilmə və dövlətin strateji məqsədlərinin əldə olunma dərəcəsini təhlil etmək əsasında milli iqtisadiyyatın inkişaf səviyyəsinin müəyyənləşdirilməsinə yeni yanaşma verilir. Milli iqtisadiyyatın rəqabətqa-

MUHASIBAT.AZ

biliyyətliliyi və dünya iqtisadi sisteminə inteqrasiyası probleminə baxılır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi və ayrıca müəssisədə mövcud ola biləcək potensial təhlükələrin strukturlaşdırılmasına xüsusi diqqət yetirilir. Təhlükəsizlik səviyyəsinin qiymətləndirilmə göstəriciləri təklif olunur, təhlükəsizlik səviyyəsinin kompleks təhlili sxeminin alqoritmi verilir.

«Milli iqtisadiyyat» və digər iqtisadi ixtisaslar üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti kimi milli iqtisadiyyat və əməyin iqtisadiyyatı üzrə elmi-metodik şura tərəfindən tövsiyə olunmuşdur.

© ЗАО Издательский дом «Питер», 2005

© "İqtisad Universiteti",2008

# MÜNDƏRİCAT

Sözönü........................................................ 6

Giriş.......................................................... 8

MUHASIBAT.AZ

**Fəsil 1**

**İqtisadi fəaliyyət……………………………..…………..….** 19

1.1. İqtisadi fəaliyyətin mahiyyəti, məqsədi və obyektləri…………………………………………………… 19

1.2. İqtisadi fəaliyyətin subyektləri…………………….. 26

1.3. İqtisadi fəaliyyət növləri və iqtisadi subyektlərin ixtisaslaşması……………………………………….... 28

**Fəsil 2**

**Milli iqtisadiyyatın təhlilinin konseptual əsasları………..** 38

2.1. Milli iqtisadiyyat anlayışı. ……………………….... 38

2.2. Milli iqtisadiyyat qarşılıqlı əlaqəli mexanizmlərə təsir sistemi kimi…………………………………… 67

2.3. Milli iqtisadiyyatın inkişaf səviyyəsinin qiymətləndirilməsi prinsipi…………………………………… 72

**Fəsil 3**

**Milli iqtisadi fəaliyyətin təşkili formaları…………………** 80

3.1. İqtisadi fəaliyyətin morfologiyası…………………… 80

3.2. Milli iqtisadi fəaliyyətin təşkilati formaları............

MUHASIBAT.AZ

85

**Fəsil 4**

**Milli iqtisadiyyatın struktur təhlili**……………………….. 96

4.1. İqtisadi fəaliyyətin strukturu anlayışı……………… 96

4.2. Milli iqtisadiyyatın struktur təhlilinin bəzi cəhətləri………………………………………………..… 98

4.3. Sadə iqtisadi vahidlərin struktur təhlili……………. 102

**Fəsil 5**

**Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi**……………..…. 111

5.1. İqtisadi fəaliyyətin rəqabət qabiliyyətliliyi anlayışı………………………………………………..…… 111

5.2. Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi…………………………………….. 114

5.3. Milli iqtisadiyyatın, onun sahələrinin və ayrı-ayrı iqtisadi agentlərin rəqabət qabiliyyətliliyinin əsasları……………………………………………………

5.4. Rusiya Federasiyasının Milli iqtisadiyyatının sahələrində rəqabət qabiliyyətliliyi potensialı…………………………………………….... 116

MUHASIBAT.AZ

123

**Fəsil 6**

**Milli iqtisadi fəaliyyət və beynəlxalq iqtisadi münasibətlər**……………………………………………………….. 128

6.1. Ölkənin beynəlxalq iqtisadi mövqeyinə təsir edən amillər……………………………………………….. 128

6.2. Milli iqtisadiyyatın dünya iqtisadi sistemə qovuşması prinsipləri………………………………………. 128

6.3. Ümumdünya Ticarət Təşkilatı – dünya iqtisadi sistemində birləşmənin institusional əsasıdır……… 134

138

**Fəsil 7**

**Ölkənin iqtisadi təhlükəsizliyi**……………………………….. 146

7.1. İqtisadi təhlükəsizlik anlayışı……………………….. 146

7.2. İqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi prinsipi……………………………………………… 149

7.3. İqtisadi təhlükəsizliyin yaranması nəticəsinin təhlili prinsipləri…………………………………………

7.4. Ölkənin iqtisadi təhlükəsizlik vəziyyətinin kompleks

MUHASIBAT.AZ

təhlilinin alqoritmləşdirilməsi prinsipləri............ 154

7.5. İqtisadi təhlükəsizlik və investisiya siyasətinin prioritetləri.......................................................... 158

7.6. Müəssisənin iqtisadi təhlükəsizliyi...................... 162

183

**Fəsil 8**

**Dövlətin iqtisadi fəaliyyətə təsiri prinsipləri....................** 198

8.1. Milli iqtisadiyyatın islahatlaşdırılması və dövlətin iqtisadi fəaliyyətə təsiri formasının seçimi........... 198

8.2. Yeni iqtisadi quruluşa keçid müddətində dövlətin tənzimləyici funksiyaları............................... 213

8.3. Dövlət təsirinin «şaquli» istiqamətlərinin formalaşması............................................................ 219

Nəticə.......................................................... 227

Ədəbiyyat siyahısı........................................ 229

MUHASIBAT.AZ

MUHASIBAT.AZ

# SÖZÖNÜ

Oxucuya təqdim olunan vəsait «Milli iqtisadiyyat» ixtisası üzrə dövlət təhsil standartının dəyişməsi ilə əlaqədar olaraq yenidən işlənmişdir.

Bu dəyişikliklər milli iqtisadiyyatın formalaşmasının tarixi səpgiləri, institusional, habelə dövlət idarəetmənin problemləri ilə əlaqədar olaraq birinci nəşrin bölmələrinin müstəqil fənnə çevrilməsindən irəli gəlmişdir.

Kursun strukturu bir semestrə hesablanaraq qurulmuşdur (əvvəl iki semestrdə oxunurdu). Yeni bölmələr daxil edilmişdir. 1997-ci ildən (ilk nəşr çap olunmuşdur) 2004-cü ilə kimi Rusiya Federasiyasının Milli iqtisadiyyatında baş verən dəyişikliklər öz əksini tapmışdır.

MUHASIBAT.AZ

Sahə və regional səpgidən milli iqtisadiyyat anlayışı strukturlaşdırılmış, iqtisadi, siyasi və ideoloji qaydaların formalaşmasının institusional problemləri nəzərdən keçirilmiş, habelə Milli sərvətin istifadə edilmə və dövlətin strateji məqsədlərinin əldə olunma dərəcəsini təhlil etmək əsasında Milli iqtisadiyyatın inkişaf səviyyəsinin müəyyənləşdirilməsinə yanaşma verilir.

Bundan başqa, iqtisadi siyasətin prioritetlərinin əhalinin həyat səviyyəsinə və keyfiyyətinə təsiri konsepsiyası şərh olunur və investisiya siyasətinin millətin sağlamlığına təsirinin tədqiqinin nəticələri verilir. Milli iqtisadiyyatın və onun ayrı-ayrı sahələrində rəqabət qabiliyyətinin  səviyyəsi təhlili əsasında Milli və regional rəqabət üstünlüklərinin determinantına dövlət tənzimlənməsinin əsas istiqamətləri nəzərdən keçirilir.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə həsr edilmiş bölmədə potensial geopolitik, iqtisadi-coğrafi, ekoloji, sosial xarakterli təhlükələr strukturlaşdırılmış iqtisadi təhlükəsizliyin səviyyəsinin qiymətləndirilməsinin inteqral və xüsusi göstəriciləri təklif olunur: potensial təhlükələrin mümkün ola bilən nəticələr nəzərə alınmaqla iqtisadi təhlükəsizliyin vəziyyətinin təhlilinin kompleks alqoritmi verilir. Müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin prinsipləri nəzərdən keçirilir. Bölmə İ.B.İlin ilə birgə yazılmışdır.

Rusiyanın Ümumdünya Ticarət təşkilatına (ÜDT) daxil olması ilə mümkün ola bilən itkilər və səmərələr nəzərə alınaraq ölkənin dünya iqtisadi sisteminə inteqrasiyasına həsr olunmuş bölmə əhəmiyyətli dərəcədə yeniləşdirilmişdir.

Kursun bu və ya digər müddəalarının ədalətliliyini əsaslandırmaq üçün istifadə olunan analitik və statistik material əsaslı surətdə yeniləşdirilmişdir, XX, XXI əsrlərin astanasında milli iqtisadiyyatların fəaliyyəti prosesinin nəzəri-metodoloji prob-

MUHASIBAT.AZ

lemlərinə həsr edilmiş, araşdırılarkən son illərdə çap olunmuş dünya və ölkə ədəbiyyatından istifadə olunmuşdur.

Vəsaitin yazılmasında milli iqtisadiyyatın vəziyyəti haqqında beynəlxalq və ölkə səviyyəsində keçirilmiş konfrans və simpoziumun müxtəlif mütəxəssislərin dövri mətbuatda çap olunmuş çıxış və məruzələrindən, habelə bu problemlə bağlı analitik məcmuənin, eyni zamanda parlament dinləmələrində edilmiş məruzələrin materiallarından istifadə olunmuşdur. Kursun məntiqi strukturu və məzmunu 060700 «Milli iqtisadiyyat» ixtisası üzrə mövcud dövlət təhsil standartına uyğun olaraq müəllif tərəfindən işlənib hazırlanmışdır. Bu Sankt-Peterburq Dövlət Politexnik Universitetində «Milli iqtisadiyyat» kafedrasında tədris prosesində istifadə olunur.

Təqdim olunan mühazirə kursu tələbələr, müəllimlər və digər iqtisadiyyat ixtisasları üzrə aspirantlar, habelə federal, regional və kompleks iqtisadi vahidlər səviyyəsində iqtisadi siyasəti formalaşdıran praktiki işçilər üçün faydalı ola bilər.

# GİRİ Ş

MUHASIBAT.AZ

Hər hansı bir ölkə daxilində iqtisadi fəaliyyətin özünəməxsusluğu çoxlu amillərlə şərtlənir: təbii resursların mövcudluğu və müəyyən iqlim şəraiti ilə Milli sərvətin kəmiyyəti və cəmiyyətin demoqrafik quruluşu ilə, Milli mentalitetin xüsusiyyətləri ilə, dövlət, siyasi və ictimai quruluşun xüsusiyyətləri ilə.

Bununla yanaşı hər bir ölkənin iqtisadiyyatı, başqa sözlə, onun Milli iqtisadiyyatı bütün dünya iqtisadiyyatı üçün xas olan çoxlu ümumi cəhətlərə malik olmaqla, əsasən ümumi iqtisadi qanunlar əsasında inkişaf edir. Bunları heç bir hökmran elitanın «siyasi idarəsi» təxirəsalmaq iqtidarında deyil. Hər hansı qısa bir müddətdə bu qanunlara qarşı durmaq cəhdi iqtisadi proseslərin gedişini səhv yola apara bilər. Çoxəsrlik tarixi təcrübə göstərir ki, uzunmüddətli perspektivdə iqtisadi qanunlar özünü büruzə verir və iqtisadi fəaliyyət həmin qanunların tələbinə uyğun onları istiqamətləndirməklə həmin hüdudlarda və həmin qaydalarda fəaliyyət göstərir. Rusiyanın iqtisadiyyatı bu qaydalardan müstəsnalıq təşkil etmir.

İqtisadi tarix kursunda Amerika, Asiya və Avropa ölkələrinin iqtisadiyyatının inkişaf problemləri ətraflı tədqiq olunmuşdur. Bu kursda Rusiyanın milli iqtisadiyyatının formalaşması və inkişafının tarixi meyllərinin tədqiqinə diqqət yetirilir. XX əsrin sonunda Rusiyada milli iqtisadiyyatın yenidənqurulması mərhələsində böhranı müddətinin hədsiz dərəcədə uzanması RF əhalisinin çox hissəsinin dəyişilikklər modelinin düzgünlüyünə inamın itirilməsi yenidən bu suala qaytarmağa məcbur edir ki, «Hara gedirik? Quo vadis? Kamo qryadeşi?»

MUHASIBAT.AZ

Ölkə üçün hakim elitanın fikrinə uyğun olaraq ölkədə həyata keçirilən iqtisadi qaydanın hansının daha münasib olması sualına cavab verməzdən əvvəl ən azı iqtisadi dəyişikliklərin müxtəlif istiqamətlərinin mümkün ola bilən nəticələrini proqnozlaşdırmaq lazımdır.

Lakin gələcəyin bu proqnozları ancaq o halda kifayət qədər əsaslı ola bilər ki, o keçmişin tarixi tədqiqinə əsaslansın. İqtisadi dəyişikliklərin istiqamət və metodlarının seçilməsinə təsir göstərən amillər içərisində milli iqtisadiyyatın formalaşmasının tarixi meylləri və hər bir ölkə vətəndaşlarının çoxunun mentaliteti də mühüm əhəmiyyət kəsb edir.

Belə bir sual meydana çıxır, nəyə görə məhz bu amillər Ölkədə həyata keçirilən iqtisadi dəyişikliklərə daha güclü təsir göstərir? Məgər iqtisadi dəyişikliklərin başlanğıc mərhələsində istehsalın texniki bazasının fiziki və mənəvi aşınma dərəcəsi dəyişikliklərin strateji proqramlarının işlənməsinin prioritetlərinin seçilməsinə təsir göstərmir? Əlbəttə ki, təsir göstərir, həm də çox. Çünki bu amil milli iqtisadiyyatın rəqabət üstünlüklərinin təmin edilməsinə mühüm təsir göstərir. Deməli, o həm də ölkəni uzunmüddətli və perspektiv investisiyalarda cazibədar etmək üçün dövlətin müvafiq daxili və xarici siyasətini formalaşdırmağa imkan verir. Aydındır ki, belə strateji xarakterli investisiyalar cəmiyyətin cari ehtiyaclarının maliyyələşdirilməsi imkanları ilə məhdudlaşır. Baxmayaraq ki, bu amillər necə deyərlər, «texniki» xarakterlidir, bununla belə o, ölkə əhalisinin mental xüsusiyyətləri, başqa sözlə, «keyfiyyəti» ilə də sıx bağlıdır.

İqtisadi inkişafın xarakterinə «texniki» xarakterli amillərin təsiri ondan asılıdır ki, ölkə əhalisi özünün sosial rolunu necə qəbul edir və onlar öz rahatlığını təmin etmək üçün şəxsi məsuliyyəti öz üzərinə götürməyə, habelə özünün və gələcək nəsillərinin naminə bugünkü rahatlığından nə dərəcədə qurban verməyə hazırdırlar.

MUHASIBAT.AZ

Son nəticədə məhz bu həyati prinsiplər iqtisadi dəyişikliklər modelinin xarakterinin konseptual əsaslarını əvvəlcədən müəyyən edir.

Məsələ ondan ibarətdir ki, milli iqtisadiyyatın formalaşmasının tarixi meylləri və xalqların mentaliteti, ümumən ölkədə yaşayan vətəndaşlar bu gün hakim strukturların «əks» təsirinə məruz qalmırlar. Çünki onlar bu və digəri əsrlərlə formalaşmışdır. Siyasətçilər dəyişikliklərə başlayarkən dünyagörüşünü «ləğv edə» bilmirlər. Onlar bu və ya digər dəyişikliklərin vasitələrini, metodlarını və reallaşdırılması modelini təklif edərkən bunları nəzərə ala bilərlər (almalıdırlar). Bu modellər daha çox dərəcədə xalqların mentalitetinə və tarixi ənənələrinə cavab verməlidir. Hakimiyyət strukturlarının milli mentalitet kimi belə bir sabit hala təsiri hədsiz dərəcədə çətindir. Çünki indi yaşayan insanların həyat prinsipləri və görüşləri onlara genləri ilə birgə əcdadlarından keçmişdir. Belə ki, müxtəlif əhali qrupları arasında dəyişikliklərin üstünlüklərini, mahiyyətini açmadan müvafiq siyasi təminat yaratmadan xalqın başa düşdüyü anlayışlara uyğun olmayan qərarların qəbulu faydasızdır.

Tarix göstərir ki, islahatların siyasi təminatı olmadan həyata keçirilməsi hər şeydən əvvəl məhz o şəxslər tərəfindən qəbul edilmir ki, islahat müəllifləri bunu onlar üçün düşünmüşdürlər.

Dünya birliyi ölkələrə daxil olan milli iqtisadiyyatların inkişaf prosesinin tədqiqinin nəticələri nədən ibarətdir?

XIX və XX əsrin astanasında Rusiyanın hakim elitasının islahat və kontrislahatlar kursunun nəticələrinin ümumiləşdirilməsi aşağıdakı nəticələrə gəlməyə imkan verir:

1. Bir-birini əvəz edən hökumətlərin iqtisadi və siyasi kurslarının inkişafının da, xüsusən «kəndli məsələsinə», iqtisadi və

MUHASIBAT.AZ

ictimai həyatda dövlətin rolunun dəyişməsinə münasibətdə «dalğavari inkişaf» aydın müşahidə olunur.

2. Əksər hallarda islahatların əsas məqsədləri: ölkənin dövlət idarəçiliyinin təkmilləşdirilməsi (modernləşdirilməsi); kəndlinin icmanın hakimiyyətindən asılılığını zəiflətməyə, ictimai həyatı və iqtisadi fəaliyyəti demokratikləşdirməyə cəhd etmək.

3. Bir qayda olaraq əks islahatlar siyasəti cəmiyyətin bütün təbəqələrinin iqtisadi və ictimai həyatına dövlətin müdaxiləsinin güclənməsi prinsipinin reallaşdırılması məqsədlərinə, başqa cür düşüncələrlə mübarizənin sərtləşməsinə, hökumətin əməli fəaliyyətində himayədar və şəxsi mənafe meyllərin güclənməsinə tabe edilirdi.

4. «Yuxarıdan» həyata keçirilən islahatlar əsasən onların istiqamətləndiyi əhali qrupu və siniflər tərəfindən dəstəklənmədiyi üçün lazımi səmərəni vermirdi, hətta bəzən də əks nəticə verirdi.

5. İslahatların dəstəklənməməsinin əsas səbəbləri aşağıdakılardır; müxtəlif əhali qrupları və siniflər üçün islahatların nəticələrinin ziddiyyətli olması, icma və paternalist prinsiplərə meylli əhalinin əsas kütləsinin tarixən formalaşmış mentalitetin xarakteri, əhalinin digər böyük hissəsinin isə eqalitarizm prinsiplərinə meylli olması idi.

6. İslahatların böyük əksəriyyətində sistemlilik prinsipi gözlənilməmiş, başqa sözlə, bu islahatların ayrı-ayrı üstünlüklərinin qarşılıqlı əlaqəsi təmin olunmamışdur. Adətən bu prinsiplər islahatlar layihəsinin əsasına qoyulurdu. (Speranskiy, Stolipin), lakin müxtəlif siyasi, ideoloji və digər səbəblər üzündən onlar praktikada həyata keçirilmirdi.

7. Milli iqtisadiyyatın idarə olunmasının strateji məqsədləri XX əsr boyu vaxtaşırı dəyişmişdir. Bu dəyişikliklər siyasi, (dövlət və ictimai duruşun dəyişməsi) hərbi xarakterli, (müdafiə potensialının möhkəmlənməsi və müharibədən sonra iqtisadiyyatın yenidən qurulması) sosial-iqtisadi xarakterli (həyat səviyyəsinin, istehsalın səmərəliliyinin yüksəldilməsi) və s. amillərin təsiri altında baş verirdi.

Rusiyanın milli iqtisadiyyatı islahat və əks islahatların bir-birini əvəz etməsi nəticəsində «rəqqasvari» inkişaf davam edirdi. Həyata keçirilən islahatların qeyri-ardıcıllığı və ziddiyyətliliyi onların səmərəliliyini kəskin aşağı salırdı. XX əsrdə ölkədə mövcud

MUHASIBAT.AZ

qaydanı dəyişdirməyə 4 dəfə cəhd göstərilmişdir. Bununla yanaşı XIX əsr ənənələri XX əsrdə də davam etdirildi. XX əsrdə iqtisadiyyatın yenidənqurulmasının əsas yekunu tədricən yeni iqtisadi qaydalara keçilməsi onun sosial yönümlü bazar iqtisadiyyatına istiqamətlənməsi oldu.

XIX əsrin sonunda Rusiyanın vəziyyəti ilə bağlı dahi hüquqşünaslarından biri olan P.E. Kazanskinin 1897-ci ildə söylədiyi fikirlər bu gün də çox aktualdır. P.E.Kazanski yazırdı «bu gün ictimai münasibətlərdə qeyri-adi çevrilişlər baş verirdi. Həyatın bütün hissələrində, qatlarında yenidənqurma müşahidə olunur, lakin bu hadisələrin bizi hara apardığını tam aydın fərqləndirə bilmirik… Biz hər yanda maraq və hisslərlə qarmaqarışıq mübarizə, ağlın və əlin qaynar işini görürük, gələcək isə bizə çox qaranlıq təqdim olunur. Biz onu daha çox hiss edirik, nəinki onu başa düşürük…» (Kazanski P.E.1897 s  I s.6).

**XX əsrdə Qərbi Avropada həyata keçirilən iqtisadi islahatlar**. XX əsrdə istər Almaniya, istərsə də Rusiyanın milli iqtisadiyyatının dalğavari islahatlaşması hiss olunurdu. İqtisadi qaydaların dəyişmə meyli aydın müşahidə olunur. 1918-1960-cı illərdə Almaniyada iqtisadi qayda üç dəfə dəyişmişdir; Veymar respublikasının bazar iqtisadiyyatı mərkəzləşdirilmiş idarəetməyə əsaslanan faşist diktaturası L. Ehardın islahatları sayəsində isə rəqabət qaydası dəyişdirilərək sosial yönümlü bazar iqtisadiyyatı ilə əvəz olundu. XX əsrin sonunda ölkənin iqtisadi fəaliyyətdə əldə etdiyi yüksək nəticələr göstərir ki, həmin dövrdə Almaniyanın mövcud sosial-iqtisadi və tarixi şəraitində yeni keynsçiliyə əsaslanan rəqabət qaydaları paradiqmasının reallaşdırılmasının daha münasib olduğu bir daha sübuta yetir.

XX əsrdə Almaniya və Rusiyadan fərqli olaraq Böyük Britaniyada milli iqtisadiyyatın islahatlaşması iqtisadi qaydaların dəyişməsinə gətirib çıxartmadı. Bununla yanaşı bu ölkədə də sərbəst

MUHASIBAT.AZ

islahatlar və əks islahatlar müşahidə olunurdu. Burada dalğavari dəyişikliklər hər şeydən əvvəl hakimiyyətdə leyboristlərin və konservatorların təmsil olunmasından irəli gəlirdi. Bu partiyaların iqtisadi siyasətinin xarakterində olan əsas xüsusiyyət iqtisadi fəaliyyətin tənzimlənməsində dövlətin rolunun fərqli başa düşmələri ilə bağlıdır. Lakin bu fərq ölkənin sosial quruluşunun əsaslı dəyişməsinə gətirib çıxartmırdı. Bu islahatlar içərisində iqtisadi fəaliyyətin tənzimlənməsində dövlətin güclü rolunu nəzərdə tutan, milli iqtisadiyyatın liberal modelinə əsaslanan və daha əsaslı və nəticələri olan M.Fetçer islahatları oldu. İslahatlaşmanın belə modeli «qarışıq iqtisadiyyat» ideyasını qəbul edən, laisser-faire ideologiyasını inkar edən ingilis sosial doktrinasının tələblərinə cavab verirdi.

İslahatların dalğavari xarakterinə baxmayaraq Fransanın hakim elitasının siyasi istiqamətinin dəyişməsi, bu ölkənin milli iqtisadiyyatının islahatlaşmasının fərqləndirici xüsusiyyətlərini təşkil edir. Dövlətin iqtisadiyyata müdaxiləsi bu ölkədə XX yüzillikdə Qərbi Avropanın digər ölkələrindən daha güclüdür (industrial imperativ və diriçizm). Bu meyl daha çox sol təmayüllü hökumətlər üçün xarakterikdir. Bunlarla yanaşı konservativ təmayüllü hökumətlər də belə hesab edirlər ki, ölkənin iqtisadi potensialının xeyli hissəsini öz əlində saxlamalıdır və yaxud da güclü dövlət tənzimlənməsinin təsiri altında olmalıdır.

Beləliklə, inkişaf etmiş Qərbi Avropa ölkələrində milli iqtisadiyyatın islahatlaşması nəticələrinin təhlilini yekunlaşdıraraq qeyd edə bilər ki, XX əsrdə islahatçılar qarşısında duran və həlli tələb olunan başlıca problem iqtisadi fəaliyyətin tənzimlənməsində dövlətin rolunu müəyyənləşdirməkdən ibarət olmuşdur. Ayrı-ayrı modellərdə (monetarizm, keynsçilik və s.) islahatlaşma metodlarının «təmiz» formada tətbiqi hər bir ölkədə katoliklərin və protenstantlığın 4 əsrlik tarixində formalaşmış milli mentalitetin xüsusiyyətlərilə uyğun «əlavə» tədbirlərlə tamamlanmışdır. Əgər

MUHASIBAT.AZ

katolilikdə «müxtəlif şəxsiyyətlər arasında ümumi vəhdəti» təbliğ edildisə, protestantlıq inam təlimi fərdiyyətçiliyi, şəxsi ləyaqət hissinə pərəstiş edirdi. Kalvinizmin ideologiyasına uyğun olaraq insanın öz nailiyyətləri ilə sübut edə bilər ki, o «allahın seçilənidir». Müxtəlif xristian təlimləri arasında gedən daimi mübarizə öz təsirini Qərbi Avropa ölkələrinin mentalitetində göstərmişdir. Bütün bunların təsiri altında milli iqtisadiyyatların modeli formalaşır. XX əsrdə bütün qərb ölkələrinin milli iqtisadiyyatlarının islahatlaşmasında müşahidə olunan ümumi cəhət iqtisadiyyata liberalizm və sərt dövlət tənzimlənməsinin vəhdət halında tətbiqidir. Belə bir yanaşma fransız «diriçizmi», «alman sosial yönümlü bazar iqtisadiyyatı» və ingilis «Tetçerizmi» üçün də xarakterikdir.

**XX əsrdə ABŞ-da keçirilən iqtisadi islahatlar**, XX əsrdə ABŞ-da milli iqtisadiyyatının islahatlaşmasının yekunlarını təhlil edərkən qeyd etmək lazımdır ki, XX əsrin birinci və sonuncu ¼-də həyata keçirilən oxşar məqsədi qarşıya qoyan iki islahat diqqəti daha çox cəlb edir: ölkənin böhrandan çıxarılması iki müxtəlif nəzəri modelə əsaslanırdı; keynsçi və konservativ (təklif nəzəriyyəsi). Görünür bunun əsas səbəbi birinci və ikinci islahatların başlanğıc anında ölkədə yaranmış şəraitin əhəmiyyətli dərəcədə fərqli olmasından irəli gəlmişdir. Milli iqtisadiyyatın aşağı düşmə dərinliyinə görə 20-30-cu illərin böhranı fərqlənirlər. Əgər 70-80-ci illərdə baş verənlər böhran adlandırıla bilərsə, onda Böyük durğunluq illəri milli iqtisadiyyatın fəlakəti kimi qiymətləndirilə bilər. Ona görə də ondan ancaq iqtisadi fəaliyyətə dövlətin sərt müdaxiləsi yolu ilə çıxmaq olar.

**XX əsrdə Asiya ölkələrində iqtisadi islahatlar**. Dövlətin iqtisadi fəaliyyətə əhəmiyyətli müdaxiləsi Yaponiyada iqtisadi islahatların mühüm xüsusiyyətidir. Əgər Birinci dünya müharibəsi ərəfəsində və ondan sonra bu müdaxilə əsasən hərbi-sənaye kompleksinin stimullaşdırılmasına, ölkənin hərbiləşdirilməsinin güclənməsinə yönəldilmişdirsə, İkinci dünya müharibəsi ərəfəsində və ondan

MUHASIBAT.AZ

sonra dövlət müdaxiləsinin məqsədi nəinki milli iqtisadiyyatı səfərbərlik rejimindən çıxarmaq və həm də iqtisadi inkişafa yüksək dinamiklik verməkdən ibarət oldu. XX əsrin sonunda Yaponiyada ölkənin hakim elitası tərəfindən formalaşdırılan, ictimai dəstək alan və ölkədə ümumi rifah cəmiyyəti qurmaq iqtisadiyyatın islahatlaşdırılmasının başlıca məqsədinə çevrilir.

Ölkədə həyata keçirilən islahatların uğurluğunun mühüm ilkin şərti cəmiyyət tərəfindən islahatlaşmanın məqsəd və vasitələrinin reallaşdırılması və qəbul edilməsini təmin edən Yapon mentaliteti hesab edilir. Yaponiyada geniş yayılmış QEEN buddist ideologiyası «ani müdriklik» həqiqətinin dərk edilməsinin strateji prinsiplərinə əsaslanır.

Ümumi «böyük iş» ətrafında aktual problemin həllinə ailənin ruhunun birləşdirilməsi «ani müdrikliyin» mənbəyi təşkil edir.

Bu dəyişikliklərin həyata keçirilməsi Yaponiyanın milli iqtisadiyyatına əhəmiyyətli nailiyyətlər əldə etməyə imkan verdi.

XX əsrin ortalarında və onun son qərinəsində keyns modeli üstün rol oynamışdır. Onun əsasında yeni iqtisadi qaydalara sosial yönümlü bazar iqtisadiyyatına keçid həyata keçirildi. Məhz dövlətin güclü tənzimləyici rolunu nəzərdə tutan bu model yapon mentalitetinə daha uyğun gəlirdi.

Çin, Cənubi Koreya və Vyetnamda milli iqtisadiyyatların islahatlaşmasının yekununa nəzər salsaq onda qeyd etməliyik ki, bu ölkələrdə həyata keçirilən özünəməxsus islahatlarda məqsəd iqtisadiyyatın mərkəzləşdirilmiş idarəetmə sistemindən iqtisadi fəaliyyətin tənzimlənməsində dövlətin mühüm rol oynadığı qarışıq (çoxukladlı) iqtisadiyyata, başqa sözlə, yeni iqtisadi qaydalara keçməkdən ibarət olmuşdur.

MUHASIBAT.AZ

İslahatlara yanaşmada başlıca fərq əsasən islahatlara başlanğıc ərəfəsində iqtisadi, dövlət və ictimai qaydaların, habelə milli iqtisadiyyatların inkişaf səviyyəsində olan xüsusiyyətlərlə şərtlənirdi.

Digər qitələrin ölkələrində olduğu kimi Cənubi-Şərqi-Asiya ölkələrində də islahatlar modelinin seçilməsinə həmin ölkələrin mentaliteti güclü təsir göstərmişdir.

Rusiyada, habelə daha inkişaf etmiş Amerika, Avropa və Asiya ölkələrində iqtisadi islahatların tarixi aspektlərinin tədqiqini ümumiləşdirərək aşağıdakı suallara cavab tapmağa cəhd edək:

1. Müxtəlif ölkələrdə, milli iqtisadiyyatlarda həyata keçirilən bütün əsas islahatlar arasında ümumi cəhət nədən ibarətdir?
2. Həyata keçirilən islahatlarda fərq nədən ibarətdir və bu fərqlər nə ilə şərtlənir?

Birinci suala cavab verərkən onu qeyd etmək olar ki, bu islahatlar nə vaxt keçirilirsə keçirilsin adətən onların təşəbbüskarı dövlət hakimiyyətinin birinci şəxsləri olmuşdur. Bu o deməkdir ki, XVII, XVIII, XIX habelə XX əsrlərdə «yuxarıdan» keçirilmişdir. İslahatlar həmişə bir qayda olaraq əhalinin aşağı və orta təbəqəsinə baha başa gəlmişdir. Rusiyada və eləcə də daha inkişaf etmiş ölkələrdə islahatların başlıca məqsədi dünya sistemində bu və ya digər ölkənin mövqeyini və onun iqtisadi gücünün möhkəmləndirilməsini təmin etməkdən ibarət olmuşdur.

XIX əsrin sonu və bütünlükdə XX əsr boyu əksər ölkələr dünya səhnəsində öz mövqeyini gücləndirməklə yanaşı islahatların məqsədlər sistemində sosial məqsədləri ön plana çıxartdılar. İslahatların həyata keçirilmə vasitələrinin fərqinə baxmayaraq bütün hallarda ümumi cəhət maliyyə sabitləşdirilməsi, dövlət büdcəsinin profisiti, iqtisadi artımın stimullaşdırılması, məşğulluğun səviyyəsinin yüksəldilməsi, vacib əhali təbəqəsinin sosial müdafiəsinin təmin edilməsi cəhdi olmuşdur. Bu zaman pul-

MUHASIBAT.AZ

vergi islahatları, pul-kredit və gömrük siyasətinin islahatları daha əhəmiyyətli hesab olunur. Əksər ölkələr üçün əsas problem iqtisadi fəaliyyətdə dövlətin iştirakı dərəcəsinin müəyyənləşdirilməsi aktual problem olaraq qalır. Bu problem eyni zamanda XX əsrin ikinci yarısında ABŞ-da, Böyük Britaniyada, Fransada, habelə Yaponiyada, Çində, Vyetnam, Latın Amerikası ölkələri üçün də aktual olaraq qalmışdır.

Rusiyada, Almaniyada və Çilidə yeni iqtisadi qaydalara keçid ölkədə sosial gərginliyin artmasına səbəb oldu ki, bu da ciddi münaqişələrə gətirib çıxartdı. Bu ölkələr üçün ən vacib problem iqtisadi qaydaların və iqtisadi dəyişikliklərin modeli və sürətinin müəyyənləşdirilməsi məsələsidir. Belə ki, ölkələr (Polşadakı kimi şok terapiyası və yaxud da Macarıstandakı kimi «qradualist siyasət) fərqli yollar seçdilər.

Bir çox ölkələr üçün o cümlədən Rusiya, Fransa, Almaniya və Latın Amerikası ölkələri üçün iqtisadiyyatda dəyişikliklər prosesinin xarakterik cəhəti siyasi hakimiyyətin dəyişməsinə uyğun olaraq islahat və əks islahatların bir-birini əvəz etməsi olmuşdur.

İkinci suala cavabı aşağıdakı kimi formalaşdırmaq olar. İslahatların fərqli cəhətləri özünü hər şeydən əvvəl onların müxtəlif nəzəri konsepsiyalara əsaslanmasıdır. Bu və ya digər islahatlar modelinin tətbiqi əhəmiyyətli dərəcədə; hakim elitanın siyasi inancları; islahatlar ərəfəsi dövlət və ictimai qaydalarla; milli iqtisadiyyatın vəziyyəti ilə; dünya iqtisadi sistemində ölkənin geopolitik vəziyyəti; dominant və qrup ölkələrdən onun asılılıq dərəcəsi ilə müəyyənləşir. Ölkənin geopolitik vəziyyəti (tellupokratik və ya talossokratik) əhalinin müxtəlif sivilizasiyalarını formalaşdırır ki,bu da son nəticədə ölkədə həyata keçirilən islahatların bu və ya digər islahat modelinin konseptual əsaslarını müəyyənləşdirir. Belə modelin seçilməsinə əhalinin əsas kütləsinin milli mentaliteti cəmiyyətdə hökmran görüşü: həyat

MUHASIBAT.AZ

prinsipləri, milli ənənələr, dini inamlar və s. güclü təsir göstərir. M.Veberin fikrincə, məhz bunlar psixoloji stimulları formalaşdırır: «onlar bütün həyat qurumuna müəyyən istiqamət verməklə, fərdi ondan bərk yapışmağa məcbur etdi». Məhz buna görə də əksər ölkələrdə milli iqtisadiyyatları eyniləşdirilənlər islahatlar gedişində «insan amilini» - ölkənin əhalisinin mental xüsusiyyətlərini nəzərə alırlar. Dünya cəmiyyəti ölkələrində milli iqtisadiyyatların təkamülü tarixinə qısa ekskursu yekunlaşdıraraq milli iqtisadiyyatın iki məşhur islahatçılarının fikirlərini qeyd etmək istərdik.

1974-1980-ci illərdə Böyük Britaniyanın baş naziri olmuş Bendçamin Dilreelli, lord Bikonofild hesab edirdi ki, mütərəqqi ölkədə dəyişikliklər tədricən baş verir, məsəl onda deyildir ki, onlar dəyişikliklərlə müşahidə olunur. Əsas məsələ ondan ibarətdir ki, onlar xalqın adətlərinə, əxlaqına, ənənələrinə və qanunlara lazımi hörmətlə və yaxud da mücərrəd prinsiplərə, ümumi doktrinaya uyğun və ya özbaşınalıqla həyata keçirilir.

Rusiya reallıqlarını yaxşı bilən 1892-1903-cü illərdə Rusiya imperiyasının maliyyə naziri olmuş S.Y.Bitte başqa cür düşünürdü. O deyirdi «Rusiyada islahatları tez və sürətlə həyata keçirmək lazımdır. Əks təqdirdə onların çox hissəsini reallaşdırmaq mümkün olmur, ləngidilir».

Bu deyilənlər xüsusən Rusiya kimi ölkələrdə milli iqtisadiyyatın inkişafının üstün istiqamətlərinin seçilməsi ilə bağlı problemlərin mürəkkəbliyini və ziddiyyətini ən yaxşı formada əks etdirir. Ölkədə milli iqtisadiyyatın formalaşması və islahatlaşmasının tarixi meyllərinin nəzərə alınması, XXI əsrdə ölkədə həyata keçirilən iqtisadi, sosial və ideoloji dəyişikliklərin uğurluluğunun dönməz şərtidir.

MUHASIBAT.AZ

# Fəsil 1

# İQTİSADİ FƏALİYYƏT

MUHASIBAT.AZ

## 1.1. İqtisadi fəaliyyətin mahiyyəti, məqsədi və obyektləri

Bəşəriyyətin fəaliyyəti, maddi nemətlərin azlığı ilə əlaqədar mübarizə apardığı halda iqtisadi xarakter alır. Dahi ingilis iqtisadçısı Alfred Marşal (1842-1924) maddi nemətləri – faydalı maddi əşyaların və gələcəkdə onlardan faydalanmağın və ya onlardan gəlir əldə etməyin, onlar üzərində istifadə hüququnun məcmuu olduğunu göstərmişdir, bu şərhə əsasən maddi nemətlərə təbii «təbiətin hədiyyəsi»ni, sənaye və kənd təsərrüfatı məhsullarını, qiymətli kağızları, mülkiyyət hüququnu və s. aid etmək olar.

A.Marşala görə insanın sərvəti, onun ixtiyarında olan maddi nemətlərdən və maddi nemətlər əldə etmək üçün zəruri olan qeyri-maddi xüsusiyyətli nemətlərdən ibarətdir (məsələn, işgüzar və mütəxəssis əlaqələri).

Siyasi iqtisadın Avstriya məktəbinin banilərindən biri olan Karl Menqer (1840-1921) «Siyasi iqtisadın əsasları» kitabında bu və

MUHASIBAT.AZ

ya digər əşyanın nemət xüsusiyyəti alması üçün dörd şərti formalaşdırmışdır (K.Menqer 1992, səh. 39):

1. İnsanın tələbatı
2. Bu tələbatın ödənilməsi ilə əlaqədar əşyanın yararlığı xüsusiyyətinin səbəb əlaqəsi.
3. Səbəb əlaqəsini insanların dərk etməsi.
4. Əşyanın həqiqətən də bu tələbatın ödənilməsi üçün istifadə olunması imkanı.

Bu dörd şərt üst-üstə düşdüyü halda əşya nemət ola bilər. Şərtlərdən birinin olmaması halında əşya nemətə çevrilə bilməz.

Bu zaman həyat səviyyəsi üçün tələbatın ödənilməməsinin mütləq ümumi harmoniyasının saxlanılmasının zəruriliyi əhəmiyyətli rol oynayır. Çünki, hətta bir tələbatın tam ödənilməsi halında belə, ömür və həyat səviyyəsini qorumaq mümkün deyildir.

Lakin nəzərə almaq lazımdır ki, birincisi bütün maddi nemətlər pulsuz deyildir, ikincisi onların əldə edilməsi üçün digər nemətlər qurban verilməlidir, üçüncüsü hər bir nemətin əvəedicisi vardır. Buna görə də bu əvəzedicilərdən istifadə olunduqda əlavə xərclər və gəlirlər müqayisə olunmalıdır.

Qeyd etmək lazımdır ki, eyni zamanda insanların çoxsaylı tələbatı uyğun nemətlərlə ödənilməlidir. Eüni zamanda nəzərə almaq lazımdır ki, həmin nemətlərin istehsalı üçün özündə resurs olan maddi nemətdir. Buna görə də cəmiyyətin, insanların çoxtərəfli tələbatının ödənilməsi üçün maddi nemətlər yaratmağa cəhd etməsi iqtisadi fəaliyyətin mahiyyətində əka olunur.

A.Marşal yazmışdır ki, insanların tələbatı və arzuları çox müxtəlif növlüdür, lakin onların ödənilməsi məhduddur. Onlar adət etdikləri şeyləri daha çox kəmiyyətdə və keyfiyyətdə almaq arzusundadırlar. İnsan, yeni tələbatını ödəyə biləcək məhsulların seçilməsini istəyirlər (A.Marşal, 1993,I cild, səh. 148).

MUHASIBAT.AZ

Maddi nemətlərin nadirliyi şəraitində iqtisadi fəaliyyət, bu və ya digər ölkə onun subyektlərinin malik olduğu resursların qıtlığının nəzərə alınması ilə əlaqədar müxtəlif tələbatlarının ödənilməsində prioritetliyin seçilməsi problemini həll etməlidir. Bu zaman, alternativ məqsədlə müqayisə üçün nail olunmuş məqsədin nəyə başa gəldiyini müəyyənləşdirilməsinin və aktuallığının nəzərə alınması zəruridir.

Aktual tələbatın ödənilməsinə tələb olunan xərclərin (qurban) daima ölçülməsi və həmin tələbatın ödənilməsinə nail olunması nəticəsinin müqayisə olunması iqtisadi fəaliyyətin məqsədidir. Bu məqsəd iqtisadi effektivlik kateqoriyasında əks olunur. Rusiyanın böyük alimlərindən olan V.V.Novojilov yazmışdır ki, xərc və nəticənin ölçülməsi metodu, iqtisad elminin və təcrübəsinin başlıca problemidir. Xərc və nəticənin ölçülməsində səhv metodun tətbiqi, iqtisadi fəaliyyəti, artıq xərclə minimum nəticə alınmasına istiqamətləndirir. Daha sonra o yazır ki, xərclərin tərkibində bir sıra məhdud resurslardan istifadə nəzərə alınır: kapital qoyuluşu, əsas və dövriyyə fondları, təbii sərvətlər…….əsas məsələ həmin məhdud resurslardan daha səmərəli istifadə olunmasıdır (V.V.Novojilov, 1967).

Resursların məhdudluğu, nemətlərin azlığı ilə mübarizə probleminin meydana çıxmasına səbəb olur. Bu problemin həllinin çətinliyi iki vəziyyətlə mürəkkəbləşir; birincisi gələcəkdə bu nemətlərə tələbatın görünməsi zəruriliyi; ikincisi insan tələbatının inkişaf etməsi qabiliyyəti. K. Menqer bunu gələcəkdə nemətin zəruri kəmiyyəti ilə təminatında, ehtiyac edilməsi ilə əlaqədar olaraq «əvvəlcədən qayğı» adlandırmışdır (K.Menqer, 1992). Bunun üçün perspektiv tələbatın ödənilməsinə lazım olan kəmiyyət və bu məqsədin ödənilməsi imkanlarının aydınlaşdırılması zəruridir.

İnsan tələbatının inkişafı istiqamətinin perspektiv üçün müəyyən edilməsi xüsusilə mürəkkəbdir. Çünki insan bu və ya digər

MUHASIBAT.AZ

tələbatını formalaşdırarkən rəhbər tutduğu qeyri müəyyən motivlər çoxdur.

Alman iqtisadçısı German Henrik Qossen 1854-cü ildə «istehlak qanunu»nu formalaşdırmağa çalışmışdır:

1. Davamlılıq qanunu – müəyyən halda zər hansı tələbatın ödənilməsi fasiləsizdir, ilk əvvəl onun intensivliyi yüksəkdir, getdikcə aşağıya meyllənir, daha sonra sıfır səviyyəsinə enir.
2. Təkrarlanma qanunu – bu və ya digər tələbatın ödənilməsi nəticəsində hər hansı xoş hissiyyat təkrarlanırsa, bu zaman hiss olunan ləzzətin intensivlik səviyyəsi və davamlılığı, təkrarlanmaya nisbətən daha tez azalır.

Mahiyyətcə Qossen azalan faydalılıq prinsipini formalaşdırmışdır ki, sonra da bu Qossenin ikinci qanunu adlandırılmışdır. Yəni şəxs özü üçün faydalılığı o vaxt maksimumlaşdırır ki, pul resurslarını müxtəlif məhsullara xərclədiyi vahidlərdən bərabər bəhrələnmiş olsun.

Qossenin qanunundan belə nəticəyə gəlmək mümkündür ki, tələbatın inkişafında müəyyən hüdudlar obyektivliyə malikdir, lakin onun proqnozlaşdırılması çox mürəkkəbdir. Bu onunla bir daha mürəkkəbləşir ki, tələbat anlayışının özündə qanunauyğun və səbəb əlaqələri tam aşkarlanmamışdır.

Bu anlayış necə formalaşdırılır?

İnsanların tələbat kateqoriyasına aid olan, bu və ya digər tələbatı almaq meyarını əks etdirən anlayışlar fərqləndirilir:

- ehtiyac – nəyinsə daha çox çatışmazlığı, məsələn, ərzaq, paltar, mənzil və s. Bunlarsız ixtiyari milli birliklərin, sosial statusu və yaşayış yeri müəyyənləşdirilə bilməz;

- tələbat – ehtiyac, insana və onun sosial statusuna aid olan milli və ərazi birliyinin dəqiq əlamətlərini əks etdirən ehtiyac. Məsələn.

MUHASIBAT.AZ

Cənubi- Şərqi Asiyanın əhalisinin ərzaq məhsullarının mənşəyi və hazırlanması üsulları, Avropa kontingentinin regionlarında yaşayanların ənənəvi tələbatından fərqlənir;

-tələb – insanların alıcılıq qabiliyyəti ilə şərtlənir: az gəlirli əhali daha ucuz, yüksək gəlirlilər isə daha baha qiymətli məhsulları almağa meyllidirlər.

Bu və ya digər tələbat proqnozlaşdırılarkən, göstərilən kateqoriyaların üçünə də məxsus olan amillər nəzərə alınmAlıdır: insanların milli, ərazi və sosial xüsusiyyətləri və onların tədiyə qabiliyyətliliyi. Başqa sözlə, tələbat, ayrı-ayrı potensial alıcılar qrupu üzrə differensial qaydada proqnozlaşdırılmalıdır. Bu zaman belə qrupların sayı çox ola bilər. Buna görə də morfoloji təhlil aparılmalı və onun əsasında tipləşdirilmiş qrup müəyyən edilərək maddi nemətlərə potensial tələbat tədqiq edilməlidir. Morfoloji matrisa, tələbatı bir sıra hissələrdə təsnifləşdirilir. Belə təsnifləşdirmə əsasında təsnifləşdirilmiş bölməyə aid olan müəyyən tələbatın xüsusiyyətin, prioritet tələbatın real ödənilməsi səviyyəsini müəyyənləşdirmək olar. Məsələn, bölgü əsasında, potensial tələbatın üstünlüyünü tapmaq olar (cədvəl 1.1.).

MUHASIBAT.AZ

Cədvəl 1.1. Fərdi tələbatın morfoloji xəritəsi

<table>
<tr><th>s/n</th><th>Əlamətlərin təsnifatı</th><th colspan="9">Əlamətlərin tərkibi</th></tr>
<tr><td>1</td><td>Tələbat ierarxiyası üzrə</td><td>Fizioloji</td><td colspan="2">Təhlükə sizlik</td><td colspan="2">Sağlam</td><td colspan="2">Məişət</td><td colspan="2">Mənəvi</td></tr>
<tr><td>2</td><td>Ödəmə dərəcəsi üzrə</td><td colspan="3">Tam ödənilmişdir</td><td colspan="3">Tam ödənilməmişdir</td><td colspan="3">Ödənilməmişdir</td></tr>
<tr><td rowspan="2">3.</td><td rowspan="2">Kütləvi yayılması üzrə</td><td colspan="2" rowspan="2">Ümumi</td><td rowspan="2">Regio nal</td><td rowspan="2">Ölkə sərhəddində</td><td rowspan="2">Ümumi</td><td rowspan="2">Milli birlikdə</td><td colspan="3">Sosial qrup daxilində</td></tr>
<tr><td>Bütünlükdə</td><td>Təhsil səviyyəsinə görə</td><td>Gəliri üzrə</td></tr>
<tr><td>4.</td><td>İstehlakın vaxt parametrləri üzrə</td><td colspan="3">Fərdi ödənilmə</td><td colspan="2">Diskret ödənilmə</td><td colspan="2">Dövrü ödənilmə</td><td colspan="2">Fasiləsiz ödənilmə</td></tr>
<tr><td>5.</td><td>Müxtəlif həyat səviyyəsinə nüfuz etmə genişliyi</td><td colspan="4">Bir sferalı</td><td colspan="2">Yuxarı sfera</td><td colspan="3">Çoxtərəfli sfera</td></tr>
<tr><td>6.</td><td>Yaranma təbiəti üzrə</td><td colspan="4">Əsas</td><td colspan="2">Bir başa</td><td colspan="3">Dolayı sənayeləşdirilmiş</td></tr>
</table>

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | sənayeləşdirilmiş | | |
| 7. | Tarixi xüsusiyyəti üzrə | Keçmiş (qalıq) | Cari (həqiqi) | Perspektiv (gələcək) | Uzun müddətə | |
| 8 | Tələbatın ödənilməsinin kompleksliyi üzrə | Bir məhsulla | Məhsul kompleksi üzrə | xidmətlər | Əmtəə və xidmətlər | |
| 9. | İctimai təfəkkürə nüfuz etmə dərinliyi üzrə | Dərk edilməmiş düşüncə | Tək-tək dərk olunmuşhissələrlə dərk edilmə | Hissələrlə dərk edilmə | Əhalinin bir qrupu tərəfindən dərk olunmuşdur | Bütün sosial qruplar dərk etmişdir |
| 10. | Təkrarlanmış iqtisadi dəyərə görə | Mənfi | Neytral | Müsbət | | |

Bu cədvəldən istifadə edərək, təhlükəsizliyi təmin edən potensial tələbatın xüsusiyyətini aydınlaşdırmaq olar:

- hazırki dövrdə tələbat tam ödənilməlidir;

- daxildə müəyyən sosial qruplar yaranır;

- həyati sferanın çoxlu sahələrinə xarakterikdir;

- əhəmiyyətlilik dərəcəsinə görə tələbat da əsasdır;

- xüsusilə, cari dövrdə aktualdır;

- uyğun əmtəə və xidmətlərin köməkliyi ilə ödəmək mümkündür;

- müəyyən sosial qrupların əhəmiyyətli hissəsi dərk etmişdir, başa düşmüşdür;

- qeyri-şərtsiz sosial müsbətdir.

Perspektiv dövrdə həyata keçirilə bilən tələbatın morfoloji təhlili əsasında, iqtisadi fəaliyyət profilini seçmək, bazara çıxarılan məhsulun uyğunluğunu müəyyən etmək mümkündür. Tələbatın dinamikasının təhlili bu dinamikaya təsir edən daxili və xarici amillər iqtisadi subyektə, tələbatın dəyişməsinə yanaşılması strategiyasını hazırlamağa imkan verir.

Maddi nemətlərə tələbat, ayrı-ayrı individlərin və habelə iqtisadi subyektlərin tələbatı kimi büruzə çıxır. Bu zaman fəaliyyət, fərdi tələbatın ödənilməsi vasitələrinin istehsalı ilə əlaqələndirilir. Buna görə də qıt olan, çatışmayan iki nemət növü üzrə iqtisadi «mübarizə» aparılır: birinci dərəcəli nemət (istehlak məhsulları) və yüksək dərəcəli nemət (istehsal vasitələri). Yüksək dərəcəli nemət, birinci dərəcəli nemətin istehsalına xidmət edir.

MUHASIBAT.AZ

Bu nemətlərin istehsalı və istehlakı, iqtisadi fəaliyyətin obyektidir.

MUHASIBAT.AZ

# 1.2. İqtisadi fəaliyyətin subyektləri

İqtisadi fəaliyyət – hər şeydən əvvəl ayrı-ayrı individlərin, sosial qrupların, ölkə xalqlarının, bəşəriyyətin bütünlükdə fəaliyyətidir. Bu, müəyyən iqtisadi subyektlərin fəaliyyəti kimi həyata keçirilir. İqtisadi subyekt aktivdir: bilərəkdən (qabaqcadan, düşünülmüş) fəaliyyət göstərir; tərtib etdiyi planın yerinə yetirilməsi məqsədilə qərarlar qəbul edir; öz fəaliyyətinin nəticəsi üçün hüquqi və iqtisadi məsuliyyət daşıyır.

İqtisadi subyekt heç də həmişə fiziki şəxs olmur: bir tərəfdən maddi nemətlərdən istifadəyə sərəncam vermək hüququ olmayan fiziki şəxs mövcuddur; digər tərəfdən sərəncam verici hüquqa malik olan və fəaliyyəti fiziki şəxslər vasitəsilə həyata keçirən hüquqi şəxs mövcuddur (məsələn, menecerlər);

İqtisadi subyekt kimi qrupda çıxış edə bilər.

Qüvvəli (qüdrətli) və mütəşəkkil (həmrəy) qrupların yaradılması təmayülü, iqtisadi, texniki, psixoloji amillərin mənbəyindədir.

Birlik-cəmiyyət, bazar fəaliyyəti ilə vadar edilmiş (zorla qəbul etdirilmiş) qərarlara qarşı mübarizə göstərmək üsulu kimi çıxış edirlər. Birlik, cəmiyyət-prosesə xidmət edən köməkçi və işçi maşınların istifadəsinə əsaslanan mürəkkəb texnologiyanın mənimsənilməsi üsuludur.

Birlik, cəmiyyət – ayrı-ayrı adamların, onun ümumi işə mənsubluğunu hiss etməyə imkan verən qruplara cəlb olunması üsuludur.

MUHASIBAT.AZ

Bəzən qrupa (birlik, cəmiyyət), ölkənin institusioanl sistemi çərçivəsində iqtisadi münasibətlərə təsir edən, hətta sistemin dəyişilməsinə səy göstərən (çalışan) «siyasi-iqtisadi güc bloku»na çevrililər.

Hakimiyyətin qanunverici və ixracedici qanadlarında lobbist qruplar meydana gəlir ki, bu siyasi-iqtisadi güc blokunun arzularının həyata keçirilməsində maraqlı olurlar.

İqtisadi subyektlər iki qrupa bölünə bilərlər:

1. Sadə iqtisadi vahid və ya mikrosubyekt (istehsal və istehlak sferasında sahə vahid, ailə təsərrüfatı, firma);
2. Kompleks iqtisadi vahid və ya makrosubyekt (milli, trpansmilli konsernlər, inteqrallaşdırılmış biznes-qruplar).

Qrupların inkişafı ilə paralel iqtisadi həyatda aşağıdakı fəaliyyətləri həyata keçirən dövlət ön plana çəkilir:

1. İnstitusional mühiti formalaşdırmaqla iqtisadi «oyun qaydaları»nı müəyyənləşdirir; müxtəlif sahələrdə iqtisadi subyektlərin fəaliyyətini reqlamentləşdirən uyğun hüquqi-normativ aktları müəyyən edir, qərarlar verir;
2. Vergiyə cəlb etmə və dövlət xərcləri, pul emissiyası və kreditlərin bölüşdürülməsi və s. qərarlar vasitəsilə iqtisadi aktivlik səviyyəsinə köməkçi təsir göstərir;
3. Kapital qoyuluşunu qismən maliyyələşdirir və xətləndirir;
4. İstehsalın dövlət bölməsini yaradır (dövlət müəssisələri);
5. Əhalinin həyat keyfiyyətinin və milli təhlükəsizliyin yüksək səviyyəsinin təmin olunması üçün zəruri olan maddi nemətləri daxili və xarici iqtisadi subyektlərdən dövlət sifarişləri vasitəsilə alır;
6. Valyuta məzənnəsinin dəyişməsinə birbaşa və dolayı yollarla nəzarət edir;
7. Milli gəlirin yenidən bölgüsünü təmin edir (büdcə siyasəti vasitəsilə);

Beləliklə, dövlət fərdi iqtisadi subyekt və qruplara qarşılıqlı fəaliyyət göstərən aktiv iqtisadi agent kimi çıxış etmiş olur.

MUHASIBAT.AZ

Bu zaman o, iqtisadi fəaliyyətdə əhəmiyyətli yer tutur. Məsələn, ABŞ-nın Milli kapitalında dövlət aktivinin xüsusi çəkisi 1900-cu ildə 7%-dən 1950-ci ildə 20%-ə, həmin dövrdə ölkənin müdafiə sistemində çalışanların sayı isə 14 dəfə artmışdır.

Müxtəlif iqtisadi vahidlər (sad və mürəkkəb) bir-birilə uzlaşmayan niyyət-planları tərtib edə bilərlər. Hətta onlar qarşı-qarşıya duran qərarlarda qəbul edə bilərlər.

Elə buna görə də dövlətin iqtisadiyyatda tənzimedici rolu, Milli iqtisadiyyatın məqsədinə uyğun olaraq ayrı-ayrı iqtisadi subyektlərin qərarlar qəbul etməsinə imkan yaratmaq və onları uyğunlaşdırmaqdan ibarətdir.

## 1.3. İqtisadi fəaliyyət növləri və iqtisadi subyektlərin ixtisaslaşması

İqtisadi fəaliyyət çox rəngarəngdir. Bu rəngarənglik, fəaliyyət növlərinin özünəməxsus müxtəlifliyində əks olunur. Onların hər birini pillələrlə təsnifləşdirmək olar ki, hər biri də uyğun hissələrə bölünməklə müəyyənləşdirilir:

1. İqtisadi subyektin yerinə yetirdiyi funksiyaların birliyini əks etdirən fəaliyyət sferası (maddi nemətlər istehsalı, bu nemətlərin mübadiləsi hüququ, istehsal amilləri və nemətlərin mübadiləsini həyata keçirən infrastruktura və s.).
2. Bu və ya digər fəaliyyət sferasında iqtisadi subyektin yerinə yetirdiyi funksiyaların konkretliyini əks etdirən fəaliyyət sahəsi (iqtisadi vahidin kompleks və ya bazar mövqeyinin vəziyyətinin təhlili və xarici əlaqələrin həyata keçirilməsi. Bu vahidlərin iqtisadi strategiyasının formalaşması və məqsədyönlüyü, strateji və taktiki məqsədlərə nail

MUHASIBAT.AZ

olunmaq vasitələrinin yaradılması, strateji məqsədə nail olunmaqla əlaqədar fəaliyyətə nəzarət, proqnozlaşdırılması və planlaşdırılması və s.);

3. Bu və ya digər fəaliyyət sahəsində iqtisadi subyektin funksiyasının detallaşdırılmasının əks olunması (inflyasiya təminatı, maddi-texniki təminat. Kadr təminatı, maliyyə təminatı, uçot və hesabatın aparılması, iqtisadi fəaliyyəti tənzimləyən dövlət orqanlarının qarşılıqlı əlaqəsi, bütün fəaliyyət növlərinin xətləndirilməsi və s.).

Təbiidir ki, göstərilən fəaliyyət növləri, daha xırdalanmış və detallaşdırılmış əməliyyatlara bölünə bilər. Lakin bu əməliyyatlar tədris planının müxtəlif kurslarında öyrənilir, menecment, markeinq, mühasibat uçotu və s.

Müxtəlif iqtisadi fəaliyyət növlərinin həyata keçirilməsi, müxtəlif resursların mövcudluğunu tələb edir ki, bunları da aşağıdakı qruplara bölmək olar:

- texniki – istehsal vasitələri və əmək vasitələri;

- texnoloji-əmək cisimlərinin son, hazır məhsula çevrilməsi metodlarında əks olunan tətbiqi elmi tədqiqatların nəticələri;

- informasiyalı-iqtisadi vahidin daxili və qeyri iqtisadi vəziyyətini təhlil etməyə, strategiyasının formalaşmasına və taktiki həllinə imkan verən informasiya obyektləri; iqtisadi fəaliyyəti reqlamentləşdirən daxili və xarici normativ aktlar; idarəetmə qərarlarının hazırlanmasına imkan verən, istehsal və mübadilə prosesinin proqram təminatı və s.

- kadr-istehsal və mübadilə prosesini idarə edən, iqtisadi vahidin daxili və xarici əlaqələrini həyata keçirən, onun inkişafının strateji və taktiki məqsədini və bu məqsədə nail olunması vasitələrini hazırlayan müxtəlif ixtisaslı işçilərin məcmuu;

MUHASIBAT.AZ

- məkan-iqtisadi vahidin ixtiyarında olan istehsal və qeyri-istehsal təyinatlı bina və qurğular, kommunikasiyalar, meşə sahələri, torpaq, su və s. obyektlər;

- maliyyə-xüsusi və borc vəsaitləri, qiymətli kağızlar formasındakı aktivlər və s.

Belə resursların xüsusiliyi, bu və ya digər iqtisadi fəaliyyət növü ilə şərtlənərək iqtisadi vahidin ixtisaslaşma dərəcəsində əks olunur. Bu vahidlər, fərdi xüsusiyyətləri özündə əks etdirən, qarşılıqlı əlaqədə olan kiçik bölmələri əhatə edən müxtəlif ölçülərdə ola bilərlər. Belə fərqli xüsusiyyətə – istehsal (istehlakın) miqyası, istehsal (istehlak) obyektinin funksional hazır olması, bu bölmələrin ümumi sistemdə istehsal (mübadilə), əmtəə və xidmətlərdəki rolu.

Bütün bu xassələr son nəticədə bu və ya digər iqtisadi vahidin kompleks və sadə profilini formalaşdırır.

İqtisadi vahidin profili, ictimai əmək bölgüsündə ona ayrılmış rolu səciyyələndirən əsas normativlərin məcmuu kimi şərh edilir. Bir halda ki, bu və ya başqa formada təyin edilmiş rol xüsusi növ resursların mövcudluğu və sərfi ilə əlaqədardır, bu zaman belə qərarlaşmış olar ki, iqtisadi vahidin profili, ictimai tələbatın müəyyən keyfiyyətdə təmin olunmasının ödənilməsinə istiqamətlənmiş xüsusi resursların müəyyən qaydada təşkilinin məcmuunu əks etdirir.

İqtisadi fəaliyyətin ixtisaslaşması nəticəsində, iqtisadi vahidin profili bu fəaliyyətin konkret müəyyənliyi ilə məhdudlaşır. Bu istiqamət çox və az dərəcədə konkretləşdirilə bilər. İqtisadi vahidin çərçivəsində konkretləşmiş iqtisadi fəaliyyətin nəticəsi çox və az dərəcədə oxşar ola bilər. Buna görə də iqtisadi vahidin ixtisaslaşma dərəcəsi hər şeydən əvvəl iqtisadi vahidin profilinə uyğun olan, fəaliyyət növlərinin oxşarlığında ifadə olunur.

MUHASIBAT.AZ

Fəaliyyət növlərinin oxşarlığı dərəcəsini belə təsnifləşdirmək olar:

- cəhəd – oxşarlığa malik olan fəaliyyət növlərinin məcmuudur: təyinat və fəaliyyətlərin həyata keçirilməsində üstünlük təşkil edən xüsusiyyətlər və prosesin təşkili prinsipləri.

- sinif – oxşarlığa malik olan lakin bu növə (cəhətə) daxil olan iqtisadi fəaliyyət növlərinin məcmuudur: funksional təyinatlı, məhsul istehsalı, xüsusi resurslarda istifadə olunan parametrlərin və bu fəaliyyətin nəticələrinə nail olunması üçün zəruri olan proseslərin sxeminin qurulması.

- növ – oxşarlığa malik olan lakin bu sinifə daxil olan iqtisadi fəaliyyət yarımnövlərinin məcmuudur; məhsulun istehlak dəyərliliyi; bu fəaliyyət prosesində istifadə olunan konkret resursların parametrləri; bu fəaliyyət prosesinin nəticələrinə nail olunmasının konkret elementləri.

- müxtəliflik – oxşarlığa malik, lakin bu növə Aid olan iqtisadi fəaliyyətin bölmələrinin məcmuudur; fəaliyyətin nəticəsinin dəqiq yararlılıq göstəricisi; xüsusi növ resursların istifadəsinin kəmiyyət mütənasibliklərinin tərkibi; fəaliyyətin nəticəliyinə nail olunması prosesində kollektivin istifadə etdiyi əsas ysul, qayda və vərdişlər, səriştəlilik.

- tip-nəticəyə nail olunma prosesinin eyni parametrlərini və bütün elementlərini əks etdirən, bu və ya digər müxtəlifliyə malik olan dəqiq iqtisadi fəaliyyətdir. Belə təsnifləşdirmənin mövcudluğu, bu və ya digər iqtisadi vahidin çərçivəsində həyata keçirilən proseslərin ümumilik dərəcəsini əks etdirən ixtisaslaşma pilləsinin qrupunu ayırmağa imkan verir.

Nə qədər ki, sinif, cəhəd, növ və s. təsnifləşdirmələr iqtisadi fəaliyyətin vəzifəsinə çox uyğundur, bir o qədər də bu vahidlərin

MUHASIBAT.AZ

fəaliyyətinin tərkibinin ümumilik dərəcəsi və onun ixtisaslaşma pilləsinin effektli fəaliyyətinin əlverişliliyi azalmış olur. Başqa sözlə desək, əgər firmanın istehsal etdiyi məhsul müxtəlif siniflərə aiddirsə və siniflərin sayı çoxdursa, bu zaman həmin firmanın istehsalının ümumilik dərəcəsini ixtisaslaşma səviyyəsini qəbul etmək olmaz. Deməli, firma yalnız müəyyən məhsul sinifi üzrə ixtisaslaşmışdır. Əksinə, firma bir neçə tip məhsul istehsalına uyğunlaşdırılmışdırsa və ümumi məhsul kütləsində bir növün, tipin xüsusi çəkisi daha çoxdursa, müəssisə dar ixtisaslaşmış hesab edilir, onun ixtisaslaşma səviyyəsi yüksək sayılır.

Deməli, firma məhsul tipii üzrə ixtisaslaşmışdır. Belə firmada istehsalın əhəmiyyətli hissəsində xüsusi resurslardan istifadə olunmaqla istehsal xərclərinin azaldılmasına nail olunacaqdır. Lakin xarici mühitin sabit olmaması şəraitində iqtisadi vahidin dar ixtisaslaşması onun dəyişən iqtisadi fəaliyyətə uyğunlaşmasını çətinləşdirir. Belə müəssisə rəqabət qabiliyyətini itirə bilər. Bununla əlaqədar, bu və ya digər iqtisadi vahidin elastik profilinin müəyyən olunması problemi yaranır.

Texniki mövqedən elastiklik (tez əyilən, əyilkən, çevik, zirək) sistemin bu və ya digər vəziyyətinin çox əziyyət çəkmədən «asan»lıqla dəyişilməsini nəzərdə tutur.

Buna görə də firmanın bazar konyunkturasının dəyişilməsinə tez reaksiya (əksüləməl) göstərmək verməsi və nəyin bahasına olursa-olsun məqsədə nail olunması «elastik»lik kimi qəbul edilə bilməz. Elastiklik imkanı effektiv reallaşdırılması sistemidir. Burada elastiklik (asan uyuşan) iqtisadi effektli dəyişilmə, uyğunlaşma məharətini, bacarığını əks etdirməlidir.

Beləliklə, ixtisaslaşma pilləsi elastik sistemin bu və ya digər səviyyəsi üçün əsas yaratmış olur.

MUHASIBAT.AZ

İxtiyari sistemin «firma, müəssisə» fəaliyyəti, tərkibinə daxil olduğu halda yüksək dərəcəli sistemin xüsusiyyətindən asılıdır. Bu xüsusiyyət iqtisadi vahidin səmərəli elastikliyini irəlicədən müəyyən edir.

Əgər bazarın tələbatı dəyanətlidirsə və iqtisadi vahidin strateji potensialının dəyişdirilməsinə zərurət yoxdursa, iqtisadi vahidin yüksək olmayan elastiklik səviyyəsi daha üstün tutulur. Bu o deməkdir ki, müəssisə dar ixtisaslaşmada və öz fəaliyyətində «sərt» metod və vasitələri tətbiq edə bilər. Lakin, xarici şəraitin dəyişilməsi ilə əlaqədar sərt sistem tələbatının tez-tez dəyişilməsi ilə ziddiyyətə girə bilər. Bu zaman firma (və ya başqa sistem) tələbatın dəyişilməsinin təmin olunmasına imkan verən effektli dəyişilmə vasitələri ilə silahlanmışdır.

Təbiidir ki, belə tələbatın effektli təmin olunması üçün firmanın strateji potensialının dəyişdirilməsinin tez və az xərclə həyata keçirmək qeyri-mümkündür. Deməli, məhsuldarlığının yüksəldilməsi vasitəsi kimi iqtisadi vahidin ixtisaslaşması, iqtisadi vahidin profilinə elastiklik verməkdən daha düzgünü, həmin vahidin məhsuldarlığının və uyğunlaşmasının səmərəli vasitələrə malik olmasını müəyyən etməkdən ibarətdir. Bu halda iqtisadi vahidin məqsədinin dəyişilməsinin zəruriliyi daha doğrusu, elastikliyi xərclərin əhəmiyyətli dərəcədə artmaması ilə müşayiət oluna bilər. Buna görə də iqtisadi vahidin vəzifəsi və profili formalaşarkən, ixtisaslaşmanın səmərəli səviyyəsinin seçilməsinə əməl olunmalıdır ki, bunu da aşağıdakı qaydada izah etmək olar: bu və ya digər sadə, kompleks iqtisadi vahidin ixtisaslaşma səviyyəsi elə seçilməlidir ki, bazar təsiri nəticəsində konyunkturanın dəyişilməsi ilə iqtisadi vahidin fəaliyyəti və ümumiliyi bir-birinə uyğunlaşa bilsin. Bu o deməkdir ki, məqsədin dəyişilməsi sürəti, istifadə olunan xüsusi resursların məqsədlərinin dəyişməsi sürətindən yüksək olmalıdır. Başqa sözlə desək, iqtisadi vahidin istifadə etdiyi resurslar, fəaliyyət məqsədinin dəyişilməsinin

MUHASIBAT.AZ

zəruriliyi halında kifayət dərəcədə bir-birinə uyğun olmalıdır. Əksinə, əgər məqsədin dəyişilməsi öz arxasınca istifadə olunan resursların parametrlərinin əhəmiyyətli dəyişilməsinə səbəb olursa, elastiklik bazarda iqtisadi vahidin vəziyyətinin dəyanətliliyi tələblərinə cavab vermir.

Əmtəə və xidmət bazarının və istehsal amillərinin, həmçinin institusioanl mühitin əlverişli səviyyəsinin təhlili əsasında, iqtisadi vahidin formalaşdırmaq istədiyi ixtisaslaşmanın səmərəli pilləsi müəyyənləşdirilir. Bu zaman o, vahidin həyatı tsiklinin davamlılığı imkanını və öz fəaliyyətinin dəyişənə qədər, məşğul olmalı olduğu fəaliyyət növü yığımının vaxtında dəyişdirilməsi mümkünlüyünü proqnozlaşdırılmalıdır.

Nəhayət iqtisadi vahidin ixtisaslaşmasını müəyyən edən daha bir qlobal problem. Əvvəldə qeyd edildiyi kimi, fəaliyyət növü ayrı-ayrı əməliyyatlara qədər müxtəlif səviyyələrdə, dərəcədə detallaşa bilər. Bununla əlaqədar iqtisadi fəaliyyətin, bu və ya digər tələbatın ödənilməsi prosesində hazır məhsul və yaxud hissənin tamlığı üçün yarımfabrikat roluna görə obyektin başa çatmasının funksional səviyyəsi fərqləndirilir. Deməli, istehsal obyekti və hazır məhsul (bu və ya digər xidmətin həyata keçirilməsində son funksiya), ya da ki, bu məhsulun ayrı-ayrı hissələri (xidmətin göstərilməsi üçün aralıq funksiya), ya da ki, ayrı-ayrı yarımfabrikatlar (xidmətin göstərilməsinin ilkin əməliyyatı) formasında ola bilər.

İstehsal obyektinin belə diferensiallaşdırılması ilə əlaqədar olaraq, iqtisadi vahidin ixtisaslaşmasının müxtfli formaları fərqləndirilir:

- hazır məhsul üzrə – bu və ya digər xidmətin köməyilə həyata keçirilən son funksiya;

- hazır məhsulun hissələri üzrə bu və ya digər xidmətin göstərilməsi zərurətinə görə, aralıq funksiya;

MUHASIBAT.AZ

- məhsul istehsalının texnoloji prosesinin mərhələləri üzrə xidmət göstərilməsi prosesinin ilkin əməliyyatı.

İxtisaslaşma formalarının hər biri iqtisadi vahidin profilinin əsasında durur. Bu o deməkdir ki, yarımfabrikatları, onun hissələrini, hazır məhsul və yaxud istehsal edən sahə və mürəkkəb iqtisadi vahidlər yaradılır. Bununla yanaşı həmin firmaların ixtisaslaşması universal və kompleks vahidlər çərçivəsində birləşdirilə bilər. Məsələn, maşınqayırma zavodu, son məhsul istehsalı üçün zəruri olan sahələri özündə birləşdirə bilər: tədarük, emal və yığım.

Belə halda ola bilər ki, hazır məhsul üzrə iqtisadi vahidin ixtisaslaşması mahiyyətcə yığma, quraşdırma istehsalıdır, lakin hazır məhsul üçün kooperasiya vasitəsilə digər sahələrdən komplektləşdirici xammal, yarımfabrikat ola bilər. Bu halda müəssisə istehsal prosesinin bir mərhələsi yığıma və quraşdırma üzrə ixtisaslaşmış hesab edilir, lakin son nəticədə hazır məhsul buraxır. Çox hallarda əmtəə və xidmətlərin tam funksional hazırlıq səviyyəsi, Milli iqtisadiyyat həddində ixtisaslaşmanın müxtəlif növlərindən, onun sahələri və regionlarının inkişafından, habelə məhsula tələbat parametrlərindən, məhsulun istehsal miqyasından asılı olaraq müəyyənləşdirilir.

İstehsalın miqyasından danışarkən iqtisadi fəaliyyətin təmərküzləşməsi, yəni iqtisadi vahidin sadə və kompleks çərçivəsində də təmərküzləşmiş məhsulun həcmi probleminə diqqət yetirilməlidir. İqtisadi agent bu və ya digər müəssisəni yaradarkən, ali dərəcəli maddi nemətlər nomenklaturasına və kəmiyyətinə malik olmalıdır. Bunlar, bazara digər iqtisadi agentin tələbinə uyğun olan birinci dərəcəli məhsul çıxarmağa imkan verir. Bir sıra fəaliyyət növünün bu və ya digər müəssisədə təmərküzləşməsi, müəyyən resursların müəyyən həcmdə məhsul istehsalına yönəldilməsi deməkdir.

MUHASIBAT.AZ

Buradan da belə nəticə çıxır ki, müəssisə onun kapitalının təmərküzləşməsi səviyyəsi və ya istehsal olunmuş reallaşdırılmış məhsulun həcminə görə qiymətləndirilə bilər. Birinci halda söhbət müəssisənin ölçüsündən (aktivlərinin dəyəri), ikinci halda müəssisənin istehsalının ölçüsündən (məhsul dəyəri) gedir.

Kapitalın təmərküzləşməsi bir müəssisə səviyyəsində və yaxud bir neçə müəssisələrin qovuşması yolu ilə paket səhmlərinin alınması və ya başqa formada həyata keçirilə bilər. Kapitalın təmərküzləşməsi bir sıra göstəricilərlə qiymətləndirilə bilər. Məqsəd bu və ya digər iqtisadi agentin bazarı nə dərəcədə inhisarlaşdırılmasını müəyyən etməkdən ibarətdir. İqtisadi nəzəriyyə kursundan Xrişman- Xeffindal (H.H.İ), Lerner və s. indeksləri məlumdur. İstehsalın təmərküzləşməsi iki formada büruzə çıxa bilər: aqreqat və istehsal-texnoloji. Aqreqat təmərküzləşmə işçi maşın və avadanlıqların vahid gücünün yüksəldilməsidir (dəzgah, dəmir-basma avadanlığı, generator və s.). İstehsal-texnoloji təmərküzləşmə, işçi maşınların gücünün və sayının eyni vaxtda artırılmasıdır. Bu oxşar məhsul istehsalının, müəssisənin məhdud bölmələrində toplanmasında əsaslanır.

İstehsalın təmərküzləşməsi səviyyəsi, iqtisadi nəzəriyyə kursunda baxıldığı kimi minimal effektlə istehsal miqaysnının optimallığı ilə ölçülə bilər.

Beləliklə, iqtisadi fəaliyyət prosesi müxtəlif ktaeqoriyalı iqtisadi agentləri fərdi və ictimai tələbatının ödənilməsinə istiqamətlənmiş maddi nemətlər istehsalının təşkilində müəyyən növ iqtisadi fəaliyyət əsasında ixtisaslaşmış fiziki və hüquqi şəxslərin, onların birliklərini, plan və həllərin yerinə yetirilməsindəki aktiv fəaliyyətlərinin məcmuu kimi çıxış edir. Mühüm iqtisadi agent kimi ölkə ərazisində mövcud olan bütün iqtisadi agentlərin fəaliyyətini tənzimləyən institusioanl mühiti formalaşdıran və həmçinin ictimai

MUHASIBAT.AZ

tələbatın ödənilməsinə bir başa və ya dolayı yolla iştirak edən dövlət hesab edilir.

## Nəticələr:

1. İqtisadi nemətlərin istehsalı və istehlakı nəticəsində cəmiyyət üzvlərinin rəngarəng tələbatının tam ödənilməsinə cəhd olunması iqtisadi fəaliyyətin mahiyyətində ifadə olunur.
2. Aktual tələbatın ödənilməsinin tələb etdiyi xərclərin («qurban») bu tələbatın ödənilməsi nəticələrinin daima müqayisə olunması iqtisadi fəaliyyətin səmərəlilik kateqoriyasında əks olunur.
3. İqtisadi fəaliyyətin çatışmazlığı ilə «mübarizə» apardığı iki nemət mövcuddur: birinci dərəcəli nemət (istehlak şeyləri), ali dərəcəli nemətdir ki, (resurslar, yəni istehsal vasitələridir) birinci dərəcəli məhsulların istehsalı üçün təxsis edilmişdir. Bu nemətlərin istehsalı və istehlakı iqtisadi fəaliyyətin obyektidir.
4. İqtisadi fəaliyyət – hər şeydən əvvəl ayrı-ayrı indiividlərin, qrupların, sosial təbəqələrin, ölkə əhalisinin, bütünlükdə bəşəriyyətin fəaliyyətidir. Bu zaman həmin fəaliyyət müəyyən iqtisadi subyektlər (təsərrüfatçılar) tərəfindən həyata keçirilir.
5. Qrupların (birliklərin), fərdi iqtisadi subyektlərin qarşılıqlı əlaqələrində dövlət aktiv fəaliyyət göstərən iqtisadi agentdir. Dövlət ölkənin institusioanl sistemini formalaşdırır, iqtisadi agentlərinin hərəkətinə, fəaliyyətinə uyğun norma və qaydalarla təsir göstərir.
6. İqtisadi fəaliyyətin müxtəlif növlülüyü, ictimai əmək bölgüsünə əsaslanan növünün aparılması, iqtisadi vahidin ixtisaslaşması nəticəsidir. İxtisaslaşma fəaliyyətin məhsuldarlığının yüksəldilməsi vasitəsi kimi, iqtisadi vahidin profilinin və onun məhsuldarlığının səmərəli uyğunluğuna malik olan istehsal vasitələri ilə təminatında əks olunur.

## Nəzarət sual və tapşırıqları:

MUHASIBAT.AZ

1. A. Marşala görə insanın sərvəti, zənginliyi nədə ifadə olunur?
2. K.Menqerə görə əşya hansı şərtlərə malik olmalıdır ki, ona sərvət kimi baxılsın?
3. V.V.Novojilovun fikrincə, iqtisad elminin əsas predmeti nədir?
4. Q.Q.Qossen qanununu izah edin və öz fikrinizi bildirin.
5. Ehtiyac, tələb və tələbat anlayışları nəylə fərqlənirlər? Onlardan birinin digərindən üstünlüyü necə müəyyən edilir?
6. Kimə və nəyə iqtisadi agent kimi baxmaq olar? İqtisadi agent, digər iqtisadi agentə təsir edə bilərmi?
7. İqtisadi vahidin profili dedikdə nə başa düşülür? Bu profil necə müəyyən edilir?
8. İstehsal profilinin dar ixtisaslaşmasına cəhd etmək lazımdırmı?
9. İstehsal profilinin elastiklik anlayışına iqtisadi müəyyənlik verin. Elastiklik dərəcəsinin müəyyən edilməsi prinsipini izah edin.
10. «Kapitalın təmərküzləşməsi» və «istehsalın təmərküzləşməsi» kateqoriyalarının fərqləri nədir? Sizin fikrinizcə, müəssisənin istehsal ölçüsünün qiymətləndirilməsində kapitalın təmərküzləşməsi anlayışını ifadə etmək olarmı?
11. İqtisadi vahidin ixtisaslaşması müxtəlifliyini istehsalın təmərküzləşməsi hesab etmək olarmı?

MUHASIBAT.AZ

MUHASIBAT.AZ

# Fəsil 2

# MİLLİ İQTİSADİYYATIN TƏHLİLİNİN KONSEPTUAL ƏSASLARI

## 2.1. Milli iqtisadiyyat anlayışı

Milli iqtisadiyyat institusional sistemlə tənzimlənən, bu ölkədə təşəkkül tapmış iqtisadi, siyasi (dövlət) və ideoloji (ictimai) qaydalara cavab verən, sahə və regional mühitlərdə strukturlaşdırılmış ölkə miqyaslı iqtisadi fəaliyyətdir.

Dünya iqtisadi sistemində vəziyyətini müəyyən edən milli iqtisadiyyatın inkişaf səviyyəsi əhalinin həyat keyfiyyətinin yüksək səviyyəsini təmin etmək, ölkənin milli təhlükəsizliyinin və beynəlxalq əmtəə, xidmət və kapitallar bazarlarında rəqabətə davamlığını təmin etmək məqsədilə milli sərvətdən istifadə dərəcəsi ilə qiymətləndirilir.

MUHASIBAT.AZ

Milli iqtisadiyyatın belə müəyyən edilməsi bir sıra spektr sualları üzə çıxarır;

- «Milli» termin adı altında nəyi başa düşmək lazımdır?

- Bu kurs kontekstində «iqtisadiyyat» termini altında nə başa düşülür?

- Sahə və regional məkanında iqtisadi fəaliyyətin strukturlaşdırılması nəyi göstərir?

- İnstitusional sistem altında nə başa düşülür?

- «Qayda» kateqoriyası, xüsusilə iqtisadi, siyasi, ideoloji qayda nəyi göstərir?

- Milli sərvət altında nə başa düşülür?

- Həyatın keyfəiyyəti dedikdə nə başa düşülür və onun səviyyəsini necə müəyyən etmək olar?

- Milli və xüsusilə də iqtisadi təhlükəsizliyə nə daxildir?

- Ölkənin rəqabətə davamlılıq səviyyəsi nə ilə müəyyən edilir?

Bu və başqa suallara cavablar əsasən bizim fənnimizin məzmununu təşkil edir. Bu fəsildə biz indiki dövrə qədər «milli iqtisadiyyat» anlayışına müxtəlif yanaşmalarla son qoyaraq ümumi, konseptual əsaslarla bu anlayışla bağlı məsələlərin üzərində dayanacayıq. Qalan məsələlər isə sonrakı fəsillərdə müzakirə predmeti olacaqdır.

**«Milli» terminin şərhi.**

Milliyyətin təyin edilməsinin iki yanaşması mövcuddur (latın dilində natio-əhali); 1) tarixən yaranmış insanların birlik forması; 2) ölkə, dövlət.

MUHASIBAT.AZ

İqtisadi fikirlər tarixi belə bir qənaətə gəlməyə əsas verir ki, iqtisadçıların «millət» anlayışa münasibəti daim dəyişilmişdir. Belə ki, D. Rikardo milləti iqtisadi fəaliyyətin xarakterini müəyyən edən təbii amillərə, qeyri-bərabər məhsuldarlığa malik torpaqlara aid coğrafi mühit kimi müəyyən edirsə (Portuqaliya şərab istehsal edir, Böyük Birtaniya-parçalar) S. Millisə milləti daxilində sürətli istehsal amilləri olan, lakin onun sürəti dövlət sərhəddi daxilində məhdudlaşan region kimi şərh edir. F. Perrunun tərifinə görə millət dövlətə tabe olan, təkbaşına idarəetmənin dövlət məcburiyyətinə malik fərd və ya qrupların məcmuudur.

R. Barr bizim kursun kontekstinə daha çox uyğun gələn, daha yüksək səviyyədə – «millət» iqtisadi kateqoriya kimi, yəni millətin iqtisadi konsepsiyası kimi daha mürəkkəb tərif verir. (Barr R. 1994);

- millət-öz təbiətinə (kənd təsərrüfatı, sənaye və s.), öz mənşəyinə (fərdi, dövlət və başqa müəssisələr), öz xarakterinə (kapitalist, qeyrikaptalist və b.), fəaliyyət sərvətinə görə (rəqabət, inhisar və s.) fərqlənən iqtisadi fəaliyyət mərkəzidir;

- millət-əhəmiyyəti və təsiri coğrafi və siyasi mühitdən kənara çıxan qüvvələr mərkəzidir;

- millət-iqtisadi, siyasi və mənəvi amillərə görə imtiyazlı birləşmiş mərkəzdir.

Millətin iqtisadi konsepsiyasına dair R. Barrın qeyd etdiyi bu xarakterik əlamətlər böyük rus tarixçisi V.O. Klyuçeviskinin irəli sürdüyü millətin tarixi konsepsiyasına daha çox yaxındır.

Rus tarixinə dair mülahizələrin tam kursunda V.O. Klyuçeviski millətlərin formalaşması prosesini təhlil edərək yazır: «Mən məlum antropoloji irqlərdən- ağ, qara-qəhvəyi, qəhvəyi və sair» hansı ki, onların mənşəyi hər halda yalnız yerli fiziki təsirlərlə

MUHASIBAT.AZ

əlaqələndirmək olmayan demirəm; fikirləşirəm ki, xalq temperamenti adlandırdığımız amillərin məcmuundan ibarət və məlum ətraf mühitin təsiri altında insan kütləsində təkmilləşən, əsasən məişət şəraiti və mənəvi xüsusiyyətlərdir. Xarici təbiət ölkənin təbiəti kimi tarixi həyatda özünü göstərir, hansı ki, burada məşhur insan cəmiyyətləri yaşayır və o insanların məişət və mənəvi anbara təsir edən güc kimi görünür (V.O. Klyuçeviski 2002, I cild, səh.16.). Daha sonra; tayfa törənərək qəbiləyə çevrilir, hansı ki, onun genetik əlaqəsi dilin vahidliyi ilə ifadə olunur, ümumi adətlərə və rəvayətlərə görə bölgü, birləşmə və assimilyasiyası ilə əlaqədar, habelə bu etnoqrafik əlaqələrə əxlaqi, vahid mənəvi idrak, ümumi həyat tərbiyəsi, məcmu fəaliyyət, tarixi talelərin və mənafelərin birliyi nəticəsində qəbilədən xalq əmələ gəldi. Nəhayət, milli vahidlik hissiyyatı siyasi əlaqələrdə, yuxarı hakimiyyətin və qanunun vəhdəti və başqa əlaqələrdə əldə edilir, onda xalq dövlətə çevrilir. Dövlətdə xalq yalnız siyasi yox, həm də az-çox milli xarakterli və öz dünya baxışlarına malik tarixi şəxsiyyətə çevrilir (yenə orada, səh.18).

Beləliklə, millət (dövlət) spesifik iqtisadi, geopolitik və mənəvi keyfiyyətlərə malik, onu başqa millətlərdən fərqlənən, onlarla qarşılıqlı fəlaiyyətini zəruriliyinə aparan, həm tarixi, həm də iqtisadi kateqoriya olub, dünyanın tərkib hissəsini özündə birləşdirir.

**«İqtisadiyyat» termininin şərhi.**

Müasir dünyada iqtisadiyyat anlayışının üç şərhi (yunan dilində oikonamike-ev təsərrüfatının idarə edilməsi incəsənəti) varıdır;

MUHASIBAT.AZ

- istehsal münasibətlərinin məcmuu;

- rayonun, ölkənin, ölkə qruplarının və ya bütün dünyanın və ya onun müəyyən hissəsinin – istehsal sahələri və növləri təsərrüfatı;

- funksional və ya sahə iqtisadi münasibətlərinin istiqamətlərini öyrənən elm sahəsidir.

Öyrəndiyimiz kursda iqtisadiyyat sözü altında ölkənin təsərrüfatı, onun tərkibi, strukturu, bu təsərrüfatın yarı-ayrı elemenlərinin qarşılıqlı əlaqələrini başa düşəyəcəyik. Burada milli iqtisadiyyat ölkənin xalq təsərrüfatıdır. Burada bəzi dəqiqləşdirmələr aparmaq lazımdır.

İş ondadır ki, əgər ölkənin xalq təsərrüfatına iqtisadiyyatı idarə edən mərkəzi orqanlardan tutmuş ayrılıqda götürülmüş müəssisəyə qədər idarəetmə ierarxiyasiyasının bütün idarəetmə səviyyələrində iqtisadi fəaliyyətə dair strateji, xüsusilə də taktiki qərarlar qəbul edən, vahid mərkəzdən idarə olunan iqtisadi agentlər kopleksi kimi baxsaq, onda, yalnız ölkə səviyyəsində yox, həm də ayrı-ayrı agentlər səviyyəsində sərfəli qərarların seçiminə necə deyərlər, xalq təsərrüfatı yanaşılması təbii hal alır. Həm strateji, həm də taktiki qərarları qəbul etmək üçün xalq təsərrüfatı xərclərinin minumumlaşdırılması meyarından istifadə etmək zəruriyyətinə dair ideya, bu yanaşmanın əsasında dayanır. Bütün qərarların mərkəzdən qəbul edildiyi şəraitdə redistributiv iqtisadiyyat üçün bu cür yanaşma təbiidir.

Ancaq bazar iqtisadiyyatı şəraitində hər bir agentin başqa meyarlara (qəbul olunan mənfəət səviyyəsinə nail olmağa çalışmaq, xüsusi müəssisənin yaşamasını təmin etmək, müəssisənin rəqabət üstünlüklərini qoruyub saxlamaq və s.) istinad edirsə xalq təsərrüfatı yanaşma meylini, xüsusilə də taktiki xarakterili meyillərin tətbiq edilməsi qeyri-realdır.

MUHASIBAT.AZ

**«Milli iqtisadiyyat»** terminini qəbul etməklə biz ona əsaslanarıq ki, ölkənin təsərrüfatı müxtəlif mülkiyyət formalarına məxsus müəssisələri birləşdirir. Onlar, təbii ki, institusional sistemin qarşıya qoyduğu tələblərə uyğun, dövlətin strateji məqsədlərini nəzərə alaraq fəaliyyət göstərməldir. Lakin iqtisadi agentlərin maraqları həm strateji, həm də taktiki münasibətdə müxtəlif ola bilər, onların bilavasitə vahid mərkəzdən idarə edilməsi də praktiki olaraq qeyri-mümkündür. Başqa sözlə, bazar iqtisadiyatı şəraitində yalnız struktur yox, həmçinin ölkə iqtisadiyyatı daxilində qarşılıqlı münasibətlər də iqtisadiyyatın məskənləşdirilmiş qaydada idarə olunan iqtisadiyyatın şərtlərindən köklü şəkildə fərqlənir. Ölkənin iqtisadiyyatı mərkəzi hakimiyyət orqanlarına tabe olan vahid xalq təsərrrüfatı kompleksindən, müxtəlif iqtisadi agentlər məcmununa çevrilir. Bu şəraitdə iqtisadiyyatın dövlət tənzimlənməsi üzrə dövlətin funksiyaları kökündən dəyişilir. Burada iqtisadi agentlərin fəaliyyətinin bütün aspektlərini reqlamentləşdirən, o cümlədən, xalq təsərrüfatı kompleksinin müvafiq proporsiyalarını təmin edən, icraçı məcburi olan direktivlər yox, cəmiyyətin mənafeyinə bütün iqtisadi agentlər məcmunun fəaliyyətinin müvafiqliyini müdafiə etməyə meylli institutlar birinci plana daxil olur.

Nə qədər ki, müasir dünyada praktiki bütün ölkələr iqtisadi fəaliyyətdə çox və ya az dərəcədə dövlətin təsirinə əsaslanan bazar münasibətləri şəraitində işləyir, dilçilik nöqteyi nəzərindən bu terminlər oxşar olsa da, «xalq təsərrüfatı» yox, «milli iqtisadiyyat» terminindən istifadə etmək məqsədəuyğundur.

**«Sahə məkanı» termininin şərhi.**

İndi sahə məkanında iqtisadi fəaliyyətin strukturlaşdırılması nəyi göstərir, məsələsini araşdıraq.

MUHASIBAT.AZ

Ölkənin iqtisadiyyatı ictimai əmək bölgüsünün müxtəlif formalarının nəticəsində yaranan və inkişaf edən, qarşılıqlı fəaliyyət göstərən müxtəlif səviyyəli agentlər kompleksidir.

İctimai əmək bölgüsü bütövlükdə cəmiyyətdə müəyyən sosial əhali qruplarının yerinə yetirdikləri müxtəlif sosial funksiyaları və bununla əlaqədar olaraq milli iqtisadiyyatın ayrı-ayrı sferalarının (sənaye, kənd təsərrüfatı, nəqliyyat və rabitə və s.) ayrılması, hansı ki, bunların da öz növbəsində daha xırda bölmələrə-sahələrə, alt-sahələrə, istehsal növlərinə və s. bölünməsini göstərir.

K. Markısın təklif etdiyi məşhur triadanı müasirləşdirməklə müasir şəraitdə ictimai əmək bölgüsünü uyğun aşağıdakı formalara ayırmaq olar:

- milli iqtisadiyyatın iri növləri arasında əmək bölgüsü: sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, rabitə və iqtisadi fəaliyyətin başqa iri növləri arasındakı bölgü əməyin **ümumi** bölgüsü adlanır;

- sahələrdə və alt sahələrdə əmək bölgüsü (iqtisadi fəaliyyətin növləri və alt növlərində), milli iqtisadiyyatda buna xüsusi əmək bölgüsü deyilir;

- ayrıca müəssisənin daxilində əmək bölgüsü az təsadüf edilən əməyin bölgüsü adlanır;

- əmək bölgüsünün bu formalarının hamısı sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir və bir-birinə əhəmiyyətli təsir göstərir. Ümumi və az təsadüf edilən əmək bölgüsü prosesində müxtəlif sahə bölmələri fərqləndirilir. İqtisadi fəaliyyət sahəsi ifadəsi altında onu digər hissələrindən fərqləndirilən bu fəaliyyətin bəzi tərəfləri kimi nə başa düşülür?

MUHASIBAT.AZ

İqtisadi fəaliyyətin hər bir növü maddi və qeyri maddi nemətlərin istehsalı və mübadiləsi prosesində müəyyən funksiyaları yerinə yetirirlər. Bu fəaliyyətin nəticəsi fərdlərin, qrupların və təşkilatların da bu və ya digər tələbatlarının ödənilməsidir. Beləliklə, bu cür fəaliyyətin hər bir növü müəyyən iqtisadi təyinata malik məhsullar istehsal (əmtəələr və xidmətlər) etməlidir: bu məhsul ya fərdi, ya da istehsal istehlakı təyinatlı olmalıdır. Nə qədər ki, məhsul öz texniki keyfiyyətlərə görə seçiləcək, onun istehsalı üçün müəyyən texnologiyalar və əsaslandırılmış resursları tələb oluna bilər.

Beləliklə, milli iqtisadiyyatın tərkibində oxşar texnologiyalardan və resurslardan istifadə edən, oxşar iqtisadi təyinatlı məhsulları istehsal edən müəssisələrin birləşməsi baş verir. Belə, birləşmələri sahələr adlandırmağı qəbul edilmişdir.

Bununla belə qeyd olunan sahə bölmələrinin tərkibinin oxşarlıq dərəcəsi müxtəlif ola bilər. Məsələn, sənaye adlandırılmış milli iqtisadiyyat sahəsi mövcuddur. Bu sahənin müəssisələri nəyi birləşdirir? Başlıca olaraq məhsulun iqtisadi təyinatını. Sənaye cəmiyyətin istehsal vasitələrinə olan tələbatını ödəyir. Ancaq bu vasitələr istehlak və texniki keyfiyyətlərinə görə o qədər müxtəlifdir ki, bəzən onların istehsalına tamamilə müxtəlif texnologiyalar və resurslar tələb olunur. Məsələn, filiz-mədən və kimiya sənayesini, maşınqayırma və elektroenergetika və s. müqayisə etmək kifayətdir. Beləliklə, gələcəkdə milli iqtisadiyyat sahələrinin daha yüksək dərəcədə oxşarlığa malik həm müəssisələrin, həm texnologiyaların, həm də resursların olduğu müəssisələr (iqtisadi agentlər qruplarına bölgüsü zəruridir. Milli iqtisadiyyatın alt sahələri, istehsal sahələri, istehsal növləri və s. yaranır. Belə bölmələrin yaranması ilə milli iqtisadiyyat sahələri daimi yeniləşən təsnifatlarda əks olunur. Yuxarı səviyyəli təsnifatlardan aşağı dərəcəliyə keçdikcə qeyd olunan tərkiblərin birliyi də artır. Sahə bölmələrinin formalaşması prosesi istehsalın sahə differensiallaşması adını aldı. Bu proses xeyli

MUHASIBAT.AZ

mürəkkəbdir və bir neçə xaraktekrik mərhələdən- həyat tsikli fazalarından keçir:

1) mövcud sahənin icində və ya yeni iqtisadi fəaliyyət növlərinin elmi axtarışlarında irəliləyişlərin nəticəsində törənən;

2) bu fəaliyyətin miqyaslarının tədricən artması və onun milli iqtisadiyyatın inkişaf səviyyəsinə təsirinin güclənməsi;

3) iqtisadi fəaliyyətin keyfiyyətcə yenidən pöhrələnməsi, onun iqtisadi cəhətdən ayrılaraq yeni sahənin yetişməsi;

**4)** ictimai tələbatların səmərəli **ödənilməsi** müddətini əhatə edən dövr;

**5)** rəqabət qabliyyətinin itirilməsi və ya sahənin mənəvi köhnəlmiş məhsullarına tələbin köklü dəyişilməsi ilə əlaqədar sahənin köhnəlməsi;

**6)** sahənin fəaliyyətinin dayanması (istehsal edilmiş əmtəələrin və xidmətlərin bazardan çıxması).

Vətən radiosənayesinin yaranması və inkişafı Sahənin formalaşmasına misal ola bilər.

Rusiyada radiocihazların istehsalı 1900-cüildə sahəsi $80m^2$ və işçilərin sayı 5 nəfərdən ibarət Kronştadt emalatxanasının yaradılması ilə başlanmışdır.

Emalatxananın yaradılmasına səbəb 1895-ci ildə A.S. Popovun radioqəbuledicini ixtira etməsi olmuşdur. 1897-ci ildə o 5 km. məsafədə radio rabitəsinə nail oldu. Kronştadt emalatxanası yaradılandan sonra 1901-ci ildə radiorabitə məsafəsi 150 km-ə çatdı. Bu emalatxananın bazasında 1911-ci ildə birinci rus radiotexniki müəssisə «Dəniz tabeliyində radioteleqraf depo»su yaradıldı. 1911-ci ilin sonunda birinci elmi-tədqiqat sənayesi radiolaboratoriyası yaradılı. Yeni iqtisadi fəaliyyət növü-radioteleqraf cihazları istehsalı fəaliyyətə başladı. 1915-ci ildə «Depo» «Dəniz tabeliyində» radioteleqraf zavoduna verildi, burada 300 nəfərdən artıq işçi işləyirdi.

MUHASIBAT.AZ

XX əsrin 30-cu illərində Rusiyada radiocihazları və onun ayrı-ayrı elementlərini istehsal edən 12 zavod var idi, həm də elmi baza genişlənmişdi.

XX əsrin 40, 60-70-ci illərdə ardıcıl olaraq radioelektron sənayesinin sahə bölmələri detallaşdırıldı. XX əsrin 70-ci illərin sonuna SSRİ-də radiocihazları istehsal edən yüzlərlə zavod fəaliyyət göstərmişdir. Onları üç sahə nazirliyi, radio-sənayesi, rabitə vasitələri sənayesi, elektron texnikası idarə etmişdir. Eyni proseslər ABŞ radioelektron sənayesində də baş verdi. XX əsrin 70-ci illərin sonuna radioelektron sənayesi ABŞ-da milli iqtisadiyyatın əhəmiyyətli sahələrindən biri kimi formalaşdı. ÜDM-un 2%-inə qədəri onun payına düşmüş (ABŞ-ın sənayesi ÜDM-un 20%-ə qədərini təşkil edir), demək olar ki,  işçi qüvvəsinin 1,5%-i burada çalışır.

SSRİ-nin dağılması və nəticədə yeni iqtisadi, dövlət və ictimai qaydalara keçilməsi bazarı rəqabətqabliyyətli xarici cihazlara istiqamətləndirilməsi ilə əlaqədar Rusiya Federasiyasında radioeloktron sənayesi öz mövqeyini itirdi.

Sahə difirensiallaşması prosesinin intensivliyi dövlət statistikasında nəzərdə tutulan müxtəlif səviyyəli sahə bölmələrinin sayının orta artım sürəti ilə qiymətləndirilə bilər. Belə ki, vətən sənasinin alt sahələrinin orta illik artım sürəti 1900-1927-ci illərdə 1,33 altsahə, 1927-1964-cü illərdə 2,56, 1964-1971-ci illərdə 5,28 olmuşdur. Buradan belə qənaətə gəlmək olar ki, sahə diferensiasiyası prosesinin intensivliyi daimi artır.

Sahə diferensiyası nəticəsində milli iqtisadiyyatın sahə bölmələri arasında müəyyən proporsiyalar və nisbətlər formalaşır. Bu proporsiyaları müxtəlif göstəricilər üzrə hesablana bilər; ÜMD-da (və ya ÜDM-da) payına  görə, məşğul olanların payına görə, əmək ehtiyatlarının payına görə və s. Belə proporsiyalar və nisbətlər

MUHASIBAT.AZ

milli iqtisadiyyatın sahə strukturu adını almış, onun təhlili milli iqtisadiyyatın baza sahələrinin iqtisadi mahiyyətini qiymətləndirməyə imkan verəcəkdir.

Ölkənin sabit rəqabətə davamlılığım milli gəliri yaradan, liderlik edən ənənəvi sahələr müəyyən edir. Hər bir baza sahəsinin həyat siklinin öyrənilməsi inkişaf mərhələlərinə və üç səviyyədə – öz ölkəsində, iri regional bazarlarda və dünya bazarında rəqabət mövqeyinə müvafiq olaraq təsnifləşdirməyə imkan verir.

Bildiyimiz kimi, Rusiya Federasiyasında hərbi təyyarə-qayırma, gəmiqayırma və telekommunikasiya kimi sahələr az idxalla milli bazarda böyük xüsusi çəkiyə malikdir. Rusiya dünya bazarında bu sektorlarda möhkəm rəqabət vəziyyətini saxlayır.

**Neft, qaz, kimya sənayesinin** yaxşı ixrac potensialı varıdır, həyat tsiklinə münasibətdə güclü mövqe tutur, lakin onların beynəlxalq rəqabət qabliyyətini yüksəltmək və modelləşdirmək üçün imkanlı investisiyalar tələb olunur.

**Qara və əlvan metallurgiya** sabit valyuta generatorları-dır,lakin avadanlıqları modernləşdirmək üçün investisiyalar tələb olunur.

**Dəmiryol nəqliyyatı, avtomobil sənayesi** yetişkənlik mər-hələsinə çatmışdır, ancaq son məhsulu yaxşılaşdırmağa imkan verən texnologiyaları cəlb etməklə modernizasiyaya böyük ehtiyac varıdır.

Maşınqayırma, yeyinti sənayesinin bəzi seqmentlərinin və istehlak mallarının bir çox sahələri vətən bazarında cüzi xüsusi çəkiyə malikdir və aşağırəqabətli sayılır.

Toxuculuq və ayaqqabı sənayesinin müəyyən hissəsi, paltar tikişi, oyuncaqlar istehsalı üzrə müəssisələri tənəzzül

MUHASIBAT.AZ

mərhələsindədir. Bunlara beynəlxalq rəqabətin təsiri xüsusilə hiss olunur.

XX əsrin sonunda Rusiya milli iqtisadiyyatının bəzi əsas sahələrinin vəziyyəti sxematik olaraq 2.1. saylı şəkildə verilmişdir. Baza sahələrindən çoxu iqtisadi transformasiyanın gedişində on illiklər ərzində texnoloji və bazar rəqabətliyini itirmişdir. Bunlara yüksək kimya və əczaçılıq, yeni materialların işlənib hazırlanması sənayesi və nəqliyyat avadanlıqları, telekommonikasiyalar və s. daxildir.

Bununla belə heç bir ölkə bütün sferalar üzrə rəqabətə davamlı ola bilməz. İnkişaf etmiş ölkələrdə beynəlxalq rəqabət müxtəlif **klasterlər** ətrafında inkişaf etmişdir. İsveçdə rəqabət-qabliyyəti sellüloz-kağız bölməsində, ağac emalı və kağız istehsalı üzrə avadanlıqlarda, konveyer xətləri və bir sıra qarışıq istehlak – sahələrində (məsələn, kibrit istehsal) yayılır. Danimarka aqrobiznes və yeyinti sənayesi üçün spesitik texnologiyalar işləyib hazırladı. İtaliyada rayonların sənayesində xüsusi klasterlər yaranmışdır, bunlar sahə kombinasiyaları formasında;

- metalemalıkəsici alət, moda-dizayn, dəri-ayaqqabı, ağacemalı, mebel kimi təşəkkül tapmışdır. Klaster nədir?

İqtisadiyyatın idarə edilməsinin mərkəzləşdirilmiş sahə sisteminin olmadığı, bazar münasibətlərinə keçidlə əlaqədar Federasiya subyektləri idarələrinin yerinə yetirdikləri institusional funksiyaların kökündən dəyişilməsi ilə əlaqədar iqtisadi agentlərin fəaliyyətini uyğunlaşdıran yeni formaların yaranması zəruriyyəti meydana gəlir. Sabitləşmiş bazar münasibətli ölkələrin təcrübəsinin göstərdiyi kimi, belə formalardan biri «Klaster» adını almış müxtəlif sahələrin müəssisələrinin məcmuu ola bilər.

**Riyazi statistika** parametirlərin kəmiyyətinə yaxın obyektlərin məcmuu kimi klasteri müəyyən edir ki, o həmin

obyektlərin keyfiyyət xarakteristikasını əks etdirir. Kəmiyyətlərin yaxınlıq dərəcəsi məsafələrin müxtəlif ölçüləri ilə müəyyən edilir (evklidov məsafə, evklidov kvadrat məsafə, manxetten məsafəsi, Çebeşov məsafəsi və başqa).

**(İdarəetmənin nəzəri və praktiki problemləri jurnalının materialları əsasında)**

Obyektlərin klasterlərə birləşdirərkən müxtəlif qaydalar tətbiq olunur (tək rabitə, tam rabitə, ölçülüb-biçilməmiş, ölçülüb biçilmiş cüt-cüt orta və s.)

**<u>Təşkilati - iqtisadi nöqteyi-nəzərdən klaster</u>**- əsas, qohum və yardımedici sahələrin məcmudur. M. Porter klaster anlayışını belə müəyyən edir. «**Sənaye sahələri klasterləri ayrılıqda bir** regionda - dövlətdə yerləşmiş ən mühüm oyuncularla şaquli (alıcı tədarükçü) və ya üfiqi (ümumi müştərilər, texnologiyalar və b.) əlaqələr vasitəsilə münasibətlər quran sənaye sahələrini və firmaları birləşdirir (Porter M., 1993.). Porterin sözlərinə görə klaster özünün ayrı-ayrı hissələrinin məbləğindən çox olur. Bir rəqabətə davamlı sahə digərini yaradır, ona görə də klasterin çoxalma (artma) meyli vardır. Klaster formalaşarkən onun bütün istehsalı bir-birinə qarşılıqlı yardım göstərir. Qazanc tədarükçülərin və istehlakçıların bütün kanalları ilə yayılır. Klasterin daxilində qarşılıqlı əlaqələr qətiyyən gözlənilməz olur, rəqabətdə yeni yolları işləyib hazırlamağa aparır və tamamilə yeni imkanları doğurur. İnsan resursları və ideyaları yeni kombinasiyaları yaradır. **Şəkil 2.2.-də** danimarkanın dünya bazarında rəqabətə davamlı bir çox milli iqtisadiyyat sahələrinin tədarükçülərlə, ümumi texnologiyalarla və ümumi resursların öz aralarındakı münasibətlərlə necə əlaqəli olması göstərilir. M. Porter belə qənaətə gəlir ki, klasterlərin hər yerdə yayılmasına bütün yüksək inkişaf etmiş milli iqtisadiyyatların başlıca əlamətləri kimi baxmaq olar.

MUHASIBAT.AZ

Bazarın orta illik artım sürəti




6

«Sağmal inəklər»sahələri

Ağac emalı kimya «Çətin uşaqlar» sahələri

MUHASIBAT.AZ

4 tikinti neft

materialları kompleksi kağız

2 qaz metallur- paltar

kompleksi giya məişət elektrotexnikası

ayaqqabı

toxuculuq məhsulları

0

0 20 40 60 80 100%

**Şəkil 2.1 Rusiyanın Sahə portfeli.**

A. İnsulini və enzimi fermentləşdirmək üçün tələb olunan mikroorqanizmləri yetişdirəndə apra, səməni və mayadan istifadə olunur. B. təmizləyici enzimlərə ilkin tələb heyvandarlıqdan gəlir. C. İnsulini süd sənayesindən götürürlər.

Səhmçi xərclər nöqteyi-nəzərindən sənayenin klassteriza-siyası problemlərinə «İnstitusional iqtisadiyyat» kursunda daha ətraflı baxılır.




MUHASIBAT.AZ

A

C

C

MUHASIBAT.AZ

Tədarükçülərlə münasibətlər

Ümumi texnologiyalar və

ümumi re surslar

**Şəkil 2.2. Danimarka iqtisadiyyatında rəqabətqabliyyətli klasterlər**

Beləliklə, milli iqtisadiyyatın müxtəlif səviyyəli qarşılıqlı əlaqəli, qarşılıqlı asılı sahə bölmələrinə bölüşdürülməsi milli iqtisadi fəaliyyətə sahə **məkanında strukturlaşdırma** kimi baxmağa imkan verir.

## «Regional məkan» termininin şərhi

Milli iqtisadiyyatın açılışında, həm də regional məkan yada salınmışdır. Bu cür məkanın şərhinin qanunauyğunluğu aşağıdakı səbəblərlə əlaqədardır. Hər cür sahə bölməsi ölkənin ərazisində yerləşmiş müəssisələrin (istehsalın) məcmunu özündə əks etdirir. Bununla belə, bu istehsalların çox hissəsinin ərazi yerləşməsi qeyri-bərabərdir. Bəzi regionlarda, məsələn, maşınqayırma, digərlərində filiz-mədən sənayesi, üçüncülərdə isə kənd təsərrüfatı istehsalı və s. üstünlük təşkil edir. Bu, müxtəlif amillərlə şərtlənir: resursların mövcudluğu, tarixi ənənələr, dövlətin strateji (geopolitik) məqsədləri, sahibkarlıq fəaliyyətinin şəraiti və b.

Beləliklə, sahə ilə yanaşı ərazi əmək bölgüsü də mövcuddur. İctimai əmək bölgüsünün hər iki növü bir-birilə qırılmaz sürətdə bağlıdır; əməyin sahə bölgüsünü ölkənin ərazisi üzrə müxtəlif sahələrin müəssələrinin bölgüsündən kənarda düşünmək və

MUHASIBAT.AZ

təsəvvür ektmək mümkün deyildir. Buna görə də sahə ilə bərabər milli iqtisadiyyatın fəaliyyətinin regional strukturuna ölkənin regionları üzrə müxtəlif sahə bölmələrinin nisbətlərinə də baxılmalıdır. Belə nisbətlərə (struktura) iki aspektdən baxmaq olar:

- bu və ya digər regionun sahə strukturu (regionun ərazisində yenrəşmiş müxtəlif sahə bölmələrinin nisbətləri);

- bu və ya digər sahənin regional strukturu (sahənin ümumi məhsulunun cəmində müxtəlif regionların nisbətləri);

Başqa sözlə, birinci yanaşmada konkret regionun ərazisində bu və ya digər sahə bölməsinin tərkib və nisbətlərinə dair suala cavab tapılır. İkinci yanaşma isə konkret sahənin umumi məhsulunun formalaşmasında bu və ya digər regionların rolunu qiymətləndirməyə imkan verir.

Region dedikdə nə başa düşülür? Areal, zona, rayon (region) anlayışlarının açılışından başlayaq.

- Areal-hər - hansı təsərrüfat əlamətinə və ya bir neçə əlamətə görə ayrılan, bir-birilə bağlı ərazilərdə müşahidə olunmayan ərazi hissəsidir. Areal bu və ya digər əlamətlərin mövcudluğu ilə xarakterizə olunan spesifik ərazidir. Məsələn, ölkənin şimal-qərbində yerləşən, öz ərazisində inkişaf etmiş sənayesi olan Rusiya ərazisinin hissəsi-Şimal - Qərb sənaye arealıdır.

-Zona-hər-hansı bir hadisəni xarakterizə edən bir mənalı göstəriciləri müşahidə olunan ərazidir; bu göstəricilər qəbul olunmuş intervaldan kənara çıxmamaqla zona daxilində müxtəlif şəkillərə düşə bilər. Zona-hadisələrin mövcudluğu və intensivliyi ilə xarakterizə edilən spesifik ərazidir. Məsələn, Şimal-Qərb arealının tərkibində yüngül avtomobillər istehsalı sənayesinin çox hissəsi toplanan Volosovo qəsəbəsi və ona yaxın olan ərazilər Leninqrad vilayəti ərazisinin bir hissəsini götürmək olar.

MUHASIBAT.AZ

-Rayon (region)- digər ərazilərə nisbətən tərkib elementlərinin məcmununa görə fərqlənən və tərkib elementlərinin vəhdətinə, qarşılıqlı əlaqələrinə, bütövlüyünə (tamlığı) əsaslanan ərazidir. Bununla belə bütövlük (tamlıq) bu ərazinin inkişafının obyektiv nəticəsindir. Rayon-hadisənin (yaxud bir neçə hadisələrin) mövcudluğu, onun intensivliyi və bütövlüyünün mövcudluğu ilə xarakterizə olunan spesifik ərazidir. Məsələn, Şimal-Qərb arealı çərçivəsində Sankt-Peterburq yerləşmiş ərazini ayrımaq olar ki, burada elmi-tədqiqat təşkilatları yerləşir.

Arealdan zonaya və sonra isə rayona keçdikdə ərazinin mürəkkəbliyi artır.

Regional mühitdə milli iqtisadi fəaliyyətin strukturlaşdırılması prosesini təhlil etmək üçün ərazi törəmələri üzrə; areallar, zonalar və regionlar üzrə sadə və mürəkkəb iqtisadi vahidlərin yerləşməsinə təsir edən amilləri ayırmaq lazımdır. Belə amillərə aşağıdakıları aid etmək olar:

- ərazi törəmələrinin geopolitik və iqtisadi-coğrafi əhəmiyyəti;

- bu və ya digər ərazi törəməyə məxsus resursların məcmuu;

- bu və ya digər ərazi törəməsində mövcud olan təbii-iqlim şəraiti;

- bu və ya digər ərazi törəməsində yaranan sahibkarlıq iqlimi və investisiya cəlbediciliyi;

Bu amillərə baxaq.

**Ərazi törəmələrinin geopolitik və iqtisadi –coğrafi əhəmiyyəti**. İqtisadi agentlərin ölkənin ərazisi üzrə yerləşdirilməsi xüsusiyyətləri, onların sahə mənsubluğu kimi daha çox ölkədə geopolitik vəziyyətlə müəyyən edilir. Geopolitik-idarəetmə elmidir. O,

MUHASIBAT.AZ

ittifaqların yaradılması, müharibələrin başlanması, islahatların həyata keçirilməsi, cəmiyyətin struktur yeniləşdirilməsi, geniş miqyaslı iqtisadi və siyasi sanksiyaları və s. kimi qlobal qərarların qəbul edilməsi qaydalarını işləyib hazırlayır. (DuGin A.1999). Buna görə ölkə ərazisi üzrə iqtisadi agentlərin yerləşdirilməsi zamanı bu cür strateji qərarların qəbul edilməsindən gözlənilən nəticələri də nəzərə almaq lazımdır.

Geopolitkanın başlıca həlqəsi planetin coğrafi qurluşuna və sivilizasiyasına tarixi tipologiyasını əks etdirən əsaslı dualizmi təsdiq etməkdir. Bu dualizmi «tellurokratiyanı» (quru qudrəti) «talassokratiyaya» (dənizqüdrəti) qarşıyaqoymaqda öz əksini tapır.

«**Tellurratiya»** məkanın qəti müəyyən edilməsi və onun keyfiyyətli istiqamətlənməsinin möhkəmliyi ilə əlaqədardır. Quru xalqlara fərdilik, sahibkarlıq ruhu yaddır.

**«Talassokratiya»** əks göstərişlərə əsaslanan sivilizasiya tipini təmsil edir. Bu tip dinamikdir, çevikdir və texniki inkişafa meyllidir. Onun üstünlükləri-dəmirçilik, ticarət fərdi sahibkarlıq ruhundan ibarətdir.

Tarixən «Makinderin xəritəsində» (şəkil 2.3) əks olunmuş xeyli möhkəm şəkil mövcuddur. Xelford C. Makinder (1861-1947) geopolitikanın əsasını qoyanlardan biridir. Coğrafi təhsil alaraq o, 1887-ci ildən London iqtisadi məktəbinə direktor təyin edilənə qədər Okstfordda dərs deməyə başladı. 1910-cu ildən 1922-ci ilə qədər icma palatasının üzvü olmuşdur, 1919-1920-ci illərdən isə Cənubi Rusiyada Britaniyanın diplomatik nümayəndəsi olmuşdur. Onların təklif etdikləri dünya xəritəsi geopolitik spesifikanı özündə əks etdirir.

1. Daxili kontinetal məkan «hərəkətsiz platformaya» çevrilir (herland). O tellurokratik sivilizasiya spesitikanı özündə möhkəm saxlayan «özəyin torpağı», «tarixin coğrafi oxu»-dur.

MUHASIBAT.AZ




World island –

Xarici aypara

**Şəkil 2.3. Dunyanın əsas geopolitik modeli (Makinderə görə).**

Heartland-Avroaziya-tarixin coğrafi oxu. Rimland-sahil məkanı. World island – «dəmir qüdrəti» ilə əvəzlənən ərazilər.

2. «Daxili və ya kontinental aypara», «sahil zonası» (rimland) intensiv mədəni inkişaf mühiti – məkanı əks etdirir. Burada «talassokratiya» əlamətləri görünür. Baxmayaraq ki, onlar çoxlu tellupokratik meyllərlə bərabərləşdirilir (eyniləşdirilir).

3. «Xarici və ya ada aypara» yalnız dəniz kommuNikasiyaları mümkün olan «naməlum torpaqları» istifadə edir.

MUHASIBAT.AZ

Bu geopolitik mənzərə İngiltərənin böyük dəniz dövlətinə çevrilən dövrdə (XVII-XIX əsrlər) son məna kəsb etmişdir. Böyük coğrafi kəşflər dövrü Avrasiyadan ayrılaraq tamamılə anqlosakson dünyasına təmərküzləşməsi talassokratiyanın müstəqil planetar törəməsinə qəti çevrilməsi ilə nəticələnmişdir. XX əsrin ortalarından başlayaraq ABŞ talassokratinin başlıca dayağı oldu.

Makinder təsdiq etdi ki, dövlət üçün ən sərfəli coğrafi vəziyyəti orta və mərkəzi vəziyyəti ola bilər. Planitar nöqteyi-nəzərdən dünyanın mərkəzində Avrasiya qitəsidir, onun mərkəzində isə – «dünyanın ürəyi» və ya «Hertland» dayanır. Bu bütün dünyaya nəzarət etmək üçün daha əlverişli coğrafi meydandır. Makinder demişdir: «Kim ki, Dünya Adası üzərində hakim mövqe tutursa, dünya üzərində hökmranlıq edir». Daha sonra: «Rusiya bütövlükdə dünyada Avropaya nisbətdə Almaniyanın tutduğu qədər mərkəzi strateji mövqeyə malikdir. O, bütün tərəflərə hücumu həyata keçirə bilər və şimal müstəsna olmaqla bütün tərəflərdən hücuma məruz qala bilər» (DuQin A.Q. 1999, sitat).

Məhz Makinder ABŞ-ın müasir geopolitkanın əsasını qoymuşdur: Avroaziya blokonun, Rusiya və Almaniyanın strateji ittifaqının yaradılmasına, «hertland»ın və onun genişlənməsi (eksponsiya) imkanlarına hər vasitə ilə maneçilik törətmək.

Yuxarıda qısaca qeyd olunmuş geopolitkanın əsas müddəalarına əsaslanaraq aşağıdakı nəticələr çıxarmaq olar:

- ökənin geopolitika vəziyyətini nəzərə almadan milli iqtisadiyyatın xarici mühitlə qarşılıqlı fəaliyyət istiqamətləri və onun dünya iqtisadi sisteminə qovuşması (inteqrasiyası) da daxil olmaqla milli iqtisadiyyatın inkişaf istiqamətlərini müəyyən etmək olmaz:

- ölkənin daxilində milli iqtisadiyyat sahələrinin yerləşdirilməsinin istiqamətlərini seçərkən milli iqtisadiyyatın mühüm

MUHASIBAT.AZ

strateji obyektlərinin yerləşdirilməsi nəzərdə tutulan rayonların geopolitik vəziyyətini nəzərə almaq lazımdır.

Geopolitika ilə yanaşı ərazi törəmələrin iqtisadi-coğrafi vəziyyətini (İCV) də təhlil etmək lazımdır.

İCV dedikdə sosial-iqtisadi obyektlərin məkan münasibətləri məcmuunun baxılan obyekt üçün mühüm, mövcud olan və ya proqnozlaşdırılan başqa obyektlərlə məkan münasibətləri başa düşülür. Başqa sözlə, İCV-regionun ondan kənarda yerləşən, bu və ya digər iqtisadi əhəmiyyət kəsb edən varlıqlara münasibətidir (investorlar üçün Rusiya coğrafiyası, 1997).

Bu və ya digər regionun İCV qiymətləndirmək üçün onun nəqliyyat magistrallarına, kənd təsərrüfatı xammalı bazalarına, əmtəələrin əsas satış bazarlarına, əhalinin məskunlaşmasına, regional işçi qüvvəsi bazarına və s. görə vəziyyəti təhlil edilir.

İqtisadi-coğrafi vəziyyət aşağıdakı meyarlara görə qiymətləndirilir;

- yararlılıq (faydalılıq) və ya rentalılıq (başqa regionlarla müqayisədə bu və ya başqa sahibkarlıq fəaliyyəti növünün effektivliyi nöqteyi-nəzərdən);

- vəziyyətin potensiallığı (sahibkarlıq üçün perspektiv imkanları nöqteyi-nəzərdən);

- bazar vəziyyəti (regional determinantların formalaşdırdığı rəqabət üstünlüklərini uzun perspektivə qoruyub saxlamaq üçün əlverişli şərait yaratmaq nöqteyi-nəzərindən).

Beləliklə, belə nəticəyə gəlmək olar ki, İCV iqtisadi fəaliyyətin regional xüsusiyyətlərini əks etdirən mühüm kateqoriyadır. O, eyni zamanda əməyin ərazi bölgüsünün həm səbəbi, həm də nəticəsidir. Bununla belə İCV-nisbi anlayışdır. O, yalnız bu regionun yox, həm də onun ətrafında oxşar dəyişikliklərə malik iqtisadi və siyasi inkişafda dəyişikliklərin tarixi səbəblərinə daha çox əsaslanır.

MUHASIBAT.AZ

**Ərazi törəmənin resurslarının məcmuu**. Bu kontekstdə milli iqtisadiyyatın regional strukturu probleminə iki növdə resurslara baxaq; təbii və insan.

**Təbii resurslar** – istehsal vasitələri (əmək əşyaları və vasitələri) kimi istifadə olunan və ya istifadə oluna bilən təbii komponetlərdir. Regionun təbii resurslarının məcmuuna onun təbii potensialı kimi baxılır. Regionun təbii-resurs potensialı bu və ya digər regionda inkişaf edən iqtisadi fəaliyyət növlərinin tərkibini və strukturunu müəyyən etməklə sahibkarlıq ab-havasına birbaşa və dolayı təsir edir.

**İnsan resursları -** bu və ya digər regionda sahibkarlıq fəaliyyətinin aparılması üçün imkan və məqsədəuyğunluqlarını əks etdirən kateqoriyadır. Sahibkarın öz fəaliyyətini həyata keçirmək istədiyi regionun əhalisinə üç nöqteyi-nəzərdən baxılmadıdır.;

- kadr potensialı mənbəyi kimi (demoqrafik və təhsil-peşə strukturu);

- potensial əmtəə və xidmətlərin istehlakçılarının potensial kontingenti kimi (etnik struktur, alıcılıq qabliyyəti);

-daxilində sahibkarlıq fəaliyyəti həyata keçirilməli sosial mühit kimi (həyat keyfiyyəti üzrə; məşğulluq səviyyəsinə, gəlirlərin səviyyəsinə, maddi və mənəvi nemətlərlə təmin olunma səviyyəsinə görə əhalinin strukturu).

Müasir sosiologiya «əhalinin keyfiyyəti» kateqoriyasında ölkənin və onun regionlarının əhalisinin ümumiləşdirilmiş xarakteristikasını əks etdirməyi təklif edir. Əhalinin keyfiyyəti dedikdə əhalinin «tarixi dövrlə aktuallaşdırılmış… xassələri, hansı ki, onlara tələbatını cəmiyyət xüsusi gərginliklə qəbul edir» kimi başa düşülür. (Əhalinin keyfiyyəti, 1996). Bu anlayış fövqəladə şəraitlərdə yanaşma potensialının, cəmiyyətin bütövlükdə və müxtəlif start anlarında həyat fəaliyyətinin bütün sferalarının yeniləşməyə, iqtisadi, sosial və siyasi dəyişiklərə hazırlığını xarakterizə edir.

**Təbii – iqlim şəraiti.** Təbii iqlim şəraiti dedikdə təbiətin əhalinin həyat fəaliyyətinə və iqtisadi fəaliyyətə təsir gücü başa düşülür,

MUHASIBAT.AZ

hansı ki, bu, fəaliyyətin son məhsullarını əldə etmək üçün zəruridir. Təbii-iqlim şəraiti bu və ya digər regionun ərazisinə əhalinin məskunlaşmasını və onun mənimsənilməsini yüngülləşdirə və ağırlaşdıra bilər, təbii resurslardan istifadənin miqyasına, yollara və formalarına təsir edə bilər. Təbii-iqlim şəraiti elementlərin hər birini («qızılgül küləkləri», temperatur, nəmlik və s.) aşağıdakı kimi xarakterizə etmək olar;

- təsirin gücü və xarakteri ilə;

- təsirin yayılması ərazisi ilə;

- müxtəliftərəflilik, davamiyyət və təsirin mövsümiliyi ilə;

- müxtəlif əhali rquplarına təsirin xarakteri ilə;

-müxtəlif əhali qruplarına təsirin xarakteri ilə;

- onun yaxşılaşdırılmasının məqsədəuyğunluğu və mümkünlük dərəcəsi ilə;

- əhalinin həyat fəaliyyətinə təsir dərəcəsi ilə.

Təbii-iqlim şəraitinin elementlərinə görə regionların ərazisi ekstremal, diskomfort (narahat), hiperkomfort, prekomfort, komfortdan ibarətdir. Ekstermala insanın həyat fəaliyyətinə həddindən artıq pis təsir göstərən ərazilər daxildir. Diskomfort ərazilərə insanın həyat fəaliyyətinə həddindən artıq mənfi təsir göstərənlər daxildir. Qiperkomfort ərazilər başqa regionlardan gələnlərin hesabına daimi əhalini formalaşdırmaq imkanına malik ərazilərdir. Daimi əhalini formalaşdırmaq üçün əlverişli şəraitə malik ərazilər prekomfortdur. Əhalinin həyat fəaliyyəti üçün optimal ərazilər komfortdır.

Rusiya ərazisinin xeyli hissəsi eksteremal və diskomfort əraziləridir. Ancaq əhalinin çox hissəsi prekomfort və komfort şəraitli regionlarda yaşayır.

Təbii-iqlim şəraiti iqtisadi fəaliyyətin inkişaf sürətini yavaşlaya (ləngiyə) və ya sürətləndirə bilər.

MUHASIBAT.AZ

**Sahibkarlıq iqlimi və investisiya cəlbediciliyi.** Regionun sahibkarlıq iqlimi dedikdə bu və ya başqa ərazidə fəaliyyət göstərən iqtisadi agentlərin hamısına və ya əksəriyyətinə bu fəaliyyəti həyata keçirmək və onun məqsədlərinə nail olmaq üçün şəraitin və imkanların mövcudluğu başa düşülür.

Regionun sahibkarlıq iqlimi obyektiv və subyektiv amillərin qarşılıqlı fəaliyyətinin nəticəsində formalaşır. Obyektiv amillər regionun coğrafi xüsusiyyətləridir: təbii şərait və resurslar, əhalinin tərkibi və strukturu, ictimai əmək bölgüsü sistemində regionun yeri və b. Subyektiv amillər ölkə və region çərçivəsində iqtisadi fəaliyyətin tənzimlənməsinə istiqamətlənmiş hakimiyyət strukturlarının məqsədyönlü fəaliyyəti, federal və regional səviyyələr müxtəlif qrupların təsiridir.

Obyektiv və subyektiv amillərin qarşılıqlı fəaliyyəti regional situasiyanı müəyyən edir. Bu və ya başqa vaxt anında regionun vəziyyəti, həmin vəziyyətin dəyişilməsi meylidir **(şəkil 2.4.).** Regional situasiyaya onun geopolitik və iqtisadi-coğrafi vəziyyətinə əsaslanan region təsərrüfatının iqtisadi və sosial inkişafının strateji məqsədləri başlıca təsir göstərir. Regiona xidmət edən daxili və xarici strateji təsərrüfatçılıq zonaların yığımı (nabor) müəyyən əmtəə və xidmət çeşidinə tələbi irəli sürür. Buna görə də regional iqtisadiyyatın bütün sahələri ya özlərinin gücü ilə, yaxud da regiondan kənarda yerləşən sahələrlə kooperasiyası hesabına bu tələbin ödənilməsinə uyğunlaşdırılmalıdır. Burada təbii ki, ümumifederal və beynəlxalq əmək bölgüsü sistemində region təsərrüfatının yerinə yetirdiyi vəzifələri nəzərə almamaq olmaz.

Regionun sahibkarlıq iqlimi sosial-iqtisadi inkişafının strateci məqsədlərinə nail olmaq üçün əlverişli şəraitin dərəcəsini əks etdirən mühüm kateqoriyanı müəyyən edir. Bu kateqoriya regionun investisiya cəlbediciliyidir, hansı ki, o, bu regionu digərlərindən fərqləndirən, investisiyalar üçün əlverişli amillərin məcmuu kimi müəyyən edə bilər. O regionun obyektiv imkanlarından (investisiya potensialı) və investorun fəaliyyət şərtlərindən (investisiya riski) əmələ gəlir. Regionun investisiya cəlbediciliyi investisiya potensialı və regional investisiya risklərinin səviyyəsindən asılı olaraq regionun əsas kapitalına cəlb etmək mümkün olan kapital qoyuluşunun həcmi kimi müəyyən edilə bilər.

MUHASIBAT.AZ

İnvestisiya cəlbediciliyi dərəcəsini aşağıdakı meyarlar əsasında qiymətləndirmək olar:

- **investisiya aktivliyi** – regionun əsas kapitalına investisiyaların cəlb edilməsinin intensivliyi;

- **regionun investisiya potensialı** - investisiya aktivliyini formalaşdırmaq üçün zəruri, regionda mövcud olan iqtisadi, sosial ilkin şərtlərdən və təbii resurslardan onun coğrafi vəziyyətinin xüsusiyyətlərindən və başqa obyektiv amillərdən asılı olaraq, bütün maliyyələşdirmə mənbələrindən (xarici və daxili) regionun əsas kapitalına cəlb etmək mümkün olan investisiyaların həcmi;

- **regional (qeyri-kommersiya) investisiya riski** – regionda investisiya fəaliyyətinin şəraitindən asılı olaraq regionun investisiya potensialının natamam reallaşdırılması ehtimalı.

Beləliklə, regionun investisiya iqlimi, onun investisiya cəlbediciliyi regional mühitdə iqtisadi fəaliyyətin səmərəli strukturlaşdırılmasının mühüm ilkin şərtidir.




MUHASIBAT.AZ

**Regional siyasət**.

**Şəkil 2.4**. Sahibkarlıq iqliminin iqtisadi agentlərin rəqabət üstünlüyünə təsiri sxemi.

**İnstitusional sistemi.** Bu anlayışa məlum fəsildə yoluna qoyulmuş şəkildə baxılır. İnstitusional sistemlə əlaqədar əsas problemlərin məzmunu və mahiyyəti «İstitusional iqtisadiyyat» adlı ayrıca fəndə açıqlanır. Ancaq burada milli iqtisadiyyatın fəaliyyət göstərdiyi şəraitdə institusional mühitin iqtisadi, dövlət və ideoloji qaydalarla qarşılıqlı əlaqələri başa düşülməlidir.

Beləliklə, ölkədə yaranmış (yaranacaq) institusional sistem dedikdə nəyi başa düşmək olar? Hər bir ölkədə və dünya birliyində qəbul edilmiş müəyyən norma və qaydalara müvafiq olaraq iqtisadi fəaliyyət həyata keçirilir. Bu qaydalar hüquqi obyekti (müvafiq qanunlarla hüquqi sənədləşdirilmiş), yaxud da adi (adətlər, ənənələr əsasında müfaviq cəmiyyətdə qəbul olunmuş) ola bilər. Cəmiyyətdə kök salmış bu qaydaları və normaları institutlar adlandırmaq qəbul edilmişdir. Qanunvericilik əsaları əldə etmiş

MUHASIBAT.AZ

institutlar formal adlandırır, yazılmamış qanunlara arxalanan (adətlər, ənənələr, mənəvi-etnik davranış qaydaları dini etiqadlar) qeyri-formal adlanır. Ölkədə fəaliyyət göstərən formal və qeyri-formal institutların məcmuu institusional mühit təşkil edir ki, həmin şəraitdə hər cür, o cümlədən də iqtisadi fəaliyyət həyata keçirilir.

İnstitusional mühit qarşılıqlı əlaqədə onun elementlərini təşkil edən təsadüfi norma və qaydaların yığını deyildir. Bununla bərabər yalnız ölkə daxilində institutlararası qarşılıqlı əlaqələr yox, həmdə ölkələrin və dünya iqtisadi sistemin institutları arasında qarşılıqlı əlaqələr yaranır (şəkil 2.5.).

İnstitusional mühitə sistemin bütün məlum qanuna-uyğunluqları: bütövlük (tamlıq), kommunikativlik, iyerarxiyalıq, inteqrativlik, ekvivalentlik daxildir.

MUHASIBAT.AZ




MUHASIBAT.AZ

$F_1$ $F_2$ $F_3$ $F_4$ $F_5$ QF1 QF2 QF3 QF4 QF5

$F_1$ $F_2$ $F_3$ $F_4$ $F_5$… NF1 NF2 NF3 NF4 NF5

**Şəkil 2.5. Ölkənin institusional sisteminin daxili**

**və xarici qarşılıqlı əlaqələri sxemi**

MUHASIBAT.AZ

## İQTİSADİ, SİYASİ VƏ İDEOLOJİ QAYDALAR

R.Barr tərəfindən irəli sürülən konsepsiyaya qayıdaq. O, ölkənin, iqtisadi fəaliyyəti üçün səciyyəvi olan aşağıdakı xüsusiyyətləri vermişdir:

- təşkiledici başlanğıc (iqtisadi aspektdə)

- fərdlərin, ailələrin, qrupların, dövlətin iqtisadi fəaliyyəti müəyyən inteqrasiya ilə və qarşılıqlı asılılıqla xarakterizə edilir;

- yuxarı (ali) hakimiyyətin olması (Milli birlik) kimi; iqtisadi fəaliyyətin bütün subyektlərinin (bu və ya digər şəkildə - həddə tabeciliyi;

- mənəvi birlik əhali arasında davranış qaydalarında (təyinlərind parallelizm və reaksiyaların müqayisə edilən şəkildə olan eyni qəbiləllilik (eyni köklük var ki, bu da Milli iqtisadi birliyə vahidlik gətirir.

R. Barr tərəfindən təklif edilən iqtisadi fəaliyyət üçün şəraitin formalaşmasının əsasında olan prinsiplərin, institusioanl nəzəriyyənin konseptual əsasları ilə oxşarlığını görmək çox da çətin deyildir.

Hər bir ölkə, iqtisadi fəaliyyətin tam şəkildə və ya onun ayrı-ayrı sektorlarında uğurlu inkişafı üçün bu və ya digər şərait yaradır. Bu ölkənin dünya iqtisadi sistemində müəyyən vəziyyəti əldə etməsi üçün (qazanılması üçün) prinsipial əhəmiyyət kəsb edir.

Bu şəraitlər (şərtlər) nədən ibarətdir? Onları nə müəyyən edir? Bu suallara cavab verməkdən ötrü qaydalar kateqoriyasına ümumi şəkildə, xüsusən iqtisadi, siyasi və ideoloji qaydalara nəzər yetirək.

MUHASIBAT.AZ

Bizim araşdırdığımız problem kontekstində – Milli iqtisadiyyatın inkişafının yüksək səviyyəsinə nail olmaq, onun dünya iqtisadi sistemində öz yerini tutması üçün, qaydalar kateqoriyası bu və ya digər hərəkəti (fəaliyyəti müəyyən edən qaydalara və normalara – institusional sistemə uyğunluğu olmalıdır.

Nəticə etibarilə qayda anlayışını fərdlərin, qrupların, təşkilatların ölkəni xarakterizə edən bütün üç prinsiplərə: iqtisadi, Milli və mənəvi prinsiplərə uyğunluğu kimi başa düşmək olar. Məhz bu prinsiplər ölkənin institusioanl sisteminin simasını şərtləndirir. Qaydanın bu cür başa düşülməsinə istinad edərək, iqtisadi, siyasi və ideoloji qaydalar anlayışlarını müəyyən edək.

İqtisadi qayda – iqtisadi agentlər arasında qarşılıqlı münasibət prinsiplərini, eləcə də bu agentlərin maddi və qeyri-maddi nemətlərin istehsalı və mübadiləsi prosesində dövlətl qarşılıqlı münasibətlərini əks etdirir. Əgər restributasiyalı iqtisadiyyat dövlətin direktiv planları çərçivəsində iqtisadi agentlərin davranışlarının sərt reqlamentləşdirilməsinə əsaslanırsa və onların yerinə yetirilməsini stimullaşdırırsa, bazar iqtisadiyyatının əsasında iqtisadi agentlərin rəqabət prinsipi durur, bu münasibətlərin inkişafının ən yüksək səviyyəsində isə agentlərin müxtəlif növ inteqrasiya edilmiş biznes-qruplarda (İBQ) inteqrasiya prinsipi durur. Tarixi retrospektivdə üç növ iqtisadi qayda ayrılır: mərkəzdən idarə edilən iqtisadiyyat, azad (sərbəst) bazar, rəqabət qaydası (Oyenen B., 1995). Bu qaydaların fəaliyyətini təşkil edən prinsiplər aşağıdakı cədvəldə (2.1.) verilib.

Siyasi (dövlət) qayda bu və ya digər tarixi dövrdə ölkədə qrupların hakimiyyət formasını (demokratiya, avtoritorizm, totalitarizm və s.) və bu forma tərəfindən şərtlənən müxtəlif səviyyəli hakimiyyət strukturları ilə cəmiyyət arasında qurulan qarşılıqlı münasibətləri əks etdirir. Əgər totalitarizm şəraitində iqtisadi fəaliyyətin məqsədlərinə nail olmaq üçün vasitə seçimi və

MUHASIBAT.AZ

məqsədyönümü-iqtisadi agentlərin alternativ hərəkətini (fəaliyyətini) qəbul etməyən ali hakimiyyətin funksiyalarıdırsa, demokratik idarəetmə formalarında bu funksiyalar və həm də fəaliyyətin hər bir nəticəsinə görə məsuliyyət iqtisadi agentlərin üzərinə düşür.

**Cədvəl 2.1.**

İqtisadi qaydalar

| Fəaliyyəti müəyyən edən prinsip | İqtisadiyyatın mərkəzləşdirilmiş idarə edilməsi | Azad bazar | Rəqabət qaydası |
|---|---|---|---|
| İqtisadi fəaliyyətin məqsədlərinin müəyyən edilməsi | Yuxarıda hakimiyyət strukturu | Ev təsərrüfatı və sahibkarlıq | Rəqabət aparan satıcı və alıcılar |
| İstehsal vasitələri ilə təminat | Əmək cisimlərinin və alətlərinin planlı bölgüsü | Sərbəst qarşılıqlı faydalı müqavilələr | Əksinhisar tənzimlənməsi şəraitində qarşılıqlı faydalı kontraktlar |
| İqtisadi agentlərin məsuliyyəti | Cari və perspektiv planların yerinə yetirilməsi | İqtisadi fəaliyyətin bütün nəticələrinə görə | İqtisadi fəaliyyətin bütün nəticələrinə görə |
| Əmtəə və xidmətlərə qiymətlərin təyin edilməsi | Yuxarıda duran plan orqanları | Tələb və təklifin nisbətləri əsasında sərbəst qiymətəmələgəlmə | Tam rəqabət qiymət mexanizmi əsasında |
| İqtisadi fəaliyyətin idarə edilməsində (tənzimlənməsində) dövlətin rolu | Əmtəə və xidmətlərin istehlakını bilavasitə idarə edən rasion | İqtisadi fəaliyyət qaydalarını təyin edir və ona riayət edilməsinə nəzarət edir | Ayrı-ayrı agentlərin iqtisadi hakimiyyətinə yol verməyərək iqtisadi fəaliyyəti tənzimləyir |
| Stimullaşdırıcı (hə- | Məcburi | Maraqlandırma | Maraqlandırma |

MUHASIBAT.AZ

| | | | |
|---|---|---|---|
| vəsləndirici) təsirin xarakteri | Direktiv planlaşdırma | İnstitusioanl stimullar | İndikativ planlaşdırma |
| İqtisadi agentin strategiyasını formalaşdıran subyekt | Dövlətin ali plan orqanları | Müştərilərin maraqlarının və bazarın konyunkturasının nəzərə alınması ilə iqtisadi vahidə rəhbərlik | Dövlət indikativ planlarının xüsusi maraqlarını, müştərilərin maraqlarını nəzərə almaqla iqtisadi vahidə rəhbərlik |
| İstehsal vasitələrinə mülkiyyətin üstün formaları | Kiçik hissəli xüsusi və kooperativ olan ictimai (dövlət) | Dövlətin müəyyən (qismən) iştirakı ilə xüsusi | Vacib sıra obyektlərin tikintisinə xüsusi (fərdi kollektiv) dövlət |

**İdeoloji (ictimai) qayda**_baxışların şüurda tarixən qurulmuş dünyagörüşü sistemini (kommunatorluq –paternalizm, fərdiçilik (individualizm)-subsidarlıq) və s. əks etdirir. Bu baxışlar ölkənin vətəndaşlarının mentaliteti, o cümlədən, konfessional (dini) xüsusiyyətlərilə şərtlənir. İdeoloji qayda daha mühafizəkardır. Dünyagörüşünün sabitliyi iqtisadi və siyasi həyatın bu və ya digər yenidənqurmaların (islahatların) cəmiyyət tərəfindən qəbul edilməsinə dəstək verə bilər. Bu zaman o, sosial gərginlik mənbəyi kimi çıxış edir.

Bütün sadalanan qaydalar qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdırlar. Onlar bir-birlərini şərtləndirir. Belə ki, totalitarizm iqtisadiyyatın idarə edilməsində mərkəzləşmənin üstün olmasını doğurur, bu isə iqtisadi agentlərin mərkəzlə qarşılıqlı münasibəti şərtləndirir. Öz növbəsində bu adamların şüurunda materialistik quruluşun güclənməsinə dəstək verir. Eyni zamanda hakimiyyətin demokratik şəraitində fərdi dünyagörüşünün və fəaliyyətin

MUHASIBAT.AZ

nəticəsinə görə şəxsi məsuliyyətin gücləndirilməsini nəzərdə tutan bazar münasibətləri üçün inkişaf etməyə başlayır. Buna görə də siyasi, iqtisadi və ideoloji qaydaların Milli iqtisadiyyata təsirinə ayrı (avtonom) şəkildə baxmaq olmaz, çünki, onlar qarşılıqlı bağlı və qovuşandırlar. Bu cür qarşılıqlı sarılmalar qaydaların interdeqendensiyası adını almışdı (Oynen B., 19950.

Məhz onların ölkənin institusioanl sistemi çərçivəsində birgə fəaliyyəti və qarşılıqlı sarılmaları, iqtisadi fəaliyyətin inkişafının müvafiq səviyyəsi və səmərəliliyi üçün bu və ya digər şərait yaradır.

Beləliklə, deyilənləri nəzərə alaraq belə qənaətə gəlmək olar ki, Milli iqtisadiyyat ölkənin, xalqın yüksək keyfiyyətli həyat səviyyəsi üün, beynəlxalq miqyasda iqtisadi qüdrətinin Milli, o cümlədən ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün əsas yaradan, maddi nemətlərə olan tələbatınnın təmin edilməsinə yönələn mürəkkəb çoxsəviyyəli sistemi təşkil edir.

## 2.2. Milli iqtisadiyyat qarşılıqlı əlaqəli iqtisadi mexanizmlərə təsir sistemi kimi

Milli iqtisadi fəaliyyət bir-birilərinə zidd olan, təkzib edən, bəzən də antaqonist məqsədlər güdən çoxlu sayda insanlar tərəfindən eyni vaxtda həyata keçirilir. Onların fəaliyyətinin motivləri bir tərəfdən maraq və tələbatların müxtəlifliyi, digər tərəfdən isə bu maraq və tələbatları reallaşdırdıqları çoxlu sayda, vasitə və metodlarla və eləcə də bunun üçün lazım olan resurslara müxtəlif imkanlarla şərtlənir.

İlk baxışdan elə görünə bilər ki, iqtisadi fəaliyyət xaotikdir, qeyri-müəyyəndir, iqtisadi hadisə və hallar isə bir-birilə əlaqəli

MUHASIBAT.AZ

deyildir. Lakin uzun əsrlik təcrübə göstərir ki, iqtisadi mexanizmlər adını almış ardıcıl olaraq əmələ gələn, bir-birilə qarşılıqlı təsirdə olan çoxlu sayda «həlqələr» mövcuddur. Hər bir iqtisadi mexanizm müəyyən iqtisadi halların bir-birinin ardınca getmə prosesinin (vəziyyətdən asılı olmayan) təşəbbüsləndirən daxilolma həlqəsinə malikdir. Bu proses çıxış həlqə ilə yekunlaşsa da, ayrı-ayrı hallarda digər mexanizmin giriş həlqəsi kimi çıxış edir. iqtisadi mexanizmə misal kimi iqtisadi tsikl mexanizmi çıxış edilir. Sxem şəklində bu mexanizm aşağıdakı şəkildə verilir. Mexanizmin giriş həlqəsini iqtisadi aktivliyin Ən yüksək səviyyəsi, annı kimi (1№-li iqtisadi hadisə) hesab etmək olar. Onun ardınca iqtisadi aktivliyin tənəzzülü gəlir (2№-li iqtisadi hadisə (hal)). O, depressiya ilə yekunlaşır (3№-li hal0. bundan sonra isə aktivliyin artımı başlayır (4№). O, özünün növbəti Ən yüksək səviyyəsinə çıxır (5№).

İqtisadi mexanizm, bu və ya digər təzahürlərin cizgilərinin bir-birindən asılı olmayan, hansısa bir avtonom iqtisadi fəaliyyət deyildir. Eyni zamanda fəaliyyət göstərərək, bir-birlərini şərtləndirərək, qarşılıqlı tamamlayaraq iqtisadi mexanizm ona xas olan bütün qanunauyğunluqları ilə böyük bir sistemi təşkil edir. Ölkə daxilində fəaliyyət və dünya iqtisadi sistemi ilə qarşılıqlı təsirdə olan iqtisadi mexanizmin bu cür qarşılıqlı sarmaşıqlığı Milli iqtisadiyyatın mahiyyət əsasını təşkil edir. Smitin müəyyən etməsinə görə ;bazarın görünməyən əli; (hansı ki, «beynlə» idarə edilir – ölkənin institusional sistemi) – bu iqtisadi fəaliyyətin mahiyyətini (məzmununu) əks etdirən, qarşılıqlı təsirli olan iqtisadi mexanizm sistemidir.

İqtisadi sistemlərin çoxluğu, onların müxtəlifliyi iqtisadi fəaliyyətin müşahidə edilməsi prosesindən aşkar edilir. Bu çoxluğun qaydalanması, mexanizmlərin təsnifləşdirilməsi əsasında həyata keçirilir. Təsnifləşdirmənin yuxarı səviyyəsi şəkil 2.6.-da verilib.



MUHASIBAT.AZ

MUHASIBAT.AZ

**Şəkil 2.6.** İqtisadi mexanizmlərin təsnifatı (ali mərhələ)

İqtisadi mexanizmlərin funksiyalaşmasının və təsnifləşdirilməsinin problemləri daha dolğun şəkildə A.Kulmanın (1993-cü il) işində verilmişdir.

Şəkil 2.7.-də iqtisadi mexanizmlərin müxtəlif siniflərinin qarşılıqlı təsirinin birləşmiş sxemi verilmişdir. Real həyatda hər bir sinifə Aid olan konkret iqtisadi mexanizmlərin qarşılıqlı sarmaşıqlığı çox mürəkkəbdir. Bu zaman əmələ gəlmiş (baş vermiş) qarşılıqlı əlaqələr isə əsaslı şəkildə çoxdur. Şəkil 2.7.-dən göründüyü kimi sxemin mərkəzində istehsal və istehlak arasında tarazlıq mexanizmləri sinfi yerləşir. Bu mexanizmlər sinfi Milli iqtisadiyyatın qlobal strateji məqsədlərinə çatmaq prosesini əks etdirir. Bu xalqın yüksək həyat keyfiyyətinin yaradılması və saxlanılması və dövlətin Milli, o cümlədən iqtisadi təhlükəsizliyinin təmin edilməsi prosesidir.




MUHASIBAT.AZ

**Şəkil 2.7.** İqtisadi mexanizmin qarşılıqlı əlaqə sxemi.

Onu qeyd etmək lazımdır ki, tarazlığın bu və ya digər mexanizmlərinin təsiri (hərəkəti) heç də onu bildirmir ki, tarazlığın təmin edilməsi (tarazlığa nail olunması) iqtisadi fəaliyyətin inkişafının son (yekun) məqsədidir. Tarazlıq vəziyyəti durğunluq doğurur. Bu da sonrakı inkişafa stimulu itir. Buna görə də tarazlıq mexanizminin fəaliyyətinin müşahidə edilməsində məqsəd, iqtisadi fəaliyyətin sonrakı inkişafını stimullaşdıran müvafiq institusional dəyişikliklərin reallaşması hesabına potensial durğunluğun qətt edilməsidir.

MUHASIBAT.AZ

Şəkil 2.7.-də verilmiş bütün digər mexanizmlər sinfi, lokal (lakin Milli iqtisadiyyat üçün heç də az mahiyyət daşımayan) strateji məqsədləri həll edir. belə ki, Milli iqtisadiyyatın və xarici dünyanın tarazlıq mexanizmi ölkənin dünya iqtisad sisteminə səmərəli inteqrasiyasının strateji məqsədinin əldə olunmasına «işləyir». Kapitalın gəlirə və gəlirin kapitala çevrilməsi mexanizminin təsiri sadə və geniş təkrar istehsal üçün resursların tələb olunan səviyyədə saxlanılması ilə bağlıdır. Multiplikasion mexanizmlər iqtisadi xüsusi halda isə investisiya fəaliyyətinin səmərəliliyinin daima artırılması prosesini əks etdirir. İqtisadi tsiklər mexanizminin təsiri Milli iqtisadiyyatın inkişafının sabitliyinin saxlanılması probleminin həll edilməsi zamanı nəzərə alınır.

İqtisadi fəaliyyəti iqtisadi mexanizmlər sisteminin mövqeyindən araşdıraraq belə bir qənaətə gəlmək olar ki, hər bir istənilən taktiki və strateji qərardan qabaq bu və ya digər mexanizmlərin və ya qarşılıqlı əlaqəli mexanizmlərin zəncirinin hərəkətinin təsiri hər tərəfli təhlili olmalıdır. Bu onu bildirir ki, həm Milli iqtisadiyyat səviyyəsində və həm də onun ayrı-ayrı iqtisadi agentlərinin səviyyəsində idarəetmə qərarları bu və ya digər mexanizmin və ya qarşılıqlı əlaqəli olan zəncirinin mexanizmlərini «işə salan» impulslar kimi qiymətləndirməlidir. Müvafiq mexanizmlərin və ya mexanizmlərin zəncirinin fəaliyyəti nəticəsində meydana gələn iqtisadi hadisələrin ardıcıllığını təhlil edərək idarəetmə qərarlarının iqtisadi fəaliyyətə təsirlərini proqnozlaşdırmaq olar.

Məsələn, idxal edilən köhnə avtomobillərə yüksək idxal rüsumlarının təyin edilməsi hesabına yerli minik avtomobilləri bazarının qorunması haqda protoksionist qərarları qəbul edərək, aşağıdakı mexanizmlərin: Milli iqtisadiyyat və xarici dünyanın tarazlığı, istehsal və istehlak arasındakı tarazlıq, kapitalın gəlir və gəlirin kapitala çevrilməsi, multiplikasion mexanizmlərin iqtisadi

MUHASIBAT.AZ

ardıcıllığını təhlil etmək lazımdır. Əgər bu mexanizmlərin obyektiv fəaliyyəti nəticəsində (qərar qəbul edən şəxsin arzusundan asılı olmayaraq) əmələ gələn (meydana çıxan) potensial iqtisadi halların bütün zəncirini diqqətlə təhlil etməsək, onda gözlənilənin əksinə olan bir nəticə əldə etmək olar: yerli avtomobillərə tələb artmayacaq, lakin yerli sahibkarların elə həmin keyfiyyəti saxlamaqla bu əmtəələrə qiymətlərin yüksəldilməsi üçün stimul yaranacaq. Köhnə idxal avtomobillərinə tələb həmin avtomobillərin qiymətləri yerli təzə avtomobillərin keyfiyyətindən yüksək olması səbəbindən hətta yüksək rüsumlar nəticəsində aşağı düşməyəcəkdir. Yerli avtomobil sənayesinin rəqabətqabiliyyətliliyi nəinki elə bu sahənin, həm də bazara qabiliyyətli avtomobillərin çıxarılması üçün zəruri olan qohum və dəstək verən sahələrin tam kompleksinin müəssisələrin sürətli və dərin texniki yenidənqurulması üçün investisiyanın çatışmamazlığından arta bilmir. Avtomobilqayırmanın inkişafı – bu Milli iqtisadiyyat üçün baza sahələrinin praktik olaraq elmi-texniki silahlanması deməkdir. Təbii ki, rüsumların artırılması bu sahə komplekslərinə tələb olunan investisiya həcmini verə bilməz. (düzdür, onlar digər problemlərin həlli üçün istifadə edilə bilərlər).

Bu cür təhlilin mürəkkəbliyi Milli iqtisadiyyatın qlobal trateji məqsədlərinə səmərəli şəkildə nail olmaq vəzifəsini (məsələsinin) yüngülləşdirilməsinə yönəlmiş ekspert sisteminin yaradılması cəhətlərindən imtina üçün əsas kimi çıxış edə bilməz.

## 2.3. Milli iqtisadiyyatın inkişaf səviyyəsinin

MUHASIBAT.AZ

## qiymətləndirilməsi prinsipi

**Ölkənin Milli sərvət anlayışı və onun qiymətləndirilməsi**

Dünya təsərrüfatçılıq sistemində Milli iqtisadiyyatın vəziyyəti Milli sərvətin və beynəlxalq əmtəə, xidmət, kapital bazarlarında ölkənin rəqabətqabiliyyətinin səviyyəsi ilə müəyyən edilir.

Milli sərvət – istisnasız olaraq dövlətin malik olduğu bütün şeylərdir, maddi nemətlərdir, varlıqlardır. Beynəlxalq təşkilatlar (BMT, BVF, Beynəlxalq Bank və s.) yığılmış kapitaldan başqa Milli sərvətin, öz çəkisinə görə real yaradılmış kapitaldan Ən azı 4-5 dəfə çox qiymətləndirilən təbii və insan resurslarını da daxil edilir.

Ölkənin Milli sərvəti aşağıdakı göstəricilər məcmuu ilə qiymətləndirilir.

- adambaşına düşən ümumi daxili məhsul;

- təbii resursların dəyəri;

- əmək resurslarının dəyəri;

- Milli iqtisadiyyatın bütün növ müəssisələrinin və sahələrinin dəyəri.

Qeyd olunanlarla yanaşı daha informasiyalı göstəricilərdən – ölkənin rəqabət üstünlüyünün səviyyəsində istifadə edilir. M.Porterə görə ölkənin rəqabət üstünlüyünün qiymətləndirilməsinin kəmiyyət tərəfdən resurslardan istifadə göstəricisi ilə müəyyən etmək olar. Bunun dolayı qiymətləndirilməsində isə sərf edilən resursların həcminin DMM-un vahidinə olan nisbəti ola bilər. Akad N.P. Federenkonun məlumatlarına görə (Federenko

MUHASIBAT.AZ

N.P. 2003) iqtisadiyyatının səmərəlilik əmsalı aşağıdakı şəkildə verilir.

Həcminə görə ABŞ-dan 3-5 dəfə çox olan faydalı qazıntı ehtiyatlarına görə (o cümlədən, neftə görə 4-1 dəfə, meşə ehtiyatına görə 4,7 dəfə) və Avropadan praktik olaraq kifayət qədər çox olan (neftə görə 34,9 dəfə, qaza görə 17,9 dəfə, kömürə görə 15,8, meşəyə görə 26,6 dəfə) Rusiyada DMM hər vahidinə hesabda elektrik enerjisi məsrəfləri ABŞ-dan 4,5 dəfə çoxdur (çox o deməkdir ki, pisdir). AB ölkələrinə görə 8 dəfə, Yaponiyaya görə 10,6 dəfə çoxdur. Müvafiq olaraq Rusiya ümumi enerji xərclərinə (məsrəflərinə) görə ancaq 0,63 vahid DMM əldə edir. Bu zaman ABŞ 2,9 AB – 5 Yaponiya -6,2 vahid kapitalın xüsusi növü kimi insan potensialının qiymətləndirilməsində mühüm problemdir: insan potensialının təkrar istehsalına məcmu xərc, iş qüvvəsinin fəaliyyəti yaxşılaşdırılması və keyfiyyətinin yüksəldilməsi (insan kapitalının ümumi qiymətləndirilməsi ABŞ-da 200 min dollar, Rusiyada isə 29,4 trl. dollar təşkil edir).

Rusiyanın institusional potensialı mülkiyyət hüququnu daxil edir (Good Will) hansı ki, Rusiyanın bütün müəssisələrinin aktivlərinin ümumi dəyərinin 10-15%-ə qədər üstələyir. «Good Will» anlayışına şirkətin imici, xoş Adı, onun işgüzar reputasiyası (adı-sanı) və uyğun gələn firma nişanı ticarət markası, reklam nümunəsi- «Brend» daxildir. Bəzən Good Will insan kapitalının tərkib hissəsi kimi araşdırılır (qiymətləndirilir).

Milli sərvətin vacib tərkib hissəsi təbii və intellektual kapital və ya intellektual mülkiyyətdir. Təxmini məlumatlara görə bu gün intellektual mülkiyyət Rusiyada ən azı (minimum) 400 milyard dollardır. Bura aşağıdakılar aiddir: istehsal edilmiş qeyri-maddi aktivlər (38,5 milyard), geoloji kəşfiyyat işləri (22 milyard), elm tutumlu sənaye texnologiyaları və kompyuter təminat proqramları, orijinal ədəbi əsərləri, incəsənət, əyləncə (16 milyard), istehsal

MUHASIBAT.AZ

edilməmiş qeyri-maddi aktivlər, o cümlədən mülkiyyət hüququ hansının ki, simvolik qiyməti 3.3 milyard təşkil edir.

Rusiyanın təbii kapitalı 23.5 trilyon dollar, torpaq resurslarının qiyməti 3,5 trilyon təşkil edir.

**Maliyyə aktivləri – səhmlər** istiqrazlar və digər qiymətli kağızlar o cümlədən kağız pullardan ibarətdir. Müxtəlif qiymətləndirmələrə görə Rusiyanın Milli sərvətinin dünya bazarında katirovka edilmiş dəyəri (alıcılıq qabiliyyəti paritetinə görə) 1,9 – 2,7 trilyon dollar və ya ABŞ Milli sərvətinin həcminin 8-11, 3%-ni təşkil edir (1988-23,4 trilyon). Rusiyanın Milli sərvətinin tərkib hissəsi olan maddi əşya dəyərlərinin aşınmasının 50-60%-ə çatmış həcmi azaldılmalıdır. Bu minimum 0,9-1,4, maksimum 1,1 – 1.6 trilyon dollara bərabər olmalıdır (Federenko N-P. 2003).

Beləliklə, ölkənin Milli sərvəti aşağıdakıları daxil etməlidir:

- insan potensialı (iş qüvvəsinin dəyəri və onun təkrar istehsalına çəkilən xərclər, intellektual, mədəni və peşə təkmilləşdirilməsinə çəklən xərclər);

- təbii resurs potensialı (ehtiyatların, hasilatın, kəşfiyyatın, faydalı qazıntılardan istifadə, torpaq, su, meşə resursları)

- elmi – texniki potensial (elmi tədqiqat və təcrübə konstruktor işləri, elmi tədqiqat işlərinə xərclər, elmi kadrolar, intellektual mülkiyyət).

**Milli sərvət və ölkənin rəqabət qabiliyyətliyi**

Milli sərvət, başqa sözlə insan, təbii resurs, elmi-texniki potensial kəmiyyət və keyfiyyət qiymətləndirilməsi bizə nə verir? Biz ölkənin malik olduğu Milli sərvətin rəqabətqabiliyyəti səviyəsini, həcmi və keyfiyyət xarakteristikaları haqda informasiyadan Milli

MUHASIBAT.AZ

qiymətləndirilməsi üçün necə istifadə edə bilərik? Adambaşına düşən DMM ölkənin rəqabət qabiliyyəti səviyyəsini əks etdirirmi? Nəyə görə ölkələrin bəziləri udurlar, digərləri isə uduzurlar. İqtisadiyyatla bağlı olan suallardan ancaq sonuncu çox tez-tez səslənir. «Rəqabətqabiliyyətlilik» - ilk növbədə hər bir ölkənin sənaye və hökumətini narahat edir. M.Porterin fikrində bu mərkəzləşdirilmiş şəkildə ölkə miqyasında iqtisadi fəaliyyətin təhlilinin əks markeəzi kimi formalaşır.

Buradan belə çıxır ki, Milli iqtisadiyyatın inkişaf səviyyəsi elə göstərişlərlə qiymətləndirilməlidir ki, ölkənin inkişaf etmiş digər ölkələrlə rəqabətqabiliyyətinin necə olması sualına cavab verməyə imkanı olsun. Belə çıxır ki, adambaşına düşən DMM müəyyən dərəcədə Milli iqtisadiyyatın inkişaf səviyyəsini əks etdirir. Çünki, onun səviyyəsi nə qədər yüksəkdirsə, bir o qədər Milli iqtisadiyyat həyat keyfiyyətini yüksək səviyyəsinin daha yaxşı təmin olunmasını, iqtisadi qüdrəti, dünya rəqabət bazarlarında möhkəm vəziyyəti, ölkənin Milli, o cümlədən iqtisadi təhlükəstzliyi təmin olunmuş olur. Lakin bu məsələlərə (suallara) adambaşına düşən DMM səviyyəsi göstəricisinə bəzi əlavə göstərişləri nəzərə almadan cavab vermək olmaz.

Adambaşına düşən DMM il ərzində ölkədə istehsal olunan əmtəə və xidmətlərin adambaşına düşən dəyərini göstərir. Lakin o, əgər DMM genişləndirilmiş strukturunu araşdırmasaq, hansı əmtəə və xidmətlərin olduğunu müəyyən etməyə imkan vermir. Əgər, DMM əksər hissəsini təbii renta təşkil edirsə, istehsal edilmiş əmtəə və xidmətlərin daha çox hissəsi əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması üçün nəzərdə tutulmayıbsa, onda bu cür strukturda adambaşına düşən DMM göstərici vəziyyətin yaxşılaşdırılması üçün xoşməramlılıq imkanların haqda informasiya vermir. Analoji olaraq DMM strukturunun təhlilini aparmadan ölkənin rəqabətqabiliyyətliyi və Milli təhlükəsizliyi haqda və s. məsələlərə cavab vermək olmaz.

MUHASIBAT.AZ

Nəticə olaraq DMM strukturunun dövlətin strateji məqsədlərinə müvafiq təhlilinin əsasında Milli iqtisadiyyatın inkişaf səviyyəsini qiymətləndirmək zəruridir. Bunun üçün birincisi, strateji məqsədlər çox dəqiq formalaşmalıdır, ikincisi, onlara nail olmağın prioritetliyi müəyyən edilməlidir. Əks halda DMM ikiqat artırılması tapşırığının yenrinə yetirilməsini kimin daha tez təmin etməsi uğrunda dövlət məmurlarının yarışı başlana bilər (2010-a deyil 2008-ə qədər). Bu ikiqat artırma kimi hansı prioritet strateji məqsədlərlə çatması ilə qeyri-müəyyəndir.

DMM-in rasional strukturu ölkənin inkişafının prioritet strateji məqsədlər üzrə Milli sərvətlə necə bağlıdır?

Milli strateji məqsədlərin prioritetliyi və Milli sərvətin: insan, təbii-resurs və elmi-texniki potensialın elementlərinin inkişafı və istifadəsi prioritetliyi sıx şəkildə bağlıdırlar və qarşılıqlı asılıdırlar. Milli sərvətin elementlərinin mövcud nisbətlərinin köməyilə onlara nail olmanın mümkünlüyünün qiymətləndirilməsini həyata keçirmədən strateji məqsədləri formalaşdırmaq qeyri-mümkündür. Elə bu şəkildə də həmin prosesin ölkənin inkişafının strateji məqsədləri ilə uzlaşdırmadan Milli sərvətin ayrı-ayrı elementlərini inkişaf etdirmək olmaz. Bu zaman bu qarşılıqlı amilin vəzifələrin həll edilməsinə sistemli yanaşma təmin edilməlidir. Bu onu bildirir ki, həm strateji məqsədlər, həm də Milli sərvət qarşılıqlı əlaqələr olan mürəkkəb, sistem kimi araşdırılmalıdır. Yəni həm müxtəlif obrazlı strateji məqsədlər və Milli sərvət elementləri bir-birilərindən asılı olmayaraq ayrı-ayrılıqda işlənib-hazırlana və inkişaf edə bilməz. Məsələn, həyat keyfiyyətinin yüksəlməsinin strateji məqsədi təhlükəsizliyin təmin edilməsinin strateji məqsədlərilə uzlaşmadan formalaşa bilməz. Elə bu şəkildə də Milli sərvətin qalan elementlərinin inkişafı ilə uzlaşma olmadan insan potensialının inkişafının istiqaməti müəyyən edilə bilməz. Və ya, məsələn, Milli təhlükəsizliyi təmin edilməsinin strateji məqsədi (istənilən hər bir

MUHASIBAT.AZ

strateji məqsəd kimi) Milli sərvətin bütün elementlərinin vəziyyətilə və nəzərdə tutulan inkişafı ilə uzlaşdırmadan həll edilə bilər.

Beləliklə, belə qənaətə gəlmək olar ki, Milli iqtisadiyyatın inkişafının səviyyəsi ölkənin inkişafının prioritet strateji məqsədlərinə nail olmaq üçün element üzrə Milli sərvətin istifadə edilməsi dərəcəsini xarakterizə edən göstəricilərlə qiymətləndirilməlidir. Bu məqsədlərin prioritetliyi aşağıdakılarla şərtlənir:

- əhalinin həyat keyfiyyətinin vəziyyətilə;

- əmtəələrin – xidmətlərin və istehsal amillərinin daxili və beynəlxalq bazarlarında rəqabət qabiliyyəti ilə;

- ölkənin Milli, o cümlədən iqtisadi təhlükəsizlik səviyyəsi ilə.

Başqa sözlə desək, milli iqtisadiyyatın inkişaf səviyyəsi ölkənin inkişafının prioritet strateji məqsədlərə nail olmaqdan ötrü malik olduğu Milli sərvətin istifadəsinin səmərəliliyi ilə qiymətləndirilir.

Əgər DMMİ (ümumi və ya adambaşına düşən) bu məqsədlər üzrə strukturlaşdırsaq və hər bir məqsədə hansı qiymət hesabına nail olunduğunu müəyyən etsək (Milli sərvətin element hissələri üzrə struktur) onda belə öir göstərici Milli sərvətin inkişaf səviyyəsini qiymətləndirməyə imkan verər. Milli sərvət prioritet strateji məqsədlərə nail olunmasına nə qədər az sərf edilirsə. Səmərəli fəaliyyəti göstərir (funksiyalaşır) nəticə etibarı bu Milli iqtisadiyyatın bir o qədər inkişaf səviyyəsinin aşağı olmasını göstərir.

## Nəticələr

MUHASIBAT.AZ

1. Milli iqtisadiyyatın – bu ölkə miqyasında sahəvi və regional məkanda strukturlaşmış iqtisadi fəaliyyətdir və institusional sistemlə tənzimlənir.

2. Millət (dövlət) həm tarixi, həm də iqtisadi nöqteyi- nəzərdən, iqtisadi, geosiyasi və mənəvi xarakterli özünəməxsus xüsusiyyətlərə malik olan dünyanın tərkib hissəsini təşkil edir.

3. İqtisadiyyat anlayışı (adi) altında ölkənin təsərrüfatı, strukturu, bu təsərrüfatın ayrı-ayrı elementlərinin qarşılıqlı əlaqəsi başa düşülür. O, özünə maraqlarının dövlətin strateji məqsədlərinin və onlar tərəfindən təşəbbüsləşən institusional sistemin tələblərini nəzərə alınması ilə fəaliyyət göstərən müxtəlif mülkiyyət formalı müəssisələri idxal edir.

4. Milli iqtisadiyyatın tərkibində oxşar texnologiya və resurslardan istifadə edən oxşar iqtisadi təyinatlı məhsul buraxan müəssisələrin məcmuu əmələ gəlir. Bu cür məcmuləri sahə adlandırmaq qəbul edilmişdir. Sahə diferensiyalaşması nəticəsində, Milli iqtisadiyyatın sahə strukturu adını alan Milli iqtisadiyyatda, sahə bölmələri arasında müəyyən mütənasibliklər formalaşır.

5. Sahə strukturu ilə yanaşı, regional struktur da araşdırılmalıdır. Bu ölkənin regionları arasında müxtəlif sahə bölmələrinin nisbətlərini bildirir, bu regionun ərazisində yerləşən müxtəlif sahə bölmələrinin nisbətlərinin və sahənin ümumi məcmuu məhsulunda müxtəlif regionların nisbətlərini müəyyən etməyə imkan verir.

6. İqtisadi fəaliyyət ölkədə və dünya birliyində qəbul edilmiş müəyyən norma və qaydalara müvafiq olaraq həyata keçirilir. Ölkədə fəaliyyətdə olan formal və qeyri-formal institutlar institusional sistemi təşkil edirlər ki, bu şəraitdə də istənilən və o cümlədən, iqtisadi fəaliyyət də aparılır.

7. İqtisadi qayda iqtisadi agentlər arasında, eləcə də bu agentlərlə və dövlət arasında (redistrubiasiya bazar münasibəti qarışıq iqtisadiyyat) maddi və qeyri-maddi nemətlərin istehsalı və mübadiləsi prosesində əmələ gələn qarşılıqlı münasibətlərin prinsiplərini əks etdirir.

8. Siyasi (dövlət) qayda ölkədə bu və ya digər tarixi dövrdə hakimiyyət formasını (demokratiya, avtoritarizm, totalitarizm və s.) və bu forma tərəfindən şərtlənən müxtəlif səviyyəli hakimiyyət strukturları və cəmiyyət arasında qarşılıqlı münasibətləri əks etdirir.

MUHASIBAT.AZ

9. İdeoloji (ictimai) qayda ictimai şüurda hakim olan tarixən yaranmış mentalitet, o cümlədən ölkə vətəndaşlarının peşəkar xüsusiyyətləri ilə şərtlənən, baxışların dünya görüşü sistemlərinin əks etdirir.

10. Milli iqtisadiyyatın inkişaf səviyyəsi ölkənin inkişafının prioritet strateji məqsədlərinə çatmaqdan ötrü Milli sərvətin elementlər üzrə strukturlaşmış istifadə dərəcəsini xarakterizə edən göstəricilərlə qiymətləndirilməlidir.

## Nəzarət sualları və tapşırıqlar

1. «Milli iqtisadiyyat» məvhumu altında nə başa düşülür? Nəyə görə bu cür müəyyən etmə «xalq təsərrüfatı anlayışı ilə müqayisədə daha dəqiqdir?
2. «Sahə məkanı» anlayışını açıqlayın. Bu məkan sahə differensasiya prosesində necə formalaşır?
3. Təşkilati-iqtisadi təhlil mövqeyindən «İlaster» nə deməkdir? Milli iqtisadiyyatın «ilasterizasiyasının» intensivliyi nə vaxt artır?
4. Regional məkan adı altında nə başa düşülür? Ölkənin ərazisi üzrə iqtisadi agentlərin yerləşdirilməsinə təsir edən amilləri sadalayın.
5. Regional məkanda iqtisadi fəaliyyətin strukturlaşdırılmasına geosiyasətin təsiri nədə təzahür edilir? Müxtəlif qitələrdə yerləşən ölkələr üçün bu təsirin fərqi nədən ibarətdir7
6. Regionların geosiyasi və iqtisadi – coğrafi vəziyyəti nə ilə fərqlənir? Müəssisənin yerləşdirilməsi üçün regionların seçiminə təsir edən əməlləri sadalayın.
7. Ölkənin institusional sistemi nəyi əks etdirir? O iqtisadi agentlərin qərarlarının qəbul edilməsinə necə təsir edir?
8. Milli iqtisadiyyatı iqtisadi mexanizmlərin təsiri kimi niyə qiymətləndirmək lazımdır?
9. «Ölkənin Milli sərvəti» anlayışı nədən ibarətdir? Milli sərvətin səviyyəsini necə qiymətləndirək? Akademik N.N.Fedorenkonun metodologiyası üzrə Rusiyanın Milli sərvətinin həcmi nə qədərdir?
10. Ölkənin Milli sərvəti və rəqabətqabiliyyəti bir-biri ilə necə əlaqəlidirlər?

MUHASIBAT.AZ

11. Milli sərvət və məcmu daxili məhsul göstəricilərinin köməyi ilə Milli iqtisadiyyatın inkişaf səviyyəsini necə qiymətləndirmək olar?

12. Milli iqtisadiyyatın inkişafı səviyyəsinin qiymətləndirilməsi zamanı dövlətin strateji məqsədlərinin prioritetliyi necə müəyyən edilməlidir?

13. Milli iqtisadiyyatın inkişaf səviyyəsinin qiymətləndirilməsi zamanı DMM necə strukturlaşdırmaq olar?

# Fəsil 3

# MİLLİ İQTİSADİ FƏALİYYƏTİN TƏŞKİLİ FORMALARI

MUHASIBAT.AZ

# 3.1. İqtisadi fəaliyyətin morfologiyası

Milli iqtisadi fəaliyyətin morfologiyasının tərtibinin (quruluş, forma) başlanğıcı, XIX əsrin ikinci yarısından iqtisadi fəaliyyətin ümumi qanunlarını kəşf etməyə çalışan nəzəriyyəçilərin və bu fəliyyətin konkret xüsusiyyətini öyrənən tarixçilərinin metodikaları ilə mübarizə dövrünə təsadüf edir. İngilis, alman iqtisadçı və tarixçiləri rəqabət aparırlar. Ardıcıl olaraq təşkilatın tipi və sistemi anlayışlarının formalaşması meydana gəldi: "iqtisadi inkişaf mərhələsi"ndən (fərdi iqtisadiyyatdan qapalı ev təsərrüfatına, daha sonra şəhər təsərrüfatına və onun vasitəsilə milli iqtisadiyyata keçid) iqtisadi sistemin mücərrəd tipi kimi nizamlı iqtisadi nəzəriyyədək (Valter Oyken XX əsr).

Alman iqtisadçısı Verner Zombarta görə (1863-1941) iqtisadi sistem üç əlamətlə səciyyələnir:

• ruh – iqtisadi fəaliyyətin əsas vadaredicisi, təhrikedicisidir.

• forma – sosial, hüquqi və institusional elementlərin məcmu olub, iqtisadi fəaliyyət həddini və iqtisadi agentlər arasında münasibətləri müəyyən edir (mülkiyyət hüququ, əmək vəziyyəti, dövlətin rolu).

• substansiya (mahiyyət, cövhər) – nemətlərin transformasiyasına və alınmasına səbəb olan texnika maddi qaydalar məcmuu.

Bu əlamətlərinə görə V.Zombart beş iqtisadi sistemi fərqləndirmişdir.

MUHASIBAT.AZ

A. Qapalı təsərrüfat sistemi (ruh özünü təmin etməyə cəhd, can atmaq; forma – tək və vahid hökmranlıq; substansiya – az mütərəqqi və ibtidai texnika);

B. Kustar təsərrüfat sistemi (ruh – şəhər əhalisinin təlabatının təmin edilməsi; forma – usta və usta köməkçisi ierarxiyalı kustar sexlər; substansiya – az mütərəqqi texnika);

C. Kapitalist iqtisadi sistemi (ruh – daha yüksək mənfəət alınmasına can atmaq, cəhd etmək; forma – istehsal vasitələri üzərində xüsusi mülkiyyət; işçi qüvvəsinə sərbəst sərəncam vermək; istehsal amillərinin kombinasiyasında sahibkarlığın mərkəzləşdirici rolu; iqtisadi fəaliyyətdə dövlət birbaşa iştirak etmir; substansiya - əlahiddə mütərəqqi texnika).

D. Kollektiv iqtisadi sistem (ruh - əhalinin tələbatının ödənilməsi ilə müşayiət olunan iqtisadi stabillik; forma – istehsal vasitələri üzərində kollektiv mülkiyyət; dövlət əmanət və investisiya ilə tələb və təklif arasında tarazlığı təmin etməklə istehsalı idarə edir, məhsulu bölüşdürür; substansiya – kapitalist sistemi səviyyəsində texnika).

E. Korporativ iqtisadi sistem (ruh – dövlətin mütəşəkkil təşkil olunmuş korporasiyaların idarə olunması əsasında hərc-mərclikdən yaxa qurtarmasına cəhd etməsi; forma – sənaye sahələri və sair fəaliyyətlər üzrə müxtəlif mütəxəssilərin nümayəndələr qrupu, istehsal vasitələri üzərində xüsusi mülkiyyət; dövlət – bütün fəaliyyət növləri arasında arbitrdir; substansiya – kapitalist sistemi əsasında texnika).

İqtisadi sistem anlayışı müsbət və mənfi tərəflərə malikdir:

• sistem anlayışı, iqtisadçı interpretasiyalar və tarixi təsvir arasında əlaqələndirici, dəyərli həlqədir;

• sistem anlayışı qeyri-təkmildir, belə ki, iqtisadi fəaliyyətin təhlil edilməsi üçün heç bir məntiqi kateqoriya təklif etmir və buna görə də real iqtisadi prosesləri təhrif edir.

İqtisadi fəaliyyətin morfologiyasının təsvirinə yuxarıda qeyd olunan iqtisadi kateqoriyanın ardıcıllığı daha uyğundur, adekvatdır. V.Oyken yazmışdır ki, iqtisadi nizamlığın vəzifəsi

MUHASIBAT.AZ

ondan ibarətdir ki, bütün işləyənlərin hər birinin iş saatı istehsalın külli miqdarda maddi vəsaitləri ilə elə uyğunlaşdırılsın ki, iqtisadi məhdudiyyətlikləri dəf etmək mümkün olsun (V.Oyken 1993).

Əmək bölgüsünün miqyası və onun axıcılığı yüksəldikcə, iqtisadi nizamlılığa təqdim olunan tələbatda bir o qədər yüksəliş olur. Sonuncu plan və fəaliyyətlərin bir-birinə uyğunluğundan, hansı tələbatın ödənilməsindən, ümumiyyətlə tənzimləmənin necə həyata keçirilməsindən asılıdır. Dəqiq iqtisadi nizamlılığın müəyyənləşdirilməsi, iqtisadi proseslərin tənzimlənməsinin kifayət edəcək səviyyədə həyata keçirilməsindən asılıdır.

Qeyd etmək lazımdır ki, XX əsrin sonu və XXI əsrin əvvəli dünya birliyinin əksər ölkələrində iqtisadi fəaliyyətə bazar mexanizmi ilə dövlətin aktiv müdaxiləsi müşahidə olunur ki, bu da qarışıq iqtisadiyyatdır. Belə nizamlılıq şəraitində bazar mexanizmi fərdi və bir neçə ictimai tələbatın ödənilməsinə xidmət edir. Dövlətin aktiv müdaxiləsi isə əsasən sosial sferanın yüksək inkişafını dəstəkləməklə, ölkənin həyatı vacib məsələlərini həll etməkdən, milli iqtisadi təhlükəsizliyi və strateji vəzifələrin inkişafını təmin etməkdən ibarətdir. İnkişaf etmiş dünya birliyi ölkələrində belə nizamlılıq sosial yönümlü bazar iqtisadiyyatı adlanır.

Sosial bazar iqtisadiyyatının A.Smit dövrünün bazar iqtisadiyyatından köklü fərqi vardır. “Görünməz əl” bazarın “şok” terapiyasını keçmək iqtidarında deyildir. Daha doğrusu, iqtisadi fəaliyyətin sosial problemlərini həll edə bilmir. Sahibkarlığın xüsusi maraqları ümumi milli sosial problemlərin həllinin zəruri olması ilə daim ziddiyyətdə olur. Sosial bazar iqtisadiyyatı isə strateji məqsədə malikdir və milli təhlükəsizliyin təmin olunmasında, sosial və ekoloji sferada sahibkarlıq fəaliyyətinin neqayiv effektinin ziddiyyətlərini neytrallaşdıran “bərabərləşdirici” mövqedən çıxış edir.

MUHASIBAT.AZ

Bu iqtisadi nizamlılıqda mühüm problem iqtisadi fəaliyyətə dövlətin müdaxiləsinin forma və dərəcəsinin müəyyənləşdirilməsidir. Sosial bazar iqtisadiyyatında dövlət, sahibkarlığın gəlir götürmək üçün təbii cəhdini, rifahın yaxşılaşdırılmasının ümumi axınına istiqamətləndirməlidir.

Sosial yönümlü qarışıq iqtisadiyyat bazar və inzibati strukturun, resurslara xüsusi və ictimai mülkiyyət münasibətlərinin müxtəlif səviyyəli uzlaşması ilə səciyyələnir. Bu, bazar gücünə istinad edən sabiq İttifaqa nisbətən, ABŞ – da iqtisadiyyata dövlət müdaxiləsinin ən yüksək dərəcəsi hesab edilir.

Dünya təcrübəsi iqtisadiyyata dövlət müdaxiləsinin müxtəlif formalarının mövcudluğunu göstərir. Bu dövlət mülkiyyətinin çoxluğunda, Ümumi Daxili Məhsulda (ÜDM) dövlətin gəlir və xərclərinin mərkəzləşdirilmiş hissəsinin yüksək olmasında, milli iqtisadiyyatın mühüm sahələrinin inkişafının indeqativ planlaşdırılmasında və ya bu formaların birlikdə uzlaşmasında əks olunur. Etiraf etmək lazımdır ki, dinamiki inkişaf edən bütün ölkələrdə dövlətdən təcrid olunmuş milli iqtisadiyyat mövcud deyildir.

Sənayecə inkişaf etmiş ölkələrin çoxunda, məsələn, Almaniya və İsveçdə dövlət mülkiyyətinin həcmi nisbətən aşağıdır. Böyük Britaniyada dövlət əsasən səhmdar kapitala cəlb olunmuşdur. İkinci dünya müharibəsindən sonra Fransa və İtaliyadan fərqli olaraq Yaponiya iqtisadiyyatın mühüm sahələrini milliləşdirmədi və investisiyaları xüsusi bölmədə saxlamadı. Yaponiyada dövlət xərcləri və gəlirləri sənayecə inkişaf etmiş digər ölkələrlə müqayisədə çox aşağıdır: 17,0 və 13,6% uyğun olaraq Fransada 43,1 və 41,4%, İtaliyada 51,3 və 36,9%. Lakin bu göstəricilər həmin ölkələrdə iqtisadi fəaliyyətdə dövlətin rolunu tam səciyyələndirmir. Yaponiya siyasətçiləri, investisiya axınının tənzimlənməsində vergi stimullarından istifadəyə və planlaşdırmaya

MUHASIBAT.AZ

daha çox diqqət ayırmışdılar. Strateji indiqativ planlaşdırma və istehsal, investisiya prioritetlərinin üstünlüyünün müəyyən edilməsi hüququ Beynəlxalq Ticarət və Sənaye Nazirliyində cəmlənmişdir.

Lakin dövlətin birbaşa müdaxiləsi və "bazar qüvvələri" tərəfindən nəzarətin uyğunlaşmasında müəyyən təhlükə də vardır. Bu təhlükə ondan ibarətdir ki, iqtisadi hakimiyyətin müəyyən güclü iqtisadi qrupların əlində toplanması "mafioz" strukturların yaranmasına səbəb ola bilər. Belə ki, qrupların hakimiyyət strukturlarına nüfuz etməsi bütün iqtisadi fəaliyyəti bərbad edə bilər. Buna görə də, V.Oykenin qeyd etdiyi kimi iqtisadi hakimiyyətdə cinayətkarlıqla deyil, iqtisadi hökmranlıqla mübarizə aparılmalıdır. Bu "mübarizə" ölkənin institusional sisteminin formalaşması metodologiyasının və onun tərkib hissəsi olan antiinhisar qanunçuluğunun əsasında durmalıdır. Dövlət və qanunverici orqanlar iqtisadi hakimiyyətin yaranmasına istiqamətlənmiş antiinhisar siyasəti aparmalıdırlar. Eyni zamanda müasir dünyada gedən qloballaşma prosesinin inkişafında antiinhisar siyasəti kifayət qədər elastiki olmalıdır.

Milli iqtisadiyyatın rəqabət üstünlüyü, milli və transmilli irsi korporasiyaların, onların dünya bazarını fəth etmək bacarığından çox asılıdır. İnhisarla mübarizə, dünya bazarında ölkələrin rəqabət qabiliyyətini sarsıtmağa səbəb olan məqsədə çevrilməməlidir. Eyni zamanda antiinhisar siyasəti inhisar fəaliyyətinin mənfi effektinin dəf olunmasına istiqamətlənməlidir. Bu effektlərdən biri bazarda hakim mövqeyə gətirib çıxaran xüsusi mülkiyyətin qeyri-məhdud yığımı, siyasi və iqtisadi hakimiyyətin sıçrayışvari hərəkəti probleminin yaranmasıdır. Digər tərəfdən antiinhisar siyasəti azad rəqabətin inkişafı üçün şərait yaratmalı, sahibkarlara resurs və satış bazarına sərbəst daxil olması imkanı verməlidir, bu zaman iqtisadi fəaliyyəti strateji məqsədilə şərtlənən sosial inkişafa xələl gətirən sahibkarlıq fəaliyyətinin məhdudlaşdırılmasında nəzərə alınmalıdır.

MUHASIBAT.AZ

# 3.2. Milli iqtisadi fəaliyyətin təşkilati formaları

## Müəssisə (firma) anlayışı

Birinci fəsildə «iqtisadi subyekt» anlayışına baxılarkən belə nəticəyə gəlinmişdir ki, onlar nəinki tək-tək individlər, habelə sadə və kompleks vahidlərdə birləşmiş insan qrupları ola bilər.

XVIII – XIX əsrin əvvəlində əsas iqtisadi subyekt individ hesab olunmuşdudr. Ona dövlətin gücü və sərvəti vasitəsi kimi baxılmışdır. XIX əsrin sonu XX əsrin əvvəlində ayrı-ayrı birləşmələrin tərkibində (müəssisə, firma) fəaliyyət göstərən insan qrupları aktiv və güclü subyektə çevrilmişdir. Müəssisə (firma) sözü altında nə başa düşülür? Müəssisənin yaranma səbəbləri necədir? Müəssisənin hansı növləri mövcuddur? Onların funksiyaları hansılardır?

Beləliklə, ümumi formada müəssisə (firma) aşağıdakı əlamətlərə malik olan özünəməxsus istehsal vahididir:

- Müəssisədə vahid mülkiyyətin mövcudluğu məhsul və xidmət istehsalı ilə əlaqədar riskləri üzərinə götürməsinə imkan verir, diversifikasiya və təcrid olunmuş istehsal-texniki vahidlərdən ibarət olduğu halda onun birliyini təmin edir;
- müəssisə istehsalın qiymət amillərinin manevrləri vasitəsilə istehsal amillərini uyğunlaşdırır (quraşdırır). Məhsul qiymətə malik olduqdan və bazara çıxarıldıqdan sonra texniki manevr mahiyyəti almış olur.
- Müəssisədə istehsal amillərini təmin edən subyektlə, sahibkar arasında fərqlər mövcuddur: əmək muzdlu işçi kimi, kapital – borc verən kimi təqdim olunur; müəssisə bazarda əmək, material

MUHASIBAT.AZ

resursları və kapitalın birləşdiyi mərkəzdir. O, istehsal amillələri və məhsul bazarları arasındakı əlaqələri təmin edir.

- Müəssisənin məqsədi – bazarda məhsul satışıdır: müəssisəsi istehsal etdiyi məhsulu bazarda satmaq üçün işləyir; o, alıcının tələbatını ödəmək məqsədini güdür, istehlakçının tədiyə qabiliyyətini təmin edir;
- müəssisə uzaq perspektivə pul axınına və ya mənfəət göt-ürməyə can atır;
- müəssisənin əsas mahiyyətini və sosial yönümlüyü bazar xüsusiyyətinə uyğunluğunu ifadə edən əlamətlərin strukturunun müəyyənləşdrilməsinə səy göstərək:

1. Məhsul konsepsiyası: müəssisə – bazara çıxarılan uyğun hüquqi orqanlarında qeydə alınmış, ümumi əmtəə nişanı olan əmtəə və xidmətlərin məcmuudur.
2. Resurs konsepsiyası: müəssisə – bazara çıxarılan istehsalda istifadə olunan, müəyyən formada təşkil olunanvə idarə edilən resursların məcmuudur (istehsal amilləri);
3. Sosial konsepsiya: müəssisə – bazara xidmət və məhsul çıxaran istehsal prosesi iştirakçılarının marağını ahəngdarlığını təmin edən təşkilatdır.
4. İnstitusional konsepsiya: müəssisə – bazara əmtəə və xidmətlər çıxaran, istehsal prosesini bilavasitə həyata keçirən, iqtisadçı agentlərin hərəkətini reqlamentləşdirən, formal və qeyri-normal formada fəaliyyət göstərən üsul və qaydaların məcmuudur.

Müəssisənin sosial konsepsiyasının seçilməsi prinsipial mahiyyətə malikdir. İş burasındadır ki, liberal iqtisadi inkişaf konsepsiyası nəinki nəzəri, həm də praktiki olaraq müəssisə tərkibindən sosial xidmətləri ayırır. Bu zaman sosial sferanın inkişafı haqqında mövcud qanunları əsaslanılır. Dövlət və bələdiyyə orqanları bu funksiyanın yerinə yetirilməsində məsuldurlar. Lakin material resurslarının satıcılarının və investisiyaçıların gözündə ictimai rəyin formalaşdırılması, müəssisənin rəqabət qabiliyyəti və fəaliyyət tərzinin yaxşılaşdırılmasında işçilərin maraqlandırılması məqsədilə, sosial cəlbediciliyin artırılması və «mikro mühitin» yaradılması müəssisə rəhbərinin əsas funksiyasıdır.

MUHASIBAT.AZ

Qeyd olunan konsepsiyalar, ixtiyari müəssisəyə xas olub, mahiyyətcə istehsal-təşkilati struktura, istehsal profilinin ölçüsünə və mülkiyyət formasına, həmçinin ərazi və sahə məhsusluğuna görə məqsəd və üsulları birləşdirir.

Müəssisənin (firmanın) yaranması səbəbləri

Müəssisə nə üçün meydana gəlir? Bu sadə olmayan suala Nobel mükafatı laureatı Ronal Kouzun əsərlərində müxtəsər cavab tapmaq olar. Onun mühakiməsi aşağıdakılardan ibarətdir.

Artur Salterin iddiasına görə klassik iqtisadi nəzəriyyənin əsas müddəası belə şərh olunur: normal iqtisadi sistem öz-özünə inkişaf edir. Onun cari əməliyyatları mərkəzləşdirilmiş nəzarətdən kənara keçir, onun mərkəzi orqana ehtiyacı yoxdur. İnsan fəaliyyətinn çoxu və insanların tələbatı təklifə, istehsal isə istehlaka uyğunlaşır. Bu avtomatik tənzimləmə nəticəsində baş verir (Kouz R.1993).

Klassik nəzəriyyənin tərəfdarlarının bu iddiaları bazar şəraitində qiymət mexanizminin, iqtisadiyyatı tənzimlənməsi funksiyaları ilə şərtlənir.

Lakin sahibkarlıq fəaliyyəti təcrübəsi göstərir ki, qiymət mexanizminin təsiri ilə yanaşı, D.G.Robertsonun ifadəsincə «okeanda tədbirli hakimiyyət adacıqları ilə yanaşı tədbirsiz kooperasiyalar» da mövcuddur. Belə «adacıqlar» qiymət mexanizmi təsir etməyən təşkilatlardır (firma) ki, istehsalın xəstələndirilməsi sahibkarlar tərəfindən həyata keçirilir.

Nə üçün sahibkar bu və ya digər istehsal amilinin alınmasında bazar xidmətindən istifadə etmək əvəzinə, firma yaratmağı məqsədəuyğun hesab edir? R.Kouz sahibkarın hərəkətinə aşağıdakı izahı təklif edir. Qiymət mexanizmi (resursların bölgüsü üçün nəzərdə tutulduqda) onu əvəz edəcək münasibət xüsusi faydaya malik olduğu haldan nəzərə alınmaya bilər. Başqa sözlə, desək

MUHASIBAT.AZ

sahibkara təşkilatı yaratmaq ona görə vacibdir ki, ondan fayda götürsün. Bu fayda mənfəət nədə ifadə olunur? İş ondadır ki, qiymət mexanizminin fəaliyyəti pulsuz deyildir.

Qiymət mexanizmindən istifadə müəyyən xərclərə müşayət olunur. Bu xərclər, mübadilə prosesilə, daha doğrusu, tərəf müqabilin axtarılması ilə, danışıqların aparılması və müqavilələrin bağlanması ilə birbaşa əlaqədardır. Səhmdar bu xərcləri bir təşkilat (firma) çərçivəsində, istehsalın inteqrasiya xərclərindən daha yüksəkdir. Belə xərclərin fərqləri bir tərəfdən fəhlələrin, işçilərin fəaliyyəti ilə əlaqədar firma daxili müqavilələrin bağlanması nəticəsində, digər tərəfdən isə vergi yükünün səhmdar xərclərində daha yüksək olması ilə meydana çıxır. Belə vergilər firma daxili müqavilələr üzrə mövcud deyildir. Belə halın özü R.Kouzun fikrincə, müəssisənin yaranmasının əsas səbəbidir.

Burada bir həqiqəti də nəzərə almaqla vacibdir ki, işçilərin əmək haqqına yüksək vergi qoyulması, sahibkarların əmək haqqının müəyyən hissəsinin «kölgəyə çəkmək» meylini artırır. Çünki, əgər bütün əmək haqqı bütövlükdə göstərilərsə və ona tam həcmdə vergi ödənilərsə bu zaman sahibkarların çoxu müflisləşərdi, öz işini dayandıdrmaq məcburiyyətində qalardı.

Beləliklə, R.Kouzun fikrini yekunlaşdırmaq olar.qarşıda «təşkilatın» qiymət mexanizmi və sahibkarlıq vasitəsilə təşkilinin alternativ metodları durmuşdur. Belə tənzimləmə firmaya həyat verir, əks halda onun mövcudluğunun mənası olmazdı.

## Müəssisənin iqtisadi-təşkilati formaları

Müxtəlif ölkələrin qanunvericiliyində müəssisələrin dəqiq təşkilatı – hüquqi formaları nəzərdə tutulmuşdur. Bu formaların çox tərəfli olmasına baxmayaraq onları, müəssisə mülkiyyətinə

MUHASIBAT.AZ

sahib olmaq və sərəncam vermək, gəlirin bölgüsünü həyata keçirmək baxmından müəyyən sayda məhdud kateqoriyalarda təsnifləşdirmək olar.

Belə kateqoriyalara aiddir:

1) fərdi xüsusi müəssisə – sahibkarlıq məsuliyyətini və riskini üzərinə götürən, kapitala malik olan və ona sərəncam verən, gəlirlərin bölgüsünü vahid əldə mərkəzləşdirən sahibkar müəssisədir;

2) xüsusi kooperativ (pay) müəssisə – bir qrup sahibkar kapitalın mülkiyyətçisidir. Onlar müxtəlif formada sərəncamverici və bölüşdürücü funksiyaları həyata keçirirlər;

3) müxtəlif formalı səhmdar kompaniyaları – kapitala sərəncam vermək və gəlirlərin bölüşdürülməsində müxtəlif səviyyələrdə iştirak etmək hüququna malik olan səhmdarların cəlb olunması yolu ilə formalaşır;

4) dövlət müəssisəsi – mülkiyyətçi dövlətdir, gəlirlərin bölüşdürülməsi və sərəncamverici funksiyaya malikdir.

5) qarışıq müəssisə – kapital, dövlətin, ölkə və xarici investorların iştirakının xüsusi çəkisi əsasında formalaşır. Sərəncamverici və bölüşdürücü funksiyalar uyğun razılaşma (nizamnamə) və xüsusi qanunlarla reqlamentləşdirilir;

6) transmilli kompaniyalar – kapitalın formalaşdırılmasını, sərəncamverici və bölüşdürücü funksiyaları dövlətlərin siyasi birliyi və ya iqtisadi orqanların tərtib etdikləri hüquqi-normativ aktlar əsasında həyata keçirir.

Müəssisələrin dəqiq iqtisadi-təşkilati formaları RF-nın Mülki məcəllələrində təsbit olunmuş və «Müəssisənin iqtisadiyyatı» kursunda öyrənilir.

## İqtisadi fəaliyyətin ixtisaslaşması üzrə müəssisələrin növləri (tipləri)

MUHASIBAT.AZ

Müəssisənin bu və ya digər təşkilati-hüquqi formaya mənsubluğu ilə yanaşı, müəssisələrin fəaliyyət prosesinin xüsusiyyətlərinə görə də differensiallaşdırılması da nəzərə alınmalıdır. Çünki, belə differensiallaşma müəssisənin sahə mənsubluğunu müəyyən edir. İlk növbədəhazır məhsulun yaradılmasında istehsal tsiklinin tamlılıq dərəcəsindən asılılığı xüsusiyyətinə diqqət yetirək.

Birinci fəsildə göstərilmişdir ki, istehsalın ixtisaslaşması ictimai əmək bölgüsünün istifadə olunmaqla bir müəssisə çərçivəsində oxşar məhsulların istehsalının təmərküzləşməsidir. İstehsal prosesinin ixtisaslaşma mərhələsindən asılıdır: məhsulun istehsal-texnoloji ümumiliyi və məhsula tələbatdan asılı olaraq onun istehsalı miqyası. İstehsal-texnoloji ümumilik məhsulun təsnifatlaşdırılması vasitəsilə aşkar edilir və nəticədə məhsulun cinsi, sinfi, növü, müxtəlifliyi, tipi, ölçüləri müəyyənləşdirilir. İstehsal ümumiliyi dərəcəsi, məhsulun cinsindən tipik ölçülərin seçilməsi imkanlarından asılı olaraq artır.

Beləliklə, məhsul sinfi üzrə ixtisaslaşmış müəssisəyə nisbətən, tipik məhsul üzrə ixtisaslaşmış müəssisələrdə mütərəqqi texnikanın istifadəsi üçün daha əlverişli şərait mövcud olur. Təbiidir ki, bu zaman istehsal miqyasının iqtisadi effektliyi və yeri nəzərə alınmalıdır.

Milli iqtisadiyyatın müxtəlif sahələrinin istehsal prosesinin müəyyən özünə məxsusluğu mövcuddur. Elə sahələr vardır ki, istehsal prosesi fasiləsizdir və onu ayrı-ayrı elementlər üzrə differensiallaşdırmaq qeyri-mümkündür (məs. kimya və metallurgiya sənayesi). Bununla yanaşı elə diskret istehsal prosesləri də vardır ki, məhsul istehsalı prosesinin ayrı-ayrı elementləri müxtəlif müəssisələrdə həyata keçirilir (məsələn, maşınqayırma sənayesi). Belə sahələr arasında kooperasiya əlaqələri geniş tətbiq olunur. Bu əlaqələrin obyekti ayrı-ayrı hissələr, yarımfabrikatlar ola

MUHASIBAT.AZ

bilər ki, bu halda müəssisənin bir hissəsi bu elementlərin istehsalı, digər hissəsi quraşdırma üzrə ixtisaslaşmış olur. Bununla yanaşı kompleks müəssisələrdə mövcuddur ki, elementlərin istehsalı və quraşdırılmasını vahid tsikldə həyata keçirilir.

Son məhsul istehsalında iştirak edən müəssisə ilə yanaşı ona xidmət edən infrastruktur sahələri də vardır. Bunlar, təmir, alət, nəqliyyat və enerji müəssisələridir ki, informasiya təminatını və müxtəlif yoxlama funksiyalarını yerinə yetirirlər.

Beləliklə, milli iqtisadiyyatda ixtisaslaşma səviyyəsi və formasına görə müxtəlif müəssisələr fəaliyyət göstərirlər. Müəssisələrin ixtisaslaşması dərinləşdikcə, kooperasiya əlaqələri mürəkkəbləşir və genişlənir, bununla bahəm müəssisələrin qarşılıqlı əlaqələrinin dərəcəsi də yüksəlir. Bu qarşılıqlı əlaqələr məhsulun istehsalı və bazara çıxarılması xərclərinə müxtəlif təsir göstərir. Bir tərəfdən ixtisaslaşmış müəssisələrə də kooperasiya yolu ilə hazır məhsulun elementlərinin istehsal xərcləri azalırsa, digər tərəfdən, son məhsul istehsal edən və onun bazara çıxarılmasını təşkil edən müəssisənin xərcləri artır. Deməli, kooperasiya əlaqələrinə daxil olan iqtisadi subyektlərin idarə edici qərarlarının qəbul edilməsi satışarası xərclərin və dəyişilmələrin (transformasiya) dinamikasının dəqiq təhlili ilə müşayiət olunmalıdır, bunlardan birincisi (satışarası xərclər) bazardakı işlə, məhsul alıcısının axtarılması, müqavilələrin bağlanması və s. funksiyaların yerinə yetirilməsi ilə əlaqədardırsa, ikincisi, birbaşa məhsul istehsalı ilə əlaqədardır. Bu problemin geniş müzakirəsi "İnstitutsional iqtisadiyyat" kursunda aparılmışdır.

## İnnovasiya strategiyasının inkişafına meylliliyinə görə müəssisə tipləri

MUHASIBAT.AZ

Nəhayət, müəssisələrin mühüm fərqlərə malik qruplar üzrə təsnifatı üçün son dərəcə zəruri olan bir əsas da vardır, bu müəssisələrin innovasiyalı inkişaf strategiyasına meylli olmasıdır. Bu əsasa görə müəssisə yenilikçi (novator) və təqlidçi (imitator) kimi qiymətləndirilə bilər. Birinci kateqoriyaya yenilikləri ilk reallaşdıran müəssisələr, ikinciyə isə bu yeniliyi təqlid edən müəssisələr aiddir. Belə bölgü müəssisələrin həyatiliyini, dəyanətliliyini, xarici mühitin şəraitinə uyğunlaşmasını, proqnozlaşdırmağa, daha müfəssəl desək, onun rəqabət qabiliyyətli potensiala malik olmasını müəyyən etməyə imkan verir.

R.Nelson və S. Uinter yenilikçi firmaların digərlərinə nisbətən daha üstün inkişaf etməsini aşkarlamış E. Mensfildin əldə etdiyi nəticələri misal gətirirlər. Onlar qeyd edirlər ki, yenilikçi (novator) müəssisələr (firmalar) müəyyən dövrlərdə öz üstünlüklərini saxlaya bilirlər, lakin zaman ötdükcə bu üstünlük yoxa çıxır. Görünür bu onunla əlaqədardır ki, təqlidçi (imitator) müəssisələrin (firmaların) yenilikləri üstələyə bilən geniş təqlid imkanları vardır (R. Nelson, S. Uinter 2002, səh. 345).

Bu qayda ilə digər tədqiqatların nəticələri uyğunlaşdırılır. Çünki, yeniliklər baha olduğu halda onu kiçik müəssisələrə nisbətən iri müəssisələr yeni texnologiyaları daha tez tətbiq edə bilirlər.

Bununla əlaqədar "Şumpeter hipotezası" aktual səslənir: əhəmiyyətli bazar hökmranlığına malik olan iri firmaları əhatə edən bazar strukturu, elmi-texniki tərəqqinin tezləşdirilməsi üçün cəmiyyətin ödədiyi dəyərə malikdir (Şumpeter, 1995).

## Müəssisələr birliyi (ittifaqı)

Milli iqtisadiyyatda ayrı-ayrı müəssisələrlə yanaşı müxtəlif formada müəssisələr birliyi də (ittifaqı) fəaliyyət göstərir: inteqrallaşmış biznes-qruplar (İBQ). İBQ dedikdə müəssisə və

MUHASIBAT.AZ

təşkilatlar məcmuu nəzərdə tutulur. Bu birliyin fəaliyyətinin xətləndirilməsi sələm kapitalı və əmtəə bazarının adi kontraktları çərçivəsindən kənara çıxsa da ayrı-ayrı iqtisadi subyektlər və qrupdakı müəssisələr üzrə tərəf müqabillik statusu saxlanılır (hüquqi və ya sərbəst müəssisə və təşkilatlar). Bu qrupların meydana çıxmasında məqsəd, ona daxil olan müəssisələrin beynəlxalq və daxili bazarda rəqabət qabiliyyətini yüksəltməkdən ibarətdir.

İBQ-nin əsas təşkilati-təsərrüfatçılıq formasına bir tipli struktura malik olan iri kompaniyalar aiddir: xoldinq kompaniyaları, onların nəzarətində olan müəssisələr: maliyyə sənaye qrupları (MTC); industrial təşkilatlar şəbəkəsi (İTŞ). Bu formaların hər biri müxtəlif dərəcəli inteqrasiyanı nəzərdə tutur. Buna görə də müəssisənin bu və ya digər qrupa daxil olması zamanı risk və xeyri dəqiq təhlil edilməlidir. İBQ də müntəzəm əsasda fəaliyyət göstərən xətləndirici mərkəz yaradılır. Qruppanın ayrı-ayrı iştirakçıları da bu mərkəzin rolunu ifadə edə bilər; İBQ kompaniyasına daxil olan prezidentlər klubu (top menecerlər). İBQ-nin fəaliyyəti müxtəlif üsullarla tənzimlənə bilər: əmlak əlaqələri əsasında; xidmət və resurslar üzərində nəzarətin təkmilləşdirilməsi əsasında; qrup üzvlərinin səlahiyyət hüquqlarının mərkəzləşdirilməsi konsulu əsasında.

Bu və ya digər birliyə daxil olan, həmçinin sərbəst fəaliyyət göstərən müəssisələr ölkənin müxtəlif regionlarında yerləşə bilər ki, bu da öz vəzifəsini həyata keçirməsi prosesinin digər müəssisələrlə qarşılıqlı əlaqədə olması zərurəti ilə şərtlənən kooperasiya xərclərinə təsir göstərə bilər. Beləliklə, belə qənaətə gəlmək olar ki, milli iqtisadiyyat çoxtərəfli sistemə malikdir. Bu sistemdə qiymət mexanizminin fəaliyyəti ilə bağlı satışlararası xərclərin mövcudluğu eyni zamanda fəaliyyət göstərir. Bu müəssisələrin (firmaların) formaları aşağıdakılarla fərqləndirilir:

MUHASIBAT.AZ

• təşkilati-hüquqi formalarla;

• istehsal profilini müəyyənləşdirən sahə mənsubluğu, müəssisənin ölçüsü, istehsalın ölçüsü və istehsal-texnoloji xüsusiyyəti ilə;

• əmtəə və xidmətlər istehsalının ixtisaslaşma forması və onunla şərtlənən məhsulun hazırlıq dərəcəsi ilə;

• müəssisənin təşkilati-istehsal strukturu ilə;

• müəssisənin müəyyən innovasiyalı strategiyasına meylliyi ilə;

• bu və ya digər birliyə mənsubluğu ilə;

• ölkə ərazisində yerləşməsinə görə;

## Nəticələr

1. Dünya təcrübəsi göstərir ki, dövlətin iqtisadiyyata müdaxiləsinin müxtəlif formaları vardır. Dinamiki inkişaf edən ölkələrdə dövlətdən asılı olmayan milli iqtisadiyyat mövcud deyildir.
2. XIX əsrin sonu XX əsrin əvvəllərində müxtəlif birliklərdə - müəssisələrdə (firmalarda) fəaliyyət göstərən insan qrupları aktiv iqtisadi agentlərə çevrilmişdir. Ümumi halda müəssisə - ictimai əmək bölgüsündə müəyyən funksiyanı yerinə yetirən özünəməxsus iqtisadi vahiddir.
3. Müəssisənin məhsul, resurs, sosial və institutsional istiqamətləri fərqləndirilir. Bunlar ixtiyari müəssisəyə xas olan bütün məqsədlər spekutini və onların yerinə yetirilməsini əhatə edir.
4. Müəssisənin yaranmasının əsas səbəbi sahibkarın, bir təşkilat (firma) çərçivəsində istehsal prosesinin inteqrallaşması ilə əlaqədar olaraq qiymət mexanizmindən istifadə edərək satışarası xərclərin azaldılması hesabına müəyyən gəlir əldə olunmasına cəhd göstərməsidir.

MUHASIBAT.AZ

5. Müəssisələr fəaliyyət prosesinin xüsusiyyətlərinə görə differensiallaşdırılır. Bu müəssisənin sahə mənsubluğunu, hazır məhsul istehsalı üçün onun ixtisaslaşma səviyyəsini müəyyənləşdirir. Innovasiya siyasətinə meylliyindən asılı olaraq müəssisə yenilikçi (novator) və təqlidçi (imitator) ola bilər. Rəqabət qabiliyyətini yüksəltmək məqsədi ilə müəssisələr müxtəlif formalarda birləşirlər.

## Nəzarət sualları və tapşırıqlar

1. V.Zombarta görə “iqtisadi sistem” anlayışına müəyyənlik verin. Sistemin tiplərini adlandırın və fərqlərini təhlil edin.
2. V.Zombartın iqtisadi sistemi ilə V.Oykenin iqtisadi nizamı nə ilə fərqlənir?
3. Sosial yönümlü bazar iqtisadiyyatında dövlətin rolu nədir?
4. İqtisadi fəaliyyətdə dövlətin iştirakını izah edin.
5. Müəssisənin gəlirlərin bölgüsü prinsipləri və mülkiyyət formaları ilə şərtlənən əsas əlamətlərini təhlil edin.
6. Firmanın məhsul, resurs və institusional konsepsiyaların qarşılıqlı əlaqələri, firmanın həyata keçirdiyi funksiyalara necə təsir göstərir?
7. İnstitusional mövqedən bazar münasibətləri şəraitində müəssisələrin yaranma səbəblərini izah edin.
8. İxtisaslaşma formasına görə müəssisə tiplərini müəyyənləşdirin. İxtisaslaşmanın müxtəlif formaları nə üçün mövcuddur? Bu formalar müəssisənin fəaliyyətinə necə təsir edir?
9. Hansı firmalar (yenilikçi və təqlidçi) rəqabət mübarizəsində daha yüksək həyatiliyə malikdir?
10. İnhisara necə yanaşmalı: inhisar bəladır, yoxsa- ...?
11. Müəssisələr nəyə görə birləşirlər? Bu və ya digər biznes-qruplara, inteqrasiya müəssisəyə nə verir?
12. İqtisadi fəaliyyət morfologiyası nəzərə alınmaqla “milli iqtisadiyyat” anlayışının geniş şərhini verin.

MUHASIBAT.AZ

MUHASIBAT.AZ

# Fəsil 4

# MİLLİ İQTİSADİYYATIN STRUKTUR TƏHLİLİ

## 4.1. İqtisadi fəaliyyətin strukturu anlayışı

Struktur öz təbiətinə görə bir çox müxtəlif elementar hissələrdən ibarət olan mütəşəkkil vahidlərin qaydaya salınması üsuludur (R.Barr, 1994).

*İqtisadi vahidin strukturu* müəyyən şəraitdə və müəyyən məqamda bu vahidin vəziyyətini əks etdirən kateqoriyaların məcmuyudur. Belə kateqoriyalara aşağıdakılar aiddir:

- *proporsiyalar,* yəni nəzərdən keçirilən iqtisadi vahidi təşkil edən elementlərin nisbi kəmiyyəti və əhəmiyyəti;
- bir tərəfdən, vahidi təşkil edən elementlər arasında, digər tərəfdən isə bu vahidlə digər iqtisadi vahidlər arasında qurulan *münasibətlər.*

İqtisadi təhlilə məruz qalan strukturların iki tipi fərqləndirilir:

MUHASIBAT.AZ

1) sözün xüsusi mənasında iqtisadi strukturlar: onlar sadə və kompleks iqtisadi vahidlərin fəaliyyətini səciyyələndirir;

2) "çərçivə" strukturları: onlar iqqtisadi fəaliyyətin ətraf mühitini təşkil edir.

Strukturların **birinci tipi** çərçivəsində aşağıdakılar öyrənilir:

- *ailə təsərrüfatları* - təsərrüfatda məhsuldar qüvvələrin bölüşdürülməsi, ailə gəlirinin tərkibi və s.
- *firmalar* - texniki və ya məhsuldar kapitalın (əsas və dövriyyə) tərkibi; işçi qüvvəsi heyəti (ixtisaslı fəhlələr, ustalar, menecerlər, mühəndis-texnik işçiləri və s.); pul kapitalının tərkibi (səhmlər, istiqraz vərəqələri və s. qiymətli kağızlar); firmanın müəssisələri arasında istehsalın bölüşdürülməsi; istehsalın yerli, milli və ya beynəlxalq bazarlara yönəldilməsi;
- *kompleks vahidlər* - qruplar, sektorlar, fəaliyyət sahələri, ölkələr, fövqəlmilli birliklər.

**İkinci tip** strukturlar çərçivəsində aşağıdakılar təhlil olunur:

- *demoqrafik strukturlar* -yaş piramidaları, aktiv və qeyri-aktiv əhali arasında nisbət; doğumla ölüm arasında nisbət;
- *sosial strukturlar* - həyat səviyyəsinə (təhsilin, gəlirin və alıcılıq qabiliyyətinin, məşğulluğun, mənzillə təminatın və s. səviyyəsinə) görə ölkələr arasında nisbət;
- *institusional strukturlar* - müxtəlif səviyyəli (federal, regional, bələdiyyə) hakimiyyət orqanlarının müvafiq qanunvericilik və normativ aktları ilə reqlamentləşdirilmiş - siyasi və təşkilati-iqtisadi səlahiyyətlərinin nisbəti;
- *mental strukturlar* - ölkə əhalisinin müxtəlif milli, dini, sosial qruplarına məxsus dünyagörüşü, etik, mənəvi-əxlaq xüsusiyyətlərinin nisbəti.

İqtisadi struktur müxtəlif parametrlərin köməyi ilə təhlil olunur. Bu parametrlərin məcmuyu təhlil obyektindən asılıdır. Bununla birlikdə *struktur iqtisadi təhlil prinsipləri* bütün obyektlər üçün bir olmalıdır. Belə prinsiplərə aşağıdakıları aid etmək olar:

MUHASIBAT.AZ

- *kompliekslilik* - istər sadə, istərsə də kompleks struktur bölmələr və bütövlükdə milli iqtisadiyyat çərçivəsində iqtisadi fəaliyyətin müxtəlif cəhətlərinin eyni zamanda qarşılıqlı əlaqəli şəkildə nəzərdən keçirilməsi;
- *müqayisəlilik* - milli iqtisadiyyatın öz miqyasına görə eyni tipli struktur bölmələri üçün struktur göstəricilərin və onların fəaliyyətinin eyni müvəqqəti cəhətlərinin nəzərdən keçirilməsi;
- *dinamiklik*-ayrı-ayrı bölmələr və bütövlükdə milli iqtisadiyyat çərçivəsində iqtisadi fəaliyyətin inkişaf meyllərini aşkara çıxarmaq məqsədilə müəyyən dövrdə dinamikada olan bütün struktur bölmələrin nəzərdən keçirilməsi.

## 4.2. Milli iqtisadiyyatın struktur təhlilinin bəzi cəhətləri birinci tip strukturların təhlili

Rusiya milli iqtisadiyyatının inkişaf sürətinə təsir göstərən mənfı amillərdən biri ölkənin əsas istehsal fondlarının fıziki və mənəvi cəhətdən sürətlə köhnəlməsidir. 2002-ci ildə Rusiya sənayesində əsas fondların köhnəlmə dərəcəsi 53%, o cümlədən maşınqayırmada - 55%, neftçıxarmada - 55%, kimya və neft-kimya sənayesində -57% təşkil etmişdir. 1990-cı ildə sənayenin əsas fondlarının yeniləşmə əmsalı 6,9%-dən 1,8%-ə, maşınqayırmada - 6,6%-dən 0,8%-dək ehmişdir.

Əsas fondların köhnəlmə dərəcəsi barədə bu məlumatları yaranmış vəziyyətin dəyişməsinin potensial imkanlarını səciyyələndirən göstəricilərlə tamamlamaq lazımdır.

2000-ci ildə sənaye istehsalı 1990-cı ildəkinə nisbətən 37% aşağı düşmüşdür. Bu zaman yanacaq sənayesi məhsulu - yalnız 20%, əlvan metallurgiya - 24%, qara metallurgiya məhsulu isə 26% olmuşdur. Eyni zamanda maşınqayırma məhsulu 43%, yüngül sənaye məhsulu 6 dəfə

MUHASIBAT.AZ

azalmışdır. 1990-cı ildəkinə nisbətən 2001-ci ildə metalkəsən dəzgahlar istehsalı 11 dəfədən çox, dəmirçi-press maşınları istehsalı - 23 dəfə, turbin istehsalı - 3 dəfədən çox, traktor istehsalı -23 dəfə, toxuculuq dəzgahı istehsalı 60 dəfə azalmışdır.

Bu məlumatları struktur təhlil mövqelərindən şərh edək. Əgər struktur -*proporsiyalar və münasibətlər* deməkdirsə, aşağıdakı nəticələri çıxarmaq olar:

1. Proporsiyalar:

- Rüsiya sənayesinin baza sahələrinin əsas istehsal fondlarının yarısından çoxu istehsal vasitələrinin keyfıyyəti barədə müasir anlayışlara uyğun deyildir;
- milli iqtisadiyyatın yanacaq-xammal (o cümlədən ixracat) yönümlü olması davam edir;

milli iqtisadiyyatın baza sahələrinin təchizatı üçün nəzərdə tutulmuş maşınların və texnoloji avadanlığın buraxılışı xeyli azalmışdır.

2. Münasibətlər:

- sənayenin əsas fondlara ölkənin və ya xarici ölkələrin mühüm investisiyaları olmadan milli iqtisadiyyatın rəqabət qabiliyyətini təmin etmək əslində qeyri-mümkündür;
- milli iqtisadiyyatın çox mühüm sahəsində - maşınqayırmada əsas fondlar praktik olaraq yeniləşmədiyinə görə, həmçinin 10 il ərzində maşınqayırma və avadanlıq istehsalının həcmi xeyli azaldığına görə milli iqtisadiyyatın bütün qalan baza sahələrində avadanlıq parkının sürətlə təzələnməsini (prioritet investisiyalar olmadan, yaxud texnoloji avadanlığın idxalı intensivləşdirilmədən) gözləmək olmaz;
- Rusiya iqtisadiyyatının istehsal aparatının müasir vəziyyətində ölkədə istehsalın rəqabət qabiliyyətini artırmaq yəzifəsi həyata keçirilə bilməz.

Beləliklə, biz köhnəlmiş əsas fondların payı, sənayedə və xüsusən maşınqayırmada istehsalın sürətinin aşağı düşməsi kimi

MUHASIBAT.AZ

proporsiyaların, habelə milli iqtisadiyyatın baza sahələrinin vəziyyəti ilə onun istehsal aparatının sürətlə inkişaf etməsi məsələsi arasında meydana çıxan münasibətləri müəyyənləşdirərək belə qənaətə gəlmişik ki, xarici və daxili investisiya siyasətini, yəni Rusiya milli iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi probleminin həllinə münasibəti dəyişmək lazımdır.

## İkinci tip strukturların təhlili

Müasir Rusiyanın ən kəskin problemi əhalinin əksəriyyətinin həyat səviyyəsinin aşağı olaraq qalmasıdır. 2003-cü ildə Rusiya vətəndaşlarının 32 milyon nəfərinin, yaxud bütün əhalinin 22,5%-nin adambaşına gəliri yaşayış minimumundan aşağı olmuşdur. Özü də federasiyanın İvanovo vilayəti, İnquşetiya və bəzi digər əyalətləri kimi subyektlərində adambaşına düşən orta gəlir bu region üçün müəyyən edilmiş yaşayış minimumundan aşağı olmuşdur.

Dünyanın inkişaf etmiş ölkələrinin əksəriyyətində əhalinin yoxsulluq səviyyəsi Rusiyadakından bir neçə dəfə aşağıdır. Rusiyada əhalinin 23%-nin yoxsulluq səviyyəsindən aşağı səviyyədə yaşadığı halda, ABŞ-da bu səviyyə - 11,3%, İtaliyada - 11,2%, Almaniyada - 9,1% , İsveçdə - 6,7%, Yaponiyada - 4%-dir.

Rusiyada əhalinin yoxsulluğunu doğuran mühüm amillərdən biri ÜDM strukturunda muzdlu işçilərin əməyinin ödənişi payının aşağı olmasıdır. Əgər 1998-ci ildə bu göstərici təqribən 50% təşkil etmişdisə, 2000-ci ildə bu pay azalıb 40%-ə enmişdir. Bu, dünyanın inkişaf etmiş ölkələrindən xeyli aşağıdır. 2000-ci ildə ABŞ-da və İsveçdə muzdlu işçilərin əməyinin ödənişi 58%, Almaniyada - 54%, Fransada, Avstriyada, Danimarkada, Kanadada - 52% təşkil etmişdir.

MUHASIBAT.AZ

Rusiya əhalisinin yoxsulluğu həmçinin gəlirlər strukturunda sosial ödənişlərin -pensiyaların, müavinətlərin və s. payının xeyli aşağı olması ilə əlaqədardır. Rusiyada bu ödənişlər gəlirlərin 12%-ni təşkil etdiyi halda, Almaniyada onların payı 23%, İsveçdə və Belçikada - 26%, Fransada və Hollandiyada - 28% olmuşdur.

Rusiya əhalisinin əksəriyyətinin yoxsul olmasının ən mühüm səbəbi gəlirlərin ölkə vətəndaşları arasında son dərəcə qeyri-bərabər bölüşdürülməsidir. Bütün gəlirlərin, demək olar ki, yarısı əhalinin 20%-riin əlində cəmləşmişdir. İstirahət, mədəniyyət və təhsil xərclərinin payı aşağıdır (ABŞ-da 17% olduğu halda, Rusiyada -10%-dir). Rusiyada səhiyyəyə yönəldilən dövlət xərcləri ÜMD-nin 2%-ni təşkil edir, halbuki bu göstərici ABŞ-da, Böyük Britaniyada və Hollandiyada - 6%, Almaniyada və İsveçrədə isə - 8%-dir. Bizim hesablamalarımıza görə, 2000-ci ildə ürək-damar sistemi, mədə-bağırsaq traktı, yuxarı tənəffüs yolları və onkologiya xəstəliklərindən itkilər ÜDM-nin təqribən 2%-ni təşkil etmişdirt (A.P.Qradov, 2002).

İkinci tip struktur təhlilin - iqtisadi fəaliyyətin "çərçivə" strukturunun bəzi cəhətlərindən hansı nəticələri çıxarmaq olar:

1. Proporsiyalar:

- əhalinin yoxsulluq səviyyəsi Avropa, Asiya və Amerikanın inkişaf etmiş ölkələri ilə müqayisədə 2 dəfədən də yüksəkdir;
- yoxsulluğun yüksək səviyyədə olmasının əsas səbəbləri muzdlu işçilərin əməyinin ödənişi və əmək qabiliyyəti olmayan əhaliyə sosial ödənişlərin aşağı səviyyədə olmasıdır;
- səhiyyəyə yönəldilən dövlət xərcləri inkişaf etmiş Avropa ölkələrindəkindən və ABŞ-dakından 3-4 dəfə azdır ki, bu da xəstəliklər nəticəsində xeyli ÜDM itkilərinə və Rusiya əhalisinin təbii azalmasına gətirib çıxarır.

MUHASIBAT.AZ

2. Münasibətlər:

- yoxsulluğun yüksək səviyyədə olması və əhalinin yüksək və aşağı gəlirli qrupları arasında gəlirlərin qeyri-bərabər bölüşdürülməsi ictimai münasibətlərin kriminallaşmasının və ölkədə sosial gərginlik təhlükəsinin artmasının ən mühüm səbəblərindən birinə çevrilir;
- sosial sahəyə, xüsusən səhiyyəyə yönəldilən dövlət xərclərinin aşağı səviyyədə olması nəinki həyat keyfiyyətinin azalmasma, həmçinin əhalinin təbii azalmasına, o cümlədən miqrasiyanın artmasına gətirib çıxarır ki, bu da ölkədə irqi və etnik dözülməzlik münasibətlərinin güclənməsinə, ekstremist qrupların fəaliyyətinin intensivləşməsinə səbəb olur.

**Birinci və ikinci tip strukturlar arasında münasibətlər**

Birinci və ikinci tip strukturlar arasında müəyyən münasibətlər olur ki, bu da ölkənin sosial-iqtisadi inkişaf konsepsiyasının seçilməsi üçün həlledici əhəmiyyətə malik olan qarşılıqlı uyuşqanlıq (yaxud qeyri-uyuşqanlıq) problemlərini yaradır.

Yuxarıda aparılmış təhlilin nəticələri üzrə birinci və ikinci strukturların qarşılıqlı münasibətlərini (qarşılıqlı təsirini) aydınlaşdırmağa çalışaq:

1. İstehsal vasitələrinin keyfıyyətinin aşağı olması və onların təzələnməsi prosesinin əslində dayandırılması peşəkar məşğulluq strukturuna mənfı təsir göstərir. Mütərəqqi istehsal vasitələrinin işlənib hazırlanması, istehsalatda istifadə edilməsi və onlara xidmət göstərilməsi üçün lazımi təhsil almış mütəxəssislərə (yüksək ixtisaslı proqramçılara, elmi cəhətdən mütərəqqi texnologiya hazırlayanlara və s.) tələbat xarici ölkələrdəkinə nisbətən getdikcə azalır və bu, istər ölkənin istehsal sahəsindən, istərsə də elmi-tədqiqat sahəsindən "beyin axınının" səbəblərindən biridir.

MUHASIBAT.AZ

2. Yoxsulluğun yüksək səviyyədə olması, gəlirlərin qeyri-bərabər bölüşdürülməsi, ÜDM-də sosial sahəyə və xüsusən səhiyyəyə yönəldilən dövlət xərclərinin payının aşağı səviyyədə olması ilə şərtlənən əlverişsiz demoqrafik vəziyyət iqtisadi fəaliyyətin səmərəliyinə mənfi təsir göstərir. Əhalinin daim təbii surətdə azalması, xəstəliklərdən itkilər, mədəniyyət səviyyəsinin, həmçinin istehsal vasitələrinin keyfiyyətinin aşağı olması nəticəsində əmək məhsuldarlığının səviyyəsi aşağı düşmüşdür ki, bu da nəticədə Rusiyanın adambaşına ÜDM-nin mütləq həcminə görə inkişaf etmiş ölkələrdən xeyli geri qalmasına səbəb olmuşdur. 2003-cü ildə bu göstərici ABŞ-ın eyni göstəricisinıh yalnız 20%-ni təşkil etmişdir.

## 4.3. Sadə iqtisadi vahidlərin struktur təhlili

Sadə iqtisadi vahidin (firmanın) struktur təhlilinin ən mühüm məqsədi firmanın xərclərini və gəlirini formalaşdıran proporsiyaların və münasibətlərin aydınlaşdırılmasıdır. Kompleks vahidlər üçün olduğu kimi, burada da belə təhlil iki tipə bölünür: xüsusi iqtisadi vahidin və onun "çərçivəsinin" təhlili.

Birinci tip təhlil firmanın daxilində meydana çıxan xərclərə və gəlirlərə təsir göstərən proporsiyaların və münasibətlərin aşkara çıxarılmasına yönəldilməlidir. İkinci tip təhlil fırmanın ətraf mühitində onun xərclər və gəlir strukturuna bilavasitə təsir göstərən proporsiyaları və münasibətləri aşkara çıxarmağa imkan verir.

Belə təhlilin aspektlərini nəzərdən keçirməyə başlamazdan əvvəl iki məsələni aydınlaşdırmaq lazımdır:

MUHASIBAT.AZ

- Firmanın xərclərinin hansı növləri təhlil obyekti olmalıdır?

- Firmanın gəlirini hansı göstəricilərlə qiymətləndirmək məqsədəuyğundur?

Yuxarıda xərclərin iki kateqoriyaya təsnifləşdirilməsindən söhbət açıldı: blavasitə məhsul istehsalı ilə əlaqədar xərclər (transformasiya xərcləri) və əmtəə, xidmət bazarlarında müəssisələrin işi ilə əlaqədar, istehsal amılları ilə bağlı xərclər (transaksiya xərcləri). Aydındır ki, xərclərin məhz bu iki kateqoriyası struktur təhlil obyektləri olmalıdır.

Müəssisənin gəlirinin qiymətləndirilməsi göstəricisinin seçilməsinə gəldikdə isə bu suala cavab vermək üçün 4.1-ci bəndə qayıtmaq lazımdır. Bu bənddə struktur təhlilin prinsipləri nəzərdən keçirilir. Bu təhlilin dinamiklik prinsipinə diqqət yetirək. Komplekslilik və müqayisəlilik prinsiplərinin əhəmiyyətini azaltmadan etiraf etmək lazımdır ki, xarici mühitin qeyri-sabit, xüsusən fırmanın işlədiyi institusional sistemin dəyişkən olduğu bir şəraitdə mühüm əhəmiyyət kəsb edir.

Firmanın gəlirinin qiymətləndirilməsi göstəricisinin seçilməsinə misal göstərək. Tutaq ki, firma üç strateji təsərrüfat zonasına (STZ) xidmət edir. Bunlardan biri sabit, mövsümilikdən asılı olmäyan əmtəə tələbatıdır. Digər ikisi isə mövsümdən asılı olaraq qeyri-sabit tələbatdır: birincisi - qış, ikincisi isə yay çeşidli əmtəələrə olan tələbat. Bu zaman birinci zonanın tələb etdiyi mallar material tutumlu, ikinci zonanınkı isə əmək tutumlu mallardır. Bundan başqa, birinci zonanın malları xammaldan əlavə, öz istehsalı üçün xeyli həcmdə bahalı komplektləşdirici məmulatlar tələb edir ki, bu da bir çox malgöndərənlər tərəfındən təmin olunur. Təsəvvür edək ki, biz gəliri fırmanın illik satış həcmində ümumi mənfəətin payı göstəricisinin

MUHASIBAT.AZ

köməyi ilə müəyyən edəcəyik. Belə olan təqdirdə strateji təsərrüfat zonaları dəstinin üstün strukturu barədə səmərəli idarəedici qərar hazırlamaq mümkündürmü? Başqa sözlə, hansı STZ il ərzində ümumi satış həcmində mənfəətin daha çox payını təmin edəcəkdir? Yaxud daha konkret desək: hansı STZ-lərdən imtina etmək, hansı STZ-lərə üstünlük vermək lazımdır ki, daha çox mənfəət payı təmin edilmiş olsun?

Ən səthi təhlil belə göstərir ki, bu suallara cavab tapmaq mümkün deyil, çünki ümumi illik satış həcmində ümumi mənfəətin payı göstəricisi struktur təhlilin başlıca məqsədini - nəinki proporsiyaları, həm də münasibətləri aydınlaşdırmaq məqsədini əks etdirmir. Beləliklə, qəbul olunmuş göstəricinin köməyilə bu və ya digər STZ-ni, istehsal amillərinin bu və ya digər göndəricisini müəyyən etmək olmaz, həmçinin ilin dövrləri üzrə ümumi mənfəət payı göstəricisinin dinamikasını da qiymətləndirmək mümkün deyildir. Bu, həmin göstəricinin dinamikasının transformasiya və transaksiya xərclərinin dinamikasından asılılığını, yəni həmin göstəricilərin "qarşılıqlı münasibətlərini" aydınlaşdırmağa imkan vermir.

Başqa bir göstəriciyə - pul axınlarına diqqət yetirək. Məlum olduğu kimi, üç növ belə axın mövcuddur: daxil olan (müsbət) axın, çıxan (mənfi) axın və xalis axın. Əgər axınlar illik dövrdən uzun zaman kəsiyində təhlil edilirsə, bu axınlar diskontlaşdırılmalıdır.

Bizim misalın şərtlərinə qayıdaq. Müəssisənin ümumi pul (maliyyə) axınlarını nəzərdən keçirək (4.1 -ci şəkil).



Göstərilən qrafıkləri təhlil edərək biz hansı suala cavab verə bilərik? 4.1-ci şəkildə gördüyümüz kimi, xalis pul axını, yəni gəlirlərlərin xərclərdən çox olması nəzərdən keçirilən dövrün səkkizinci ayında mənfıdir. Lakin biz daxil olan və çıxan axınların belə nisbətini hansı SXZ-lərin yaratdığını müəyyən edə bilmirik. Qarşıya qoyulmuş suallara cavab vermək üçün bu axınları strateji təsərrüfat zonaları üzrə ayırmaq lazımdır. Belə ayırmanın nəticələri 4.2-ci şəkildə təsvir edilmişdir (Firmanın iqtisadi strategiyası, 2003).

MUHASIBAT.AZ




Ayrı-ayrı axınların təhlili əsasında tamamilə dəqiq demək olar ki, müəssisənin xalis pul axınının "uğursuzluğuna" STZ-1 səbəb olmuşdir. Bununla yanaşı nəzərdən keçirilən dövrün qalan aylarında STZ-1 daha çox həcmdə pul axını verir. Həmin axınların iki ayda kəskin surətdə azalması müşahidə edilir ki, bu da həmin STZ-nin fəaliyyətinin mövsümi xarakter daşıdığını təsdiq edə bilər. Deməli, daha dərin təhlil olmadan bu STZ-yə xidmətdən imtina edilməsi barədə qərar qəbul etmək olmaz. Sonrakı təhlil göstərir ki, STZ-3-ə xidmət kiçik həcmli axınlar verir. Belə vəziyyətin səbəblərinin araşdırılması STZ-3-ə xidmətdən imtina edilməsi və onun daha intensiv xalis pul axınları verən digəri ilə əvəz edilməsi qərarına gətirib çıxara bilər.

Fərqləndirilmiş pul axınlarını təhlil edərək aşağıdakı məlumatı əldə etmək olar:

1. Daxil olan pul axınlarının təhlili:

- bu axınların strukturunda bu və ya digər STZ-yə xidmətlə ala-

MUHASIBAT.AZ

qədar daxilolmaların üstünlük təşkil edən elementləri fərqləndirilə bilər;

- hər bir STZ üçün zəruri zaman intervalları üzrə axınların dəyişməsi meylləri müəyyənləşdirilə bilər;
- elə STZ-lər aşkara çıxarıla bilər ki, onlara xidmət fırma üçün daha çox həcmdə və daim daxil olan axın təmin etsin;
- elə STZ-lər aşkara çıxarıla bilər ki, onara xidmət cüzi və qeyri-sabit daxil olan axın versin.

Çıxan pul axınlarının təhlili:

- bu axınların strukturunda bu və ya digər STZ-yə xidmətlə əlaqədar daxilolmaların üstünlük təşkil edən elementləri fərqləndirilə bilər;
- hər bir STZ üçün zəruri zaman intervalları üzrə axınların dəyişməsi meylləri müəyyənləşdirilə bilər;
- hər bir STZ üçün fırma daxilində axınların həcminə mühüm təsir göstərən transformasiya xərcləri mərkəzləri aşkara çixarıla bilər;
- hər bir STZ üçün fırmanın istehsal amilləri bazarları ilə qarşılıqlı təsirinin, şərtləndirdiyi və axınların həcminə və daimiliyinə mühüm təsir göstərən transaksiya xərcləri mərkəzləri müəyyən edilə bilər;
- onlara xidmətin daha çox həcmdə qeyri-sabit axınlara səbəb olduğu STZ-lər aşkar edilə bilər;
- onlara xidmətin sabit, fırma üçün məqbul çıxan axınlar yaratdığı STZ-lər aşkar edilə bilər.

3. Xalis pul axınlarının təhlili:

- elə STZ-lər aşkar edilə bilər ki, onlara xidmət göstərilməsi qüvvədə olan kontraktlar əsasında məqsədəuyğun hesab edilsin, çünki bu, fırma üçün xalis pul axınlarınm daim daha çox həcmdə olmasını təmin edir;

• elə STZ-lər aşkar edilə bilər ki, onlara xidmət hətta qüvvədə olan kontraktların dəyişdiyi bir şəratdə məqsədəuyğun olmasın;

MUHASIBAT.AZ

- elə STZ-lər aşkar edulə bilər ki, onlara xidmət yalnız firma ilə istehsal faktorlarını göndərənlər arasında qüvvədə olan kontraktların dəyişdirilməsi şərtilə məqsədəuyğundur;
- elə STZ-lər aşkar edilə bilər ki, onlara xidmət yalnız firma ilə bu STZ-lərin müştəriləri arasında qüvvədə olan kontraktların dəyişdirilməsi şərtilə məqsədəuyğundur;
- struktur təhlil əsasında qəbul olunmuş STZ dəstinin formalaşdırılması ilə əlaqədar transaksiya xərclərinin həcminin və strukturunun səmərələşdirilməsi sahəsində tədbirlər hazırlanıb həyata keçirilər bilər;
- bütün xərcləri minimuma endirmək məqşədilə struktur təhlil əsasında qəbul edilmiş STZ dəstinə xidmətin zəruriliyi ilə şərtlənmiş transformasiya xərcləri mərkəzinə təsir üzrə firmadaxili layihələr hazırlanıb həyata keçirilə bilər.

Fərqli pul axınları göstəriciləri əsasında sadə iqtisadi vahidin struktur təhlili aşkara çıxarılmış proporsiyalar və münasibətlər əsasında bu vahidin fəaliyyətinin təkmilləşdirilməsinə dair idarəedici qərarlar hazırlamağa imkan verir.

Beləliklə, istər bütövlükdə milli iqtisadiyyatın, istərsə də onun müxtəlif səviyyəli iqtisadi agentlərinin struktur təhlili ölkədə iqtisadi fəaliyyətin strateji inkişaf məqsədlərinin müəyyənləşdirilməsinin zəruri şərtidir. Struktur təhlilin nəticələri

- milli iqtisadiyyatın, onun ayrı-ayrı sferalarının, sahə və müəssisələrin vəziyyətini kəmiyyətcə və keyflyyətcə qiymətləndirməyə;
- iqtisadi fəaliyyətin müsbət və mənfi inkişaf meyllərinin meydana çıxması səbəblərini aşkara çıxarmağa;
- ölkə miqyasında iqtisadi fəaliyyətə dövlət təsiri prosesinin təkmilləşdirilməsinin üstün istiqamətlərini müəyyənləşdirməyə;
- əhalinin həyatının keyfıyyət səviyyəsinin yüksəldilməsinə, milli, o cümlədən iqtisadi təhlükəsizliyin təmin olunmasına kömək göstərəcək iqtisadi, dövlət və ictimai dəyişikliklərin strateji məqsədlərini hazırlamağa;

MUHASIBAT.AZ

- göstərilən strateji məqsədlərə nail olunmasını təmin edən federal və regional səviyyəli indikativ planlar hazırlamağa;
- milli iqtisadiyyatın üstün strateji məqsədlərini nəzərə almaqla müxtəlif səviyyəli iqtisadi agentlərin iqtisadi strategiyasını formalaşdırmağa imkan verir.

## Nəticələr

1. Struktur təhlilin əsas prinsipləri bunlardır: komplekslilik, müqayisəlilik və dinamiklik. Bu,

- iqtisadi fəaliyyətin müxtəlif aspektlərinin istər sadə, istərsə də kompleks struktur bölmələr və bütövlükdə milli iqtisadiyyat çərçivəsində eyni zamanda, qarşılıqlı əlaqəli şəkildə nəzərdən keçirilməsi;
- milli iqtisadiyyatın miqyasına görə eyni tipli struktur bölmələri üçün nəzərdə tutulmuş struktur göstəriciləri və həmin bölmələrin fəaliyyətinin eyni zaman kəsiklərinin nəzərdən keçirilməsi;
- ayrı-ayrı bölmələr və bütövlükdə milli iqtisadiyyat çərçivəsində iqtisadi fəaliyyətin inkişaf meyillərini aşakara çıxarmaq məqsədilə müəyyən dövrdə bütün struktur bölmələrin dinamikasının nəzərdən keçirilməsi deməkdir.

2. Rusiya milli iqtisadiyyatının vəziyyətinin bəzi göstəricilərinin struktur təhlili göstərir ki:

- Rusiya sənayesinin baza sahələrinin əsas istehsal fondlarının yarısından çoxu istehsal vasitələrinin keyfıyyəti barədə müasir anlayışlara uyğun deyildir;

- milli iqtisadiyyatın yanacaq-xammal (o cümlədən ixracat) yönümü daväm edir.

3. Ayrı-ayrı pul axınları göstəriciləri əsasında sadə iqtisadi vahidin struktur təhlili aşkara çıxarılmış proporsiyalar və münasibətlər əsasında bu vahidin fəaliyyətinin təkmilləşdirilməsinə dair idarəedici qərarlar hazırlamağa imkan verir.

MUHASIBAT.AZ

4. İstər bütövlükdə milli iqtisadiyyatın, istərsə də onun müxtəlif səviyyəli iqtisadi agentlərinin struktur təhlili ölkədə iqtisadi fəaliyyətin strateji inkişaf məqsədlərinin müəyyənləşdirilməsinin zəruri şərtidir.

## Yoxlama sual və tapşırıqlar

1. Struktur və iqtisadi vahidin strukturu ümumi anlayışının tərifini verin. Hansı struktur tipləri təhlil edilir?
2. Birinci tip iqtisadi strukturların təhlilinin mahiyyəti nədən ibarətdir?
3. Birinci və ikinci tip iqtisadi strukturların təhlili arasında fərq nədir?
4. Struktur təhlil zamanı proporsiyalar və münasibətlər necə aşkara çıxarılır?
5. Iqtisadi strukturların istənilən tiplərinin struktur təhlili prinsipləri hansılardır?
6. Rusiya milli iqtisadiyyatının birinci tip struktur təhlilinin fəsildə göstərilən nəticələrini nəzərdən keçirin və onun vəziyyətini proporsiyalar və münasibətlər baxımından qiymətləndirin.
7. Rusiya milli iqtisadiyyatının ikinci tip struktur təhlilinin fəsildə göstərilən nəticələrini nəzərdən keçirin və onun vəziyyətini proporsiyalar və münasibətlər baxımından qiymətləndirin.
8. Sadə iqtisadi vahidlərin struktur təhlilinin məqsədi nədir?
9. Hansı xərc növləri sadə iqtisadi vahidlərin struktur təhlil obyekti olmalıdır?
10. İqtisadi vahidin hansı gəlir göstəriciləri struktur təhlil üçün üstün göstəricilərdir?

II.İqtisadi vahidlərin struktur təhlili əsasında iqdarəedici qərarlar hazırlamaq üçün müəssisənin pul axınlarını necə strukturlaşdırmaq məqsədəuyğundur?

MUHASIBAT.AZ

12. Sadə və kompleks iqtisadi vahidlərin struktur təhlili əsasında hansı idarəedici qərarlar hazırlana bilər?

13. Bütövlükdə milli iqtisadiyyatın və onun ayrı-ayrı iqtisadi vahidlərinin struktur təhlili əsasında hansı nəticələri əldə etmək mümkündür?

MUHASIBAT.AZ

# Fəsil 5

# MİLLİ İQTİSADİYYATIN RƏQABƏT QABİLİYYƏTLİLİYİ

## 5.1. İqtisadi fəaliyyətin rəqabət qabiliyyətliliyi anlayışı

Öncəki fəsillərdə biz ümumilikdə milli iqtisadiyyata və ayrıca iqtisadi agentlərə münasibətdə "rəqabət qabiliyyətliliyi" anlayışından dəfələrcə istifadə etmişk.

Bəs hər hansı iqtisadi agentin rəqabət qabiliyyətliliyi dedikdə nə başa düşülür? Geniş mənada bu anlayış aydın təəssürat oyadır, onu məxsusi izah etməyə ehtiyac görünmür: əgər bu və ya digər təsərrüfat subyekti öz fəaliyyətinin nəticəsinə olan tələbi digərlərindən daha yaxşı ödəyirsə və bunun hesabına uzun müddət inkişaf edirsə, deməli, o

MUHASIBAT.AZ

rəqabət qabiliyyətlilidir. Bütün milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi barədə də anoloji olaraq fikir yürütmək olar.

Lakin bu yalnız ilk təəssüratdır. Bir çox suallar meydana çıxır: digərlərindən daha yaxşı nə deməkdir? Nə dərəcədə yaxşı? Hansı digərləri: proqressiv, yoxsa geridə qalmış? Hansı tələbi: stabil və ya dinamik, tələbkar və ya ixtiyari? İnkişaf nə deməkdir və o nə qədər uzunmüddətli olmalıdır? Bu inkişafı necə qiymətləndirmək olar? Nəhayət, rəqabət qabiliyyətliliyini hansı amillər müəyyən edir?

Bu sualların cavabları ümumi rəqabətli üstünlüklər nəzəriyyəsinin predmetini təşkil edir. Bu nəzəriyyə iqtisadi agentlərin rəqabət qabiliyyətliliyini qiymətləndirmə meyarlarını ortaya çıxarır.

"Rəqabət qabiliyyətliliyi" anlayışının yaranma tarixinə nəzər salaq.

Adam Smit özünün 1776-cı ildə çap olunmuş "Millətlərin sərvətinin təbiəti və səbəbləri haqqında tədqiqat" əsərində merkantilistlərin "dövlətin sərvəti xəzinəyə sahib olmaqdan asılıdır" mülahizəsini tənqid etdi. O bəyan etdi ki, dövlətin real sərvəti onun vətəndaşlarının əldə edə biləcəyi əmtəə və xidmətlərdən ibarətdir. Smit mütləq üstünlüklər nəzəriyyəsini irəli sürdü: bu nəzəriyyədə deyilir ki, bir sıra ölkələr əmttələri digərindən daha effektiv istehsal edə bilər. O deyirdi: "Əgər ölkənin vətəndaşları məhsulu xaricdən ucuz ala bilərlərsə, niyə məhz milli əmtəələri almalıdırlar?" Daha sonra: "Hər bir ağıllı ailə başçısının belə bir qaydası var: nəyisə istehsal etmək onu almaqdan baha başa gəlirsə, onu istehsal etməsin... Bir ailə üçün əlverişli olan qərar bir ölkə üçün mənasız ola bilməz. Əgər Fransa və Portuqaliyadan çaxır gətirmək ucuz başa gəlirsə, onu istixanalar vasitəsilə Şotlandiyada istehsal etmək ağılsızlıqdır. Bununla hamı razıdır – Smit qeyd edirdi, – amma bu axmaqlığı hər yerdə edirlər və

MUHASIBAT.AZ

tarif stavkaları vasitəsilə bizə digər millətlərin təbii üstünlüklərindən faydalanmağa imkan vermirlər”.

Göstərilən nəzər nöqtəsi ölkələrin ölçülərindəki fərqləri hesaba almır. Böyük ölkələr çoxcəhətli təbii-iqlim şəraitinə malik olmaqla, adətən istehsal olunmuş məhsulun az hissəsini satırlar və istehlak olunan əmtəələrin az hissəsini alırlar. Onlar, bir qayda olaraq, daha rəngarəng resurslara malik olur, lakin xarici ticarətdə daha böyük nəqliyyat xərcləri çəkməli olur. Nəhayət, böyük ölkələr istehsalı kiçiklərə nisbətən daha geniş miqyasda həyata keçirə bilir (ayrı-ayrı hallarda kiçik ölkələr digər ölkələri tamamlayıcı məmulatlarla təmin etdikdə, onların istehsalı geniş miqyaslı ola bilir).

1817-ci ildə David Rikardo Smitin ideyalarını inkişaf etdirməklə müqayisəli üstünlüklər nəzəriyyəsini irəli sürdü. Onun mahiyyəti bu tezisdə ifadə olunur: hər bir halda ticarətdə uduş var, belə ki, bu və ya digər ölkə bir çox fərqli məhsullar istehsal edir. Lakin o yalnız müəyyən məhsulların istehsalında müqayisəli üstünlüyə malikdir. Bu o deməkdir ki, ölkə o məhsulların istehsalında ixtisaslaşmalıdır ki, mütləq üstünlük nəzərə alınmamaqla, onları digərlərindən daha effektiv istehsal edə bilər. Başqa sözlə, hər bir ölkə istehsalında uğur qazandığı məhsulları ixrac edir, istehsalında digər ölkələrin uğur qazandığı məhsulları isə idxal edir.

Mütləq və müqayisəli üstünlüklər nəzəriyyələrinin modifikasiyası öz əksini İsveç alimləri Eli Hekşer və Bertil Olinin əsərlərində tapıb (1919 və 1935-ci illər). Onların nəzəriyyəsi istehsal amillərinin nisbəti nəzəriyyəsi adını alıb. Onlar təxmin etdilər ki, əmək resursları torpaq və kapitala nəzərən artıq olarsa, onda əməyə xərclər az olacaq, torpağın qiyməti və kapitala xərclər isə yüksək olacaq. Əgər əmək ehtiyatları məhduddursa, kapital və torpağa nəzərən onun dəyəri çox olacaq. Hekşer-Olin teoremi: ölkə istehsalında artıq istehsal amilləri daha effektiv istifadə olunan məhsulları ixrac edir, nadir istehsal amillərindən istifadə olunan məhsulları isə idxal edir.

MUHASIBAT.AZ

Nobel mükafatı laureatı, rus mənşəli amerikan alimi V.V.Leontyev istehsal amillərinin nisbəti nəzəriyyəsini tənqid etdi. Onun “Leontyev ziddiyyəti” adı almış nəticələri Hekşer-Olinin nəticələrinə tamamilə əks idi. Leontyev göstərdi ki, kapitalın artıqlığına baxmayaraq ABŞ-ın ixracında əmək tutumlu məhsullar üstünlük təşkil edir.

XX əsrin 90-cı illərində M.Porter rəqabətli üstünlüklər nəzəriyyəsini irəli sürdü. Bu nəzəriyyəyə görə rəqabətli üstünlük resurslardan istifadənin məhsuldarlığını əks etdirir. Bu prinsip həm müəssisə, həm də milli iqtisadiyyat səviyyəsində doğrudur.

## 5.2. Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsi

Bu qiymətləndirilmə birbaşa və dolayı ola bilər. Öncəki fəsildə təklif edilmiş birbaşa qiymətləndirilmə dövlətin strateji məqsədlərinin məcmusuna nail olunması məqsədilə milli sərvətin istifadə edilmə

MUHASIBAT.AZ

dərəcəsinin müəyyən edilməsinə əsaslananırdı. Milli iqtisadiyyatın rəqabət qabiliyyətlilik dərəcəsinin dolayı qiymətləndirilməsi ümumi milli məhsulun (ÜMM) hər vahidinin istehsalına xərclənən resursların (milli sərvətin elementlərinin) həcminə nəzərən aparıla bilər.

Rəqabət qabiliyyətliliyinin həm birbaşa, həm dolayı qiymətləndirilməsi yalnız digər ölkələrin anoloji göstəriciləri ilə müqayisədə real əhəmiyyətlidir. Bu zaman isə müqyisə obyektinin seçilməsi problemi ortaya çıxır. Bu problemin həlli üçün dünya təcrübəsində rəqabət qabiliyyətliliyinə görə ölkələrin reytinqini qiymətləndirməyə imkan verən müxtəlif metodlar işlənib hazırlanmışdır.

Beynəlxalq reytinqlərdə Rusiya rəqabət qabiliyyətliliyinə görə ənənəvi olaraq inkişaf etməkdə olan ölkələrə aid edilir. Onlar yüksək siyasi və iqtisadi qeyri-stabillik, əlverişsiz investisiya mühiti, eləcə də təsərrüfat fəaliyyəti üçün çox böyük risklərlə xarakterizə olunur.

Belə ki, 2001-ci ilin aprelində Menecmentin inkişafı beynəlxalq institutu tərəfindən hazırlanmış reytinqdə 49 ölkə arasında 45-ci yerdə qərarlaşmışdı. Hər il Ümumdünya İqtisadi Forumunda təqdim edilən cari rəqabət qabiliyyətliliyi reytinqində isə 2001-ci il üzrə Rusiyaya 75 ölkə arasında 58-ci yer verilmişdi.

Bu institutun rəqabət qabiliyyətliliyi üzrə reytinqlərində Rusiyanın müqayisəli mövqeyi (ilk və son beş ölkə) aşağıdakı kimidir:

| | **2000-ci il** | **2001-ci il** |
|---|---|---|
| ABŞ | 1 | 1 |
| Sinqapur | 2 | 2 |
| Finlandiya | 4 | 3 |

MUHASIBAT.AZ

| | | |
|---|---|---|
| Lüksemburq | 6 | 4 |
| Niderland | 3 | 5 |
| Rusiya | 47 | 45 |
| Kolumbiya | 45 | 46 |
| Polşa | 38 | 47 |
| Venesuela | 46 | 48 |
| İndoneziya | 44 | 49 |
| *Cəmi ölkə:* | 47 | 49 |

Təqdim olunmuş reytinqdə Rusiyanın mövqeyi fəsilin əvvəlində verilmiş "rəqabət qabiliyyətliliyinin qiymətləndirilməsində müqayisə üçün baza rolunu kim və ya nə oynayır" sualına cavab verməyə imkan verir. Əgər 2000-ci ilin göstəricilərinə nəzər salsaq, müqayisə obyekti seçməyə ehtiyac qalmır, çünki Rusiya sonuncu yerdədir. 2001-ci ildə onun vəziyyəti yaxşılaşıb: son beş ölkə arasında 1-ci yer. Təbii ki, bu mövqe Rusiyanı qane edə bilməz, üstəlik o, bir sıra fundamental rəqabət üstünlüklərəinə malikdir. Rusiyanın faydalı qazıntıların 50 növü üzrə balans ehtiyatlarının məcmu dəyəri 30 trl. ABŞ dolları dəyərində qiymətləndirilir. O həmçinin yüksək ekoloji potensiala da malikdir. Rusiyanın ixtisaslı və nisbətən ucuz işçi qüvvəsi var. İnnovasiya-texnoloji potensialı da yüksək səviyyədədir.

Son illərdə Rusiya ən dinamik və uğurla inkşaf edən iqtisadiyyatlar sırasına daxil olub və müvafiq beynəlxalq reytinqlərdə aparıcı yerləri tutur:

MUHASIBAT.AZ

- ÜDM-nin artım templərinə görə 7-ci və adambaşına ÜDM-nin artım templərinə görə 4-cü yer;
- məcmu daxili investisiyaların və ev təsərrüfatlarının son istehlak xərclərinin artımı templərinə görə 4-cü yer;
- sənaye istehsalının artımı templərinə görə 6-cı və kənd təsərrüfatı istehsalının artımı templərinə görə 7-ci yer;
- ictimai məhsuldarlıq (real ÜDM artımının iqtisadiyyatda məşğul olanların sayına nisbəti) templərinə görə 1-ci yer;
- federal hökumətin borclarının azaldılmasına görə 1-ci yer və büdcə profisitinin həcminə görə ilk yerlərdən biri;
- ixracın həcminin artımı tempinə görə 30 ən böyük ixracatçı arasında 2-ci yer;
- ticarət balansının və cari əməliyyatların müsbət saldosunun həcminə görə 2-ci yer, qızıl-valyuta ehtiyatlarının artımına görə ilk yerlərdən biri.

Lakin əgər bu məlumatları təhlil etsək, onların azı yarısı dünyanın xammal və enerji daşıyıcıları bazarlarında konyunkturdan, başqa sözlə, milli iqtisadyyatın xammal oriyentasiyasına bağlıdır.

## 5.3. Milli iqtisadiyyatın, onun sahələrinin və ayrı-ayrı iqtisadi agentlərinin rəqabət qabiliyyətliliyinin əsasları

### Milli rəqabət üstünlüklərinin determinantları

Fəsilin əvvəlində qoyulmuş suallara cavab vemək üçün ölkənin milli rəqabət üstünlüklərinə təsir edən amilləri nəzərdən keçirmək lazımdır. M.Porterin nəzəriyyəsində bu amillər rəqabət üstünlüklərinin

MUHASIBAT.AZ

determinantları sxemi şəklidə təqdim olunmuşlar və onlara aiddir: **(şək. 5.1)**

- istehsal amilləri parametrləri;
- əmtəə və xidmətlərə tələb parametrləri;
- ölkənin müəssisələrinin strategiyaları, onların strukturu və rəqabəti;
- ölkənin malik olduğu yaxın və tamamlayıcı sahələrin xarakteri.




MUHASIBAT.AZ

**Şəkil 5.1. Milli iqtisadiyyatın sosial-iqtisadi konsepsiyasını nəzərə almaqla rəqabət üstünlükləri determinantlarının ümumi sistemi**

MUHASIBAT.AZ

Bu sistemə həmçinin “təsadüfi hadisələr” və “hökumətin fəaliyyəti” də əlavə edilir, belə ki, onlar ölkənin rəqabət üstünlüklərini ya gücləndirə, ya da zəiflədə bilər.

Bu determinantları nəzərdən keçirək:

*Amillər parametri.* İstehsal amilləri – istehsal prosesində ayrı-ayrı iqtisadi agentlərin, eləcə də bu agentlərin yerləşdiyi ölkənin rəqabət üstünlüklərinin formalaşması üçün zəruri olan maddi (əşyavi) və qeyri-maddi (institutlar) şərtlərdir.

Amillərin konkret qiymətindən (parametrdən) asılı olaraq, milli iqtisadiyyatın bu və ya digər sahəsində fəaliyyət göstərən hər hansı müəssisə (və ya digər agent) istehsalın rəqabət üstünlüklərinin yaradılması və saxlanılması üçün əlverişli və ya əlverişsiz şərtlər əldə edə bilər. Bu amillər ümumi və xüsusi hissələrə, yəni bilavasitə bütün və ya bəzi spesifik müəssisələrə aid olan amillərə ayrılır.

*Müəssisələrin strategiyası, strukturu və rəqabət.* Hər bir müəssisə daha yaxşı mövqe tutmaq və rəqabət üstünlüklərindən faydalanmaq üçün özünəməxsus rəqabət strategiyasından istifadə edir. Bu o deməkdir ki, rəqib müəssisələrin aksiya və kontr-aksiyaları müəssisələrin fəaliyyəti üçün yeni şərtlərin meydana gəlməsinə səbəb olur. Əgər ölkədə rəqabət mühiti yoxdursa, və ya zəif inkişaf edibsə, müəssisələr arasında rəqabət yoxdursa, əgər onların strategiyaları rəqabət mühitində fəaliyyətə istiqamətlənməyibsə, onda nə daxili, nə də xarici bazarlarda rəqabət üstünlüklərinin yaranmasını gözləmək lazım deyil.

*Tələb amilləri.* Bunlara ilk növbədə alıcıların əmtəə və xidmətlərin keyfiyyətinə qarşı tələbkarlığı; tələbin qiymətə, gəlirlərin səviyyəsinə nəzərən elastikliyi, çarpaz elastiklik; müxtləif sosial qrupların bu və ya digər tələbatın aktuallığını dərk etmə dərəcəsi; milli

MUHASIBAT.AZ

adət-ənənələr; tələbin həyat tsiklinin fazaları və tələbin həcmini və onun dinamikasını xarakterizə edən digər parametrlər aid edilir.

*Yaxın və tamamlayıcı sahələr*. Milli iqtisadiyyatda inkişaf etmiş yaxın və tamamlayıcı sahələrin, yəni müəssisələri lazımi material, yarımfabrikat, tamamlayıcı məmulatlar və digər maddi vasitələrlə, eləcə də informasiya obyektləri ilə təmin edən sahələrin mövcudluğu ölkənin hər bir müəssisəsinin digər ölkələrin müəssisələri ilə müqayisədə rəqabət üstünlüklərinin yaradılması və saxlanılması üçün mühüm şərtdir.

Yaxın sahələr bazara əvəzləyici məhsullar, yeni materiallar, texnologiyalar çıxarmaqla özləri də rəqabətə girə bilərlər. Onlar bazarda innovasiyaların imitatoru və yenilikçi kimi çıxış edə bilərlər. Buna görə də onları xidmət etdikləri ayrı-ayrı müəssisələrdə və ya sahələrdə elmi-texniki tərəqqinin stimulyatorları hesab etmək olar.

*Təsadüfi hadisələrin rolu.* O hadisələrə təsadüfi demək olar ki, onlar ölkə iqtisadiyyatının ümumi inkişaf şərtləri ilə uyğunluq təşkil etmir və onların baş verməsinə nə müəssisələr, nə də hökumət təsir göstərə bilmir. Bunlara kəşflər, böyük texnoloji irəliləyişlər, dünya bazarlarında qiymətlərin kəskin dəyişməsi aid ola bilər. Ən böyük təsiri isə fors-major haları – təbii fəlakətlər, müharibələr, epidemiyalar göstərə bilər. Bununla bərabər, qeyd etmək lazımdır ki, bəzi “təsadüfi” hallar müəyyən dərəcədə şərtləmdirilə bilər. Belə ki, əgər hökumət və ya hər hansı fondlar fundamental və tətbiqi araşdırma və tədqiqatları maliyyələşdirməzsə, “təsadüfi” texniki və texnoloji irəliləyişlər baş verməz.

Təsadüfi hadisələr rəqib müəssisələrin mövqelərinə təsir edə bilər.

MUHASIBAT.AZ

*Hökumətin rolu*. Bu kontekstdə hökumət dedikdə biz həm qanunverici, həm də icra hakimiyyətinin müxtəlif səviyyələrini başa düşürük. Rəqabət üstünlüklərinin formalaşmasında hökumətin rolu bütün determinantlara təsir göstərməkdən ibarətdir. O, bütün determinantlara təsir edə və onların təsirinə (həm müsbət, həm də mənfi) məruz qala bilər. Amillərin, həmçinin tələbin parametrlərinə hökumətin pul-kredit, vergi, büdcə, sosial siyasətləri təsir göstərir. Bu, eləcə də digər parametrlər iqtisadi agentlərin maraqlarının lobbiləşdirilməsi, yaxud da ictimai təşkilatların fəaliyyəti vasitəsilə qanunverici və icra hakimiyyətinin qərarlarına təsir edə bilir. "Milli romb"un (M.Porterin terminologiyasına görə) determinantlarının bir-birinə qarşılıqlı təsiri ayrı-ayrı firmaların və ümumilikdə milli iqtisadiyyatın rəqabət üstsnlüklərinin formalaşması və artması üçün bu və digər şərtləri meydana çıxarır.

Bu və ya digər rəqabət üstünlüklərinin olub olmaması, onların milli iqtisadiyyat və onun ayır-ayrl sahələri və iqtisadi agentləri üçün əhəmiyyəti rəqabət qabiliyyətliliyinin yüksək və ya aşağı olmasının əsasını təşkil edir. Əgər rəqabət üstünlüklərinin azı bir determinantı tələb olunan səviyyəyə uyğun gəlmirsə, onda nə ölkə, nə də onun firmaları daxili bazarda, və ələlxüsus xarici bazarlarda yüksək rəqabət qabiliyyətliliyinə nail ola bilməzlər.

## Rəqabət üstünlüklərinin regional determinantları

Rusiya kimi geniş əraziyə malik bir ölkədə ayrı-ayrı iqtisadi vahidlərin rəqabət üstünlüklərinin regional amilləri xüsusi əhəmiyyət kəsb edir.

*Birinci qrup* amillər regionun ictimai əmək bölgüsündə tarixən şərtlənmiş geosiyasi rolu ilə əlaqədardır. Belə ki, məsələn, Rusiya Federasiyasının Leninqrad vilayəti tarixən Rusiyanı Avropa ilə

MUHASIBAT.AZ

birləşdirən mühüm nəqliyyat arteriyası rolunu oynamışdır. Onun ərazisi ilə Çin və Hindistandan başlayan, Qərbi Avropaya gedən böyük ticarət yolu keçirdi.

Bizim zamanımızda da Leninqrad vilayəti Rusiyanın şərq rayonlarının Avropa ilə əlaqəsini təmin etməklə, Rusiya üçün strateji əhəmiyyətini nəinki itirməmiş, hətta daha da artırmışdır. Buna görə də bu vilayətin ərazisində yerləşən müəssisə və sahələrin rəqabət üstünlüklərinin yaradılması və saxlanılması üçün ən rasional strateji istiqamət onların nəqliyyat kommunikasiyalarına xidmət göstərməsi olardı. Son illərdə port tikililərinin, dəmiryolu və avtomobil magistrallarının inkişafı inkişaf etdirilməsi vilayətin əsas məqsədi olmuşdur. Buna görə də bu strateji məqsədin yerinə yetirilməsinə ən yaxşı xidmət edən müəssisə və firmalar digər federasiya subyektlərinin, eləcə də Pribaltika və Skandinaviya ölkələrinin müəssisələri ilə rəqabət mübarizəsində qalib ola biləcəklər.

Deyilənlər heç də o anlama gəlmir ki, hər region və ya Federasiya subyekti avtarkiyaya can atmalı və bunu öz tarixi mövqeyi ilə izah etməlidir. Həmçinin bu o demək deyil ki, yalnız bilavasitə qlobal strateji məqsədlərə nail olunmasına xidmət edən sahələri inkişaf etdirmək lazımdır. Regionun bu və ya digər geo-siyasi mövqeyi onun iqtisadi inkişaf strategiyasını daha da məqsədyönlü edir.

*İkinci qrup* amillər regionların malik olduqları resursların xarakteri və ərazicə yerləşməsi ilə bağlıdır. Rəqabət üstünlüklərinin saxlanılması üçün zəruri olan resursların olub olmaması öz təsirini bu regionun ərazisində yerləşən müəssisələrinin xərclərinin həcmində göstərir. Bu xərclər elə yüksək ola bilər ki, regionun müəssisələri eyni bazarlarda digər regionların müəssisələri ilə müqayisədə rəqabət qabiliyyətinə nail ola bilməsinlər. Bu cür resursların olub olmaması

MUHASIBAT.AZ

həmçinin region müəssisələrinin iqtisadi təhlükəsizliyinə də təsir göstərir.

Ərazisində strateji resurslar zonası yerləşən hər hansı regionda fors-major hadisəsinin baş verməsi bu regionun müəssisələrinin iqtisadi təklükəsizliyinin itirilməsinə səbəb ola bilər. Buna görə də mütləq ölkə ərazisində, yaxud onun xaricində ehtiyat strateji zonalar “şəbəkə”si mövcud olmalıdır. Belə şəbəkə qarşılıqlı səmərəli kontraktlar vasitəsilə formalaşır.

*Üçüncü qrupa* müəssisənin yerləşdiyi regionda istehsal və sosial infrastrukturun inkişaf səviyyəsini xarakterizə edən amillər daxildir.

İnkişaf etmiş infrastruktura malik regionlarda firmanın rəqabət üstüünlüklərinə nail olması daha ucuz və asan olur. Əgər region istehsal və sosial infrastrukturun əsas elementləri ilə təmin olunmamışdırsa, və ya bu strukturların bu və ya digər elementləri iqtisadi agentin fəaliyyət xarakterinə uyğun gəlmirsə, bunu etmək xeyli çətinləşir. Məsələn, məlumdur ki, beynəlxalq bazarlarda rəqabət mübarizəsində o firmalar qalib gəlir ki, onların müəssisələri sərhəddən 100 milə qədər məsafədə yerləşmiş olsun. Belə yerləşmə firmalara imkan verir ki, həm hazır məhsulun, həm də xammal və yardımçı materialların daşınması zamanı nəqliyyat xərclərinə əhəmiyyətli dərəcədə qənaət etsinlər.

Regionda sosial infrastrukturun zəif inkişaf etməsi şəraitində iqtisadi agentlərin “individual” sosial infrastruktur elementlərini yüksək səviyyədə saxlamalı olması bu agentlərin xərclərini xeyli artırır. Bu şrəaitin nəzərə alınmaması isə mənfi sosial nəticələrə səbəb ola bilər: işçi qüvvəsinin itkisi, firmanın personalı və rəhbərliyi arasında konfliktlər, kompensativ ödənişlərin artması və s.

MUHASIBAT.AZ

*Dördüncü qrup amillər* iqtisadi fəaliyyətin regional hakimiyyət tərəfindən tənzimlənməsi prinsiplərini xarakterizə edir. Yuxarıda qeyd edildiyi kimi, rəqabət şəraitində belə tənzimlənmənin mümkün prinsiplərindən biri indikativ planlaşdırma sistemi ola bilər.

Göstərilən regional xarakterli amillər ayrı-ayrı iqtisadi agentlərin rəqabət üstünlüklərinin yaranması və saxlanılması şərtlərini müəyyənləşdirməklə bərabər, eyni zamanda, regionda yerləşmiş bütün sahələrin rəqabət qabiliyyətliliyini formalaşdıran determinantlar kimi də nəzərdən keçirilməlidir **(şək. 5.2).**

Regional determinantların məcmusu bu və ya digər Federasiya subyektinin ərazisində müəyyən sahibkarlıq mühiti yaradır. Bu mühit rəqabət üstünlüklərinin formalaşması üçün əlverişli, yaxud əlverişsiz şərait yaratmaqla iqtisadi agentlərin rəqabət qabiliyyətliliyinə əhəmiyyətli təsir göstərir.

Agentlər hakimiyyət strukturlarının regional siyasətinə fəal təsir göstərə bilmədiyinə görə, onların diqqəti regionda olan müxtəlif növ resursların daha rasional istifadəsi metodlarının axtarışına yönəldilməlidir. Rəqabət üstünlüklərinin səviyyəsinin yüksəldilməsi regionun istehsal amilləri bazarları ilə bağlı olmaya da bilər. Bu rolda digər regionların və ya digər ölkələrin bazarları da çıxış edə bilər. Hər bir ayrıca halda iqtisadi agentin öz məqsədlərini daha effektiv yerinə yetirə bilməsi üçün bu və ya digər bazarın üstünlüklərini ciddi araşdırmaq lazımdır.

MUHASIBAT.AZ




MUHASIBAT.AZ

**Şəkil 5.2**. Regonda təmsil olunan sahələrin rəqabət qabiliyyətinə təsir edən şərtləri formalaşdıran determinantlar

## 5.4. Rusiya Federasiyasının milli iqtisadiyyatının sahələrində rəqabət qabiliyyətliliyi potensialı

Rəqabət qabiliyyətliliyi potensialı, yəni daxili və xarici bazarlarda digər ölkələrlə rəqabət imkanları ilk növbədə müvafiq sahəvi bazarlarda yerli məhsulların (əmtəə və xidmətlərin) üstünlük təşkil etməsi ilə xarakterizə olunur.

XXI əsrin əvvəlində Rusiya iqtisadiyyatının bəzi sahələrinin rəqabət qabiliyyətliliyi potensialını nəzərdən keçirək.

*Metallurgiya kompleksi.* Qara metallurgiya Rusiya iqtisadiyyatının bazar şərtlərinə ən yaxşı uyğunlaşmış və istehsal və kadr potensialını saxlaya bilmiş az sahələrindən biridir.

MUHASIBAT.AZ

2000-ci ildə Rusiya polad və prokat ixracına görə dünyada birinci yerə çıxdı. Lakin ixracın strukturunda ucuz yarımfabrikatlar və digər ucuz mallar üstünlük təşkil etdiyinə görə ixracın dəyərinə görə Rusiya iki liderdən – Yaponiya və Almaniyadan geri qalır. Metal ixracına kvotalarına qoyulmasından sonra Rusiya məhsullarının Qərbi Avropa və Şimali Amerika bazarlarına daxil olmasına məhdudiyyətlər var, bunun nəticəsində ixracın həcminin artırılması imkanları məhduddur.

Əlvan metallurgiya daha əlverişli rəqabət qabiliyyətlilik potensialına malikdir. Əsas əlvan metalların 80%–dən çoxu ixrac olunur. Onlar arasında əsas yerləri alüminum xammalı, rafinə olunmuş mis və nikel tutur. XXI əsrin başlanğıcında Rusiya dünyanın mis istehsalının 15%–nə malikdir. Dünya mis ixracının isə 11%-i Rusiyanın payına düşür. Dünyanın nikel ixracında Rusiyanın payı 30–35%–ə, emal olunmamış alüminumda isə 81%–ə çatır.

Əlvan metalların ixracının effektivliyinin artırılması tədricən yüksək əlavə dəyərə malik məhsulların ixracına keçilməsindən asılıdır.

*Kimya və neft-kimya sənayesi məhsulları* Rusiya ixracının əmtəə strukturunda sabit mövqeyə malikdir. Onların ixracda payı 7–8% təşkil edir. Kimya məhsulları ixracı arasında əsas yeri mineral gübrələr (ümumi kimya məhsullarının 30–35%–i), plasmas (10–12%), neft-kimya məhsulları (8–9%) və sintetik kauçuk (7%) tutur.

*Maşınqayırma məhsulları*. Rusiya atom elektrik stansiyaları üçün avadanlıqların yaradılmasında dünya liderlərindən biridir. Müasir nüvə texnologiyaları dünya energetika avadanlığı bazarında rəqabət qabiliyyətlidir.

Rusiyanın *raket-kosmos sənayesi* daha böyük rəqabət qabiliyyətliliyinə malikdir. Bu, xüsusən pilotlaşdırılan kosmonavtika, kosmosa zəruri yüklərin çıxardılması, raket-kosmik texnika

MUHASIBAT.AZ

elementlərinin satışı, Yerin distansion zondlaşdırması, peyk rabitə sistemləri və s. sahələrinə aiddir. Eləcə də yüksək rəqabət qabiliyyətli ənənəvi hərbi aviasıya texnikası bazarı saxlanılmaqdadır.

*Mülki gəmiqayırma* sahəsində rəqabət qabiliyyətliliyi də kifayət qədər yüksəkdir. Rusiya qarışıq "çay-dəniz" üzmə gəmilərinin, dinamik sürət prinsipli gəmilərin tikintisi üzrə dünya lideridir. Onların texniki xarakterisstikaları dünya nailiyyətlərini qabaqlayır.

Rusiya *elektrotexnika məhsulları* bazarında müəyyən ixrac potensialıın saxlayır. "Üçüncü dünya" ölkələrinə kabel və məftil, mühərrik, generator və transformator ixrac edir. Lakin texniki səviyyə yüksəldilməzsə, perspektivdə bu potensial itirilə bilər.

*Elektron sənayesinin* payına ümumi ixracın 20%–i düşür. İxracın əsasını inteqral mikrosxemlər, elektrovakuum cihazları, yarımkeçiricilər və s. təşkil edir. Perspektivdə texniki parametrlər üzrə bu rəqabət qabiliyyətliliyi və potensialı itirilə bilər.

*Avtomobil sənayesinin* məhsullarını məhdud rəqabət qabiliyyətli adlandırmaq olar. Onlar "üçüncü dünya" ölkələrində aşağı qiymət hesabına satılır. İxrac potensialının və rəqabət qabiliyyətliliyinin inkişaf perspektivləri müəssisələrin texniki təchizatının yenilənməsi, məhsulların keyfiyyətinin və texniki xarakteristikalarının yaxşılaşdırılması ilə bağlıdır. Dünya minik avtomobilləri bazarının dolu olması, dünyanın əsas avtomobil istehsalçıları arasında gərgin rəqabət, bu məhsulların texniki-iqtisadi parametrlər, keyfiyyət və etibarlılıq baxımdan beynəlxalq standartlardan geri qalması rus avtomobillərinin dünya bazarlarında sıxışdırılıb çıxmasına səbəb oldu.

*Meşə sənaye kompleksinin* payına Rusiyanın ixracının 4,5%–i düşür. Bu məhsullar keyfiyyət və qiymətinə görə rəqabət qabiliyyətlidir, lakin ixracın əhəmiyyətli hissəsi az emal olunmuş, yəni aşağı əlavə dəyərli

MUHASIBAT.AZ

məhsullardan ibarətdir. Ixracın artırılmasının perspektivləri qiymət rəqabət qabiliyyətinin saxlanılmasından asılıdır.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, Rusiyanın rəqabət qabiliyyətliliyi potensialının artırılması üçün onun milli iqtisadiyyatının əsas sahələrinin əsaslı yenidən qurulması zəruridir.

Dünya ticarət dövriyyəsində Rusiyanın payı 90-cı illərin əvvəllərindən XX əsrin sonunadək 2–2,5%–dən 1,4–1,7%–ə enmişdir. Bununla bərabər, milli ixracın nisbətən yüksək dəyər həcminin saxlanılmasına yalnız qiymət amilləri nəticəsində nail olunmuşdur, halbuki, real ölçüdə Rusiya ixracının dinamikası dünya göstəricisindən geri qalırdı.

Ənənəvi olaraq Rusiyanın yanacaq-xammal bazarlarında mövqeyi daha möhkəm və sabit olub. Xammal bazarları istisna olmaqla, Rusiyanın ixracatçı kimi kifayət qədər əhəmiyyətli olduğu çox az mövqelər mövcuddur. Əksər hallarda Rusiyanın mülki hazır məhsul və yüksək texnoloji məmulat bazarlarında mövqeyi çox zəifdir. Yerli maşın, avadanlıq və nəqliyyat vasitələrinin dünya texniki məmulatları bazarında xüsusi çəkisi 0,3–0,4%-dən artıq deyil; onun dəyər göstəricisi isə yeni sənayeləşmiş ölkələrdən dəfələrlə aşağıdır, inkişaf etmiş ölkələrlə isə müqayisəyə gəlmir (ABŞ-ın göstəricisinin 2%–i, Yaponiya və Almaniyanın 3%–i, Fransa və Böyük Britaniyanın 7%–i, Cənubi Koreya və Meksikanın 9%–i). Digər ölkələrə texniki yardım çərçivəsində xüsusi texnika və avadanlıq satışı, eləcə də MDB ölkələri ilə kooperasiya razılaşmaları istisna olunsa, Rusiyanın real rəqabət qabiliyyətli texnoloji məhsullarının həcmi 2–3 mlrd. dollar qiymətləndirilir. Bu isə müvafiq məmulatların dünya bazarının mində biri deməkdir.

Dünyanın əmək tutumlu sənaye məhsulları bazarının ümumi həcmi 2,5–3 mlrd. dollardır. Rusiyanın bu bazarda iştirakı yalnız nüvə texnologiyaları, silah və hərbi texnika, kosmik peyklər, telekommunikasiya və naviqasiya infrastrukturu yaradılması sahələrində gözə çarpır. Yüksək texnoloji məmulatların ixracı dünya bazarının 0,3%–ni təşkil edir.

MUHASIBAT.AZ

2001-ci ildə uzaq xaricə ixracın əmtəə strukturu aşağıdakı kimi olmuşdur:

- metallar, qiymətli daşlar və onlardan olan məmulatlar – 20,4%;
- maşın və avadanlıqlar – 8,6%;
- kimya məhsulları – 6,8%;
- meşə-kağız məmulatları – 5,0%;
- digər məhsullar – 3%;
- yanacaq-energetika məhsulları – 56,2%.

Ölkənin yanacaq-xammal ixtisaslaşması rekord həcmdə satışı təmin etməklə yanaşı, Rusiyanın dünya bazarlarının konyunkturunun çətin proqnozlaşdırılan tərəddüdlərindən çox asılı olmasını göstərdi.

## Nəticələr

1. Sözün geniş mənasında rəqabət qabiliyyətliliyi dedikdə o başa düşülür ki, hər hansı təsərrüfat subyekti öz məhsuluna olan tələbi digərlərindən daha yaxşı ödəyir və bunun hesabına uzun müddət çiçəklənir və inkişaf edir. Bütün milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi barədə anoloji olaraq fikir yürütmək olar.
2. Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin səviyyəsi ümumi milli məhsulun (ÜMM) hər vahidinin istehsalına xərclənən resursların (milli sərvətin elementlərinin) həcmi ilə müəyyən olunur. Bu isə ölkədə milli və regional rəqabət üstünlüklərinin mövcudluğundan asılıdır.
3. Rəqabət üstünlüklərinin milli determinantları ölkənin bütün iqtisadi agentlərinin fəaliyyəti üçün şərtləri, regional determinantlar isə ölkənin müəyyən regionlarının özünəməxsus şəraitini formalaşdırır.
4. Rəqabət qabiliyyətliliyi potensialı, yəni daxili və xarici bazarlarda digər ölkələrlə rəqabət imkanları müvafiq sahəvi bazarlarda yerli məhsulların (əmtəə və xidmətlərin) üstünlük təşkil etməsi ilə xarakterizə olunur. Bu potensial Rusiyanın milli iqtisadiyyatının müxtəlif sahələri üçün fərqlidir.

MUHASIBAT.AZ

# Fəsil 6

# MİLLİ İQTİSADİ FƏALİYYƏT VƏ BEYNƏLXALQ İQTİSADİ MÜNASİBƏTLƏR

## 6.1. Ölkənin beynəlxalq iqtisadi mövqeyinə təsir edən amillər

Hər bir xalq dünyanın tərkib hissəsidir. Müxtəlif ölkələrin inkişaf etmiş ölkələrə çatmaq cəhdləri nə qədər yüksək olur olsun, başqa ölkələrin çoxunun özlərində nisbətən kompleks iqtisadiyyatını yaratmaq arzuları necə olur-olsun, bütün ölkələr arasında əmtələərlə, xidmətlərlə, kapitallarla mübadilə gedir. Əmək bölgüsü yalnız ayrı-ayrı iqtisadiyyat sahələrində getmir. Obyektiv, mövcud olan beynəlxalq əmək bölgüsü beynəlxalq iqtisadi mövqeyindən asılı və həmin ölkənin beynəlxalq iqtisadi fəaliyyətdə tutduğu yerlərdən asılı olan milli və xüsusilə iqtisadi təhlükəsizliyi təmin etmək kimi həyat əhəmiyyətli zəruriyyətdən irəli gəlir.

MUHASIBAT.AZ

Millətlərin beynəlxalq iqtisadi mövqeyinə milli iqtisadiyyatın inkişaf səviyyəsi, milli iqtisadiyyatın strukturu, onun iqtisadi qüdrəti kimi amillər təsir göstərir. Bu amillərin əsas istiqamətləri əvvəlki fəsillərdə şərh olunmuşdur. Burada yalnız bu amillərin beynəlxalq iqtisadi münasibətlərin xarakteri ilə qarşılıqlı əlaqələrin bəzi məsələlərinə baxılır.

**İnkişaf səviyyəsi.** Beynəlxalq münasibətlərdə millətin mövqeyi millətlərin əmtəə və xidmətlər sahəsində tələb və təkliflərini müəyyən edən milli gəlirdən və istehsalın həcmindən asılılığı fərqləndirir. Bu mövqeyə həmçinin bu və ya digər ölkənin milli varlığının həcmi də təsir edir.

BMT-nin tədqiqatlarında maraqlı nəticələr əldə edilmişdir.

1. İnkişaf etmiş və sənaye ölkələri dünya ixracında və idxalında birinci yer tuturlar.
2. İnkişaf etmiş ölkələr başlıca olaraq xammal və ərzaq məhsulları idxal edərək hazır məhsulu ixrac etdiyi zaman zəif inkişaf etmiş ölkələr başlıca olaraq hazır məhsulun və xammalın ixracçıları olurlar.
3. Fraxtdan (dəniz ticarətindən), sığortadan və başqa bu cür xidmətlərdən qazancın praktiki olaraq hamısı inkişaf etmiş ölkələrin payına düşür.
4. İnkişaf etmiş ölkələr kapitallarını dondururlar, nəticədə öz investisiyalarından daha çox gəlir götürürlər, eyni zamanda zəif inkişaf etmiş ölkələr borc alanlar və borclular rolunda çıxış edirlər, illik faizləri ödəyirlər və borcları ödəyirlər.
5. Təqribən bərabər iqtisadi gücə malik sənayecə inkişaf etmiş ölkələr praktiki olaraq idxala eyni meylli olurlar.

**Milli iqtisadiyyatın strukturu.** İnkişaf səviyyəsi necə olur olsun milli iqtisadiyyatlar müxtəlif strukturlara malik olurlar. (4-cü fəslə bax.) Əmtələrin, xidmətlərin və kapitalların idxal və ixrac həcmi və tərkibi iqtisadiyyatın strukturundan asılıdır.

MUHASIBAT.AZ

Milli iqtisadiyyatın strukturunun beynəlxalq ticarətə təsirinin iqtisadi, təhlili zamanı aşağıdakı göstəricilərdən istifadə etmək olar:

- millətlərin beynəlxalq ticarətdən asılılıq əmsalı-ölkə daxilində istehlak olunan əmtəə və xidmətlərin dəyərinin xaricdən daxil olan əmtəə və xidmətlərin dəyərinə nisbəti;

- idxal və ixraca meyllik-idxalın (ixracın) milli gəlirə nisbəti;

- idxala meyilliyin marjinallığı (son həddi) – əlavə idxalın artımının milli gəlir artımına nisbəti;

- idxal və ixracın qiymət və gəlirlərə nisbətdə elastikliyi - idxal və ixracın qiymət və gəlirlərin nisbi enib-qalxmasından asılılığı.

**<u>Millətlərin iqtisadiyyatının fəaliyyətinin təşkilati əsasları.</u>** Millətlərin beynəlxalq münasibətlərdə iştirakı hər bir ölkənin iqtisadiyyatının təşkilatı strukturlarından asılı olaraq, daha doğrusu ölkədə fəaliyyət göstərən iqtisadi qaydaların xüsusiyyətlərindən asılı olaraq müxtəlif formalarda həyata keçirilir.

İqtisadi qaydanın iki əsas istiqamətini ayıraq: iri iqtisadi qruplaşmalarının fəaliyyəti və dövlətin iqtisadi fəaliyyətə təsiri prinsipləri;

İri iqtisadi qruplaşmaların beynəlxalq iqtisadi əlaqələrə təsiri necədir?

İri milli konsernlər bir tərəfdən, öz iqtisadi gücünə əsaslanaraq bəzi strateji cəhətdən mühüm əmtəələrlə beynəlxalq ticarətin həcminə və qiymətlərinə hərtərəfli təsir göstərir. Onlar başqa ölkələrin rəqabət aparan firmaları bu fəaliyyətə adaptasiyası strategiyasına qaçmağa və ya tabe olmağa məcbur edir. Digər tərəfdən isə bu konsernlər beynəlxalq bazarların qanunlarına tabe

MUHASIBAT.AZ

olmayan geniş ərazilərarası sənaye imperiyaları yaratmağa cəhd göstərəcəklər.

Dövlətin iqtisadi fəaliyyətə təsiri prinsipləri dövlətin iqtisadi siyasətində, xüsusilə də ticarət, valyuta və maliyyə siyasətində reallaşır. İqtisadi siyasətin istiqaməti dövlətin yerinə yetirdiyi əsas funksiyalardan asılı olan dövlət quruculuğu modeli müəyyən edir:

1) Qüvvədə olan institusional sistemdə nəzərdə tutulmuş qaydaları qoruyub saxlamağa yönəlmiş mühafizə, proteksionizm;
2) İctimai nemətlər istehsalı ilə bağlı olan, məhsuldar.

Dövlətin istiqamətləndirilmiş birinci funksiyasını, ədəbiyyatları proteksionist (C. Byukenen), yaxud konkret (D. Nort) adlandırlar. İkinci funksiyaya istiqamətləndirilmiş dövlət müvafiq olaraq məhsuldar (C.Byukenen), yaxud qarətci, yırtıcı (T.Qobbe). Real həyatda dövlət bu funksiyaların hər ikisini yerinə yetirir. Söhbət dövlətin bu və ya digər funksiyasına və onların reallaşdırılması proporsiyalarına sadiqlikdən gedə bilər.

**Ticarət siyasəti** – bu və ya digər əmtələrə və xidmətlərə idxal və ixrac rüsusmlarının miqdarının müəyyən edilməsində, habelə müəyyən əmtəələrin idxalı və ya ixracına kəmiyyət məhdudiyyətləri vasitələrindən (rıcaqlarından) istifadə edilməsində əks olunur. Dövlət quruluşu və dünya iqtisadi sistemində yaranmış stiuasiyadan (vəziyyətdən) asılı olaraq dövlətin bu tədbirləri daha radikal və ya liberal xarakterə malik ola bilər.

**Valyuta siyasəti** – ya valyuta nəzarətinin tətbiqindən, yaxud da Mərkəzi Bankın (MB) valyuta bazarının fəaliyyətinə (valyuta intervensiyası, valyuta koridoru və s.) müdaxiləsindən ibarətdir. Bu siyasətin xarakteri beynəlxalq vəziyyətdən və dövlətin qurluşu modelindən asılıdır. Belə ki, məsələn, MB-ın valyuta intervensiyasından valyuta bazarlarının qeyri-sabitliyi dövründə xüsusi valyutanı müdafiə etmək üçün istifadə olunur.

MUHASIBAT.AZ

**Dövlətin maliyyə siyasəti** – kapitalların və uzunmüddətli investisiyaların (faiz stavkaları, birbaşa borclar və s.) beynəlxalq hərəkətinə təsir göstərməkdən ibarətdir. Bu siyasət ölkənin investisiya cəlbediciliyinə təsir göstərmək məqsədilə kapitalların gəlməsini və getməsini tənzimləməyə imkan verir.

**İqtisadi güc**. Beynəlxalq iqtisadi əlaqələr müxtəlif güclərin iqtisadiyyatları arasında hakim mövqe tutan (əsas) və buna nail olmağa çalışan iqtisadiyyatlar arasında münasibətlərdir.

Milli iqtisadiyyatın hakim mövqe tutma dərəcəsi aşağıdakı amillərdən asılıdır:

- mallara və xidmətlərə dünyanın tələb və təklifdə onun iştirakı miqyasını müəyyən edən ölkənin ölçüsü;

- həmin dövlətdə strateci xarakterə malik iqtisadiyyat sahələrinin miqdarı;

- beynəlxalq ticarətdə dövlətin danışıq mövqeyi nəzərdən gücü.

Milli iqtisadiyyatın hakim mövqeyə çıxarılması kanalları və formaları kimi aşağıdakı əlamətləri götürmək olar:

- hakim mövqe tutan iqtisadiyyat özünəməxsus dəyişikliklərlə başqa ölkələrin iqtisadiyyatında dəyişikliklərə təhrik edir.

- hakim mövqe tutan iqtisadiyyat öz tələb və təklifləri vasitəsilə beynəlxalq ticarətə təsir edir;

- hakim mövqe tutan iqtisadiyyat Ümumdünya ticarət təşkilatı (ÜTT) tipində beynəlxalq ticarət təşkilatları vasitəsilə dünya ticarətinin təşkili şərtlərinin müəyyən edilməsində iştirak edir;

- hakim mövqe tutan iqtisadiyyat özünə sərfəli yeni bazarlar yaratmağa yardım etmək, başqa ölkələrdə özünə arzulanan

MUHASIBAT.AZ

formalarda təşkilatların meydana gəlməsinə kömək etməklə beynəlxalq iqtisadiyyatın yeni strukturlarını (məsələn, transmilli kompaniyalar) yarada bilər.

Beləliklə, beynəlxalq iqtisadi münasibətlər yalnız fərqli ixtisaslaşmaya malik, hakim mövqeli və hakim mövqe tutmağa çalışan tiplərə malik müxtəlif inkişaf səviyyəli ölkələr arasında ola bilər. Bununla belə nəzərə almaq lazımdır ki, həm ölkədaxili , həm də beynəlxalq səbəblərin təsiri altında bütün qeyd olunan amillər daim hərəkətdədir. Ölkənin beynəlxalq iqtisadi mövqeini qiymətləndirmək üçün istifadə oluna bilən kəmiyyət təhlili ölkənin tədiyyə balanslarının təkamülü dövrünü öyrənmək əsasında həyata keçirilir:

Ölkənin tədiyə balanslarının təkamülü dövrü aşağıdakı mərhələləri (fazaları) keçir;

**Gənc borclu** – istehsal amillərini əldə etmək məqsədilə ölkə yüksək faizli borclara gedir. Onun ticarət balansı defisitlidir. (idxal, xüsusilə maşın və avadanlıqlar üstün yer tutur). Xidmət və gəlirlərin balansları da həmcinin defisitlidir (borc alınmış kapitala görə faizlər). Xarici kapitalların daxil olması cari ödəmələr balansıda defisiti örtməyə kömək edir.

- **yaşlı borclu** – ölkə ticarət balansının pozitivliyinə nail olmağa başlayır. Gəlirlər balansında defisit davam edir (faizlər və dividentlər üzrə ödənişlər). Yeni borcların xeyli hissəsi əvvəllər alınmış kreditlərin ödənilməsinə sərf olunur;

- **kamil borclu** - cari ödənişlər balansı aktivləşir. Artıq vəsait əvvəllər alınmış borcun ləğv edilməsi üçün istifadə olunur.

**gənc kreditor** – ticarət balansı və xidmətlər balansı pozitivdir. Cari ödənişlər balansı bütövlükdə aktiv saldoya malikdir. Kapitalın hərəkəti balansı passivdir, belə ki, cari xərclər balansının positiv

MUHASIBAT.AZ

saldosu köhnə və yeni investisiyaların maliyyələşdirilməsi üçün istifadə olunur;

**yaşlı kreditor** – onun ticarət balansı və xidmətlər balansı defisitidir. Eyni zamanda gəlirlər balansı və cari xərclər balansının saldosu bütövlükdə aktivdir. Kapitalların hərəkəti balansı defisit olaraq qalır; xarici investisiyalardan gəlirlər ticarət balansının passivini kompensasiya etməyə və xaricdə yeni qoyuluşları həyata keçirməyə imkan verir;

**kamil kreditor** – ölkə kamil ölkələrdən – borcverənlərin ödənişlərindən borcları qaytarmaq üçün vəsait almaqla öz xarici investisiyalarını qaytarır. Ölkə iqtisadi qocalan orqanizmə çevrilir və yeni artım dövründən əvvəlki vəziyyətdə görünür.

Qeyd olunan dövrə fasiləsiz ardıcıl proses kimi baxmaq olmaz. Fasilələr və həm də geriyə qayıtmalar da ola bilər. Tarix təsdiq edir ki, ölkələrin tədiyə balanslarının transformasiyasında müharibələr boyük rol oynamışdır. Belə ki, 1939-1945-ci illər müharibəsində İngiltərə borclu ölkəyə çevrildi, britaniya dominionları gənc kreditorlar dövlətləri səviyyəsinə çatdı.

Tədiyə balanslarının sistematik təhlili milli iqtisadiyyatın bərabərlik mexanizmi və xarici dünyanı müşahidə etməyə və ölkənin möhkəm beynəlxalq mövqeni təmin edən iqtisadi siyasətin müvafiq istiqamətlərini işləyib hazırlamağa imkan verir.

## 6.2. Milli iqtisadiyyatın dünya iqtisadi sisteminə qovuşması prinsipləri

Dünya iqtisadi sistemi iqtisadi, sosial, ideoloji qaydaları eyni olan və ya fərqlənən, qarşılıqlı əlaqəli milli iqtisadiyyatları özündə

MUHASIBAT.AZ

birləşdirir. Bununla əlaqədar bu və ya digər Ölkənin milli iqtisadiyyatı və dünya iqtisadi sisteminin qarşılıqlı münasibətləri sistemi problemi meydana gəlir.

Burada həmin problemin başlıca istiqamətini ayırmaq lazımdır: dünya sistemi bu və ya başqa ölkəyə münasibətdə «daha çox əlverişli recimi»ni müəyyən edirmi, yaxud, əksinə bu ölkənin qapalı iqtisadi və sosial qruplaşmalara girməyini çətinləşdirəcək və ona meylə yol verməyəcəkmi? Bu iqtisadi gücə malik, öz şərtlərini hökm edən, özünə dünya iqtisadi sistemə birləşmək üçün məqbul formada iddiaçılıq edə bilən bu və ya digər ölkə üçün hakim ölkələr və qruplaşmalar şəraiti daha çox aktualldır.

Dünya birliyinə iddiası olan bu və ya digər ölkənin bəzi «Qəbulolmanın» istiqamətlərinə baxaq. «Qəbulolmanın» mühüm meyarlarından biri, hər hansı qruplaşmaya birləşdirmək istəyən ölkənin iqtisadi, siyasi və ideoloji qaydalarının hər hansı bir iqtisadi qruplaşmaya daxil olmaq istəyən qruplaşmada mövcud olan bu qaydaların xarakterinə uyğunluğudur.

Məşhur «Fridum Xaus» təşkilatı 1989-1990-cı illərdə 61 ölkədə aparılmış tədqiqatlarının nəticələrini 1990-cı ilə dərc etdirmişdir. Bu tədqiqatlarda ölkələr üç kateqoriyaya bölünmüşdü: «azad», «qismən azad» və «azad olmayan». Bu kateqoriyalar iki amili nəzərə almaqla seçilirdi:

1. insanlara siyasi proseslərdə azad iştirak etmək imkanlarını verən siyasi hüquq;
2. azadlıqla bağlı olan, dövlətdən asılı olmayan inamları və şəxsi (o cümlədən iqtisadi) baxışları inkişaf etdirən mülki hüquq;

Müayinənin nəticələrinə görə tədqiq olunan dövrdə dünya əhalisinin 60%-dən çoxu demək olar ki, eyni liberal demokratiyalı, rəsmən müəyyən edilmiş siyasi hüquqların müdafiəsi, təminatı və hüquqi özünütənzimləmək (institusional) mexanizminə malik,

MUHASIBAT.AZ

vətəndaş azadlığı olan «azad» və «qismən azad» ölkələrdə yaşamışdır.

Avropa İttifaqına daxil olan bütün ölkələr də həmçinin «azad» kateqoriyasına aid olmuşdur. «Azad ölkə» anlayışını qətiyyən ideallaşdırmadan bu anlayışın nisbi xarakterini dərk etməklə biz həmçinin etiraf etməliyik ki, Aİ ölkələrində, hansı ki, aparıcı elitin «sosialist»dən «monarxiyaya» qədər siyasi oriyentasiyasında köklü fərqlər var, burada demokratiyanın iqtisadi qaydanın xarakterinə yaxın müxtəlif formaları (liberaldan konservativə qədər) ilə uyğunlaşan istiqamətlər müəyyən edilmişdir. Beləliklə, məsələn, Rusiya üçün bütün digər şərtlər daxilində inkişaf etmiş demokratiyaya malik sosial yönümlü bazar iqtisadiyyatlı AS tipində güclü qruplaşmalarda birləşəcək formalaşmış iqtisadiyyatı və siyasi qaydaların Rusiyada formalaşdırılması şərtilə «daha çox əlverişli şərait yaratmaq rejiminə» nail olmaq mümkündür. Xüsusən də, ona görə ki, Rusiya Federasiyasına, onun Mülki Məcəlləyə görə dövlət (siyasi) qaydası bu idarəetmənin demokratik formasıdır. Nəhayət, məsələn, Rusiya üçün bütün digər bərabər şərtlər «Daha çox əlverişli şərait yaratmaq recimi»nə nail olmaq üçün başqa mühüm əhəmiyyətli şərt hakim iqtisadi qruplaşma və həmin ölkənin qruplaşmada kim kimi qəbuluna maraqlı olmasıdır. Strateji əhəmiyyətli faydalı qazıntı ehtiyatlarının həcmi və strukturununa Qərbi Avropanın Aİ-na birləşən ölkələrin əmək tutumlu proseslərdə və strateci xammalın əldə edilməsi işində Mərkəzi və Şərqi Avropanın ucuz işçi qüvvəsindən istifadəyə dəqiq marağı olması kimi nəticəyə gəlmək üçün Qərbi, Mərkəzi və Şərqi Avropada əməyin ödənilməsi səviyyəsinə nəzər salmaq kifayətdir.

**Cədvəl 6.1**

MUHASIBAT.AZ

Faydalı qazıntı ehtiyatları (dünya ehtiyatlarına nisbətdə faizlə)[1]

| | Qərbi Avropa | Mərkəzi və Şərqi Avropa |
|---|---|---|
| Neft | 4 | 22 |
| Təbii qaz | 4 | 30 |
| Kömür | 20 | 25 |
| Uran | 20 | 25 |
| Qiymətli metallar | 2 | 25 |
| Əlvan metallar | 6 | 16 |

**Mənbələr;** Avropa Statistika Komitəsi. EBRR, İqtisadi hesabat, Dünya sənaye atlası, Milli statistika; National Statistics, İnstitut der deutschen Wiktschaft İMD, OECD, İWN, WHW.

Qərbi Avropada orta saatlıq əmək haqqı-17,78, Mərkəzi və Şərqi Avropada -1,23 ABŞ dolları təşkil edir.

Beləliklə, milli iqtisadiyyatın dünya iqtisadi sistemə, daha doğrusu onun hakim qruplaşmalara birləşməsi, müəyyən şərtlərlə birləşən ölkələrin bu qruplaşmalara qəbul edilməsidə maraqlı və iqtisadi, siyasi qaydaların oxşarlığı şəraitində həyata keçirilə bilər.

İqtisadi birləşmə çoxmərhələli prosesdir. Adətən bir-birinə güzəştlər edən ölkələr arasında razılaşmalarla başlanır. Bir

MUHASIBAT.AZ

səviyyədən digərinə keçdikcə birləşmə dərəcəsi tədricən artır. (**Cədvəl 6.2**).

**Cədvəl 6.2.**

İqtisadi birləşmə mərhələləri.

| S/n. | İnteqrasiya birləşmələrinin adları | Rüsumla-ra münasi-bəti | Xarici iqtisadi siyasət tipi | İstehsal amillərinə münasibəti | İqtisadi siyasətin tipi |
|---|---|---|---|---|---|
| 1. | Azad ticarət zonası | Ləğv edilmişdir | Üçüncü ölkələrə iştirakçı ölkələrin fərdi xarici siyasət ticarəti | İstehsal amillərinin sərbəst hərəkəti yoxdur | Hər bir ölkə öz iqtisadi siyasətini həyata keçirir. |
| 2. | Gömrük birliyi | Ləğv edilmişdir | Üçüncü ölkələrlə vahid xarici ticarət | İstehsal amillərinin sərbəst hərəkəti | Hər bir ölkə öz iqtisadi siyasətini həyata keçirir. |

MUHASIBAT.AZ

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | siyasəti | yoxdur | |
| 3. | Ümumi bazar | Ləğv edilmişdir | Üçüncü ölkələrlə vahid xarici siyasəti | İstehsal amillərinin sərbəst hərəkəti | Hər bir ölkə öz iqtisadi siyasətini həyata keçirir. |
| 4. | İqtisadi birlik | Ləğv edilmişdir | Üçüncü ölkələrlə vahid xarici ticarət siyasəti | İstehsal amillərinin sərbəst hərəkəti | Bütün iqtisadi siyasətin (pul müstəsna olmaqla) vahid əlaqələndirilməsi |
| 5. | İqtisadi və valyuta birliyi | Ləğv edilmişdir | Üçüncü ölkələrlə vahid xarici ticarət | İstehsal amillərinin sərbəst hərəkəti | Vahid iqtisadi (o cümlədən pul siyasəti də) siyasət |

Birləşmənin bu və ya digər səviyyəsində ölkəni seçmək ölkədə və dünya iqtisadi sistemində yaranan vəziyyətdən asılıdır ki, bu da əvvəlki paraqrafda qeyd edilmiş amillərlə müəyyən edilir. Bununla belə, birləşmə səviyyəsi haqqında qərarın qəbul edilməsi, bu zaman hər bir ölkə üçün spesifik yaranan problemlərin təhlili ilə əlaqədardır.

## 6.3. Ümumdünya Ticarət Təşkilatı - dünya iqtisadi sistemində birləşmənin institusional əsasıdır

MUHASIBAT.AZ

Əmtəələrlə və xidmətlərlə ticarətin və mülkiyyət aspektlərinin ticarəti ilə əlaqədar qaydaları müəyyən etməklə məşğul olan, ümumdünya ticarət sisteminin vahid instiusional əsası olan Ümumdünya ticarət təşkilatının (ÜTT) nəzərə aldığı ölkənin dünya iqtisadi sisteminə birləşməsinin prinsipal əsasnaməsini nəzərdən keçirək. ÜTT qabaqcadan müəyyən edilmiş azad ticarət rejiminin təmin edilməsini və iştirakçılar arasında münasibətlərin həll edilməsi özünün başlıca funksiyası hesab edir.

2002-ci ilin əvvəlinə ÜTT-nın tam səlahiyyətli iştirakçıları 147 dövlət olmuşdur. 30-a qədər ölkə, o cümlədən Rusiya müşahidəçidir. 50-yə qədər beynəlxalq təşkilat da müşahidəçidir ki, bunların arasında Beynəlxalq valyuta fondu (BVF) və Dünya bankı da varıdır.

ÜTT-də qərar, kansensus əsasında bütün ölkələr – iştirakçılar qəbul edirlər və milli parametrlər təsdiq edirlər.

ÜTT-yə daxil olması üsulu daxil olan ölkənin iştirakçıların hər biri ilə razılaşdırılmış ticarət şərtlərində öz əksini tapır. ÜTT-yə daxil olanda ölkənin qanunları ÜTT-nin normalarını təmin etməlidir. Bu normalar həddindən artıq sərtdir; iqtisadiyyatın dövlət büdcəsinin dotasiyasından imtina etməsi, büdcənin,vergiödəyicilərin pulunun iqtisadiyyatın seçilmiş sahələri arasında yenidən bölüşdürülməsi mexanizmi olmayıb, sosial yönümlü olmasıdır. İdxal rüsumları azaldılmalıdır; ÜTT-yə daxil olmasının bir dəfə razılaşdırılmış şərtləri praktiki olaraq dəyişdirmək olmaz və s. Buradan belə qənaətə gəlmək olar ki, ÜTT-yə daxil olmaq istəyən ölkədə iqtisadi fəaliyyəti təsdiq edən bütün əsas institutlara yenidən baxılmalıdır.

ÜTT-yə daxil olmazdan əvvəl bu etibarın nəticəsində milli iqtisadiyyatda qazanc və itkilər balansını təhlil etmək lazımdır. Rusiya üçün ÜTT-ə daxil olmaq nə ilə nəticələnə bilər?

MUHASIBAT.AZ

**<u>ÜTT-ə daxil olmadan qazanc</u>;**

- ÜTT-nin qəbul etdiyi ticarətin hüquqi reqlament sisteminə daxil olması hesabına insafsız rəqabətdən müdafiə hüqüqünu əldə etmək;

- özlərinin milli mənafelərini nəzərə almaqla beynəlxalq ticarət qaydalarının hazırlanmasında iştirak etmək;

- rusiya məhsullarının xarici bazarlara çıxışı üçün yaxşı şəraiti əldə etmək;

- özlərinin rəqabətədavamlılıqlarını yüksəltməkdə Rusiya müəssisələrinin struktur islahatlarını və güclərini aktivləşdirmək;

- beynəlxalq ticarətin tam hüquqlu iştirakçısı kimi Rusiyanın imicini yaxşılaşdırmaq, Rusiyanın investisiya iqlimini yaxşılaşdırılmaq;

**<u>Milli iqtisadiyyata itkilər və təhlükələr;</u>**

- idxalın genişlənməsinin güclənməsi və onun nəticəsi olaraq rəqabətədavamsız sahələrin və müəssisələrin iflası;

- ixrac rüsumlarının ləğvi nəticəsində vergilərin artması zəruriyyəti və büdcəyə daxil olmaların azalması;

- enerji nəticəsi kimi tariflərini dünya səviyyəsinə qədər qaldırmaq məqsədilə Rusiyaya təziqin güclənməsi, bunun da nəticəsi kimi milli iqtisadiyyatın bütün sahələrində qiymətli rəqabət üstünlüklərini itirməyə gətirib çıxarması;

- Rusiyanın yeni istehsalatı qarışdırmaq üçün xarici istehsalçıları hazır məhsul gətirmək və idxalın liberallaşması ilə əlaqədar əldə edilmiş daxili bazarı yenidən istiqamətləndirməsi;

MUHASIBAT.AZ

Rusiya bazarına daxil olmanın liberallaşdırması və yerli istehsalçıların oradan sıxışdırılması ilə əlaqədar sosial xərclərin həcminin artması (müəssisələrin bağlanması, iş yerlərinin azalması, miqrasiya və s.).

Qeyd olunan qazanc və itkilərin təhlili ölkənin dünya iqtisadi sisteminə birləşməsinin obyektiv ilkin şərtlərinin mövcudlluğunu və ya olmamasını müəyyən etməyə, habelə birləşmə ilə bağlı problemləri aşkara çıxartmağa imkan verir. Bu problemlər çox ciddidir. Onlardan bir neçəsini qeyd edək.

1. Rusiyaya ÜTT-na daxil olmaq lazımdırmı? kimi başlıça suala cavab vermək lazımdır. Rusiyanın dünya iqtisadiyyatına birləşməsi labüddür, ancaq ölkənin rəqabət üstünlüyünü gələcəkdə təmin edə bilən istehsalı da itirmək olmaz.
2. Rusiya ÜTT-na daxil olmaqla milli rəqabətin üstünlüyünü, itirməyəcəyini biləcəyini müəyyən etməlidir.
3. Rusiya kompaniyaları aşağıdakı suallara cavab verən qlobal strategiyanı tərtib etməlidir; idxalla rəqabətdə daxili bazarı necə itirməmək olar? Xarici bazarda mövqeini necə qorumaq olar?
4. Cəmiyyət beynəlxalq əmək bölgüsünə qoşulması ilə əlarədar problemləri qiymətləndirməlidir. Ölkənin təsərrüfatının bütöv sahələr itirməsinə yol vermək olarmı? İşsizliyin səviyyəsi necə ola bilər? Bu, cəmiyyəti nə ilə qorxudur?
5. Dövlət iqtisadi strategiyasını işləyib hazırlamalıdır. Perespektivli milli kompaniyyalara necə kömək etmək olar? Bazarlarda onların mənafelərini necə qorumaq olar? Hansı şərtlərlə və nə vaxt ÜTT-na girmək olar?

Yuxarıda qeyd olunan bütün problemlər bilavasitə Rusiya müəssisələrinə məxsus daxili problemləri dərinləşdirəcəkdir (ağırlaşdıracaq). Müəssisələrin anketləşdirilməsinin nəticələrinə görə Rusiyanın müəssisələri ÜTT-na daxil olanda rastlaşacağı problemləri aşağıdakı kimi görmək olar (sorğuya cəlb olunmuş idarə rəhbərlərinin ümumi sayına görə faizlə):

Köhnəlmiş avadanlıqlar və texnologiyalar 39

MUHASIBAT.AZ

| | |
|---|---|
| Modernləşdirməyə vəsaitin olmaması | 28 |
| Qiymətə görə rəqabətədavamsızlıq | 24 |
| Dizayn və keyfiyyətə görə rəqabətədavamsızlıq | 15 |
| Elmi tədqiqatlara vəsaitin olmaması | 5 |
| Daxili bazarın daralması | 18 |
| Təbii inhisarların xidmətlərinə yüksək qiymətlər | 45 |
| İnstitusional mühitin təkminləşdirilməməsi | 9 |
| Bazarların xarici əmtəələrlə «doldurması» | 13 |

Belə problemlərin mövcudluğu birləşmə ideyası ilə silahlanmasında ölkənin hakim elitasının istəklərinə mənfi təsir göstərə bilər. Bununla əlaqədar əks istiqamətli –özünüizolizasiya (təkləmə) siyasətinin əsas müddəalarına yenidən baxılmalıdır.

Tarixi təcrübə göstərir ki, bu və ya digər ölkə heç də həmişə birləşməyə can atmır, burada ya böhranlı iqtisadi və siyasi situasiyalarda (məsələn, müharibəyə hazırlaşma və ya müharibə aparma) milli iqtisadiyyatı qorumaq zəruriyyəti ilə, yaxud da ekspansiyaya (genişlənməyə) can atması, yəni özgə ərazilərdən lazımı resurslar zəbt etməyi artırmaq yolu ilə «həyat mühitini» genişləndirməyə əsaslanırlar. Bu cür sisyasət idxaldan tamamilə və ya qismən imtina etmək və özünütəminə keçmədə özünü göstərir. Beləliklə, avtarkiya (təcavüz) doktrinası bütün başqa dövlətlərdən ölkənin iqtisadi müstəqilliyini müdafiə edir.

Avtarkiya sisyasətinin məqsədi himayəçilik siyasətindən köklü fərqlənir, belə ki, sonuncu beynəlxalq ticarətin faydalandığını imtina etmir və bütün zəruri məhsullarla və resurslarla tam özünütəminetmə vəzifəsini də qarşıya qoymur.

MUHASIBAT.AZ

Özünüizalyasiya siyasətini qəbul etmiş dövlətlərin əsaslandığı dəlillərdən asılı olaraq iki tipdə avtarkiya fərqləndirilir. (Peru F., 1940).

**<u>Özünə qapanma avtarkiyadır</u>.** Bu tip müharibəyə hazırlıqla və müharibənin özü ilə bağlıdır və bir sıra tədbirlərin görülməsi ilə xarakterizə olunur:

- idxalın xeyli hissəsindən imtina etmək və valyuta əməliyyatlarına nəzarət;

- əvəzedicilərin və sintetik məmulatların istehsalını həvəsləndirmək siyasəti İkinci dünya müharibəsinə hazırlıq dövründə Almaniyada geniş tətbiq edilmişdir, bu zaman çoxlu miqdarda necə deyərlər «surruqatlar» (saxta) istehsal edilmişdir;

- ölkənin bütün məhsuldar qüvvələrindən tam istifadə edilməsi.

**<u>Ekspansionizmin avtarkiyası.</u>** Öz tələbatlarını ölkənin sərəncamında olan xüsusi resurslar səviyyəsinə qədər aşağı salmamaq üçün avtarkiya ölkəsi mübadilə və ya yeni ərazilərin ələ keçirilməsi yolu ilə öz resurslarını genişləndirməyə çalışmalıdır. Praktiki olaraq bütün Avropanı zəbt etməklə Almaniya ələ keçirilmiş ölklərin resurslarından SSRİ-yə qarşı müharibə və öz ölkəsinin əhalisinin həyat səviyyəsinin yüksəldilməsində istifadə etmişdir.

Avtarkiya siyasəti milli iqtisadiyyatın fəaliyyətinin səmərəliliyini aşağı salır, belə ki, ölkə beynəlxalq ticarətin inkişafı nəticəsində əldə edilən mütləq və nisbi üstünlüklərindən istifadə imkanlarından məhrum olur. Ancaq müəyyən şəraitdə belə siyasət avtarkiya siyasətinin həyata keçirilməsi nəticəsində özünə məxsus və ya zəbt etmək hesabına ölkənin topladığı resurslardan istifadə etməklə müxtəlif növlərdə özünün istehsalının (hətta az səmərəli) hesabına əhalinin məşğulluq səviyyəsini artırmağa imkan verə bilər.

MUHASIBAT.AZ

Belə resurslar olmadıqda avtarkiya siyasəti istər-istəməz öz əhalisinin tələbatlarının primitivləşməsinə, yaxud da onların natamam ödənilməsinə gətirib çıxara bilər. Əhalinin həyat səviyyəsi azalır, məhsullarda rasion tətbiq olunur.

Bununla belə, nəzərə almaq lazımdır ki, həddindən artıq idxaldan asılılıq ölkənin iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərə bilər. Deməli, dünya iqtisadi sisteminə birləşmə siyasəti iqtisadi, nəticə etibarilə ölkənin milli təhlükəsizliyi ilə də sıx əlaləqadırdır. Yalnız bu amil ölkənin ÜTT-yə daxil olmasının şərtlərini əlaqələndirən zaman, həm birləşmənin strateji məqsədlərini işləyib hazırlamaq, həm də onlara nail olmaq üçün vəsaitlərin seçimində həlledicidirlər. Belə məqsədlər və vasitələr ola bilər:

- Rusiyanı dünya güc mərkəzləri sırasında saxlamaq, ölkənin əhalisinin həyat səviyyəsini dünya standartlarına çatdırmaq;

- təsərrüfatmın «çatdırıcı modernləşdirilməsini» həyata keçirmək, iqtisadi artımın yüksək teplərini (yaxın 10-15 ilə 8-10%) saxlamaq;

- daxili bazarı mənimsəmək və inkişaf etdirmək üçün ancaq avtarkiyanı istisna edən (texnoloji və istehlak strandartlarını müdafiə edən) göstərişlər hazırlamaq;

- milli sənayenin rəqabətədavamlılığını qorumaq, möhkəmləndirmək və artırmaq;

- sənaye siyasəti-dövlət tədarükü, subsidiyalar, kreditlər, təminatlar, gömrük tənzimləmələri, sahə monitorinqi və üstünlüklərin seçilməsi – milli istehsalçıların rəqabətədavamlılığını artırmağa yönəldilmiş iqtisadi siyasətin özəyidir;

- ÜTT-yə daxil olması şərtləri rusiya iqtisadiyyatının müxtəlif sahəlirndə rəqabətin tənzimlənməsi vasitəsi kimi çıxış edir

MUHASIBAT.AZ

(Rusiyanın geri qaldığı sahələrdə taxçalar açmaq, vətən istehlakçıları xarici rəqabətə hazır olmayan, lakin milli təhlükəsizlik nöqteyi nəzərdən onları itirmək mümkün olmayan sahələrdə taxçaları bağlamaq).

Beləliklə, belə nəticəyə gəlmək olar ki, ölkənin dünya iqtisadi sisteminə birləşməsi həm elmi planda- hakimiyyət strukturlarının birləşməsi prosesinin təşkilində, həm də ölkənin geniş ictimayyətinin bu prosesə əlverişli münasibətinin formalaşmasında ciddi hazırlıq tələb olunur.

## Nəticələr

1. Millətin beynəlxalq iqtisadi mövqeinə milli iqtisadiyyatın inkişaf səviyyəsi, milli iqtisadiyyatın strukturu, onun iqtisadi qüdrəti kimi amillər təsir edir.
2. Milli iqtisadi sistem eyni və ya fərqlənən iqtisadi, siyasi və ideoloci qaydalara malik, qarşılıqlı əlaqəli milli iqtisadiyyatları özündə birləşdirir ki, bu da dünya iqtisadi sistemlə bu və ya digər ölkənin milli iqtisadiyyatı arasında qarşılıqlı münasibətlər problemlərinin meydana gəlməsinə gətirib çıxarır.
3. Milli iqtisadiyyatın dünya iqtisadi sisteminə, yəni onun hakim qruplaşmalarına birləşməsi yalnız iqtisadi və siyasi qaydaların oxşarlığı və bu qruplaşmaların müəyyən şərtlərlə birləşən ölkələrin qəbuluna marağı əsasında həyata keçirilə bilər.
4. Əmtəələrlə, xidmətlərlə və mülkiyyət aspektləri ilə əlaqədar ticarət qaydalarının müəyyən edilməsi ilə məşğul olan, ümumidünya ticarət sisteminin vahid institusional əsası olan ÜTT milli iqtisadiyyatın dünya iqtisadi sistemə birləşməsinin əsas müddəalarını müəyyən etmişdir. ÜTT özünün başlıca vəzifəsini azad ticarət rejimini təmin etməyi və iştirakçıların arasında mübahisələri həll etməyi hesab edir.
5. ÜTT-yə daxil olanda ölkənin qanunları ÜTT-nin normalarını təmin etməlidir.

MUHASIBAT.AZ

6. Tarixi təcrübə göstərir ki, ya böhranlı iqtisadi və ya siyasi vəziyyətlərdə (məsələn, müharibəyə hazırlıq və ya müharibə aparması) milli iqtisadiyyatı qorumaq zəruriyyəti ilə əlaqədar, yaxud da ekspansiyaya can atdıqda bu və ya başqa ölkə birləşməyə cəhd göstərmir. Belə siyasət idxaldan tam və ya qismən imtina etməkdə və özünü təmin etməkdə (avtarkiya) təzahür edir.

7. Həddindən artıq idxaldan asılılıq ölkənin iqtisadi təhlükəsizliyinə mənfi təsir göstərə bilər. Buna görə də dünya iqtisadi sisteminə birləşmə siyasəti iqtisadi, nəhayət ölkənin milli təhlükəsizliyi ilə sıx əlaqədardır.

## Yoxlama suallar və tapşırıqlar

1. Millətlərin beynəlxalq iqtisadi mövqeyinə hansı amillər təsir edir?
2. Beynəlxalq bazarlarda sənayecə inkişaf etmiş ölkələrin üstünlüyü özünü nədə göstərir? Hansı göstərici əsasında bu üstünlüyü kəmiyyətcə qiymətləndirmək olar?
3. Ölkənin beynəlxalq mövqeyinə iri iqtisadi qruplaşmaların təsiri necədir?
4. Ölkənin tədiyə balanslarının təkamül dövrü hansı mərhələlərdən (fazalardan) keçir? Sizin fikirinizcə Rusiya hansı mərhələdədir?
5. Ölkənin dünya iqtisadi sisteminə birləşməsinin hansı səviyyələri sizə məlumdur? Sizin fikirinizcə bu səviyyələrin hansı Rusiya üçün daha çox yararlıdır?
6. ÜTT-yə daxil olanda Rusiyanın milli iqtisadiyyatında baş verən problemləri təhlil edin.
7. Rusiyanın ÜTT-yə daxil olması ilə əlaqədar uduşlarını və itkilərini təhlil edin.
8. Rusiyanın ÜTT-yə daxil olması şərtləri ölkə daxilində hansı funksiyanı yerinə yetirə bilər?
9. «Avtarkiya özünü qapanma» ilə «ekspansiya avtarkiyası» nə ilə fərqlənir?

MUHASIBAT.AZ

10. ÜTT-yə daxil olmasından asılı olaraq uduşların və təhlükələrin Rusiyanın milli, o cümlədən iqtisadi təhlükəsizliyə təsirini təhlil edin.

11. Rusiyanın dünya iqtisadi sisteminə birləşməsinin fəsildə verilmiş strateci məqsədlərini şərh edin.

12. İqtisadi fəaliyyətə dövlətin təsirinin hansı modelləri ilə iqtisadi siyasət müəyyən edilir?

# Fəsil 7

MUHASIBAT.AZ

# ÖLKƏNİN İQTİSADİ TƏHLÜKƏSİZLİYİ

## İqtisadi təhlükəsizlik anlayışı

İqtisadi təhlükəsizlik – dünya iqtisadi sisteminin və ya ölkədə sosial-siyasi, iqtisadi və ya ekoloji xüsusiyyətli fors-major şəraitinin meydana gəlməsindən asılı olmayaraq ölkənin maddi nemətlərə olan həyatı tələbatını təmin edən milli iqtisadiyyatın vəziyyətidir.

Belə şərait dövlətlərarası münasibətlərin kəskinləşməsi nəticəsində də meydana gələ bilər; terror aktları və hərbi konfliktlərin yaranması, siyasi stabilliyin pozulması, sosial gərginliyin artması, demoqrafik vəziyyətin kəskin dəyişməsi, dominant iqtisadi qruplar və ya siyasi ittifaqlar tərəfindən hüquq pozuntularının güclənməsi, ölkə xaricində və daxilində rəqabət mübarizəsinin kəskinləşməsi; həyatı vacib resursların tükənməsi, ölkədə və xaricdə ekoloji bəla və təbii fəlakətin yaranması.

İqtisadi təhlükəsizliyə o vaxt nail olmaq olar ki, ölkənin milli suverenliyinin itirilməsi qorxusu, iqtisadi gücünün əhəmiyyətli

MUHASIBAT.AZ

zəifləməsi, həyat keyfiyyətinin və səviyyəsinin aşağı düşməsi, ölkənin qlobal strateji məqsədə nail olunmasının pozulması ölkənin dominant iqtisadiyyatdan və habelə, sosial-iqtisadi, siyasi, ekoloji vəziyyətdən asılılığı müəyyən həddi keçməsin.

İqtisadi təhlükəsizliyin səviyyəsi aşağıdakı amillərlə müəyyən olunur:

- Ölkənin yerli və xarici strateji resurslara daxil olma və ərazidə məhsuldar qüvvələrin yerləşdirilməsi ilə əlaqədar geosiyasi və iqtisadi coğrafi vəziyyəti;

- Ölkənin iqtisadi və hərbi-siyasi gücü, onun iqtisadi fəaliyyətin əsas strateji növləri üzrə dünya iqtisadi sistemində rəqabət mövqeyi;

- Ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin asılı olduğu Milli iqtisadiyyat sahələrinin dəstəklənməsi üzrə institusional sistemin səmti;

- Milli iqtisadiyyat sahələri və müəssisələrin rəqabət üstünlüyünü təmin edən «Milli romb» (Porter M. 1993) determinatına münasibətində dövlətin iqtisadi siyasətinin prioriteti;

- Ölkə əhalisinin həyat keyfiyyətinin (sağlamlıq, təhsil, mədəniyyət, incəsənət) dünya standartları (Avropa) səviyyəsinə çatmasını təmin edən sosial-iqtisadi və ekoloji sferaya münasibətdə dövlətin iqtisadi siyasətinin prioriteti;

- İqtisadi təhlükəsizliyin təmin olunması üçün ölkənin regionları və Milli iqtisadiyyat sahələrinin strateji əhəmiyyətini nəzərə alan Ümumi Daxili Məhsulun regional və sahə strukturunun parametrləri;

MUHASIBAT.AZ

- Milli iqtisadiyyatın ümumdünya ticarət təşkilatının tərkibində fəaliyyət prinsipi ilə müəyyənləşdirilməsi şərtləri və həmin şərtlərdən asılı olan idxal-ixrac strukturu;

- Fors-major iqtisadi təhlükəsizliyi təmin edən kifayət həcmdə birinci və yüksək dərəcədə strateji maddi nemətlər ehtiyatının mövcudluğu.

Sadalanan amillər mahiyyətcə iqtisadi təhlükəsizliyin daxili və xarici spektlərini əhatə edir (şəkil 7.1.). Bu təhdidlərin hər biri ölkə üçün təhlükənin müəyyən dərəcəsini əks etdirməklə bahəm, onlara qarşı əks fəaliyyətin prioritetlərini göstərir.

Bu və ya digər təhdidlərin təhlükəlilik səviyyəsini qiymətləndirmək və onların qarşısının alınması və ya ləğv edilməsi üçün elə informativ göstəricilərin seçilməsi zəruridir ki, ölkənin iqtisadi təhlükəsizliyinin ümumi vəziyyətini qiymətləndimək mümkün olsun.

İqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsinin göstəricilər sisteminin qurulmasının prinsipial qaydalarına nəzər salaq.




MUHASIBAT.AZ

MUHASIBAT.AZ

Daxili təhlükə

## 7.2. İqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi prinsipi

İqtisadi təhlükəsizliyin səviyyəsinin qiymətləndirilməsinin rəsmi göstəriciləri mövcuddur. Rusiya Federasiyasının təhlükəsizlik Şurası 1996-cı ildə Milli iqtisadiyyatın iqtisadi təhlükəsizliyini səciyyələndirən göstəriciləri təsdiq etmişdir (Qlazev S. 1997). Bu göstəricilər «yeddilər» ölkələrinin Milli iqtisadiyyatının vəziyyəti və dünya üzrə orta göstəricilərlə, Rusiyanın nail olduğu səviyyənin müqayisəsi Prinsipi əsasında tərtib olunmuşdur (hər nəfərə ÜDM həcmi). Belə göstəricilər 22-dir. Bu göstəricilərin tərkibinə daxildir:

Sənaye istehsalında emaledici sənayenin xüsusi çəkisi, ümumi daxili məhsulda investisiyanın həcmi, ümumi daxili məhsula nisbətən elmi tədqiqat işlərinə ayrılan xərclər, həyat davamlığı, işsizlik səviyyəsi, inflyasiya səviyyəsi, nəğd manatın həcminə nisbətən xarici valyutanın həcmi, daxili istehsalda idxalın xüsusi çəkisi, cəmi, o cümlədən, ərzaq məhsulları və s.

Bu sənəddə göstərilən məlumatların müqayisəsi, 1996-cı ildə Rusiya iqtisadiyyatında həyəcanlı vəziyyət haqqında nəticə çıxarmağa imkan vermişdir.

MUHASIBAT.AZ

Bununla belə Milli iqtisadiyyatın dünya iqtisadi sistemindən asılılıq dərəcəsinin həddinin qiymətləndirilməsi, yüksək qeyri müəyyən təsir səviyyəsinə malik olan və çoxlu sayda ziddiyyətli amillərin eyni vaxtda fəaliyyət göstərməsi ilə əlaqədar olaraq mürəkkəbdir.

Eyni vaxtda, mümkün təhlükənin qiymətləndirilməsi üçün bu həddə differensial mahiyyət vermək daha çox çətindir. Məsələn, ərzaq məhsulları idxalının xüsusi çəkisinin ölkədə istehsal olunanın 40%-dən 70%-ə yüksəlməsi halında Milli suverenliyə təhlükənin mütləq baş verəcəyini təsdiq etmək olmaz.

Bu halda hansı məhsuldan söhbət getdiyi məlum olmalıdır. Əgər idxal yüksək keyfiyyətli və zərif (çox bahalı) məhsuldursa, onun dayandırılması ölkə əhalisini aclıqla hədələyə bilməz. Əksinə, birinci dərəcəli ucuz idxal məhsullarının (məsələn, Rusiya üçün taxıl, Cənubi-Şərqi Asiya ölkələri üçün düyü) dayandırılması ölkələri, suverenliyinin pozulmasına səbəb ola bilən siyasi güzəştlərə getməyə məcbur edə bilər.

Qiymətləndirmənin elə informativ sistemi tərtib edilməlidir ki, nəinki ölkədə nail olunmuş göstəricilərin digər ölkə göstəriciləri ilə müqayisə etməyə imkan versin, habelə iqtisadi təhlükəsizliyin mahiyyəti və intensivliyini səciyyələndirmiş olsun. Bu sistem həmçinin, belə təhlükələrin yaranmasının mümkün nəticələrini və səbəblərini aşkarlamaq üçün əsas kimi xidmət etməlidir.

Hər şeydən əvvəl belə bir suala müraciət etmək lazımdır ki, təhlükəsizlik səviyyəsini qiymətləndirmək üçün hər hansı bir inteqral göstəricinin istifadəsi mümkündürmü və ya nəinki, təhlükəsizliyə qarşı prioritet istiqamətin seçilməsinə imkan verən və habelə təhlükəsizliyin yüksək və aşağı səviyyəsinə diqqət artıran xüsusi göstəricilər sisteminin olmasının vacibliyi. Təcrübədən asılı olmayaraq qeyd etmək olar ki, hər iki göstəricilərin olması

MUHASIBAT.AZ

zəruridir. Lakin onlar bir tərəfdən iqtisadi təhlükəsizlik probleminin müxtəlif məqsədlərinin tədqiqində istifadə olunmalıdır. Digər tərəfdən bu göstəricilər elə tərtib olunmalıdır ki, inteqral göstəricilərin xüsusi göstəricilərdən müəyyən asılılıq funksiyasını ifadə etmiş olsun. Bu halda inteqral göstəricilərin köməyilə qiymətləndirmə qlobal hallar üçün əsas olacaq, xüsusi göstəricilər isə bu qlobal hələr çərçivəsində konkret təhlükəyə qarşı əks tədbirlərin görülməsi üçün xidmət edəcəkdir.

İqtisadi təhlükəsizlik səviyyəsinin inteqral göstəricilərinin seçimlərindən başlayaq.

Əgər iqtisadi təhlükəsizlik anlayışına əvvəldə göstərilmiş nöqteyi-nəzərdən yanaşaraq, onda iqtisadi təhlükəsizlik səviyyəsi Milli iqtisadiyyatda bərqərar olmuş vəziyyətin ölkənin suverenliyi və müstəqilliyi üçün nə dərəcədə təhlükəlidir sualına cavab verilməlidir. Qəzaların, fəlakətlərin baş verməsi nəzəriyyəsindən, iqtisadiyyatın böhran vəziyyətinin üç səviyyəsi məlumdur, çox həddən artıq ağır vəziyyət, böhranlı vəziyyət, fəlakətli vəziyyət. Əgər bu kateqoriyanı qlobal planda baxılan problem üzrə yayımlasaq, bu zaman iqtisadi təhlükəsizlik vəziyyətini dilçilikdən məlum olan mahiyyətdə «kafidir» qiymətində əlavə etməklə «pisdir», «çox pisdir», «ümidsizdir» kimi qiymətləndirmək olar.

Bu vəziyyətdə həmin qiymətlərin «qoyulması» üçün müqayisəli meyarların tapılması zəruridir. Belə meyar, idxalın əlavə artımının Milli gəlir artımına nisbətini əks etdirən, idxala marçinal (son hədd) meyillik ola bilər.

$$S_{imr} = \frac{\Delta M}{\Delta R}$$

Haradakı:

MUHASIBAT.AZ

$\Delta M$ - aqreqat pul vahidinə Milli gəlir artımına nəzərən, idxalın əlavə artımı;

$\Delta R$ - aqreqat pul vahidinə Milli gəlirin artımını göstərir.

İqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsi anlamında bu göstərici Milli iqtisadiyyatın qalan dünyadan nə dərəcədə asılı olduğunu müəyyən etməyə imkan verir. İqtisadiyyatın sahələrinin çoxalması iqtisadiyyatın diversifikasiyası və inkişaf səviyyəsi yüksəldikcə ölkənin idxala meylliliyi azalır. Bu onunla izah edilir ki, ölkə özünü zəruri istehsal amilləri və fərdi istehlakını daxili resurslar hesabına ödəmək imkanına malikdir. Bu göstərici belə qənaətə gəlməyə imkan verir ki, bir tərəfdən ölkə xarici dünyadan və onda baş verən fors-maçor hadisələrdən nə dərəcədə asılıdır. İkinci bir tərəfdən ölkə xarici dünyadan nə onda baş verən fors – major hadisələrindən nə dərəcədə asılıdır. İkinci bir tərəfdən həmin göstərici Milli iqtisadiyyatın daxili vəziyyətini əks etdirir.

Əgər ölkədə vəziyyət sakitdirsə, deməli, sosial gərginlik yoxdur və ya aşağı səviyyədədir, Milli iqtisadiyyat birinci və ikinci dərəcədə tələbatın əhəmiyyətsiz dərəcədə idxalı cəlb etməklə ödəyir və ölkə özünü daxili və xarici təhlükələrdən mühafizə etmişdir. Yəni ölkədə iqtisadi təhlükəsizlik səviyyəsi yüksəkdir. $\Delta M$-in kəmiyyət səviyyəsi yüksəldikcə, iqtisadi təhlükəsizlik səviyyəsi aşağı düşür, ölkə daha çox xarici iqtisadi sistemdən asılı olur.

Tse-Çin-Çanq məlumatlarına (Barr R. Səh 526) görə 1924-1938-ci illərdə ABŞ-ın idxala marjinal meyllik əmsalı 0.07 olmuşdursa, Cənubi Afrika üzrə bu göstərici 0,43 təşkil etmişdir.

Bu göstərici ümumi xarakterli informasiya verir: ölkə dünya iqtisadi sistemindən nə dərəcədə asılıdır., ölkədə potensial təhlükə yardımı, ölkənin vəziyyəti (iqtisadi təhlükəsizlik mövqeyindən) kafidir, həddindən artıq ağırdır, böhranlı vəziyyətdir və ya fəlakətli

MUHASIBAT.AZ

vəziyyətdir. Bununla belə göstəricinin özünün daha dərin təhlili zəruridir. Məhsul və xidmət nomenklaturasının idxal üzrə strukturunun, bu məhsulların və xidmətlərin strateji mahiyyətinin nəzərə alınması zəruridir. Hər bir ölkə üçün idxal olunan bu və ya digər məhsul və xidmət qrupları üzrə özünə məxsus «strateçi mahiyyət kateqoriyası» müəyyən edilməlidir. Bu zaman ölkənin xüsusiyyəti, əhalinin mentaliteti, idxalın əvəz edilməsi imkanı nəzərə alınmalıdır.

Buradan belə nəticə çıxır ki, iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsində inteqral göstəricilərlə yanaşı, xüsusi göstəricilər də istifadə olunmalıdır. Belə göstəricilərin vasitəsilə nəinki, ölkənin səviyyəsi necədir? Sualına cavab vermək mümkündür, habelə, ölkə nə üçün bu vəziyyətə düşmüşdür və buna hansı amillər səbəb olmuşdur, sualını da cavablandırmaq mümkündür.

Əgər:

V – bu və ya digər qorxunun iqtisadi təhlükəsizlik səviyyəsinə təsirinin intensivliyi;

Z – qorxunun, ölkənin müstəqilliyi və suverenliyi və ya strateçi məqsədə çatmasındakı mahiyyəti;

P- qorxunun yaranması ehtimalı kimi qəbul etsək, bu zaman – W sayda çoxlu göstəricilər müəyyən etmək mümkün olar ki, onlarında hər biri V – intensivliyinin və Z – mahiyyətinin riyazi gözləməsi kimi ifadə oluna bilər. W – göstəricisinin daha məqsədyönlü təhlili üçün onu kateqoriyalar üzrə (7.1.) qruplaşdırmaq lazımdır. Bu zaman iqtisadi təhlükəsizlik səviyyəsinin bu və ya digər təhdidlər kompleksindən asılılığı aydınlaşar ki, öz növbəsində bu da dövlətin məqsədli proqram tərtib etməsinə və qarşılıqlı təhdidlər kompleksinə qarşı əks

MUHASIBAT.AZ

tədbirlər hazırlanmasına imkan verir. Məsələn, Dünya ticarət təşkilatına daxil olma;

$$W_{(ij)} = \sum_{r=1}^{m(ij)} M\left(X_{(i\cdot j\cdot r)}\right) = \sum_{r=1}^{m_{(i\cdot j)}} M\left(V_{(i\cdot j\cdot r)}\right)Z_{(i\cdot j\cdot r)} = \sum_{r=1}^{m_{(i\cdot j)}} \left(P_{(i\cdot j\cdot r)} V_{(i\cdot j\cdot r)} Z_{(i\cdot j\cdot r)}\right)$$

(7.1)

Haradakı:

İ – kompleks qorxu indeksini;

Ç - kompleks qorxunun tərkibi indeksini;

r - intensivliyə məxsus mahiyyətin və kompleks qorxunun tərkibinin mənasını əks etdirən indeksi;

M $_{(i,ç)}$ – kompleks qorxunun və intensivliyin təhlil olunan, baxılan kəmiyyəti əks etdirir.

Kompleks qorxunun meydana gəlməsinin riyazi gözləməsi isə belə müəyyən edilir:

$$W_{(i\cdot j)} = \sum_{j=1}^{n_{(i\cdot j)}} \left(P_{(i\cdot j)} W_{(i\cdot j)}\right) \qquad (7.2)$$

burada:

$n_{(i,ç)}$ – kompleks qorxunun tərkibində i – sayını göstərir.

Qorxunun təsiri intensivliyini və onun mahiyyətini vahidlə normallaşdırılmış uyğun əmsala qiymətləndirmək mümkündür. Bu zaman idxala marjinal meylliliyin intensivlikdən və kompleks təhdidlərin meydana gəlməsi ehtimalından asılılığının riyazi gözləməsi aşağıdakı funksiya kimi yazılır;

MUHASIBAT.AZ

$$S_{i,m,p} = f\,(W_{(1)} \ldots\ldots\ldots\ldots\ldots\ldots W_{(n)})$$

Haradakı:

n – ölkənin iqtisadi təhlükəsizliyinin kompleks təhdidlərinin sayını;

f – hər arqumenti üzrə azalan funksiyanı göstərir.

Bu funksiya (f) uyğun statistik tədqiqatlar əsasında müəyyən edilir. Ancaq onu qeyd etmək olar ki, $S_{(i,m,r)}$ –nin mahiyyəti artdıqca, iqtisadi təhlükəsizlik səviyyəsi aşağı düşür. Məqsədli proqramların tərkibi və reallaşdırılması prosesində belə differensiallaşma ilə yanaşı onların koordinasiyası aparılmalıdır.

Sistemlilik, nəinki iqtisadi təhlükəsizliyin təmin olunmasının labüd şərtidir, o habelə, zəruri maliyyə, material və əmək resurslarından səmərəli istifadə olunması hesabına prosesin effektivliyinə nail olunmasına imkan verir. İqtisadi təhlükəsizliyin təmin olunması probleminin həllinə, insTitusional sistemin məqsədyönlü uyğunlaşması üçün zəruri olan intellektual resurslara da xüsusi diqqət verilməsi zəruridir.

İqtisadi təhlükəsizlik prosesini tənzimləyən formal institutların hüquqi və normativ aktların tərtibinə, ölkənin ekoloji, sosial və iqtisadi təhlükəsizliyi haqqında əməli təcrübəsi olan ixtisaslı mütəxəssislər, elmin müxtəlif sahələrində səriştəli elmi işçilər cəlb olunmalıdır. Belə mütəxəssislərin işi kollektiv qiymətləndirmə metodu beyinlərin hücumu, zehni, əqli hücum, «Delfa» metodu əsasında təşkil edilə bilər. Təhlil nəticəsində bu tədbirlərə qarşı əks tədbirlər hazırlanır. İqtisadi təhlükəsizliyin nail olunması səviyyəsinin hansı vəziyyətə uyğunluğunu müəyyən etmək üçün $S_{(i,m,r)}$ mahiyyətinin uyğun intervalı qoyulur. Bu intervalın kəmiyyəti təhlükənin meydana gəlməsinin nəticəsinin təhlili ilə əsaslandırılır.

MUHASIBAT.AZ

# 7.3. İqtisadi təhlükəsizliyin yaranması nəticəsinin təhlili prinsipləri

İqtisadi, sosial və ekoloji təhlükəsizliyin differensional təhlilin bir neçə istiqamətlərinə nəzər salaq.

**İqtisadi sfera**. Bu sferada iqtisadi təhlükənin yaranması ölkənin Milli iqtisadiyyatının, onun sahə və müəssisələrinin rəqabət qabiliyyətliliklərinin əhəmiyyətli dərəcədə aşağı düşməsi və ya itirilməsinin nəticəsi ilə bağlıdır. Nəticə (hədənin, qorxunun intensivliyindən asılı olaraq) ola bilər: ölkənin Milli sərvətinin azalması, ÜDM-in səviyyəsinin nə dərəcədə aşağı düşməsi, müəssisələrin kütləvi müflisləşməsi, Milli iqtisadiyyatın sahə və regional strukturunun birdən-birə dəyişməsi, dövlət büdcə kəsirinin artması, daxili və xarici borcların artması, strateçi resursların tükənməsi və s.

Beləliklə, bu sferada iqtisadi təhdidlərin yaranması nəticəsinin təhlili vəzifələri bunlar olmalıdır:

- göstərilən nəticələrin hər birinə qorxu və əlaqəli kompleks təhdidlərin 7.1-də sadalanan kateqoriyalara təsiri səviyyəsinin aşkarlanması; (Milli sərvətin azalması, ÜDM səviyyəsinin aşağı düşməsi, kütləvi müflisləşmə və s.);

- ümumi məcmuda hər bir nəticənin baş verməsindən yaranan itkinin qiymətləndirilməsinin mümkünlüyü (müəssisə və iş yerlərinin azalması, vergiyə cəlb olunma obyektlərinin azalması, strateçi resursların tamamlanması ilə əlaqədar xərclərin artması və s.);

MUHASIBAT.AZ

- bu itkilərin ödənilməsinin daxili və xarici mənbələrinin potensialının aşkar edilməsi; (vergi stavkalarının artırılması, inflyasiya sürətinin artımı, ölkə və xarici ETTKİ-nin mövcudluğu və onun reallaşdırılması ilə itkilərin ödənilməsi və s.);

- itkilərin ödənilməsi mənbələrinə daxil olma imkanlarının qiymətləndirilməsi, xarici və daxili bazarlara ödəmələrin potensial dəyəri, vergi stavkalarının mümkün həddə yüksəldilməsi, zəruri patentlərin istifadəsinə lisenziyaların alınması imkanı və s.;

- itkilərin ödənilməsi mənbələrinə daxil olmaq üçün cəlb olunan zəruri resursların qiymətləndirilməsi; (tələb olunan ixtisasda mütəxəssislərin mövcudluğu lisenziyaların alınması üçün maliyyə resurslarının mövcudluğu və s.);

- aşkar olunmuş təhdidlərə qarşı məqsədli proqramların məzmunu üzrə təkliflərin tərtib edilməsi.

**Sosial sfera**. Bu sferada iqtisadi təhlükənin yaranmasının başlıca səbəbi ölkənin Milli iqtisadiyyatının sahə və müəssisələrinin rəqabətli olmaması ilə şərtlənən kütləvi işsizliklə əlaqədardır.

Nəticə (qorxunun intensivliyindən asılı olaraq) ola bilər: əhalinin həyata keyfiyyətinin və səviyyəsinin aşağı düşməsi, əhalinin gəlir səviyyəsinə görə əhəmiyyətli dərəcədə təbəqələşmə, ölkə daxilində iş axtaran əhalinin miqrasiyasının yüksəlməsi, ölkədən «beyin axını»nın artması, əhəmiyyətli demoqrafik dəyişmələr, təbii itkinin artması və orta yaşayış dövrünün qısalması, xəstəliklərin və onunla əlaqədar itkilərin yüksəlməsi, cəmiyyətin kriminallaşması, Milli dözümsüzlük və eksperimist qrupların artması, sosial gərginlik və sosial münaqişələrin güclənməsi və s.

Sosial sferaca iqtisadi təhdidlərin yaranması nəticələrinin təhlili, analoji olaraq iqtisadi sferada olduğu kimidir. Lakin sosial sferaya məxsus parametrlər dəqiqləşdirilmişdir.

MUHASIBAT.AZ

- göstərilən nəticələrin hər birinə qorxu və əlaqəli kompleks təhdidlərin, 7.1. sadalanan kateqoriyalara təsiri səciyyəsinin aşkarlanması, (əhalinin həyat səviyyəsinin və keyfiyyətinin aşağı düşməsi, yoxsulluq səviyyəsinin artması, gəlirinə görə əhalinin təbəqələşməsi);

- ümumi məcmuda hər bir nəticənin baş verməsindən yaranan itkinin qiymətləndirilməsinin mümkünlüyü (xəstəliklərin artması nəticəsində iş qabiliyyətinin itirilməsi, məşğulluq səviyyəsinin aşağı düşməsindən itkilər və bununla əlaqədar işsizliyə görə yardımların artması, əhalinin miqrasiyasının artması ilə əlaqədar əlavə xərclər, cəmiyyətin kriminallaşması və kriminal strukturların təsirilə kiçik biznesin genişlənməsi imkanının məhdudlaşması ilə bağlı itkilər və s.);

- bu itkilərin ödənilməsinin daxili və xarici potensial mənbələrinin aşkar edilməsi; (analoji olaraq istehsal sferasından kimi);

- itkilərin ödənilməsi mənbələrinə daxil olma imkanlarının qiymətləndirilməsi; (iqtisadi sferada olduğu kimi);

- itkilərin ödənilməsi mənbələrinə daxil olmaq üçün cəlb olunan zəruri resursların qiymətləndirilməsi; (iqtisadi sferada olğudu kimi);

- aşkar olunmuş təhdidlərə qarşı məqsədli proqramların məzmunu üzrə təkliflərin tərtib olunması.

**Ekoloji sfera**. İqtisadi təhlükəsizlik ölkənin malik olduğu təbii resurslardan səmərəsiz istifadə ilə sarsıldığı kimi, həmhüdud ölkələr və Milli iqtisadi agentlər tərəfindən «iqtisadi ekspansiya» ilə əlaqədar ola bilər. İqtisadi qorxunun nəticələrinin xarakteri olduqca cürbəcürdür.

MUHASIBAT.AZ

Təbii resurslardan səmərəsiz istifadə əhalinin həyat səviyyəsinin pisləşməsinə (min), hətta tükənən resursların əvəz edicisinin tapılmaması və ya yenilərinin kəşf edilməməsi millətin məhv olmasına (mak) gətirib çıxara bilər.

«Ekoloçi ekspansiya» problem idə az mürəkkəb deyildir. Bu problemin iki; daxili və xarici istiqamətlərinə diqqət yetirək.

Daxili «ekoloji ekspansiya» iqtisadi agentlərin – rezident və qeyri-rezident iqtisadi fəaliyyətdə ekoloji normativləri pozması halında biruzə çıxır.

Xarici «ekoloji ekspansiya» sərhəddən kənar zəhərləyici maddələrin ölkə ərazisinə gətirilməsi nəticəsində büruzə çıxır.

Məsələn, hesablamalara görə (Donçenko V.K., 1995) belə daşımalar nəticəsində Rusiya ərazisinə XX əsrin sonlarında aşağıdakı miqdarda zəhərləyici maddələr düşmüşdür: kükürd birləşmələri – 1335 kiloton, azot turşusu birləşmələri – 596,0 kilo-ton, bərpaedici azaot birləşmələri- 42,2 kilo-ton.

Daxili və xarici «ekoloji ekspansiya»nın nəticələri də əhəmiyyətlidir. Hər şeydən əvvəl bu əhalinin sağlamlığına ziyan vurur, əmək qabiliyyətinin itirilməsinə, sağlamlığın bərpası xərclərinin artmasına səbəb olur. Tullantıların seçilməsi, tullantısız texnologiyanın yaradılması, təmizləyici qurğuların yaradılması və istifadəsi xərclərini əhəmiyyətli dərəcədə artırır.

Ekoloji sferada iqtisadi təhlükənin meydana gəlməsi nəticələrinin təhlili vəzifəsi də iqtisadi və sosial sferada olduğu kimidir:

- göstərilən nəticələrin hər birinə təhdidlərin və kompleks qarşılıqlı qorxunun təsiri dərəcəsini aşkarlamaq;

MUHASIBAT.AZ

- ümumi məcmuda hər bir nəticənin baş verməsindən yaranan mümkün itkinin qiymətləndirilməsi;

- bu itkilərin ödənilməsinin daxili və xarici mənbələrin potensialını aşkarlamaq;

- itkilərin ödənilməsi mənbələrinə daxil olma imkanlarını qiymətləndirmək;

- itkilərin ödənilməsi mənbələrinə daxil olmaq üçün zəruri resrusların cəlb olunmasını qiymətləndirmək;

- aşkar edilmiş təhdidlərə qarşı məqsədli proqramın məzmunu üzrə təkliflərin işlənib hazırlanması.

Beləliklə, iqtisadi, sosial və ekoloji sferalarda inteqral və xüsusi göstəricilərin tətbiqi ilə iqtisadi təhlükəsizlik nəticələrinin kompleks təhlili, bu qorxulara qarşı əks tədbirlərin hazırlanmasına imkan verir. Bu tədbirlər ölkənin iqtisadi təhlükəsizliyinin məqsədli kompleks proqramı formasında ifadə olunur.

## 7.4. Ölkənin iqtisadi təhlükəsizlik vəziyyətinin kompleks təhlilinin alqoritmləşdirilməsi prinsipləri

Ölkənin iqtisadi təhlükəszliyinin kompleks təhlili, ölkəyə təhlükələrin dəf edilməsi və neytrallaşdırılması variantlarından daha uyğun olanının seçilməsi imkanını verir (şək. 7.2).

MUHASIBAT.AZ




MUHASIBAT.AZ

**Şəkil 7.2.** Rəqabət qabiliyyətli sahələrin iqtisadi strategiyasının qurulması modeli

Kompleks tədbirlərin aşkarlanması, onların tərkib hissələrə bölünməsi, bir-birinə təsirinin müəyyənləşdirilməsi, ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin qiymətləndirilməsinin birinci mərhələsini təşkil edir.

Növbəti addım, təhdidlər sisteminin ölkənin iqtisadi təhlükəsizliyinə, daha müfəssəl idxala meyllilik kəmiyyətinə təsirinin qiymətləndirilməsidir.

Bu qorxuların dəf edilməsi və ya neytrallaşması üçün çoxlu sayda müəyyən strategiyaların tərtib olunması zəruridir. Bu çoxluq, qorxu və onun nəticəsinin yaranması və habelə qarşısının alınması, yox edilməsi ehtimalının qiymətləndirilməsi ilə məhdudlaşır.

Ölkənin iqtisadi təhlükəsizlik səviyyəsinin yüksəldilməsinin uyğun strategiyasının seçilməsi prosesinin bir neçə alqoritmləşdirilmiş üsullarına nəzər salaq.

MUHASIBAT.AZ

Fərz edək ki, təhlükə ç-nin məhdudlaşdırılması və yox edilməsi üçün l – strateji təsir qrupunun istifadə etdiyi q – növ resurs həcmi r(q,l,ç) olsun, q – növ resursun mümkün həllini $r_q$ ilə göstərək. Bu zaman istifadə olunan resursun uyğun məhdudlaşdırıcısını göstərmək olar.

$$\sum r(q,l,j) \leq r_q \qquad (7.3)$$

Qeyri-bərabərsizliklərin sayı resursların növü qədərdir.

Strategiyanın seçilməsi üsulunun formalaşdırılması, iqtisadi təhlükəsizliyin yüksəldilməsinin «ağıllı» strategiyasının seçilməsinin oyunlar nəzəriyyəsinin elementlərinə əsaslana bilər. Bu stratejiyanın tərtibi və reallaşdırılması müəyyən strateji təsir qrupu (STQ) vasitəsilə aparılır. Belə qrup hökumət (dövlət), iqtisadi və ictimai strukturlar ola bilər. Bu qrupların hər biri, təhlükənin dəf edilməsi və ya azaldılması məqsədilə öz strateciyalarını reallaşdırmağa çalışırlar. Başqa sözlə, müəyyən təhlükənin intensivliyi və mahiyyətinin azaldılmasına təsir edirlər.

Tutaq ki, N= $\{1,.........n\}$ baxılan STQ-nun (çoxluq) $X_i$= $\{x_{ii},............,x_{isi}\}$ - i oyunçunun strateji çoxluğu, $H_{iç}$=$H_ş$ ($x_{iç}$) – i oyunçunun uduş ($x_{iç}$) strategiyasının reallaşdırılması nəticəsində $S_{imp}$ göstəricisinin artıb-azalmasının bərabər (hissələri) funksiyasıdır. Uduş funksiyası $H_{iç}$ = $H_i$ ($x_{iç}$), $x_{iç}$ strategiyasına uyğun olduğu kimi, istifadə olunan müxtəlif resurs növlərində funksiyasıdır r (y,E,,ç).

İqtisadi təhlükəsizlik səviyyəsinin yüksəldilməsi strateciyası STQ-nin hər birinin strategiyalarını birləşdirir. Buna görə də strateji çoxluqları formal cəhtcə belə ifadə etmək olar.

$$Y = \{x_{ij}, x_{2jl}, x_{njz}\}, \quad J_1 = 1,.......S_1, \quad J_2 = 1.....S_2, \quad J_n = 1,....S_n$$

MUHASIBAT.AZ

Müəyyən strategiyanın seçilməsi УЭY STQ-nin bütün strategiyalarının yığımını ifadə edir. Daha sonra bərabər hal üçün Y strategiya çoxluğunun tədqiq edilməsi zəruridir. Belə ki, ölkənin iqtisadi təhlükəsizlik strategiyası həmin çoxluğun içərisindən seçilir. Bu o deməkdir ki, $x_{iç}$-nin birgə strategiyasının dəyişilməsi bütün strategiyanın pisləşməsinə səbəb ola bilər. Bununla belə tarazlı situasiyanın seçilməsi, resurslardan istifadə sinergetik effektinin alınmasında, təhlükənin məhdudlaşdırılması və dəf edilməsində STQ-nin fəaliyyətinin xətləndirilməsini təmin edir.

Beləliklə, ölkənin iqtisadi təhlükəsizliyinin möhkəmlənməsi üzrə effektli fəaliyyətin qiymətləndirilməsi imkanı yaranır. Bunun üçün aşağıdakı qaydada formalaşan göstərici seçilə bilər. Tutaq ki, qeyd olunan oyun situasiyası E+1 bərabər çəkili hala malikdir. Hər bir belə situasiya resurslardan istifadənin öz həcminə uyğundur. Belə fərz edək ki, istifadə olunan resursun həcmi pul ifadəsində $R_0,\ldots.R_i\ldots R_n$ və bu zaman $R_i$-bu kəmiyyətlərdən ən kiçiyidir. Hər bərabər çəkili situasiya öz mahiyyətinə uyğun göstəriciyə malikdir. $S_{i,m,p}$ və $S_0$, $S_1$, …… $S_e$ ilə işarələnmişdir.

Aşağıdakı kəmiyyətlərə baxaq:

$$\Delta R_i = R_i - R_0 \qquad (i = 1,\ldots\ldots E)$$

$$\Delta S_i = S_0 - S_i \qquad (i = 1\ldots\ldots.E)$$

bərabər çəkili situasiyalardan eləsi seçilir ki, müsbət $\Delta S_i$ mahiyyətinə uyğundur. Bunun üçün aşağıdakı göstəriciyə nəzər salaq.

$$\frac{\Delta R_i}{\Delta S_i}$$

MUHASIBAT.AZ

bu göstərici təhlükənin dəf edilməsi və neytrallaşdırılması strategiyasının «qiymət»ini səciyyələndirir, daha düzgünü iqtisadi təhlükəsizliyin möükəmləndirilməsi fəaliyyətinin effektivliyini göstərir. Bu göstəricinin minimal mahiyyəti resurslardan istifadə nöqteyi-nəzərdən məqsədyönlü strategiyanın daha uyğunluğunu əks etdirir. $\Delta R_i$ -nin tərkibində strategiyanın tərtibi və reallaşdırılması xərcləri ilə yanaşı müxtəlif strateji təsir qruplarının (STQ) fəaliyyətinin xətləndirilməsinin sinergetik effektində istifadə edir.

Beləliklə, iqtisadi təhlükəsizliyin kompleks məqsədli proqramının yüksək effektivliyinə nail olunmaq üçün, ölkənin iqtisadi təhlükəsizliyinə xidmət edən bütün strukturların fəaliyyətinin xətləndirilməsi zəruridir. Sinergetik effektin mənbəyi, xarici və daxili kompleks təhlükələrə qarşı bütün resurslardan razılaşdırılmış istifadəsidir.

## 7.5.İqtisadi təhlükəsizlik və investisiya siyasətinin prioritetləri.

İTTMKP işlənib hazırlanması zamanı ən çətin problemlərdən biri təhlükələr qarşı prioritet tədbirlərin seçilməsidir. Bir halda ki, bu tədbirlərin reallaşması xeyli investisiyalar, ölkənin investisiya siyasətinin formalaşmasına məqsədli yanaşmanın olmasını tələb edir.

Şəkil 7.1 (s. 150 ) əks olunmuş iqtisadi təhlükəsizliyin təhlükələr spektrini təhlil edərkən belə nəticəyə gəlmək olar ki, bu təhlükələrin üçdə ikisi bilavasitə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi problemi ilə, üçdə biri isə sosial və ekoloji sferalarda

MUHASIBAT.AZ

qeyri–rasional iqtisadi siyasətlə bağlıdır.Bu zaman sosial sferada təhlükələrin əhəmiyyətli hissəsi iqtisadiyyatın rəqabət qabiliyyətliliyi səviyyəsi ilə dolayı əlaqələndirilir.

Beləliklə, belə bir nəticəyə gəlmək olar ki, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsası aşağıdakı zəruri şəraitin yaradılması üzrə dövlətin daimi, məqsədyönlü fəaliyyətidir:

- milli iqtisadiyyatın aparıcı sahələrinin daxili və xarici bazarlarda rəqabətli üstünlüklərinin «milli romb»un bütün determinantının inkişfaı və təkmilləşdirilməsi hesabına saxlanması;
- ölkənin əhalisinin Avropa (beynəlxalq) həyat keyfiyyəti və səviyyəsinə, o cümlədən «ekoloji ekspansiya» əks təsirin nəzərə alınması ilə nail olma.

Buradan aydın olur ki, investisiya siyasətinin prioritetləri məhz iqtisadi təhlükəsizliyin dövlət təminin bu istiqamətlərində əks olunur.

**Milli iqtisadiyyatın rəqabət üstünlüklərinin dövlət himayədarlığı tədbirləri.**

«Milli romb» determinantıları üzrə qruplaşdıraraq dövlətin bu istiqamətdə fəaliyyətinin bəzi aspektlərinə baxaq:

1. İstehsal amilləri parametrləri.Məlum olduğu kimi, istehsal amilləri ümumi və xüsusilərə bölünür.İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün dövlət ilk növbədə milli iqtisadiyyatın bütün sahələri üçün ümumi olan istehsal amillərinin inkişafına tənzimləyici təsir işləyib hazırlamalı və həyata keçirməlidir. İqtisadi fəaliyyətin həyata keçirilməsi zamanı qarşılıqlı təsir prosesində müxtəlif səviyyəli iqtisadi agentlərin özlərinin gücləri ilə xüsusi amillər daha səmərəli inkişaf edir.

Ümumi amillərin inkişafında dövlətin əsas fəaliyyəti formal institutların reallaşması mexanizmlərinin formalaşdırılması və yaradılmasıdır ki, bu da aşağıdakılara istiqamətlənmişdir:

MUHASIBAT.AZ

- cəmiyyətin maddi nemətlərə olan inkişaf etmiş tələbinin səmərəli və keyfiyyətli ödənilməsini təmin edən milli iqtisadiyyatın əsas istehsal fondlarının elementlər kompleksinin yüksək texniki səviyyəsinin saxlanması;
- təkrar istehsal olunan resursların istifadə dərəcəsi və həcminin, təkrar istehsal olunmayan resursların isə qənaətinin daim artırılması, strateji resursların dövlət ehtiyatlarının yaradılması, həmçinin yeni növ əmtəə-substitutların (əvəzedicilərin) yaradılması və axtarışı;
- milli iqtisadiyyatın strateji inkişaf məqsədlərinin səmərəli və vaxtında yerinə yetirilməsini təmin edən kadr potensialının daim gücləndirilməsi;
- milli iqtisadiyyatın səmərəli fəaliyyətini təmin edən istehsal (elm, nəqliyyat, xidmət göstərən və köməkçi istehsallar) infrastrukturunun təkmilləşdirilməsi və sosial (təhsil, səhiyyə, kommunal təsərrüfatı) infrastrukturun genişləndirilməsi;
- ölkənin iqtisadi qüdrətinin gücləndirilməsinin strateji məqsədlərinə uyğun olaraq iqtisadi fəaliyyətin hər tərəfli investisiyalaşması üçün maliyyə resurslarının daim artırılması.

2. Firmaların strategiyası, onların quruluşu və rəqibliyi:

- starteji vacib əmtəə, xidmət və istehsal amillərinin beynəlxalq və daxili bazarlarında milli rəqabət üstünlüklərinin saxlanmasına yönəldilən çevik antiinhisar fəaliyyətin və rəqabətin müdafiəsinin daim təkmilləşdirilməsi;
- müəssisənin iqtisadi strategiyasının işlənib hazırlanması və reallaşması prinsiplərinin menecmentlə mənimsəNilməsinə istiqamətləndirilmiş təhsil proqramlarına dövlət himayədarlığı;
- milli iqtisadiyyatın rəqabət üstünlüklü müəssisələrinin inkişafına strateji investisiyalar üçün əlverişli şəraitin yaradılması məqsədilə ölkənin bank sisteminin islahatlaşdırılması;
- rəqabət mübarizəsində müflisləşmə institutlarının istifadəsinə imkan verməyən və qeyri-qənaətbəxş müəssisələrin sağlamlaşdırılmasını, müflisləşmə prosesini reqlamentləşdirən formal institutların təkmilləşdirilməsi;
- haqsız rəqabətə qarşı sanksiyaları və düzgün rəqabət prinsiplərini reqlamentləşdirən formal institutların yaradılması və inkişafı, qeyri-formal institutlara himayədarlıq;

MUHASIBAT.AZ

- milli iqtisadiyyatın strateji vacib müəssisə və sahələrinin saxlanması haqda ÜTT ilə razılaşma çərçivəsində proteksionist siyasətin işlənib hazırlanması və reallaşması;
- ÜTT daxil olma təşəbbüskeşliyilə, məşğulluğun səviyyəsinin potensial azalmasılə şərtlənən itkilərin kompensasiyası ilə əlaqədar olan xərclərin, komplektləşdirici məmulatlar, yarımfabrikatlar və ümumsənaye təyinatlı məmulatlar üzrə səmərəli kooperasiyasiyanın inkişafı hesabına istehsal xərclərinin azaldılması üçün şəraitin yaradılması məqsədi ilə kiçik biznesə himayədarlıq.

3. Tələbin parametrləri:

- daxili və xarici bazarlar üçün yerli müəssisələr tərəfindən istehsal olunan əmtəə və xidmətlərin keyfiyyətinə tələblərinin artırılmasına yol verən istehslakçıların hüquqlarının müdafiəsinin təmini;
- istehlakçıların hüquqlarını müdafiə edən ictimai təşkilatlara himayədarlıq və bu sahədə onlara qanunverici təşəbbüskeşlik hüquqlarının verilməsi;
- ÜTT ilə razılaşma çərçivəsində əmtəələrin tələb və təklif elastikliyinin nisbətini nəzərə alan yerli və xarici istehsallı əmtəə və xidmətlərin balanslaşdırılmış tələbinin formalaşmasına yol verən qiymət siyasətinin həyata keçirilməsi;
- alıcılıq qabiliyyətinin və onun nəticəsi olan əmtəə və xidmətlərin keyfiyyətinə tələbin artırılmasına səbəb olan vətəndaşların gəlirlərinin səviyyəsinin tənzimlənməsi üzrə vergi siyasətinin formalaşdırılması.

4. Qohum və dayaq sahələr:

- milli iqtisadiyyatın qarşılıqlı əlaqəli strateçi vacib sahələrininklastyorlarının kompleks inkişafının onların rəqabətqabiliyyətinin artırılması məqsədi ilə stimullaşdırılması;
- starteji vacib resursların istehsalı üzrə mütəxəssisləşmiş milli iqtisadiyyatın potensial cəhətdən rəqabətqabiliyyətli müəssisə və sahələrinin idxalı əvəz və etməixrac istiqamətinin stimullaşdırılması;
- indikativ planlaşdırma prinsipləri əsasında makro, mezo və mikro səviyyələrdə iqtisadi agentlər arasında qarşılıqlı münasibətlərin reqlamentləşdirilməsi;

MUHASIBAT.AZ

- milli iqtisadiyyatın baza sahələrinin mövcud yerləşməsini nəzərə almaqla qohum və dayaq istehsalların ərazi yerləşdirilməsinin tənzimlənməsi;
- potensial rəqabət qabiliyyətli sahələrin və müəssisələrin rəqabət qabiliyytli səviyyəyə «gətirilməsi» prosesinin iqtisadi strategiyanın qurulması modeli əsasında stimullaşdırılması ( şək.7.3.).

Milli iqtisadiyyatın rəqabət üstünlüklərinin uzun müddətli perspektivdə formalaşdırılması və saxlanmasına yönəldilən investisiya siyasətinin prioritetləri iqtisadi təhlükəsizliyin səviyyəsinin potensial dəyişməsi üçün rəqabət üstünlükləri dominantının təkmilləşdirilməsinin bu və ya digər istiqamətinin revallaşdırılmasının müsbət və mənfi nəticələrinin (uduş və itki) balansının təhlili əsasında təyin edilir.

Uduş və itkilər kəmiyyət və keyfiyyətlə qiymətləndirilir. Keyfiyyət qiymətləndirilməsi yuxarıda göstərilən linqvistik dəyişənlərin köməyi ilə ekspert yolu ilə həyata keçirilir, məsələn, baza dövründə kritik vəziyyətdən pespektivdə məqbul vəziyyətə keçid və ya kritik vəziyyətdən böhranlı vəziyyətə keçid və s. İqtisadi təhlükəsizlik səviyyəsinin kəmiyyət dəyişiklikləri adambaşına düşən ÜDM itkisi və ya artımının ölçüsü ilə ölçülür ki, bu da aşağıdakı elementləri özündə əks etdirir:

- importa bu və ya digər marjinal meylliliklə əlaqədar xarici valyutanın ölkədən çıxarılması;
- rəqabət qabiliyyətli xarici əmtəə və xidmətlərə daxili bazarda tələbin dəyişməsi hesabına müəssisələrin sayının mümkün azalması ilə əlaqədar sosial sferaya xərclər;

- xarici investorların iqtisadi ekspansiyası və yerli bazarların zəbt edilməsi ilə əlaqədar öz iş yerlərinin yaradılmasına xərclər;

MUHASIBAT.AZ

- İTTMKP uyğun olaraq rəqabət üstünlükləri determinantın təkmilləşdirilməsinə xərclər;
- yerli əmtəə istehsalçılarının müdafiəsi üzrə proseksionist siyasətin reallaşdırılmasından gəlir.

Bu elementlərin hər biri müsbət və ya mənfi ölçü ilə xarakterizə oluna bilər.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin səviyyəsindən asılı olan iqtisadi təhlükəsizliyin səviyyəsinin artması (azalması) ilə əlaqədar olan tədbirlərin reallaşdırılması nəticəsində ÜDM artımının (itkisinin) qiymətləndirilməsinə belə yanaşmanı açıqlayaq.

İdxala meylliliyin artması və ya azalması təbii ki, az və ya çox valyuta xərclərinə gətirir.Yerli bazarlara nə qədər çox idxal əmtəələri daxil olur, bir o qədər çox valyuta ölkədən çıxarılır.

İdxal əmtəələrinə tələbin artması (azalması) yerli istehsalın ya dayandırılmasına, ya da inkişfaına zərurəti doğurur. Yerli istehsalın dayandırılması işsizliyin artmasına, miqrasiyanın güclənməsinə, kadrların yenidən hazırlanması zərurətinə və digər sosial nəticələrə gətirir. İdxalı əvəzləyici yerli istehsalın artırılması sadalanan xərclərəi azaldır, amma istehsalın genişlənməsi ilə əlaqədar olan xərcləri artırır.

İqtisadi ekspansiya yerli bazarlara daxil olma məqsədi ilə xarici müəssisələrin ölkə ərazisində tikinlməsində ifadə olunur. Bu müəssisələr yeni iş yerləri təklif edərək yerli iş verənlərin iş yerləri yaratmaq zərurətini azaldır. İqtisadi ekspansiyanın intensivliyinin azalması əksinə, yerli iş veriənlər tərəifndən yeni iş yerlərinin yaradılması və bununla şərtlənən xərclərin artması problemini yaradır.

MUHASIBAT.AZ

MUHASIBAT.AZ


Rəqabət üstünlüukləri
Fundamental elmdə dünyəvi ixtiralar Mütəxəssislərin
Elektron farmosep-tik cihazqayırma
Yeni sahələrə və fundamental
Daxili bazarda satışın həcmi
İxracı n
Xaricdən lisenziya və patentlərin alınması
ETTKİ prioritet Yeni təşkilati strukturların yaradılması. Rəqabətin yüksək səviyyəsi .İxtiraların tez tətbiqi
Elektrotexniki,ümumi və nəqliyyat
Texnika və texnologiyanın
Yaxşı inkişaf etmiş texniki baza. Kvalifikasiyalı heyət Fundamental tədqiqatlar İstehsalın konsentrasiyası Güclü köməkçi sahılır.
Daxili bazarda
İxracın
Müasir texnika və texnologiyanın alınması(əsasən
ETTKİ əhəmiyyətli qoyuluşlar və heyətin hazır lanması.
«Aşağı pilləli rəqabətli» sahələrdə xarici texnika
Nefthasilatı,qaz hasilatı,meşəemalı,qara və əlvan
Texnika və texnologiyanın
Texniki yenidən-silahlanma. Məhsul-darlığın yüksəldil- məsi. İxracın ar- tırılması. Daxili rəqabət üçün şərai-tin yaradılması. Resursların sonrakı
Zəngin təbii ehtiyatlır. Ucuz işçi qüvvəsi. Çoxillik iş təcrübəsi Daxili bazarın böyük tutumu.
Daxili bazarda
İxracın artımı
Müasir texnika və texnologiyanın alınması(əsasən

**Şəkil 7.3**.Potensial rəqabət qabiliyyətli sahələrin «çəkilmə» iqtisadi strategiyasının qurulması modeli.

Rəqabət üstünlüklərinin inkişafının aşağı səviyəli olması zamanı onların təkmilləşdirilməsi ilə əlaqədar işlərin həcmi kifayət qədər çox olur. Bu işlər müxtəlif maddi, kadr, maliyyə resurslarının cəlb edilməsini tələb edir. Bu funksiyaların yerinə yetirilməsinə xərclər həddən artıq yüksəkdir. Rəqabət üstünlüklərinin inkişafının yüksək səviyyəsi «milli rombun» determinantları ilə şərtlənən fundamental dəyişiklikləri tələb etmir.

Nəhayət, proteksionizm problemi. Yerli istehsalçıların idxal intervensiyasından müdafiəsinin adi vasitəsi gömrük tarifləridir. İdxal rüsumları, məsələn, göhnə xarici avtomobillərə həddən artıq yuksəkdir ki, bu da dövlət büdcəsinin (və ya büdcədən kənar vəsaitlərin) gəlir hissəsinin artırılmasına gətirir. Lakin ÜTT daxil olma belə gəlirdən imtina etməyiə məcbur edir.

Beləliklə, milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin səviyyəsi ümumi və adambaşına ÜDM ölçüsünə əhəmiyyətli təsir edir. Ona görə də rəqabət qabiliyyətliliyin artırılması probleminin həlli zamanı prioritetlərin təyini ÜDM ölçülərinin mümkün dəyişilməsi (həm müsbət, həm də mənfi tərəfə) proqnozlaşdırılmasına əsaslanmalıdır.

**Ölkə əhalisinin həyat səviyyəsinə və keyfiyyətinə dövlət təsirinin tədbirləri**

Həyat səviyyəsi ölkənin sosial-iqtisadi sferasının vəziyyəti ilə şərtlənərək insanın mümkün bioloji yaşama müddəti ərzində aktiv professional fəaliyyətinə,onun şəxsi yaşayış məqsədlərinə və ictimai münasibətlərə, yaşayış halının qeyri-sabitlyinə uyğunlaşma və psixoloçi davamlılığa cavab verən imkanları ilə müəyyənləşdirmək olar.

Həyatın keyfiyyət səviyyəsi xüsusi göstəricilərin inteqral qiymətləndirilməsidir ki, bu da həyat keyfiyyətinin tibbi,şəxsi və sosial tərkibləri ilə xarakterizə olunur.

MUHASIBAT.AZ

Həyat keyfiyyətinin tibbi göstəricilərixəstəliklərin növü üzrə differensiallaşdırılır. Bu göstəricilərin qiymətləndirilməsi üçünbeynəlxalq və yerli təcrübədə istifadə olunan müxtəlif ranq şkalaları istifadə oluna bilər.

Həyat keyfiyyətinin şəxsi göstəriciləri insanın psixoloçi xüsusiyyətlərini: onun dəyərli cəhətlərini, üstünlük və strateçi istiqamətlərini,ailə münasibətlərini xarakterizə edir.

Həyat keyfiyyətinin sosial göstəriciləri insanın sosial statusunu, onun işgüzarlıq və ictimai aktivliyini, şəxsiyyətin müdafiə olunmasını və vətəndaşın mülkiyyət hüquqlarını xarakterizə edir.

Həyat keyfiyyətinin səviyyəsinə çoxlu sayda amillər təsir edir ki, bunların arasında vacibləri kimi ölkədə yaranmış iqtisadi şərait, xüsusilə də dövlətin investisiya siyasətinin prioritetləri hesab edilir. Bu prioritetlərin seçilməsindən, onların sosial sferaya istiqamətlənməsindən son nəticədə yalnız ayrı fərdin həyat keyfiyyətinin səviyyəsi deyil, həm də ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsi də asılıdır.

Ədəbiyyatda iqtisadi təhlükəsizlik problemləri geniş müzakirə edilir. Bu müzakirələrdə ölkənin iqtisadi ekspansiyadan, idxal intervensiyasından, kriminal strukturlara qarşı fəaliyyətindən müdafiə problemlərinə üstünlük verilir. Həmçinin milli təhlükəsizliyin iqtisadi aspektləri, texnogen və antropogen fəaliyyətin, terrorizmin və digər bu yön xarakterli problemlərin nəticələrinin neytrallaşması da müzakirə edilir. Lakin «insan resurslarının» problemləri və yaxud bir vaxtlar qeyd edildiyi kimi insan amilləri kifayət qədər təhlil edilmir. Xüsuilə millətin ölkənin iqtisadi təhlükəsizliyi sağlamlığının vəziyyəti ilə təşəbbüskeşlənən təhlükələrinin tədqiqinə həsr olunan işlər azdır. Son nəticədə ölkənin milli, o cümlədən iqtisadi təhlükəsizliyinin təminin

MUHASIBAT.AZ

müvəffəqiyyəti insanların iş bacarığından,çətin texniki, təşkilati, siyasi və digər problemlərin vaxtında, səmərəli və keyfiyyətli həll etməyin obyektiv imkanlarından asılıdır. Əgər millətin fiziki və ruhi sağlamlığı aşağı səviyyədədirsə ölkənin təhlükəsizliyinin möhkəmləndirilməsi üzrə istənilən proqramın formalaşması və reallaşmasını gözləmək lazım gəlmir.

Fəsil çərçivəsində millətin sağlamlığının möhkəmləndirilməsi ilə bağlı problemləri tam əhatə etmək mümkün deyil. Yalnız şəxsi sual olan əhalinin sağlamlığının iqtisadi fəaliyyətin məhsuldardığına təsiri üzərində dayanaq.

Rusiya Federasiyasının təhlükəsizlik Şurasının təsdiq etdiyi ölkənin iqtisadi təhlükəsizliyi indikatorları dünya birliyinin ən inkişaf etmiş ölkələri ilə ölkənin sosial-iqtisadi sferasının vəziyyətinin uyğunluğu dərəcəsini müqayisə etməyə yönəldilib. Bu indikatorların içərisində elələri var ki, onların köməyi ilə sosial sferanın, o cümlədən səhiyyə sisteminin vəziyyətini qiymətləndirmək təklif edilir. Digərləri ilə yanaşı ölkə əhalisinin orta yaşama müddətini qiymətləndirən indikator da təklif edilir. Rusiya Federasiyasında bu göstəricinin qiyməti «yeddilik» dövlətlər üçün xarakterik olan göstərici ilə müqayisə edilir. 1996-ci ildə Rusiya Federasiyasında orta yaşama müddəti 64 yaş olub ki, bu da «yeddilk» ölkələrin analoji göstəricilərinin 91%-nə uyğun olub.

Gözlənilən orta həyat yaşının göstəricisi daha çox informasiya verir. Belə ki, məsələn, ABŞ sağlamlıq və Milli Staistika Mərkəzinin və siyahıya alınmanın Amerika bürosunun pressrelizlərinin verilənlərinə görə 1997-ci ildə anadan olmuş uşaq ABŞ-da orta hesabla 76,5 il yaşaya bilər ki, bu da 2,9 il 1990-cı ildə anadan olan adamın yaşama müddətindən çoxdur. Həyat keyfiyyətini xarakterizə edən digər statistik göstərici yaşlı adamların sayının artımı və ölkə əzalisinin sayında onların xüsusi çəkisinin artmasıdır. Eynilə həmin verilənlərə əsasən ABŞ-da 65 yaşında

MUHASIBAT.AZ

adamların sayı 1990-cı ildə 34,1 mln.nəfər olub ki, bu da bütün əhalinin 12,7%-ni təşkil edib. 1990-cı ildən 1997-ci ilə qədər yaşlı adamların sayı 2,8 mln. nəfər artıb.

Bununla belə verilən göstəricilər sosial sferanın vəziyyəti ilə təşəbbüskeşlənən ölkənin iqtisadi təhlükəsizlyinin təhlükələr dərəcəsini qiymətləndirmək üçün kifayət qədər informasiya vermir. Yaşama müddəti təkcə subyektiv amil olan gəlirlərin səviyyəsi və differensiasiyası, tibbi xidmətin keyfiyyəti, sosial-mədəni tələblərin ödənilməsi dərəcəsi, cinayətkarlığın səviyyəsi, bütün səviyyəli hakimiyyət strukturlarının büdcə siyasətindən, ekoloçi vəziyyətdən və s. asılı deyil.

Yaşama müddətinə konkret ölkənin şəraitində fəaliyyət göstərən obyektiv amillər də təsir edir. Bu amillərə təbii-iqlim şəraiti,mentalitet və milli ənənələr, bu və ya digər ölkənin sosial-iqtisadi sferasının inkişafının tarixi tendensiyası və s. aid etmək olar.

Ölkənin iqtisadi təhlükəsizliyinin təmini şəraitinin xarakteristikası üçün bir çoxlarının içərisindən millətin sağlamlığını qiymətləndirməyə imkan verən indikator daha çox informativ sayılır.

Ölkə əhalisinin sağlamlığının iqtisadi vəziyyəti işçilərin xəstələnmələri nəticəsində əmək qabiliyyətinin itirilməsi ilə şərtlənən milli iqtisadiyyatda itkilərin ölçüləri ilə xarakterizə oluna bilər. Bu itkilər Ümumi Daxili Məhsulun (ÜDM) illik ölçüsünün azalmasına gətirib çıxarır.

Rusiya Hərbi-Tibbi Akademiyası (RHTA) ilə SPbDPU birlikdə aparılmış tədqiqatlar əhali müxtəlif yaş qrupları arasında ən çox yayılmış xəstəliklərdən itkilərin ölçüsünün qiymətləndirilməsi metodikasını işləyib hazırlayıblar. Milli (regional) iqtisadiyyat səviyyəsində yaranan itkilərin ölçüsünün

MUHASIBAT.AZ

qiymətləndirilməsi üçün işçilərin əmək qabiliyyətinin itirilməsi nəticəsində alınmayan ÜMM ölçüsünün göstəricisi istifadə olunur.

İtkilərin hesablanması aşağıdakı formula üzrə aparılır:

$$Ptnz = \frac{WoKz(1+a)t}{Dt} dnNntKrKs$$

Burada Ptnz – z seqmentinə aid olan işçinin n xəstəlik növü ilə əlaqədar t ilində işi çıxmamasından yaranan itkilər, rub.(ABŞ doll.), Wo-baza ilində bir yaşayana düşən ÜDM,rub.(ABŞ doll.), Dt- t ilində günlərin sayı,A- ÜDM orta illik artım tempi, çəki vahidi; dn- n növlü xəstəlik üzrə pasiyentə müalicə sisteminin təsirinin orta müddəti, günlər; Nnt- t ilində p növlü xəstəliklə olan ilkin pasiyentlərin sayı, adam; Kr-xəstəlik residivlərinin əmsalı, çəki vahidi; Ks- əhalinin ümumi sayında iqtisadi fəaliyyətlə məşğulların çəkisi, çəki vahidi; Kz-ÜDM formalaşması prosesində z tibbi xidmət bazarı seqmentinə aid olan işçinin gətirdiyi xeyiri xarakterizə edən əmsal, çəki vahidi.

Tibbi xidmətlər bazarının seqmenti dedikdə gəlirlilik səviyyəsinə, sosial statusu, xəstəliyin xarakterinə və digər parametrlərə görə bu və ya digər kateqoriyalı alternativ müalicə sistemlərinin təklifi zamanı eyni tipli reaksiya verən potensial pasiyentlər qrupu baza düşülür. Tibbi xidmətlər bazarının seqmentləşdirilməsi morfoloji matrisaların köməyi ilə həyata keçirilə bilər. Belə matrisanın nümunəsi şəkil 7.4-də verilmişdir.

Bütün seqmentlərin (Ptn) işçilərinin xəstələnməsindən itkilərin ümumi ölçüsü tibbi xidmətlər bazarfnın bütün seqsentləri üzrə PntzNnt verilənlərinin cəmlənməsi ilə tapılır.

MUHASIBAT.AZ

| Seqmentləşmə kriteriləri | Kriterilərin göstəriciləri | | | |
|---|---|---|---|---|
| 1.Pasiyentin yaşı | 1.Cavan | 2.Orta | 3.Yaşlı | 4.Ahıl |
| 2.Səhhətinin ümumi vəziyyəti | 1.Pis | 2.Qənaətbəxş | | 3.Yaxşı |
| 3.Gəlir səviyyəsi | 1.Aşağı | 2.Orta | | 3.Yüksək |
| 4.Ailə vəziyyəti | 1.Tənha | 2.Ailəli | | |
| | | 1.Uşaqsız | 2.1-2 uşaqlı | 3.Çoxuşaqlı |
| 5.Səhhətinin vəziyyətinə fərdi məsuliyyətli münasibət | Bağlılıq | | | |
| | 1.Tibbi paternalizm | | 2.Özünüdeterminasiya | |

**Şəkil 7.4.** Tibbi xidmətlər bazarının seqmentləşdirilməsinin morfoloji matrisası.

MUHASIBAT.AZ




**Şəkil 7.5.**Yaş həddindən asılı olaraq ehtimal olunan: yuxarı tənəffüs yolları və dəri xəstəlikləri, mədə-bağırsaq traktı, ürək-damar sistemi, onkoloji xəstəliklərin qrafiki. Absis oxu üzrə adamın yaş həddi, ordinat oxu üzrə ehtimal olunan xəstəlik verilmişdir.

Bu metodika üzrə hesablamalar Rusiya Federasiyası və Sankt-Peterburq üzrə 1999-cu ildə onkoloji, ürək-damar, həzm orqanları və tənəffüz yolları üzrə xəstəliklərdən gözlənilən itkilərin riyazi ehtimalın müəyyən edilməsinə imkan verdi. Bu itkilərin ölçülərinin qiymətləndirilməsi üçün Rusiya Felerasiyasının əhalisinin yaş üzrə strukturlaşdırılması həyata keçirilib: əmək ehtiyatlarının strukturu müəyyən edilib; hər sferada ambulator və stasionar müalicənin müddətliliyi haqda orta statistik verilənlər təyin edilib; müalicə ilə əlaqədar xərclər və başqaları müəyyənləşdirilib. RHTA-da aparılan uzun müddətli (30 il müddətində) statistik müşahidələr əsasında yaş qruplarında göstərilən xəstəliklərin ehtimalı haqda orta statistik verilənlər təyin edilmişdir (şək.7.5.).

MUHASIBAT.AZ

Hesablamaların nəticələri xəstəlik dövründə əmək qabiliyyətliliyinin itirilməsi nəticəsində yaranan ölkənin iqtisadi təhlükəsizliyinin yüksək dərəcədə olmasını təsdiqləyir. Belə ki, yalnız Sankt–Peterburqda riyazi gözləmələr il üzrə 1.15 mlrd. rub., yəni regional məcmu məhsulun 1,11 % təşkil etmişdir. Sankt Peterburqun administrasiyası tərəfindən verilənlərə görə 2000-ci ildə regional məcmu məhsul əvvəlki illə müqayisədə 1.4 % artırılması nəzərdə tutulmuşdur. (Sankt-Peterburqun administrasiyasının proqramı,2000). Beləliklə, bizim tərəfimizdən baxılan xəstəliklər üzrə itkilərin riyazi gözləmələri regional məcmu məhsulun illik planlaşdırıdmış artım tempinə yaxınlaşmışıdır.

İtkilərindən riyazi gözləmələrin hesablanmasından başqa bizim tərəfimizdən «Peterburqstatkom» tərəfindən qeyd edilmiş əhalinin 100 min nəfərinə ilk dəfə təyin edilmiş diaqnozla xəstələnənlərin sayı hvqdv staistik verilənlər əsasında hesablamalar aparılmışdır (Sankt-Peterburq1996-1999: staistik məcmuə, 2000). Bu hesablamaların nəticələri göstərir ki, ilkin xəstələnmələrdən itkilər ildə 1,37 mlrd.rub (şək.7.6.) təşkil etdiyi halda, residivlərdən (xəstəliyin təkrar kəskinləşməsindən) orta staistik göstəricilərin nəzərə alınması ilə itkilər 2,45 mlrd. rubl olar, bu da illik regional məcmu məhsuldan 2,5 % çox ola bilər.




MUHASIBAT.AZ

**Şəkil 7.6.**Sankt - Peterburqda 2001-ci ildə

xəstəliklərdən itkilər.

Beləliklə, staistika tərəfindən qeyd edilmiş itkilərin real cəmi bu itkilərin riyazi ehtimalından yüksək oldu. Başqa sözlə, reallıq gözləniləndən daha ağır oldu. Hələ bu bizim hesablamalara sümük-əzələ sistemi, endokrin sistem, parazitar və infeksion xəstəlik növlərindən itkilərin, xəstəlikdən vaxtından qabaq ölümə görə itkilərin, əhalinin artan «əlilliliyi»ndən itkilərin salınmaması ilə belə olmuşdur. Qeyd edək ki, biz hesablamalara həm də ancaq rəsmi qediyyatdan keçmiş xəstələrin məlumatlarını daxil etmişik. Xəstəliyə görə sosial müavinətlərin ödənilməsi sisteminin natamamlığı ilə əlaqədar bir çox işçilər tərəfindən xəstəliklər gizlədilir və qeydiyyatdan keçirilmir. Bundan başqa, gizli xəstəliklər kateqoriyası da mövcuddur. Gizli xəstəliklərin səbəbləri kimi: tibbi köməyin məhdud əldə edilən olması; çox vaxt pasiyentlərin ciddi fikir vermədikləri «özünü məhdudlaşdıran» xəstəliklərin olması; alternativ müalicə; xəstəlik qabağı mərhələ çıxış edir. Bütün bu gizli xəstələnmələr həkimlər və tibb işçiləri tərəfindən müşahidə edilmir və heç harda qeydiyyatdan keçirilmir. Halbuki, belə gizli xəstəliklərdən itkilər az deyil, hətta rəsmi qeydiyyatdan keçirilmiş xəstəlikdən daha çox ola bilər.

Təkcə rəsmi qeyd edilmiş xəstəliklərdən itkilərin hesablanmasının nəticələri göstərir ki, ildən-ilə əhalinin sağlamlığı pisləşir.

Bizim tərəfimizdən baxılan xəstəlik növləri üzrə itkilərin riyazi ehtimalının ölçüsü Rusiya Federasiyasının milli iqtisadiyyatı üçün ildə 43,5 mlrd.rubl, residivin əmsalının orta göstəricisi nəzərə alınmaqla isə ildə 90 mlrd.rubla yaxınlaşır. RF makroiqtisadi göstəricilərində (2000-ci il) nəşr edilmiş ÜDM orta illik ölçüləri

MUHASIBAT.AZ

haqda verilənlərə görə belə itkilər ÜDM 2 % təşkil edə bilər, yəni onlar ÜDM planlaşdırılan orta illik artım tempinə yaxınlaşır.

Göstərilən verilənlər yalnız səhiyyə sistemində deyil, həm də bütün sosial sfera da qorxulu vəziyyəti ilə təşəbbüskeşlənən Rusiya Federasiyasının iqtisadi təhlükəsizliyində ifrat təhlükələrin olması haqda nəticəyə gəlməyə imkan verir. Belə vəziyyət dövlətin investisiya siyasətinin prioritetlərinin köklü yenidən baxılması haqda federal və regional səviyyəli hakimiyyət strukturları üçün siqnal olmalıdır. Dövlətin büdcə və investisiya siyasətlərinin əsas prioriteti insan resurslarına kapital qoyuluşları olmalıdır. Bu zaman investisiya siyasəti mülkiyyət: dövlət və xüsusi sferaları üzrə differensiallaşdırılmalıdır.

Bununla əlaqədar dövlət və xüsusi bölmələr arasında maliyyələşdirmə sferalarının yerləşdirilməsi prinsiplərinin qiymətləndirilməsinə imkan verən göstəricilər və ABŞ büdcə strukturunun nümunəsi əsasında uyğun siyasətin prioritetlərini dolayı xarakterizə edən bəzi göstəriciləri nəzərdən keçirək.

1990-2000-ci illərdə ABŞ-da büdcə siyasətinin əsas prioritetləri sosial yönümlü olmuşdur. Bu federal büdcənin xərclərinin strukturundakı dəyişikliklərlə təsdiqlənir. V.N.Sumarokovun verilənlərinə (Sumarokov V.N.,1996) görə bu dəyişikliklər aşağıdakı şəkildə kimidir(yekuna görə %-lə):

| | 1990 | 2000 (proqnoz) |
|---|---|---|
| Hərbi xərclər | 23,9 | 14,1 |
| İnsan resursları | 49,4 | 64,3 |

MUHASIBAT.AZ

| | | |
|---|---|---|
| Maddi resurslar | 10,0 | 3,4 |
| Dövlət borcu üzrə faiz ödəmələr | 14,7 | 16,3 |
| Digər funksiyalar | 4,9 | 4,1 |
| Bölüşdürülməmiş kompensasiya daxilolmaları | 2,9 | 2,2 |
| Cəmi federal xərclər | 100,0 | 100,0 |

ABŞ rəsmi statistikası «İnsan resursları» qrupuna aşağıdakı proqramları aid edir: «Təhsil, professional texniki təhsil, məşğulluq və sosial xidmətlər», «Səhiyyə», «Madiekr» (ahılların sağlamlığının mühafizəsi), «Gəlirin sığortalanması», «Sosial təminat», «Veteranlara müavinət və xidmətlər».

Səhiyyəyə edilən xərclərə, əsasən onların dövlət və xüsusi bölmələr arasında bölüşdürülməsinə gəldikdə dünya təcrübəsində ölkələr üzrə fərqlənən orta proporsiyalar müşahidə edilir: profilaktik səhiyyəyə xərclər 100% dövlət tərəfindən maliyyələşdirilir, müalicə səhiyyəsinə xərclərin 30%-i dövlət, 70 %-i isə xüsusi bölmə tərəfindən maliyyələşdirilir(Albeqova İ.M.və b.,1998).

Prafilaktik səhiyyənin investisiyalaşdırılması heç də müalicə idarələrinə dispanserizasiya, peyvəndlərin və profilaktikanın digər yalnız tibbi forma və metodlarının həyata keçirilməsi üçün vəsaitlərin qoyulması demək deyil. Xəstəliklərin profilaktikasına həm də yaşama mühitinin yaxşılaşdırılması (təbiəti müdafiə tədbirləri, su təminatının yüksək keyfiyyətinin təmini, tullantıların yenidən emalının proqressiv metodlarından istifadə və s.); yeyinti məhsullarının təhlükəsizliyini təmin edən texnologiyaların geniş yayılması; yeyinti strukturunun yaxşılaşdırılması; sağlam yaşama tərzinin təbliğatı; narkotik maddələrin sanksiyalaşdırılmamış

MUHASIBAT.AZ

istehsalı və yayılması ilə mübarizə və s. aiddir. Belə ki, Sankt-Peterburq su hövzələri və atmosferin çirklənməsi nəticəsində onkoloji və stomatoloji xəstəliklər üzrə birinci yeri tutur. Radioloji vəziyyət də qeyri-qənaətbəxşdir. Açıq ərazilərdə radioaktiv çirklənmələr elm, tibb və sənayedə istifadə edilən radioaktiv maddələrin, material və məmulatların nəzarətsiz daxilolmaları nəticəsində formalaşmışdır. Mütəxəssislər hesab edirlər ki, onkoloji xəstəliklərin son illərdə artımı 1960-cı illərdə çirklənmələrin nəticəsidir. İstisna edilmir ki, 20-30 ildən sonra Sankt Peterburqda onkoloji xəstəliklərin yeni yayılması ola bilər.

Başqa sözlə, millətin sağlamlağı sosial sferanın və onun idarə edilməsində hakimiyyət strukturlarının qəbul etdiyi prinsiplərin keyfiyyətindən çox asılıdır. Sosial sferanın inkişafına görə əsas məsuliyyəti regional səviyyəli hakimiyyət strukturlarının müstəsna səlahiyyəti olmalı, sosial sferanın investisiyalaşması prioritetliliyi isə regional iqtisadi siyasətin əsas istiqaməti kimi baxılmalıdır. Sankt-Peterburqun timsalında regionun investisiya siyasətinin formalaşması qaydası şəkil 7.7-də verilmişdir. Bu zaman qeyd etmək lazımdır ki, regional investisiya siyasətinin problemlərini avtonom, yalnız bir regionun çərçivəsində həll etmək olmaz. Federasiyanın qonşu subyektlərinin bu siyasətlərinin koordinasiyası lazımdır. Federal dairələrin yaradılması bu vəzifələrin həllinə şərait yaradır. RF Prezidentinin səlahiyyətli nümayəndələri tərəfindən bu dairələr çərçivəsində investisiya siyasətinin prioritetlərinin formalaşması proseslərinin koordinasiyasına məqsədyönlü yanaşmaya bu strukturların ölkənin milli, xüsusi ilə də iqtisadi təhlükəsizdiyinin təmininin əsas təməli kimi baxılmalıdır.

Rusiya Federasiyasının milli iqtisadiyyatı iri struktur dəyişikliklər dövrünü yaşayır. Yalnız ayrı-ayrı müəssisələrin deyil, bütün sənaye sahələrinin restrukturlaşma proqramları işlənib hazırlanır. Təbii ki, belə yenidənqurmalar iqtisadi təhlükəsizliyin gücləndirilməsinə şərait yaratmalıdır. Lakin belə proqramların işlənib hazırlanması zamanı yalnız hərbi və ya istehsal sferası ilə, ilk növbədə maddi-texniki bazanın yeniləşdirilməsi proseslərinə, yüksək texnologiyalar, telekommunikasiyalar və «industrial» xarakterli istiqamətlərin investisiyalaşması ilə məhdudlaşmaq olmaz. Sözsüz ki, ölkənin milli və iqtisadi təhlükəsizliyi üçün fəaliyyətin bu istiqamətləri çox vacibdir. Amma bu fəaliyyəti

MUHASIBAT.AZ

insanlar yerinə yetirməlidirlər. Son nəticədə hər şey ruhi və fiziki sağlamlaqdan asılıdır. Bununla belə millətin sağlamlığının pisləşən vəziyyəti nəticəsində ölkə əhalisinin fəaliyyət qabiliyyətsizliyinin artması bu problemləri səmərəli və keyfiyyətli həll etməyə imkan verməyəcək. Əhalinin praktiki bütün yaş qruplarının xəstəliklərinin artan templəri ilə əlaqəli olan ÜDM kəskin itkiləri RF insan resurslarının yüksək səviyyədə saxlanmasına vəsaitlərin qoyulması prioritetləri üzrə təxirə salınmaz tədbirlərin keçirilməsini tələb edir. Federal və regional hakimiyyət strukturların büdcə və investisiya siyasətində yalnız belə yanaşma Rusiya Federasiyasının iqtisadi təhlükəsizliyinin yüksək dərəcəsini təmin edə bilər.




MUHASIBAT.AZ

II

III

IV

↓

V

MUHASIBAT.AZ

VI

**Şəkil 7.7.** Regional investisiya siyasətinin prioritet və məqsədlərinin təyininin prinsipial sxemi.

İnvestisiyaların strukturunun insan resurslarının xeyrinə dəyişilməsi probleminin vacibliyi dah obyektiv amillə, əhalinin qocalması və doğumun aşağı olması ilə şərtlənmişdir. Bu tendensiyalar praktiki olaraq bütün inkişaf etmiş ölkələrə xasdır. Şərqi və Mərkəzi Avropada və Yaponiyada doğum əmsalı əhalinin adi təkrar istehsalı üçün zəruri olan həddən də aşağı düşmüşdür, daha dəqiq, desək uşaq doğum yaşlı hər qadına 2,1 uşaqdan da aşağı olmuşdur. İtaliyanın bəzi imkanlı regionlarında, məsələn, Boloniyada doğum əmsalı 1999-cu ildə 0,8 % düşmüş, Yaponiyada 1,3 % təşkil etmişdir. XXI əsrin sonuna İtaliyanın əhalisi bu gün 60 mln. nəfər olmasına baxmayaraq 20-22 mln. nəfərə qədər, Yaponiyanın bu günə 125 mln. əhalisi 50-55 mln. nəfərə qədər azala bilər. Qərbi və Şimali Avropada bu gün doğum əmsalı 1,5 və daha azdır. ABŞ-da bu əmsal 2 –dən çox deyil və davamlı azalır (Piter Druker,2000). Analoji tendensiyanı Rusiyada da gözləmək olar.

Lakin öz-özlüyündə əhalinin sayı deyil, müxtəlif yaş çərçivəsində artmasının nisbəti vacibdir. Bir sıra Avropa ölkələrində ənənvi pensiya yaşına çatmış yaşlı adamların kəmiyyəti cavan adamların sayını üstələyir. XXI əsrin ortalarına belə nisbətlərin hər yerdə olacağını proqnozlaşdırmaq olar.

Göstərilən tendensiyalardan belə nəticəyə gəlmək olar ki, istehsal sferasında ənənəvi pensiya yaşını adlamış insanlar daha çox

MUHASIBAT.AZ

olacaq. Görünür inkişaf etmiş ölkələrin, o cümlədən Rusiyanın hakimiyyəti pensiyaya çıxma yaşını artırmalı olacaqlar. Deməli, istehsal sferasına tamamilə başqa əsasda: natamam iş günü, əlavə məzuniyyət və digər güzəştlər əsasında istehsal funksiyalarını yerinə yetirən yaşlı adamlar cəlb ediləcək. Əgər buna yaşla əlaqədar xəstəliklərin ehtimalı dinamikasına uyğun olaraq bizim tərəfimizdən baxılan xəstəliklərin ehtimalının 1–ə yaxınlaşmasını da əlavə etsək, onda ÜDM itkilərinin artmasını gözləmək olar. Bizim tərəfimizdən proqnozlaşdırılan dörd yuxarıda verilən xəstəlik növü üzrə itkilərin riyazi gözləmələri 2010-cu ilə göstərir ki, yalnız Sankt-Peterburq üzrə bu itkilər 1,5 mlrd. rubl. yaxınlaşacaq (şəkil 7.8.). 2010-cu ilə baxılan xəstəlik növləri üzrə itktlərin riyazi gözləmələrinin proqnozu üçün qəbul edilmiş bəzi son müddəaları izah edək.

Əhalinin yaş strukturu «dalğavari», qeyri-bərabər xarakterə malikdir və yaş qrupları bərabər ölçülü deyil: orta yaş qrupu iqtisadi münasibətdə daha məhsuldar olub həcminə görə cavan və yaşlı qruplara nisbətən çoxdur. Digər tərəfdən bu yaş qrupunun işçiləri daha yüksək əmək məhsuldarlığına malikdirlər. Ona görə də onların ÜDM qoyuluşları da ən çoxdur. Eyni zamanda bütün baxılan xəstəliklər növü üzrə xəstələnmələrin ehtimalı da orta yaş qrupu işçilərində həddən artıq artıq. Əmək məhsuldarlığının yüksək səviyyəsinin və ÜDM itkilərin ölçüsünə xəstəliklərin ehtitmal olunan təsiri əyridə itkilərin birinci pikinin yaranmasına gətirib çıxarır (şəkil 7.8.).

**250 000 000**

**200 000 000**

**150 000 000**

MUHASIBAT.AZ




**Şəkil 7.8.** 2010-cu ildə Sankt-Peterburqda xəstəliklər hesabına itkilərin proqnozlaşdırılması.

Qrafikdə alınan ikinci pik itkilər şəklində dəyişikliklər daha mürəkkəb səbəblərlə şərtlənmişdir. Bir tərəfdən proqnozlaşdırılan perspektivdə yaşlı işçilərdə baxılan xəstəliklərin bütün növlərinin yaranma ehtimalı 1-ə yaxınlaşacaq. Təbii ki, onların sağalma müddəti də daha uzunmüddətli olacaq. Bundan başqa, bu işçilərin ÜDM qoyuluşları da proqnozlaşdırılır. Sonuncu, heyətin qocalması əmək resurslarının tərkibində yaşlı işçilərin pensiyaya getməsi intensivliyinin az olması hesabına bütün yaş kateqoriyaları üzrə işçilərin sayının artmasına gətirib çıxaracaq. Eyni zamanda yüksək ixtisaslı işlərdə, həm bilavasitə iş vəzifələrində, həm də müəssisənin menecmentində məşğul olanların arasında yaşlı adamların rolu artacaq ki, bu da bu yaş qrupunun ÜDM artımına qoyuluşunu yüksəldəcək. Göstərilən amillərin təsirinin məcmusu ÜDM daha intensiv artımına gətirəcək və deməli, heyətin xəstələnməsi və

MUHASIBAT.AZ

müəyyən dövr ərzində əmək qabiliyyətinin itirilməsi ilə əlaqədar ÜDM itkilərin intensiv artımı da olacaq. Başqa sözlə, yerinə yetirilməmiş ÜDM daha çox olacaq.

Beləliklə, təsdiq etmək olar ki, əgər investisiya siyasətində prioritetlərinin dəyişilməsi hesabına sosial sferanın vəziyyətinin mahiyyətli yaxşılaşdırılması üzrə ekstraordinar tədbirlər qəbul edilməsə millətin sağlamlığında katastrofik vəziyyət yaranacaq. Onda söhbət iqtisadi təhlükəsizliyin möhkəmləndirilməsindən deyil, millətin saxlanmasından gedəcək.

## 7.6. Müəssisənin iqtisadi təhlükəsizliyi

Müxtəlif formalı mülkiyyət mənsubiyyətli ayrı-ayrı təsərrüfat subyektlərinin (müəssisələr, firmalar) iqtisadi təhlükəsizliyi problemlərinin elmi və metodik işlənməsi ilkin mərhələdədir. Mövcud işləmələr, ilk növbədə, müəssisəyə rəğmən həm xarici, həm də daxili xarakterli kriminal strukturların müəssisənin resurslarına icazəsiz (sanksiyasız) müdaxiləsinin qarşısının alınması və müdafiəsi məsələlərin həllinə istiqamətlənmişdir. Belə müdaxilələrdən müdafiənin müxtəlif (hərdən olduqca səmərəli) sistemləri təklif olunur. Lakin, seçim və öz missiyasının icrası prosesində şirkətin idarəetmə iyerarxiyasının müxtəlif səviyyələrinin menecmentinin strateji davranışı- kimi təməlqoyucu məsələsinə həddindən az diqqət yetirilir. Həmin bu mürəkkəb, bir çox amildən asılı olan problemin bəzi prinsipial aspektləri üzərində dayanaq.

*Birincisi*, şirkətə rəğmən iqtisadi təhlükəsizlik anlayışının özünü dəqiqləşdirmək gərəkdir, çünki, onu təmin edən sistemin yaradılması prinsipləri də bundan asılıdır.

MUHASIBAT.AZ

İqtisadi təhlükəsizlik – şirkətin xarici mühitinin qeyri-sabitliyi səviyyəsindən və şirkət daxilində fors-major hallarının yaranmasından asılı olmayaraq, onun öz yaşam qabiliyyətini təmin etməyə iqtidarlı olmaq kimi baxılır. İqtisadi təhlükəsizliyə qarşı daxili mühit tərəfindən yaranmış təhlükələr – təkcə, şirkətin bütün növlərdən olan resurslarının keyfiyyətsiz mühafizə olunması səbəbindən, müxtəlif kateqoriyalardan olan bədxahların həmin resurslara icazəsiz müdaxiləsi imkanları ilə şərtləndirilmir. Başlıca təhlükə – istehsal sisteminin hər bir elementinə kifayət qədər çeviklik verən, xarici mühitin dəyişkən parametrlərinə müəssisənin dayanıqlı uyğunlaşmasını təmin edə bilən strategiyanın olmamasıdır.

*İkincisi*, iqtisadi təhlükəsizilyə qarşı şirkətin daxili mühitinin təşəbbüsü ilə yaranan hədələr mənbəyini müəyyən etmək gərəkdir. Bununla bağlı, şirkətin strateji potensialının – yəni, onun ümumən son hədd imkanlarının müəyyənləşdirilməsi problemi yaranır. Çünki, məhz bu potensialın öz tərkibi, iqtisadi təhlükəsizliyə qarşı potensial daxili təhlükənin mənbəyinə çevrilə bilər.

Resurslar, şirkətin strateji potensialının (ŞSP) elementləri arasında optimal qaydada bölüşdürülməlidir. Təbii ki, ŞSP elementləri zəruri texniki vasitələrlə mühafizə olunmalıdır.

*Üçüncüsü*, xarici mühitdən də əhəmiyyətli təhlükələr irəli gəlir. Bu təhlükə, firma rəhbərliyinin firmanın fəaliyyətinə dair aydın strategiyasının olmaması nəticəsində yaranır. Fəlakətlər nəzəriyyəsinə müvafiq olaraq, sistemlərin adaptivliyi hədləri mövcuddur. «Əgər sistemin parametrlərinin dəyişməsi onun adaptiv inkişaf imkanlarını üstələyirsə, davamlılığı itirilir. Bu halda, davamlılıq itirildikdən sonra, dövri enib-qalxma rejimi bərqərar olursa, davamlılığın yumşaq itirilməsi barədə danışılır. Əgər sistem digər rejimə sıçrayışla keçirsə – bu halda davamlılığın sərt itirilməsindən söhbət gedir» («Переходы и катастрофы», 1994).

Böhran hallarının bir neçə səviyyəsi fərqləndirilir: böhranqabağı vəziyyətlər, böhranın özü, fəlakətlər. Birincilər adaptasiya (xarici və daxili çevikliyə nail olmaq) qabiliyyəti ilə səciyyələndirilir, ikincilər – davamlılığın yumşaq itirilməsi ilə xarakterizə edilir, üçüncülər isə – davamlılığın sərt itirilməsi ilə (yəni, iqtisadi təhlükəsizliyin itirilməməsi naminə, öz biznesinin paradiqmasının

MUHASIBAT.AZ

dəyişdirilməsi zərurəti ilə) səciyyələndirilir.

Deməli, fəlakətlər nəzəriyyəsi terminləri ilə deyilərsə, şirkətin iqtisadi təhlükəsizliyinin mövcudluğu – onun strateji potensialının adaptivlik həddinə yaxın olmaması vəziyyəti kimi baxılmalıdır, strateji potensialın adaptivliyi səviyyəsi sərhəd zonasına yaxınlaşdıqca, iqtisadi təhlükəsizliyi itirmək qorxusu da artır. Başqa sözlə, əgər ŞSP-nin, öz mövcud şəklində, artmaqda olan qeyri-sabitliyə uyğunlaşmaq imkanları tükənmişsə, yəni, yaranmış missiya çərçivəsində şirkət fəaliyyət şəraitinin dəyişməsi tempinin artımına tab gətirmək iqtidarında deyildirsə, onun iqtisadi təhlükəsizliyini itirmək qorxusu barədə danışmaq mümkündür. Bu qorxu, xidmət olunan strateji təsərrüfatçılıq zonalarında (STZ) aparıcı mövqelərinin firma tərəfindən itirilməsi, yaxud maddi vəziyyətinin əhəmiyyətli dərəcədə pisləşməsi, yaxud strateji təsirə malik olan güclü qrupların nəzərində firmanın müsbət imicinin itirilməsi və s. ilə ifadə oluna bilər.

Fəlakətli vəziyyət o zaman yaranır ki, şirkətin aktivlərinin və onun sahiblərinin şəxsi mülkiyyətinin itirilməsi riski öz son həddinə yaxınlaşır. Bu, o deməkdir ki, iqtisadi təhlükəsizilk öz son həddinə, şirkət sahiblərinə məxsus kapitalının tam itirilməsi ehtimalının ən yüksək olduğu zaman çatır.

Baxılan problemin yuxarıda verilmiş bəzi məzmun müddəaları, müəssisənin xarici və daxili mühitindən irəli gələn iqtisadi-idarəetmə xarakterli təhlükələrin təsnifat prinsiplərinin işlənib-hazırlaması üçün əsas verir (şək.7.9). Təsnifatın yuxarı səviyyəsində iqtisadi təhlükəsizliyə qarşı təhdidlərin ən «təsirli» mənbələrini yerləşdirək. Bunlara aşağıdakıları aid etmək gərəkdir: müəssisə tərəfindən xidmətə götürülmüş strateji təsərrüfatçılıq zonaları (STZ) toplusu, uzunmüddətli kontraktlara istinadən təşəkkül tapmış strateji resurslar zonaları (SRZ) toplusu, obyektiv mövcud olan strateji təsir qrupları (STQ) kompleksi, şirkətin strateji potensialı (ŞSP). Təsnifatın sonrakı pillələrində, təhdidlərin təfsilat dərəcəsi tədricən artmaqla, göstərilmiş obyektin hər biri dekompozisiyaya uğrayır. Son pillədə daha səciyyəvi xarakter daşıyan «zəif siqnallar»– müəssisənin böhranqabağı, böhranlı yaxud fəlakət vəziyyətinin ilkin xəbərdarediciləri konkretləşdirilməlidir («Стратегия и тактика антикризисного

MUHASIBAT.AZ

управления фирмой», 1996).




MUHASIBAT.AZ

**Şəkil** 7.9. Müəssisənin iqtisadi təhlükəsizliyinə qarşı təhdidlərin təsnifatı sxemi

Bu cür təsnifat, müəssisənin kritik, böhranlı yaxud fəlakətli vəziyyətinin qarşısının alınması məqsədilə, rəhbərlik tərəfindən *əkstədbirlər kompleksinin* qabaqcadan hazırlanması üçün baza olur. Bu əkstədbirlər aşağıdakıları nəzərdə tutur: STZ və SRZ-na rəğmən – bu obyektlər toplumunun idarəolunması; ŞSP-na rəğmən – elementlər arasında bölgünün optimallaşdırılması və resurslara sanksiyasız müdaxilədən müdafiənin təşkili; STQ-na rəğmən – hakimiyyət və müəssisəyə loyal münasibətli strukturlarla qarşlıqlı fəaliyyət, rəqabət və kriminal strukturlarının aqressiv təsirinə müqavimət.

Belə əkstədbirlər kompleksinin işlənib-hazırlanması üçün, kritik, böhran yaxud fəlakət vəziyyətlərini ədədi qiymətlərlə kəmiyyət cəhətdən səciyyələndirən *indikatorlar* seçilməlidir. Bu indikatorların dinamikasının və onların son hədd qiymətlərinə yaxınlaşmasının izlənməsi iqtisadi təhlükəsizliyin təminatı strategiyasının olduqca vacib istiqamətlərindəndir. Beləliklə, müəssisədə iqtisadi təhlükəsizliyə potensial təhdidlərin qarşısının alınması və əkstəsir sistemi yaradılmalıdır. Həmin sistemin ən vacib elementi – müəssisənin xarici və daxili mühitinin skanerlənməsi altsistemi olmalıdır. Skanerlənmə, hər bir müəssisədə qabaqcadan hazırlanmış, aşağıdakı başlıca bölmələrdən ibarət olan metodiki materiallar əsasında aparılır:

- müşahidəyə məruz qalan ümumi və hər bir müəssisə üçün

MUHASIBAT.AZ

spesifik olan xarici və daxili mühit parametrlərinin siyahısı;

- müəsisənin xarici və daxili mühit parametrlərinin vəziyyəti və dinamikası siqnallarının kəmiyyət və keyfiyyət baxımından qiymətləndirilməsi prinsipləri;

- müəsisənin təyin olunmuş xarici və daxili mühit parametrlərinin müşahidə dövriliyi, həqiqi siqnalların «kənar səslərdən» fərqləndirilməsi prinsipləri;

- müşahidə prosesində aşkar edilmiş halların mümkün nəticələrinin təhlili metodları;

- müəssisənin iqtisadi təhlükəsizliyinə təhdidlərin qarşısının alınması yaxud zəifləndirilməsinə dair əkstədbirlərin işlənib-hazırlanması prinsipləri.

Müəssisənin iqtisadi təhlükəsizliyinin təminatı sisteminin fəaliyyətinin prinsipial sxemindən (şək.7.10) belə bir qənaət irəli gəlir ki, bu mexanizmdə başlıca hadisə – müəssisənin missiyasının təyin edilməsidir ki, onun (missiyanın) əsasında sahibkarlıq fəaliyyətinin strategiyasına dair idarəedici qərarlar qəbul edilir. Qəbul edilmiş strategiyaya müvafiq olaraq, müəssisənin xarici və daxili mühitinin monitorinqi aparılır və iqtisadi təhlükəsizliyə potensial təhdidlər üzə çıxarılır. Bu təhdidlərə əkstəsir etmək məqsədilə, onların təşəbbüsçü mənbələrinə yönəlmiş müvafiq əkstədbirlər işlənib-hazırlanır. Strateji təsərrüfatçılıq zonalarından və strateji resurslar zonalarından irəli gələn təhdidlərə əkstəsir, bu obyektlər toplumunun idarə olunması prosesində həyata keçirilir. Bu zonaların tərkibinin yaxud bu və ya digər zonada müəssisənin davranış strategiyasının dəyişdirilməsi barədə qərarlar qəbul edilir. Strateji təsir qruplarına rəğmən, onların təhdidlərinin xarakterindən və bu qrupların «qüvvəsindən» asılı olaraq, onlarla çevik qarşılıqlı fəaliyyət yaxud onlara əkstəsir tədbirləri işlənib-hazırlanır. Müəssisənin özünün strateji potensialından irəli gələn təhdidlərə

MUHASIBAT.AZ

qarşı əkstədbirlər, onun rekonstruksiyası, texniki yeniləşməsi, ya da ki, ŞSP-nın ayrı-ayrı elementlərinin modernləşdirilməsi ilə ifadə oluna bilər. Müəssisənin fəlakətli vəziyyətinə səbəb ola bilən təhdidlər qarşısında, ŞSP elementləri toplusunu əsaslı şəkildə yenidən layihələşdirmək imkanı verən biznes-proseslərin reinjiniring metodologiyasının istifadəsi ilə həyata keçirilən, daha radikal tədbirlər gərəkdir (Robson M., Ullax F., 1997).



MUHASIBAT.AZ

**Şəkil** 7.10. Müəssisənin iqtisadi təhlükəsizliyinin təminatı sistemi

MUHASIBAT.AZ

Əkstədbirlərin xarakteri, onların intensivliyi təhdidlərin intensivliyi və xarakterindən asılıdır. Onlar, o dərəcədə əhəmiyyətli ola bilər ki, təkcə qəbul edilmiş strategiyaya deyil, həm də, müəssisənin ilkin missiyasına (paradiqmasına) təsir edə bilər. Beləliklə, belə söyləmək düzgün olar ki, iqtisadi təhlükəsizliyin təminatı sistemi şirkətin ümumi iqtisadi sisteminə daxil olan mürəkkəb, birbaşa və əks əlaqəli bir sistem kimi ifadə edilir, və bu sistem xarici və daxili mühitdən irəli gələn potensial təhdidlərin qarşısını almalı və bu təhdidlərə çevikliklə reaksiya verməlidir.

Daxili və xarici təhdid mənbələri ümumi şəkildə aşağıdakı kimi təsvir oluna bilər.

**Müəssisənin iqtisadi təhlükəsizliyinə qarşı təhdidlərin daxili mənbələrinin təfsilatlı parametrləri**

1. müəssisənin missiyası

- Sahibkarlıq fəaliyyətinin əsassız seçilmiş paradiqması.
- müəssisənin qərarlaşdığı regionda sahibkarlıq iqliminə adekvat olmayan missiyanın seçilməsinə gətirib çıxarmış, xarici mühitin qeyri-səhih təhlili.
- Missiyanın sərhədlərinin qeyri-rasional seçimi ilə nəticələnən, şirkətin məhsulunun çıxarılması gümanlaşdırılan potensial bazarlarda konyunkturanın qeyri-səhih təhlili.
- Sahibkarlıq fəaliyyətinin real və potensial resurs imkanlarının şirkətin seçilmiş missiyası ilə şərtləndirilmiş tələblərə müvafiq olmasının qeyri-səhih təhlili.
- Digər səbəblər.

2. firmanın strategiyası

- firmanın sahibkarlarının və baş menecerlərinin sahibkarlıq fəaliyyətinin strateji idarəolunmasında kifayət qədər bilik və

MUHASIBAT.AZ

təcrübələrinin olmaması ilə şərtləndirilmiş, şirkətin inkişafının qeyri-rasional iqtisadi strategiyasının seçimi.

- firmanın iqtisadi strategiyasında xarici və daxili fəaliyyət şəraitinin dəyişməsinə uyğun korreksiyanın aparılmaması.
- firmanın iqtisadi strategiyasının seçimi və həyata keçirilməsi zamanı ölkə və regional səviyyələrdə strateji təsir qruplarının, səhmdarların, işçi heyətinin maraqlarına qarşı etinasızlıq.
- Digər səbəblər.
- 3. firmanın strateji potensialı (ŞSP):
- firmanın missiyası ilə uzaşdırmadan, məhsul bazarlarının və istehsal amillərinin real və potensial konyunkturası nəzərə alınmadan, xarici mühitin qeyri-sabitliyi səviyyəsi nəzərə alınmadan, ŞSP elementlərinə qarşı, şirkətin rəqabət üstünlüklərinin təmin olunması zərurəti ilə şərtləndirilmiş tələblər nəzərə alınmadan, ŞSP elementləri toplusunun formalaşdırılması.
- ŞSP elementləri arasında bütün növlərdən olan resursların qeyri-optimal bölgüsü.
- Xarici mühitdə şərait və şirkətin missiyası dəyişərkən, ŞSP-nın təkmilləşdirilməsinə dair uzunmüddətli, aktu-allaşdırılmış proqramın olmaması.
- Digər səbəblər.

**Firmanın iqtisadi təhlükəsizliyinə qarşı təhdidlərin xarici mənbələrinin təfsilatlı parametrləri**

1. Strateji təsərrüfatçılıq zonaları (STZ):

- STZ-na daxil olan təsərrüfatçı subyektlərin müflisləşməsi.
- STZ təsərrüfatçı subyektlərin strategiyalarında dəyişikliklər: sahibkarlıq fəaliyyəti paradiqmasının dəyişməsi; həmin STZ-da fəaliyyət göstərən rəqiblərin daha aqqressiv strategiyası nəticəsində, şirkətin məhsullarına olan tələbatın düşməsi.
- firmanın günahı üzündən, STZ təsərrüfatçı subyektləri ilə əvvəllər bağlanmış müqavilələrin qüvvədən düşməsi.

MUHASIBAT.AZ

- Həmin STZ bazarına rəqib şirkətlərin istehsal etdiyi, istehlakçılar üçün daha sərfəli olan substitut-malların çıxarılması.
- Digər səbəblər.

2. Strateji resurslar zonaları (SRZ):

- SRZ məhsulları qiymətlərinin şirkət üçün qəbul edilməz olan artımı.
- firmanın öz istehlakçıları qarşısında müqavilə öhdəliklərini pozması ilə nəticələnən, SRZ-nın günahı üzündən təchizat ritminin pozulması.
- firmanın qəbul etdiyi SRZ toplusunda resurs təchizatı pozuntularını təzminatlandıran əvəzedici zonalarının olmaması.
- SRZ-nın təchiz etdiyi məhsulun keyfiyyətinin aşağı düşməsi.
- SRZ tərəfindən sahibkarlıq strategiyasının (paradiqmasının) dəyişdirilməsi.
- Digər səbəblər.

3. Strateji təsir zonaları (STZ):

- Güclı STQ-lar tərəfindən şirkətə rəğmən aparılan əks-fəaliyyət: şirkətin fəaliyyətini reqlamentləşdirən qanunvericilik və normativ aktlarının dəyişdirilməsi; maliyyə və bank strukturları tərəfindən subsidiya və kredit şərtlərinin dəyişdirilməsi; rəqib və digər təşkilatların apardığı, şirkətin imicini ləkələyən PR-kampaniyaları; şirkətə qarşı kriminal hərəkətlər.
- firmaya ənənəvi xoş münasibətli STQ-lar tərəfindən dəstəyin zəifləməsi.
- Digər səbəblər.

* * *

Firmanın yaşam qabiliyyətinə təsir edən amilləri kəmiyyət etibarilə dəyərləndirmək üçün, strateji idarəetmə praktikasına şirkətin iqtisadi təhlükəsizliyi indikatorları toplusu daxil etmək gərəkdir. Bu indikatorlar, fikrimizcə, aşağıdakılar ola bilər:

MUHASIBAT.AZ

- firmanın bazara çıxardığı ənənəvi əmtəə və xidmətlərin satış həcminin dəyişməsi tempi;
- firmanın ilk dəfə bazara çıxardığı prinsip etibarilə yeni əmtəə və xidmətlərin satış həcminin dəyişməsi tempi;
- rəqiblərin aqressiv əmtəə strategiyası səbəbindən, firmanın rəqabət üstünlüyünün itirilməsi tempi;
- vergilər və məcburi xərclər ödənildikdən sonra şirkətin sərəncamında qalan xalis mənfəətin həcminin dəyişməsi tempi;
- fasiləsiz fəaliyyətin təmin olunması məqsədilə şirkətin borc etdiyi vəsaitin həcminin dəyişməsi tempi;
- firmanın yaşamı üçün xüsusi əhəmiyyətli resurslar ayrıca göstərilməklə, bütün növlərdən olan zəruri resurslarla təchizatın dəyişməsi tempi;
- borc alınmış vəsaitin və firmanın aktivlərinin nisbəti;
- strateji resurs təchizatçıları ilə firmanın kooperasiya əlaqələrinin strukturu;
- informasiyanın sızması yaxud rəqiblərin və strateji təsir qruplarının qabaqlayıcı fəaliyyəti nəticəsində potensial bazar transaksiyalarından əldə oluna biləcəyi gəlirlərin itirilmiş hissəsinin, şirkətin təhlükəsizlik xidmətinə çəkdiyi xərclərə nisbəti;
- firmanın maliyyə imkanlarını əks etdirən Altman «z-hesabı»nın yaxud digər meyarların qiyməti;
- strateji təsərrüfatçılıq zonalarının qəbul olunmuş toplumuna xidmətlə bağlı mümkün riskin dərəcəsi.

Sadalanan indikatorların (onların xarakterindən asılı olaraq) qiymətlərinin bu və ya digər tərəfə dəyişməsi müəssisənin rəhbərliyinə iqtisadi təhlükəsizliyə təhdidlər yaxud bu və ya digər səviyyədə böhran vəziyyətinin yaranması barədə işarə verə bilər. Misal üçün, buraxılan məhsulun ümumi maya dəyərində bir təchizatçıdan kooperasiya yolu ilə əldə olunmuş təchizatın payı həddindən yüksək olduqda, sonuncu iflasa uğradığı halda, bizim müəssisənin müflisləşməsi ilə nəticələnə bilən zəncirvari iqtisadi olaylar baş verə bilər. Yaxud, müəssisə üçün ənənəvi olan məhsulun satış həcminin azalması, müəssisənin rəhbərliyi üçün, istehlakçılar

MUHASIBAT.AZ

tərəfindən müəssisənin məhsuluna marağın enməsi barədə işarə ola bilər. Hər halda, indikatorların qiymətlər dinamikasının yaranmış tendensiyalarından kənarlaşmaları yüksək səviyyəli menecmentin diqqətindən yayınmamalıdır. Alınan siqnallar «gücləndikcə», onun gücünə müvafiq əkstədbirlər görülməlidir – «zəif siqnallara» istinadən idarəetmə üsulunun mahiyyəti məhz bundadır. Bu halda nəzərə alınmalıdır ki, siqnal, müəssisənin real fəaliyyətindən nə qədər uzaq olarsa, özündə daha az məlumat daşıyar. Digər tərəfdən, işarə real vəziyyətə nə qədər yaxın olarsa, o, daha çox şeylərdən xəbər verər, lakin, müvafiq əkstədbirlərin hazırlanıb-görülməsi üçün müəssisə menecmentinin vaxtı daralır. Deməli, müəssisənin xarici və daxili mühitinin skanerlənməsi (mütəmadi qaydada diqqət yetirilməsi) müəssisədə xüsusi yaradılmış iqtisadi təhlükəsizliyin monitorinqi xidmətinin daimi vəzifəsinə çevrilir.

Bir neçə misala nəzər salaq. Tutalım ki, müəssisənin maliyyə vəziyyətinin təhlili zamanı məlum oldu ki, ənənəvi malların ay ərzində satış həcminin 3-4% artım tempi, bazarda müəssisənin davamlı vəziyyətini təmin edir. Həmçinin, hesablanmışdır ki, şirkətin sərəncamında qalan mənfəət artımı, ona özünün sosial, iqtisadi və texniki problemlərini həll etməyə imkan verir.

Firmanın xidmət göstərdiyi STZ-da vəziyyətin təhlili göstərdi ki, prinsip etibarı ilə yeni olan iki-üç növ məhsulun rüb ərzində bazara çıxarılması, əsas rəqiblərlə müqayisədə, şirkətin davamlı rəqabət üstünlüyünü təmin edir. İstehsal amilləri bazarının təhlili isə belə bir qənaətə gətirdi ki, şirkət, bir çox cəhətdən, əslində öz fəaliyyət sahəsində inhisarçı olan strateji əhəmiyyətli komplektləşdirici məmulatlar təchizatçısının vəziyyətinin sabitliyindən asılıdır. Şirkətin onlardan aldığı komplektləşdirici məmulatların qiyməti istehsal olunan ümumi məhsulun maya dəyərinin 30%-ni təşkil edir.

E.Altmanın «z-hesabı»nın hesablanması göstərdi ki, təhlil

MUHASIBAT.AZ

dövründə onun qiyməti üçə bərabər olmuşdur, bu isə, iflas ehtimalının az olmasından xəbər verir, çünki şirkətin bütün başlıca maliyyə göstəricilərinin qiyməti əlverişli idi.

Həmçinin hesablanmışdı ki, şirkətin təhlükəsizlik xidmətinin illik xərci onun ümumi gəlirinin 10% səviyyəsində saxlanması, firmanın əldən verdiyi transaksiyalara görə ziyanını ümumi illik gəlirin 1-2%-dək endirməyə imkan verir. Ekspert dəyərləndirmələrinin əsasında müəyyən olunmuşdur ki, xidmət göstərilən STZ-nın 80%-də yaranmış vəziyyəti mümkün risk zonasında yerləşdiyi kimi qəbul etmək olar.

Təhlilin nəticələrini ümumiləşdirərək, həmin şirkət üçün, kifayət qədər uzun müddətə, onun iqtisadi təhlükəsizliyi indikatorlarının müvafiq son hədd qiymətlərini aşağıdakı kimi qəbul etmək olar:

- ənənəvi malların aylıq satış həcminin 2-3% artımının təmin olunması;
- ilin hər bir rübü ərzində, ən azı, 2-3% prinsip etibarı ilə yeni məhsulun bazara çıxarılması;
- bir təchizatçıdan kooperasiya yolu ilə alınan komplektləşdirici məmulatların şirkətin ümumi məhsulunun maya dəyərində payının 5%-dən artıq olmayan səviyyədə saxlanılması;
- «z-hesab» qiymətinin 2,8-dən yuxarı səviyyədə saxlanılması;
- şirkətin təhlükəsizlik xidməti ilə bağlı xərclərinin ümumi illik gəlirin 11-12%-dən aşağı olmaması;
- STZ strateji toplusunun mümkün risk zonasında saxlanması.

Əgər, öz fəaliyyəti dövründə, şirkət, indikatorların bu göstərilmiş hüdudlarda saxlanmasına nail olarsa, iqtisadi təhlükəsizliyinin itirilməsi ehtimalı az olar. Bununla belə, gözlənilmədən şirkət üçün mənfi nəticələnə bilən fors-major hallarının yaraması mümkünlüyünü də nəzərə almaq gərəkdir.

Bu göstərilən indikatorlar çeşidi, şirkətin istehsal profilinin spesifikasından və bazarda onun vəziyyətindən (iqtisadi «qüdrətindən») asılı olaraq dəyişdirilə bilər. «Zəif siqnalları» – şirkətin böhranlı vəziyyətə düşməsi (iflasa uğraması) ərəfəsində ilkin

MUHASIBAT.AZ

xəbərdaredicilәri təhlil etməklə, şirkətin iqtisadi təhlükəsizliyinin indikatorları barədə daha dolğun təsəvvürü əldə etmək mümkündür.

## Nəticələr

1. İqtisadi təhlükəsizlik – bu, dünya iqtisadi sistemində yaxud ölkə daxilində fors-major hallarının yaranmasından asılı olmayaraq, məmləkətin həyat əhəmiyyətli ehtiyaclarını ödəyən milli iqtisadiyyat durumudur.
2. İqtisadi təhlükəsizlik səviyyəsi ölkənin geosiyasi və iqtisadi-coğrafi vəziyyətindən, onun iqtisadi və hərbi-siyasi qüdrətitndən, rəqabət möqelərindən, həmçinin, sosial-iqtisadi və ekoloji sferalara münasibətdə dövlətin iqtisadi siyasətinin prioritetlərindən asılıdır.
3. İqtisadi təhlükəsizlik meyarı kimi, idxala meylin son (marginal) həddini qəbul etmək məqsədəuyğundur.
4. İqtisadi təhlükəsizliyə təhdidlər milli iqtisadiyyatın xarici və daxili mühiti çərçivəsində strukturlaşdırılır. Strukturlaşdırma nəticəsində, hər biri öz əhəmiyyət, intensivlik və yaranma ehtimalı göstəriciləri ilə qiymətləndirilən kompleks təhdidlər xüsusi olaraq ayrılır.
5. İqtisadi təhlükəsizliyə mümkün təhdidlərin alqoritmləşdirilmiş kompleks təhlili, həmin təhdidlərə qarşı ölkənin iqtisadi təhlükəsizliyinin təminatına dair məqsədli kompleks proqramında (İTTMKP) reallaşdırılan əkstədbirlər sisteminin işlənib-hazırlanmasına imkan yaradır.
6. Hər bir iqtisadi agent iqtisadi təhlükəsizliyin təmin olunmasına dair tədbirlər sistemini sadə yaxud kompleks iqtisadi vahid çərçivəsində hazırlayır və həyata keçirir.

## Yoxlama sual və tapşırıqları

1. Ölkənin iqtisadi təhlükəsizliyi anlayışının və ayrı-ayrı iqtisadi vahidlərin tərifini verin.
2. Ölkənin iqtisadi təhlükəsizliyi səviyyəsinin qiymətləndirilməsi meyarı hansılardır? Bu səviyyə hansı göstəricilərlə ölçülür?

MUHASIBAT.AZ

3. Ölkənin iqtisadi təhlükəsizliyinə təhdidlərin bu fəsildə verilmiş strukturlaşdırılma sxemini şərh edin.
4. İqtisadi və sosial sferalarda mümkün təhdidləri təsnifatlandırın. Təhdidlərin yaranmasının fəsadlarının xarakterini nəzərə almaqla, səciyyəvi təhdidləri xüsusi olaraq ayırın.
5. Xəstəliyə görə işçinin iş qabiliyyətinin itirilməsi ilə bağlı ÜDM itkiləri necə qiymətləndirilir? Bu itkilər nə dərəcədə əhəmiyyətlidir?
6. İşçi heyətinin idarə olunması prosesində, ölkə əhalisinin qocalmasının intensivləşməsi ilə bağlı, müəssisə rəhbərləri hansı təbirləri görməlidirlər?
7. Ekoloji sferada hansı təhdidlər ölkə daxilindəki institusional mühitlə təzminatlandırıla bilər? Xarici dünyadan ekoloji təhdidlərin neytrallaşdırılması üçün hansı tədbirlər görülə bilər?
8. Sosial sferada təhdidlərə dövlətin gördüyü əkstədbirlərin prioritetliyini necə əsaslandırmaq olar?
9. Təhdidlərin yaranması fəsadlarının kompleks təhlili prinsiplərini ifadə edin. Bu təhlilin alqoritminin fəsildə təklif olunmuş sxemini şərh edini.
10. İqtisadi təhlükəsizliyə təhdidlərə qarşı fəaliyyətdə sinergetik effektin əldə olunmasının əsas mənbəyi nədir? Təhdidlərə qarşı fəaliyyət prosesi təşkilati cəhətdən necə həyata keçirilir?
11. Ölkənin iqtisadi təhlükəsizliyinin təminatına dair məqsədli kompleks proqramın (İTTMKP) iqtisadi səmərəsi necə qiymətləndirilməlidir?
12. Müəssisə səviyyəsində təhdidlərin təsnifatı sxemini təhlil edin. Fikrinizcə, müəssisənin iqtisadi təhlükəsizliyinə qarşı təhdidlərin əsas mənbəsi hansılardır?
13. Müəssisənin iqtisadi təhlükəsizliyinə təhdidlərə qarşı menecerlərin ən səmərəli fəaliyyəti nədən ibarətdir?
14. Müəssisənin xarici və daxili mühitində iqtisadi təhlükəsizliyə təhdidlərin dəf olunması üçün hansı əkstədbirlər görülə bilər?

MUHASIBAT.AZ

# Fəsil 8

# DÖVLƏTİN İQTİSADİ FƏALİYYƏTƏ TƏSİRİ PRİNSİPLƏRİ

## 8.1. Milli iqtisadiyyatın islahatlaşdırılması və dövlətin iqtisadi fəaliyyətə təsiri formasının seçimi

Dövlətin iqtisadi fəaliyyətə təsiri hər zaman iqtisad elminin ən vacib problemi olub. Bütün iqtisadi islahatlar hər hansı bir dərəcədə iqtisadi agentlərin fəaliyyətinin tənzimlənməsində dövlətin rolunun gücləndirilməsinə və ya azaldılmasına yönəldilmişdilər. Adam Smitin dövlətin iqtisadiyyata aktiv sürətdə müdaxilə etməsini inkar edən «bazarın görünməz əli»ndən başlayaraq, S. M. Keynsin dövlətin tənzimlənməsinin zərurəti iddiaları, ABŞ prezidenti Guverin «neytral» ABŞ prezidenti dövləti və F. D. Ruzveltin «yeni kursu», «reyqanomika» və onun dövlətin «əkstənzimlənməsi», fransız «dirijzmi» və ingilis «tetçerizmi» və

MUHASIBAT.AZ

nəhayət, SSRİ-nin və faşist Almaniyasının iqtisadiyyatın mərkəzi idarəetməsi və L. Erxandın, Y. T. Qaydarın liberalist islahatlarınadək.

Bütün bu dəyişikliklər problemin artıq dərəcədə mürək-kəbliyini sübut edir. İqtisadi islahatların tarixindən yeganə nəticə etmək olar ki, müxtəlif ölkələrdə onların tarixi inkişafının müxtəlif mərhələlərində, dövlətin iqtisadi fəaliyyətdə müxtəlif dərəcədə iştirakı milli iqtisadiyyatın vəziyyətindən asılı olan hər hansı bir strateji məqsədlərə nail olmağına da köməklik edir və ya çətinlik törədirdi.

İqtisadi siyasi və ideoloji sahədə kardinal dəyişikliklər zamanı, yeni iqtisadi, dövlət və ictimai düzümə keçid dövründə dövlətin iqtisadiyyata müdaxiləsinin məqsədəuyğun dərəcəsini təyin etmək ən mürəkkəb məsələdir. Bu dövr keçid dövrü adını alır, iqtisadi fəaliyyətin vəziyyəti isə - keçid iqtisadiyyatı.

Hər bir iqtisadi düzümdən digərinə keçid iqtisadi fəaliyyətin morfoloqiyasında mühüm dəyişikliklərlə müşahidə olunur. Nəinki mülkiyyət formaları, institusional sistem, dövlətin iqtisadi fəaliyyətə təsiri metodları, hətta istehsalın və məşğulluğun strukturu və ən vacibi insanların psixologiyası dəyişilir və bu dəyişikliklər həm iqtisadiyyatın mərkəzi idarəetməsindən bazar mexanizmlərinə, həm əksinə, bazar mexanizmindən mərkəzi idarəetmə prinsiplərinə əsaslanan mexanizmlərinə keçid zamanı baş verirlər.

Bu dəyişikliklər uzun müddət ərzində baş verir və müxtəlif ölkələrdə bir neçə ildən onilliklərə qədər çəkə bilər. Bu iqtisadiyyatın əvvəlki vəziyyətindən ölkənin ictimai və dövlət quruluşundan fəaliyyət göstərən düzüm və qarşıdan gələn düzüm arasında fərqlərin əhəmiyyətindən asılıdır.

MUHASIBAT.AZ

Bu baxımdan, Almaniyanın XX əsrdə milli iqtisadiyyatında baş verən keçid proseslərinin xarakterini təhlil etmək maraqlı olardı.

Birinci keçid prosesi bu ölkədə 1933-1938-ci illərdə baş vermişdir. O zaman ki, Almaniyada demokratik idarəetmədən və bazar iqtisadiyyatından totalitar faşist rejiminə, iqtisadiyyatın mərkəzi idarəedilməsinə və onun millitarizasiyasına keçid həyata keçirilmişdir. Cəmi beş il ərzində institusional mühit iqtisadiyyatın idarə edilməsinin yeni infrastrukturu yaradılmışdır, dövlət orqanlarının səlahiyyətləri dəyişdirilmiş onların iqtisadi həyata müdaxiləsi gücləndirilmişdir. Sərt inzibati-amirlik sistemi qurulmuşdur və onun əsasında mühafizə olunmuş iqtisadiyyat yüksək templərlə inkişaf edirdi. 1933-1938-ci illər ərzində hərbi xərclər 25 dəfə artmış onların xüsusi çəkisi 26-dan 76%-dək qalxmışdır. "Həyat fəza"sını artırmaq üçün müharibəyə ciddi hazırlıq gedirdi.

Ölkənin iqtisadi potensialını 50% azaltmış İkinci dünya müharibəsi zamanı məhvedici məğlubiyyətə uğrayaraq Almaniya dərin siyasi, mədəni və iqtisadi krizis şəraiti ilə qarşılaşdı.

1948-ci ildə Almaniyanın (Federativ Almaniya Respublikası) milli iqtisadiyyatı ikinci mərhələyə keçdi – iqtisadiyyatın mərkəzi idarəedilməsi sistemli totallitarizmindən demokratik sistemə və sosial – yönümli bazar iqtisadiyyatına keçid dövrünə. 1957-ci ilədək davam edən bu keçid dövrü nəinki iqtisadiyyatın strukturunu dəyişmək, hətta Almaniyanı həm iqtisadi inkişafın templəri və səviyyəsi baxımından, həm əhalinin yaşayış səviyyəsi baxımından Qərbi Avropanın ən qabaqcıl ölkələrindən biri olmağını mümkün etdi.

L. Erxardın rəhbərliyi altında aparılan keçid dövrün islahatları dövlət təsərrüfatında fəal rolu şərtilə sərbəst fərdi

MUHASIBAT.AZ

təşəbbüsün və rəqabətin inkişafına yönəldilmişdir. Onlar sərt pul islahatları və sahibkarlığa əsaslanırdı. Yeni institusional sistem yaranmışdı, iqtisadi fəaliyyəti reqlamentlərindən faşist diktaturası zamanı etibarlı olan bütün normativ aktlar ləğv edilmişdi. Keçid dövrünün ilkin mərhələsi cəmi iki il keçdi. Artıq 1950-1951-ci illərdə məşğullq göstəricilərində dönüş baş verdi. 1954-cü ildə 1936-cı ilə nisbətən istehsal səviyyəsi iki dəfə artdı.

Almaniyada baş verən islahatları nəzərdən keçirərək, onu da qeyd etməliyik ki, faşist Almaniyasının iqtisadi düzümü dövlətin iqtisadi fəaliyyətdə rolunun güclənməsinə baxmayaraq fərdi və qarışıq mülkiyyətə əsaslanırdı. Belə, 1936-cı ilin mart ayında İmper statistik idarəsinin məlumatlarına uyğun olaraq, Almaniyada 1085 ictimai müəssisə mövcud idi. Onların 61 – imperiya mülkiyyəti, 57 – torpaqlar mülkiyyəti, 25 – şəhərlər mülkiyyəti, 291 – icmalar və icmalar ittifaqlarının mülkiyyəti , 142 – imperiyanın və icmaların şərikli mülkiyyəti olub. Bu müəssisələrin 30%-ni səhmdar cəmiyyətlər təşkil edirdi, 64,4% - məhdud məsuliyyətli cəmiyyətlər, 4,2 – digər fərdi cəmiyyətlər və 1,4% - ümumi hüquqlu cəmiyyətlər təşkil edirdi.

Keçid prosesi adətən 3 mərhələdən ibarətdir. Birinci – sabitləşdirilmə fazası və ya böhran fazası. Onun məqsədi əvvəlki iqtisadi qurumun nəticələrinin aradan qaldırılmasından ibarətdir, bu da təbii ki, milli iqtisadiyyatda böhranın yaranması ilə bağlıdır. İkinci - yeni iqtisadi qurumun formalaşması; onun məqsədi yeni qurumun formalaşması üçün ilkin konstitusional şəraitlərin yaradılmasından ibarətdir (yeni institusional mühitin yaradılması). Üçüncü – struktur yenidənqurma fazası; onun məqsədi isə – yeni stateci sosial-siyasi və iqtisadi məqsədlərə uyğun olan milli iqtisadiyyatın sahə, regional, sosial strukturunun vəziyyətinə gətirən dövlətin milli iqtisadiyyata tənzimləndirici təsiri.

MUHASIBAT.AZ

Beləliklə, keçid prosesi dedikdə iqtisadi fəaliyyətin morfologiyasının dəyişdirilməsi, onun dövlətin sosial-siyasi məqsədlərinin iqtisadi, dövlət və ictimai durumunun dəyişiklikləri ilə bağlı olan köklü dəyişikliklərinə uyğunlaşması deməkdir.

Keçid prosesinin xüsusiyyətləri müxtəlif ölkələrdə iki qrup amillərlə müəyyən edilir:

- Hər hansı bir ölkədə qəbul olunmuş iqtisadi dəyişikliklər paradiqması, yəni ölkənin sosial-iqtisadi inkişafı;
- Ölkənin iqtisadi, siyasi, ideoloji dəyişikliklərdən əvvəlki vəziyyətini müəyyən edici amillər.

Birinci qrup amillərə baxarkən, qeyd etmək lazımdır ki, XX əsr dəyişikliklər və iqtisadi fəaliyyətin islahatlarının müxtəlif «modelləri»ni təklif edən çoxsaylı iqtisadi məktəblərlə fərqlənirdi. Bizim tərəfimizdən dünya birliyi ölkələrində həmin konsepsiyaları praktiki istifadəsinin tendensiyaları tədqiq olunmuşdu. Bu tədqiqatların yekunları o nəticəyə gəlirlər ki, hər hansı bir ölkənin milli iqtisadiyyatının islahatları üçün digər ölkələrin müvəffəqiyyətli islahatlar təcrübəsini tam şəkildə istifadə etmək olmaz və məhz buna görə bu tədqiqatların yekunları o nəticəyə gəlirlər ki, hər hansı bir ölkənin milli iqtisadiyyatının islahatları üçün digər ölkələrin müvəffəqiyyətli islahatlar təcrübəsini tam şəkildə istifadə etmək olmaz və məhz buna görə islahatları həyata keçirən təşkilat və qrupların hər hansı bir <u>“modellərə” tam riayət etməkdən uzaqlaşması müşahidə olunur.</u>

İslahatlar lideri və onları dəstəkləyən alimlər, sahibkarlar, dövlət müəssisələri və sairə qruplar milli iqtisadiyyatın islahatını hazırlayaraq və ona dair real tədbirlər həyata keçirərək ya konkret «modellərin» nəzəri maddələrini ölkənin xüsusiyyətlərinə uyğunlaşmaq və ya iqtisadi fəaliyyətin islahatlarını «konsolidə etmiş» konsepsiyalarını tərtib edərək müxtəlif modellərə xas olan tədbirləri kombinə etməyə çalışırdılar. Lakin konkret konseptual

MUHASIBAT.AZ

islahatlar sistemlərinin zəruri fərqlərinə  baxmayaraq belə nəticəyə gəlmək olar ki XX əsr iqtisadi məktəblərin  "konvergensiya"sı prosesi templərinin tədricən artması ilə konseptual maddələrin uyğunlaşması prosesi ilə, onların müəyyən dərəcədə yeganə paradiqmaya yönəldilməsi ilə xarakterizə olunur.

Bununla belə dəyişikliklərin yeni paradiqması qətiyyən müxtəlif ölkələrdə və şərtlərdə islahatçılıq fəaliyyətinə yanaşmanın vəhdətində əsaslandırılmır. Əksinə bu paradiqmanın əsası dəyişikliklərin və islahatların başlanması və həyata keçirilməsi gedişində bu və ya digər ölkədə yaranan şərtlərin dəqiq təhlilinə və bu şərtlərə konkret proqramların bağlanması və onların yerinə yetirilməsi planlarına zərurətlə bağlı müddəadır.  Başqa sözlə, yeni paradiqmanın yeganə sabit, dəyişməyən qaydası bu və ya digər ölkənin xüsusiyyətlərindən asılı olaraq, islahat prinsiplərinin dəyişməsinə zərurətin, hətta, belə bir təcrübənin müsbət olmasına baxmayaraq, digər ölkələrin təcrübələrinin kor-koranə yamsılanmasına yol verilməməsi zərurətinin təsdiq edilməsindən ibarətdir. İqtisadi dəyişikliklərin yeni paradiqması «eksperimentin düzlüyü» naminə bu və ya digər «modelin» nəzəri müddəalarına doqmatik riayətetməni qəbul etmir.

Bu, təbii olaraq, o demək deyil ki, proqressiv dəyişikliklərin təcrübəsinə tamamilə etinasız yanaşılmalıdır. Əksinə, bu təcrübə dərindən öyrənilməlidir. Digər ölkələrin əldə etdiyi həm müsbət və həm də mənfi nəticələr bu ölkələrdə və iqtisadi fəaliyyətin üstünlük verilən morfologiyasının seçildiyi ölkədə yaranmış şərtlərin fərqliliyi prizmasından nəzərdən keçirilməlidir. Bütün iqtisadiyyatlar üçün xas olan ümumi hallar dəyişikliklərin nəticələrinin müsbət olduğu və bu dəyişikliklərin müsbət nəticələrinin tətbtiq edilməsinin nəzərdə tutulduğu ölkələrin milli iqtisadiyyatın spesifikasını xarakterizə edən xüsusi hallardan fərqləndirilməlidir.

MUHASIBAT.AZ

Amillərin ikinci qrupu dəyişikliklərin başlanmasından əvvəlki müddətdə milli iqtisadiyyatın vəziyyətini və xüsusiyyətlərini qiymətləndirməyə imkan verən göstəricilərlə konkretləşdirilə bilər.

1. **Milli iqtisadiyyatın inkişafının tarixi tendensiyaları:**
- təhkimçilik dövrünün davam etməsi, iqtisadiyyatın inkişafının müxtəlif mərhələlərində təhkimçilik hüququ ilə bağlı dövlətin siyasəti;
- şəhər kustar istehsalatın inkişaf dinamikası;
- iqtisadiyyatın inkişafının müxtəlif mərhələlərində milli iqtisadiyyatın sex birliklərinin rolunun dəyişməsi;
- əməyin ictimai bölgüsünün səviyyəsi, tarixi retrospektivdə ictimai istehsalat prosesində kooperasiya formalarının dəyişməsi;
- retrospektivdə iqtisadi fəaliyyətin idarəedilməsi (tənzimlənməsi) ilə bağlı dövlətin rolunun dəyişməsi;
- istehsalatın mərkəzləşdirilməsi və monopolizasiya səviyyəsinin dinamikası;
- aşağıdakı sahələrdə istehsalat vasitlərinə mülkiyyət hüququnun üstünlüyə malik formalarının dinamikası:
  - sənayedə;
  - kənd təsərrüfatında.
- təbii rəqabət üstünlüklərinin dinamikası;
- əldə edilən rəqabət üstünlüklərinin dinamikası;
- iqtisadi böhranların dövriliyi;
- iqtisadi fəaliyyətin üstünlüyə malik sferalarının dinamikası;
- milli iqtisadiyyatın sahə strukturunun dinamikası;
- tarixi retrospektivdə əsas makroiqtisadi göstəricilərin dinamikası;
- dünya birliyində ölkənin geosiyasi mövqeyinin və iqtisadi qüdrətinin dinamikası.

2. **Əhalinin əsas kütləsinin mentaliteti:**
- üstünlüyə malik dini məzhəblər;

MUHASIBAT.AZ

- dinlə bağlı cəmiyyətin strukturu;
- paternalizm və ya özünü müəyyənetməyə bağlılıq dərəcəsinə görə cəmiyyətin strukturu;
- şəxsi mülkiyyət və sahibkarlıqla bağlı cəmiyyətin strukturu;
- kollektivçiliyə və ya fərdiliyə bağlılıq üzrə cəmiyyətin strukturu;
- əməyin maddi və ya əxlaqi stimullarına bağlılıq üzrə cəmiyyətin strukturu;
- millətin mədəni irsi ilə bağlı cəmiyyətin strukturu;
- təhsil səviyyəsi ilə bağlı cəmiyyətin strukturu;
- öz uşaqlarının təhsil səviyyəsi ilə bağlı cəmiyyətin strukturu;
- məcburi işsizliklə bağlı cəmiyyətin strukturu;
- milli iqtisadiyyatda böhran əlamətlərinin təsiri altında peşənin dəyişdirilməsinə zərurətlə bağlı cəmiyyətin strukturu;
- ölkədə hüquqi dövlətin yaradılmasına zərurətlə bağlı cəmiyyətin strukturu;
- öz mülki hüquqlarını müdafiə etməyə hazırlıq dərəcəsi üzrə cəmiyyətin strukturu;
- öz maraqlarının mühafizəsi üçün qruplara, assosasiya və partiyalara birləşmə ilə bağlı cəmiyyətin strukturu;
- millətçiliyə, şovinizm və irqçiliyə bağlılıq üzrə cəmiyyətin strukturu;
- xeyriyyəçilik və sosial cəhətdən zəif qruplara və ya ayrıca fərdlərlə bağlı cəmiyyətin strukturu.

**3. Ölkənin iqtisadi-coğrafi və geosiyasi mövqeyi:**

- ölkədə strateji resursların olması və onların ərazi üzrə yerləşməsinin xüsusiyyətləri;
- milli iqtisadiyyatın sahələri üzrə ölkə daxilində əməyin ərazi bölgüsünün xüsusiyyətləri;
- ölkədə daxili geosiyasi vəziyyətin xüsusiyyətlərinə görə regionların təsnifatı;
- faydalılıq (rentalıq) dərəcəsi üzrə regionların təsnifatlaşdırılması;
- mövqeyin potensialına (sahibkarlıq üçün perspektiv imkanlarına) görə regionların təsnifatlandırılması;

MUHASIBAT.AZ

- regional iqtisadiyyat müəssisələrinin rəqabət üstünlüklərinin saxlanması üçün şərtlərin xüsusiyyəti üzrə regionların təsnifatlandırılması;
- ölkənin regionları üzrə təbii şəraitlərin müxtəliflik dərəcəsi əhalinin həyat fəaliyyətinə təsir dərəcəsinə görə regional struktur: ekstremal diskomfort, prekomfort və komfortlu ərazilərin nisbəti;
- ölkənin regionları üzrə əhalinin məskunlaşma strukturu, əhalinin sıxlığı, şəhərlərdə əhalinin cəmlənməsi;
- ölkənin regionları üzrə əhalinin demoqrafik strukturu;
- ölkənin regionları üzrə əhalinin etnik strukturu;
- ölkənin regionları üzrə əhalinin sosial strukturu;
- ölkənin regionları üzrə əhalinin təhsil-ixtisaslaşma strukturu;
- ölkənin regionları üzrə milli iqtisadiyyatın islahatları ilə bağlı «əhalinin keyfiyyəti»;
- dünya birliyində ölkənin xarici geosiyasi mövqeyinin xarakteri, «tellurokratiyaya» (quru qüdrəti), «tallasokratiyaya» (dəniz qüdrətinə) və ya «sahil zonasına» (Heratland, World Island, Rimland) bağlılıq;
- dünya iqtisadi sistemində milli iqtisadiyyatın üstünlük təşkil etmə dərəcəsi;
- ölkənin iqtisadi təhlükəsizliyinin səviyyəsinin inteqral qiymətləndirilməsi.

**4. İslahatdan qabaqkı iqtisadi vəziyyətin xüsusiyyəti:**

- islahatların başlanması anına istehsalat vasitələri üzrə mülkiyyət formalarının strukturu;
- milli iqtisadiyyatın idarəedilməsi formaları üzrə ÜDM-in strukturu (direktiv dövlət planlaması əsasında əldə olunan ÜDM-in payı; iqtisadi fəaliyyət üzərində qarışıq nəzarət əsasında əldə olunan ÜDM payı);
- milli iqtisadiyyatın idarəedilməsi formaları üzrə ÜDM-in müəyyən sahəyə aid strukturu;
- əməyin ödənilməsi formaları üzrə (milli iqtisadiyyatın formaları üzrə) heyətin strukturu (oturaq, vaxt hesabilə verilən, vəzifə maaşları, əlavə maddi stimullar);

MUHASIBAT.AZ

- birbaşa və ya dolayısı vergilərin nisbəti üzrə hüquqi və fiziki şəxslərə vergi tətbiq edilməsi strukturu;
- ümumi gəlirlərində hüquqi və fiziki şəxslərin vergi və ya digər məcburi ödənişlərinin payı;
- nağd və nağdsız ödənişlər üzrə pul dövriyyəsinin strukturu.

**5. İslahatdan əvvəl ictimai və hökumət qaydalarının xüsusiyyəti:**

- ölkənin siyasi elitasını real olaraq formalaşdıran partiya və ictimai təşkilatların strukturu (milli iqtisadiyyatın islahatlarından əvvəl gələn qanunvericilik hökuməti orqanlarının seçilməsində bu və ya digər partiya və ya ictimai təşkilatlara öz səsini vermiş seçicilərin payı üzrə);
- milli və «məhəlli» prinsiplər üzrə ölkənin inzibati bölgüsü strukturu;
- seçki ilə və ya ali rəhbər orqanlar tərəfindən «təyinedilmə» üzrə ölkənin inzibati hissələrində icra hakimiyyəti strukturu;
- seçki qanunvericiliyinin əsasında duran prinsiplər üzrə qanunvericilik hakimiyyəti orqanlarının strukturu (majoritar sistem və ya partiya siyahısı sistemi üzrə islahatların başlanması anına seçilmiş deputatların nisbəti);
- mərkəzdə və ya milli iqtisadiyyatda islahatların başlanması anından əvvəl seçkilərdə bir seçki dairəsindən namizədlik irəli sürülən «yerlərdə» hakimiyyətin qanunvericilik orqanlarına deputatlarığa namizədlərin orta sayı;
- milli iqtisadiyyatda islahatların başlanması anına «mərkəz» və ölkənin inzibati hissələrinin (federasiya olduqda, federal və ya regional büdcələrin payı üzrə) büdcələrinin payı üzrə ölkənin birləşdirilmiş dövlət büdcəsinin strukturu;
- dövlət idarəetmə forması (monarxiya, prezident respublikası, parlament respublikası).

**6. İslahatdan əvvəlki müddətə ölkə əhalisinin əksəriyyətinin həyat səviyyəsi və keyfiyyəti:**

- milli iqtisadiyyatda islahatların başlanması anına «istehlak səbətinə» daxil edilmiş məhsulların dəsti üzrə əhalinin gəlirlərinin alıcılıq imkanı;

MUHASIBAT.AZ

- əhalinin gəlirlərinin differensasiya dərəcəsi (milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəl Çin əmsalının qiymətinin dinamikası);
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəl qabaqcıl sənaye inkişafına malik ölkələrlə müqayisə edildikdə gündəlik tələbat və uzunmüddətli istifadə malları ilə ölkə əhalisinin təmin olunması dərəcəsini xarakterizə edən göstəricilərin dinamikası;
- ölkənin iqtisadi rayonlarında sosial infrastrukturun xüsusiyyətləri (mövcud inzibati bölgü üzrə);
- məhsulların bu qurupu üzrə milli iqtisadiyyat tərəfindən istehsal olunan (natura və qiymət ifadəsində) dünya səviyyəsinə (Avropa) uyğun olan gündəlik tələbat və uzunmuddətli istifadə olunan malların daha geniş yayılmış qrupları üzrə malların payı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəl milli iqtisadiyyatın real sektorunun işçilərinin orta əmək haqqının dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə mal və xidmətlərə qiymətlərin səviyyəsinin dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına müvafiq qruplarda mal və xidmətlərin ümumi həcmi üzrə tələbatın təklifi üstələdiyi «defisit» mal və xidmətlərin payı;
- milli iqtisadiyyatda islahatların başlanması anına mal və xidmətlərin ümumi realizasiya həcmində rasion tətbiq etmə mexanizminin fəaliyyətinin əhatə etdiyi mal və xidmətlərin payı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə orta aylıq əmək haqqının səviyyəsinin dəyişməsi templərinin və mal və xidmətlərə qiymətlərin səviyyəsinin dəyişməsi tempi arasında nisbət;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə ali və orta təhsil müəssisələrində dövlət təqayüdlərinin, tələbələrə stipendiyaların səviyyəsinin dəyişməsi dinamikası;

MUHASIBAT.AZ

- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə ölkə əhalisinin fəal hissəsinin məşğulluq səviyyəsinin dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə ölkədə və qabaqcıl sənaye inkişafına malik ölkələrdə adambaşına düşən milli gəlirin müqayisəli səviyyəsinin dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkənin və sənaye cəhətdən inkişaf etmiş ölkələrin hərbi-sənaye kompleksinin maliyyələşdirilməsinə və güc strukturlarının təmin edilməsinə sərf olunan ÜDM payı;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkənin və sənaye cəhətdən inkişaf etmiş ölkələrin aqrar-sənaye kompleksinin maliyyələşdirilməsinə sərf olunan ÜDM payı;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkənin və sənaye cəhətdən inkişaf etmiş ölkələrin adambaşına düşən səhiyyə sisteminə sərf olunan dövlət və şəxsi xərclərin (ÜDM payı) müqayisəli səviyyəsinin dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkənin və sənaye cəhətdən inkişaf etmiş ölkələrin adambaşına düşən təhsilin bütün növləri üzrə sərf olunan dövlət və şəxsi xərclərin (ÜDM payı) müqayisəli səviyyəsinin dinamikası;
- ölkənin və sənaye cəhətdən inkişaf etmiş ölkələrin orta həyat səviyyəsinin dinamikası;

7. **Milli iqtisadiyyatda islahatların başlanması anına əldə olunan istehsalat aparatının inkişaf səviyyəsi:**

- dövlət təsnifatlandırmasında qeydə alının geniş sahə (milli iqtisadiyyatın ayrı-ayrı sahələr) qruplarının sayı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə milli iqtisadiyyatın ayrı-ayrı sahələri üzrə differensasiya ilə ÜDM həcminin artım tempi;
- daimi statistik müşahidənin aparıldığı sənaye və kənd təsərrüfatı sahələrin sayı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə milli iqtisadiyyatın müəyyən sahəyə aid olan sahə strukturunun dinamikası;

MUHASIBAT.AZ

- ölkənin iqtisadi rayonlarının sahə strukturu (qüvvədə olan inzibati bölgü üzrə);
- ölkənin iqtisadi rayonlarının istehsal infrastrukturunun xarakteristikası (mövcud inzibati bölgü üzrə);
- ixtisaslaşma dərəcələri üzrə sənaye müəssisələrin strukturu;
- istehsalatın həcminə görə sənaye müəssisələrinin strukturu;
- monopoliyaçı-müəssisələrdə yaranan ÜDM payı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə texnoloji avadanlıqlar parkının yaş strukturunun dinamikası (milli iqtisadiyyatın sahələri üzrə);
- milli iqtisadiyyatda islahatların başlanması anına avadanlıqların ümumi parkında idxal olunan ümumi avadanlıqların payı (milli iqtisadiyyatın sahələri üzrə);
- milli iqtisadiyyatda islahatların başlanması anına avadanlıqların ümumi parkında idxal olunan bərk avtomatlaşdırılmış avadanlıqların (RPİ dəzgahlarının) payı (milli iqtisadiyyatın sahələri üzrə);
- milli iqtisadiyyatda islahatların başlanması anına təhsil səviyyəsi üzrə kadr potensialının strukturu (milli iqtisadiyyatın sahələri üzrə);
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə ixtisaslaşma və hazırlığın yüksəldilməsinə sərf olunan kadr ehtiyatlarının payı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə kadr potensialının yaş strukturunun dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına sənaye müəssisələrinin işdən azad olunan və yenidən işə cəlb olunan rəhbər işçilərinin sayının nisbəti;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkədə və sənaye cəhətdən inkişaf etmiş ölkələrdə ehtiyatların istifadə səmərəliliyinin müqayisəli göstəriciləri;
- milli iqtisadiyyatda islahatların başlanması anına milli müəssisələrin istehsal etdiyi (mal və xidmət qrupları üzrə) rəqabətqabiliyyətli məhsulların payı.

**8. Milli iqtisadiyyatın rəqabət aparan üstünlüklərinin əldə edilməsi üçün ilkin şərtlərin mövcudluğu:**

MUHASIBAT.AZ

- milli iqtisadiyyatda islahatların başlanması anına əsaslı elmi araşdırmaların inkişafına istiqamətləndirilən ÜDM payı;
- milli iqtisadiyyatda islahatların başlanması anına istehsalat infrastrukturunun inkişafına istiqamətləndirilən ÜDM payı;
- milli iqtisadiyyatda islahatların başlanması anına sahibkarlığa qanunverici dövlət dəstəyinin mövcud olması (Vergi Məcəlləsi, Torpaq Məcəlləsi);
- milli iqtisadiyyatda islahatların başlanması anına anti-inhisar qanunvericiliyinin mövcud olması;
- milli iqtisadiyyatda islahatların başlanması anına istehlak-çıların hüquqlarını müdafiə edən qanunvericiliyin olması;
- milli iqtisadiyyatda islahatların başlanması anına müəyyən sahəyə aid kəsimdə mal və xidmət qrupları üzrə ixrac-idxal əməliyyatlarının strukturu;
- milli iqtisadiyyatda islahatların başlanması anına müəyyən sahəyə aid kəsimdə mal və xidmət qrupları üzrə ixrac-idxal əməliyyatlarının (azad ticarət və proteksionizm) gömrük tənzimlənməsinin (gömrük tariflərinin səviyyəsi) xüsusiyyəti;
- milli iqtisadiyyatda islahatların başlanması anına (müəyyən sahəyə aid kəsimdə) ixrac yönümlü və idxal fəaliyyəti ilə məşğul olan müəssisələrdə formalaşdırılan ÜDM payı;
- sahibkarlıq mühitinə əlverişli şəraitin yaradılması dərəcəsi üzrə ölkənin iqtisadi rayonlarının strukturu (rayonların ümumi sayında potensial əlverişli sahibkarlıq mühitinin payı);
- milli iqtisadiyyatda islahatların başlanması anına ümumi idxal həcmində idxal olunan strateji resursların (resursların növü üzrə) payı;
- milli iqtisadiyyatda islahatların başlanması anına ümumi idxal həcmində ixrac olunan strateji resursların (resursların növü üzrə) payı;

**9. Ölkənin investisiya imkanları**

- milli iqtisadiyyatda islahatların başlanması anına əmanətlərə ölkə əhalisinin meyli;
- milli iqtisadiyyatda islahatların başlanması anına əmanətlərin ümumi həcmində ölkə əhalisinin müddətli əmanətlərinin payı;

MUHASIBAT.AZ

- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə ölkənin qızıl valyuta ehtiyatlarının dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına milli iqtisadiyyata istiqamətləndirilən sərmayələrin ümumi həcmində xarici investisiyaların həcmi;
- milli iqtisadiyyatda islahatların başlanması anına milli iqtisadiyyata qoyulan dövlət və xarici sərmayələrin sahə strukturu;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə sərmayə kompleksinin ayrı-ayrı sahələrinin inkişafına istiqamətləndirilən ÜDM payının dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə «prestij» xüsusiyyətli investisiya layihələrinə (kapital qoyuluşlarının real iqtisadi faydalı iş əmsalı olmadan) ÜDM payının dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkənin dövlət büdcəsinin sərfiyyat hissəsinə olan daxili borcun böyüklüyünün nisbəti;
- milli iqtisadiyyatda islahatların başlanması anına ölkənin dövlət büdcəsinin sərfiyyat hissəsinə olan xarici borcun böyüklüyünün nisbəti;
- milli iqtisadiyyatda islahatların başlanması anına xarici və daxili borcun ödənilməsinə istiqamətləndirilən ÜDM payı;
- milli iqtisadiyyatda islahatların başlanmasından 5 il əvvəlki müddətə ssuda faizinin həcminin dinamikası;
- milli iqtisadiyyatda islahatların başlanması anına milli iqtisadiyyata qoyula bilər xarici dövlətlərə əvvəllər verilmiş kreditlər üzrə xarici debitor borcunun həcminin nisbəti.

Təqdim olunan göstəricilərin ümumi cəmi milli iqtisadiyyatda islahatların keçirilməsi nəzərdə tutulan ölkənin «portretini» əks etdirir. Belə bir «portretin» ətraflı tədqiqi belə bir ölkə üçün daha əlverişli iqtisadi mühitin seçilməsinə imkan verir. Belə bir tədqiqatın əsas tərkibini bu və ya digər iqtisadi quruluşa aid şərtlərlə bağlı islahatların başlanması anına ölkədə yaranmış şəraitin uyğunluğunun müəyyən edilməsi təşkil edir.

MUHASIBAT.AZ

## 8.2. Yeni iqtisadi quruluşa keçid müddətində dövlətin tənzimləyici funksiyaları

Dövlətin tənzimləyici funksiyalarının formalaşdırılmasına vacib metodoloji yanaşma sistemli yanaşmadır. Bu o deməkdir ki, iqtisadi fəaliyyətin dövlət tənzimlənməsi sinerji effektinin ekzoqen şərtlərində yaranmış maksimum mümkün olana nail olunmasını təmin edən milli iqtisadiyyatın səmərəli fəaliyyəti üçün yaranmış qarşılıqlı əlaqəli elementlər sistemini (qeyri-rəsmi qurumlar) təmsil etməlidir. Bu effekt ölkə əhalisinin həyat keyfiyyəti və davamlılığı səviyyəsində özünü büruzə verir.

Ölkədə yaranmış iqtisadi quruluş şərtlərində yerinə yetirilən funksiyalardan fərqlənən yeni iqtitsadi quruluşa keçid müddətində dövlətin tənzimləyici funksiyalarının spesifikası aşağıdakılarda əksini tapır.

Birincisi, keçid dövründə uzun müddət əvvəlki və yeni iqtisadi quruluşların elementləri mövcuddur. Buna görə də dövlət tənzimlənməsinin funksiyaları yeni iqtisadi quruluşun qəbul edilməsinə hazırlıq dərəcəsi üzrə fərqləndirilən milli iqtisadiyyatın sektorları üzrə fərqləndirilməlidir. Dəyişikliklərə hazır olmamanın açıq-aydın nümunəsi kənd təsərrüfatı məhsullarının kollektiv və fərdi istehsal üsullarının hələ də mövcud olduğu Rusiya Federasiyasının aqrar sənaye sektorunda yaranmış vəziyyəti göstərmək olar. Belə bir hal torpaqdan istifadə proseslərini, kənd təsərrüfatı və sənaye sferası və s. arasında qarşılıqlı münasibətləri səmərəli şəkildə tənzimləyən qanunların qəbul olunmasına imkan vermir.

MUHASIBAT.AZ

İkincisi, yeni iqtisadi quruluşa keçid prosesində dünya tarixinin təcrübəsinin göstərdiyi kimi, əldə olunmuş iqtisadi potensialın itirilməsi və ya əhəmiyyətli dərəcədə zəiflədilməsi təhlükəsi yaranır. Bunun təsdiqi son 100 il ərzində Rusiyada gedən keçid prosesləridir. Buna görə də keçid dövründə dövlət tənzimlənməsi sistemi ölkənin iqtisadi təhlükəsizliyinin itirilməsi və ya zəiflədilməsinin mümkünlüyünün aradan qaldırılmasına istiqamətləndirilmiş tədbirləri nəzərdə tutur.

Üçüncüsü, yeni iqtisadi qaydada keçid demək olar ki, daima ölkədə əhalinin həyat səviyyəsinin azalması və bununla əlaqədar sosial gərginliyin güclənməsi ilə (xüsusi ilə birinci mərhələdə) bir-birinə bağlanır. Buna görə də, keçid dövründə dövlət tənzimlənməsi sistemi ölkənin sosial təhlükəsizliyi məsələlərinə xüsusi diqqət yetirməlidir. Dövlət tənzimlənməsi tədbirləri həm iqtisadi və həm də sosial sferaya təsiri sabitləşdirməlidir.

Qeyd olunanlardan irəli gələrək milli iqtisadiyyatın dövlət tənzimlənməsinin məqsədlərini formalaşdırmaq olar.

Qlobal məqsəd ölkənin iqtisadi gücünün təmin edilməsidir. Bu o deməkdir ki, dövlət tənzimlənməsi sistemi dünya bazarlarında ölkənin dəyişməz mövqeylərini təmin edən şərtləri yaratmağa, həmçinin xalqın yüksək həyat səviyyəsinin təmin edilməsinə imkan verir.

Dövlət tənzimləməsinin ümumiləşdirilmiş məqsədləri dövlət tənzimlənməsi sisteminin vacib elementlərinin (qurumlarının) müəyyən edilməsi hesabına qlobal məqsədlərə nail olunması üçün sərfəli ekzogen və endogen şərtlərin yaradılmasını və dəstəklənməsini nəzərdə tutur. Belə bir şərtlərin nümunəsi kimi aşağıdakılar göstərilə bilər: hərbi doktrinanın realizasiyasının iqtisadi cəhətdən təmin edilməsi, ölkənin dünya iqtisadi sisteminə inteqrasiyası üçün ilkin şəraitin yaradılması, millətin sağlamlığının təmin edilməsi və s.

MUHASIBAT.AZ

Təfsilatlı məqsədlər ekzogen və endogen şərtlərin konkretləşdirilməsinə yönəlib. Bu məqsədlər hökumətin bütün qollarının (qanunvericilik, icraedici və məhkəmə) funksiyalarının yerinə yetirilməsində prioritetlərin seçilməsi üçün əsas kimi istifadə olunmalıdır. Belə bir məqsədlər aşağıdakılar ola bilər: əhalinin sosial cəhətdən zəif təbəqəsi, antiinhisar fəaliyyəti, əmək münasibətlərinin reqlamentasiyası və s.

Dövlət tənzimləməsinin qeyd olunan məqsədləri ekzogen və endogen şərtlərin dəyişməsindən asılı olaraq dəyişir, lakin dövlət tərəfindən tənzimlənməsi əsasında həll olunan vəzifələrin cəmi nisbətən sabit qalır.

Dövlət tənzimlənməsi sisteminin formalaşdırılması zamanı ölkədə tarixən mövcud olan qeyri-rəsmi qurumların fəaliyyəti nəzərə alınmaqla lisenziyalaşdırılmış və ya qadağa olunma xüsusiyyəti stimullaşdıran bu və ya digər təsirlərə iqtisadi agentlərin mümkün reaksiyasını proqnozlaşdırmaq lazımdır.

Qeyd olunanlardan çıxış edərək milli iqtisadiyyatın dövlət tənzimləməsi sisteminin (MİDTS) aşağıdakı fəaliyyət prinsiplərini formalaşdırmaq olar:

- bu fəaliyyət prosesində iqtisadi agentlərin davranış norma və qaydalarının şərtsiz yerinə yetirilməsini təmin etməklə, iqtisadi fəaliyyətin hüquqi (institusional) əsasını «yetişdirmək» və ehtiyac olduqda aktuallaşdırmaq lazımdır (Kleyner Q.B., 2004);
- bürokratik aparatın iqtisadiyyata minimum müdaxiləsi ilə sövdələşmə xərclərinin daimi azalmasını təmin etməklə tənzimləyici fəaliyyəti səmərəli şəkildə həyata keçirmək;
- iqtisadi fəaliyyətin qeyri-rəsmi qurumlar tərəfindən müəyyən olunmuş qayda və normaları pozan iqtisadi agentlərin qadağa və maliyyə təsiri tədbirləri ilə stimullaşdırıcı, qeydiyyat (lisenziya) üsullarını uyğunlaşdırmaq lazımdır;

MUHASIBAT.AZ

- ayrıca qrup, korporasiya, inhisar birlikləri və digər hakim iqtisadi qruplaşmaların iqtisadi hakimiyyətə malik olmasına yol verməmək məqsədilə möhkəm antiinhisar siyasətinin təmin edilməsi, azad rəqabətin inikişafı üçün sərfəli şəraitin yaradılmasına ehtiyac var;
- ölkə əhalisinin ayrı-ayrı təbəqələri arasında gəlirlərin əsassız yüksək differensasiyasına yol verməməklə möhkəm kredit-pul, büdcə, vergi siyasətinin həyata keçirilməsi hesabına maliyyə sabitliyini təmin etmək lazımdır;
- ölkənin milli, iqtisadi və ekoloji səviyyəsinin daimi artım səviyyəsinin təmin edilməsinə istiqamətlənmiş investisiya siyasətinin prioritetlərini formalaşdırmaq, ölkənin inkişafının uzunmüddətli strateji vəzifələrinin həll edilməsini təmin etmək lazımdır;
- Birinci növbəli vəzifələr – səhiyyənin, ümumi və peşəkar təhsilin dəstəklənməsi, sosial sferanın bütün sahələrinin inkişafı hesabına əhalinin yüksək həyat səviyyəsinin və keyfiyyətinin təmin edilməsi;
- vacib strateji vəzifə – fundamental və tətbiqi elmin dəstəklənməsi hesabına ölkənin rəqabət qabiliyyətinin yüksək səviyyəsinin təmin edilməsi, elm-tutumlu istehsalatların inkişafı, milli rəqabət üstünlüklərinin bütün determinantlarının təkmilləşdirilməsi.

MİDTS-nin formalaşdırılması zamanı stimullaşdırıcı, lisenziya təmin edən, qadağa edən və maliyyə xüsusiyyətli bu və ya digər təsir tədbirlərinə iqtisadi agentlərin mümkün təsirini proqnozlaşdırmaq lazımdır. Bununla əlaqədar MİDTS-nin çağırışına iqtisadi agentin «cavabını» əks etdirən istənilən səviyyəli iqtisadi agentin məqsədlərinin cəminin nəzərdən keçirilməsi vacibdir (şəkil 8.1.) Əsas dövlət təsirlərinə agentin reaksiyası dörd əsas istiqamət üzrə nəzərdən keçirilir: vergi siyasətinə cavab, pul-kredit siyasətinə cavab, antiinhisar siyasətinə cavab. Təbii ki, «cavabların» əks olunan cəmi heç də tam deyil. O, yalnız qanuna riayət edən iqtisadi agentlərin hərəkətlərini təqdim edir. Lakin hətta belə bir «iriləşdirilmiş» reaksiya müvafiq normativ aktları işləyənlərə faydalı məlumatlar verə bilər. Mahiyyəti üzrə, bu strukturda məqsəd kimi tən-

MUHASIBAT.AZ

zimləyici təsirlərin «faydasız» hərəkətlərini zəiflətmək və «faydalı» nəticələrini gücləndirməyə səy göstərən iqtisadi agentlərin davranışı müəyyən edilir.

İqtisadi agentlərin mümkün cavab reaksiyasının proqnozlaşdırılması bu və ya digər normativ aktın təşəbbüskarı olan iqtisadi agentlərin əsas funksiyalarından birinə çevrilməlidir. Bu zaman yalnız ölkə sakinlərinin deyil, həmçinin qeyri-rezidentlərin, həm də müxtəlif iqtisadi, siyasi və digər beynəlxalq xarakterli qruplaşmaların mümkün reaksiyasını nəzərə almaq lazımdır. Qeyd etmək lazımdır ki, dövlət tənzimləməsi tədbirlər sistemindən ibarətdir. Yalnız qarşılıqlı fəaliyyət, bu tədbirlərin qeyri-ziddiyyətli olması agentin iqtisadi fəaliyyətində dövlətin müdaxiləsinin müsbət sinerji effektini təmin edə bilər.




MUHASIBAT.AZ

MUHASIBAT.AZ

**Şəkil 8.1.** Dövlət təsiri tədbirlərinə iqtisadi agentin mümkün «cavabları»

## 8.3. Dövlət təsirinin «şaquli» istiqamətlərinin formalaşması

Son dövrlərdə dövlət hakimiyyətinin, xüsusilə də iqtisadi fəaliyyətə şaquli təsirinin gücləndirilməsi təklif edilir. Öz – özlüyündə belə gücləndirmə, iqtisadiyyatın böhranlı səviyyəsi dövründə zəruridir. Bununla yanaşı «hakimiyyət şaquli» anlayışının müəyyən edilməsinin özündə də aydınlıq vacibdir. Əgər bu anlamda təsərrüfat subyektlərinin sərbəstliyinin, müəyyən məqsədə çatmaq vasitələrindən istifadənin vahid mərkəzdən sərt idarəedilməsi başa

MUHASIBAT.AZ

düşülürsə, bu zaman belə şaquli təsir ziyandan başqa bir şey verə bilməz. Əgər bu şaquli təsir, qanunverici aktlarla reqlamentləşdirilən və «üfiqi» maraqların qarşılıqlı əlaqəsini təmin etmək məqsədilə sərt dövlət tənzimlənməsi əsasında çoxtərəfli iqtisadi fəaliyyətin xətləndirilməsi üçün yaradılırsa, bu zaman onun dəstəklənməsi diqqətəlayiqdir.

Bu konsepsiyanın əsas ideyalarına diqqət yetirək. İqtisadi fəaliyyətə dövlətin təsiri prosesində federasiya subyektlərinin, müəssisələrinin və Milli iqtisadiyyatın strateji inkişaf məqsədlərinin uyğunluğunun təmin olunması zəruridir. Beləliklə, müəssisələrin, regionların və ölkənin strateji inkişafının qarşılıqlı əlaqələrinə nail olunmasında ierarxiya uyğunluğuna nəzərən «şaquli maraq»lar düzümü yaranmış olur.

«Şaquli maraq»ların zirvəsində duran federal strukturları, əsasən dövlət, ictimai və iqtisadi qəbildən olan məsələləri həll edir. bunlar, dövlətçiliyin tarixi inkişaf təmayülünə, Milli iqtisadiyyat və istehsal münasibətlərinə ölkə əhalisinin mentalitetinə, iqtisadi-coğrafi və geosiyasi vəziyyətinə daha uyğun gələn məsələlərdir. Qəbul olunmuş bu konsepsiyalar Milli iqtisadiyyatın inkişafının strateji məqsədlərinin müəyyənləşdirilməsinin əsas mənbəyi hesab olunur. Strateji məqsədlərin reallaşdırılması üçün hökumətin icraedici və qanunverici qanadı, iqtisadi fəaliyyətin reqlamentləşdirilməsi və reallaşdırılması mexanizmləri üzrə qanunverici aktlar sistemini formalaşdırır. İcraedici hakimiyyət, Milli iqtisadiyyatın inkişafının strateji indiqativ planını tərtib edir, Milli iqtisadiyyatın və regionların beynəlxalq bazarda rəqabət üstünlüyünü təmin edən imtiyazları müəyyənləşdirir.

Hakimiyyətin federasiya strukturları subyektlər çərçivəsində, regionun geosiyasi və iqtisadi-coğrafi xüsusiyyətlərini rəhbər tutaraq, strateji məqsədlərə uyğunlaşdırılmış sosial-iqtisadi inkişafın strategiyası planını müəyyən edir. icraedici hakimiyyət

MUHASIBAT.AZ

regionların indiqativ strateji inkişaf planını tərtib edir, regionlar və iqtisadi agentlər üçün həmin planın yerinə yetirilməsi imtiyazlarını müəyyənləşdirir. Regionun icraedici və qanunverici hakimiyyəti strateji məqsədin həyata keçirilməsinin federasiya səviyyəsində əlverişli halı üçün iqtisadi siyasətə əsaslanmış qarşılıqlı hüquqi aktlar paketi hazırlayır. Regionların sosial-iqtisadi inkişafının indiqativ planı tərtib olunarkən, ölkənin strateji məqsədilə şərtlənən, həmçinin federasiya subyektləri və regionların xarici tərəf müqabilləri ilə münasibətini əks etdirən federal maraqlar nəzərə alınmalıdır. Bu maraqların regionun indiqativ strateji planında uzlaşdırılmasına, regionun fəaliyyətinin sərhədlərini əks etdirən daxili və xarici maraqların plana daxil edilməsi yolu ilə nail olunur.

Federasiya subyektləri səviyyəsində bir mühüm problem də meydana çıxır – ölkə ərazisində yerləşən iri iqtisadi rayonların indiqativ strateci planlarının qarşılıqlı əlaqələndirilməsi problemi. Bugünkü gündə federasiyanın ərazisində yerləşən geosiyasi, iqtisadi-coğrafi cəhətdən bənzəri olmayan iri iqtisadi rayonların qarşılıqlı əlaqələri yoxdur: Mərkəzi, Şimali-Qərb, Mərkəzi-Qaratorpaq, Volqaboyu və s. Bu rayonlarda yerləşən federasiya subyektlərinin çoxunda, regionun xüsusiyyətlərini nəzərə alan və həmçinin federal səviyyədə strateji məqsədlə uyğunlaşdırılmış, sosial-iqtisadi inkişafın indiqativ strateji planları tərtib olunmur. Halbuki, belə stratexi planlar, həmin ərazidə yerləşən təsərrüfat subyektlərinin ölçüsü və fəaliyyətinin xüsusiyyətidən asılı olmayaraq əlverişli sahibkarlıq mühitinin formalaşması üçün başlıca şərtlərdən biri olmalıdır. Bununla əlaqədar hər bir rayonun iqtisadi situasiyaya və oxşar cəhətlərə malik olan parametrləri nəzərə alınmaqla elmi əsaslandırılmış sərhədinin müəyyən edilməsi problemi meydana çıxır.

Bu və ya digər rayonun ərazisində yerləşən federasiya subyektlərinin hər birinin iqtisadi siyasəti, federasiya subyektinin regional strateji fəaliyyət zonasına (RSFZ) xidmət edən sahələrin və

MUHASIBAT.AZ

iqtisadi agentlərin qarşılıqlı münasibətinə istiqamətləndirilməlidir. Federal və regional səviyyədə qarşılıqlı əlaqə 8.2. sxemində verilmişdir.

«Maraqla şaquli»nin aşağı səviyyəsi, bu və ya digər regionun ərazisində fəaliyyət göstərən təsərrüfat subyektlərinin timsalında verilmişdir. Bu subyektlərin maraqları hər bir təsərrüfat müəssisənin rolu ilə şərtlənən strateji və əməli planda təcəssüm olunmalıdır. Belə strateji və əməli planların başlıca məqsədi, müəssisələrin roluna uyğun olaraq daxili və xarici əmtəə bazarında uzunmüddətli dəyanətli rəqabətin dəstəklənməsindən ibarətdir. Bu məqsədə nail olunması ancaq o zaman mümkündür ki, müəssisənin malik olduğu resruslardan səmərəli istifadə etmək imkanı olmuş olsun.

Firma və regionun maraqlarının uzlaşdırılması o vaxt mümkün olur ki, müəssisənin strateji zonalar yığımı, regionun strateji fəaliyyət zonası spektri ilə uyğunlaşmış olsun. Həm də müəssisə sosial iqtisadi inkişafının indiqativ strateji planı, federasiyanın tabeliyində olmalıdır. Buradan belə nəticə çıxır ki, müəssisə strategiyasını hazırlayarkən, elə strateji fəaliyyət zonası yığımı seçməlidir ki, ona mövcud strateji potensialından daha səmərəli istifadə imkanı versin, həm də regionun iqtisadi siyasətində nəzərdə tutulmuş vergi, kredit və digər imtiyazlardan istifadə edə bilsin (şəkil 8.3.).

MUHASIBAT.AZ




MUHASIBAT.AZ

**Şəkil 8.2.** İqtisadi fəaliyyətə şaquli dövlət təsiri

Belə halda iqtisadi fəaliyyətə dövlətin məqsədyönlü təsirinin forması, müəssisələrin çətin vəziyyətində, mülayim büdcə tədbirləri sistemi ola bilər: (V.L.Tambovçev, A.E.Şastikov).

- müəssisələrə birbaşa subsidiyalar;

- təbii inhisarın xidmət və məhsullarına, qeydə alınmış aşağı qiymətlər formasında dolayı subsidiyalar;

MUHASIBAT.AZ

- federal və regional səviyyədə gömrük, vergi və s. yığımlar üzrə güzəştlər;

- güzəştli vergilər, kreditlər üzrə zəmanətlər;

-federal büdcəyə, federasiya subyektlərinin büdcələrinə, yerli büdcələrə və s. üzrə vaxtı keçmiş tədiyyələr (müflisləşmə haqqında sanksiya qəbul edilmədiyi halda)

MSZ- müəssisənin strateji sərhədi

MSP- müəssisənin strateji potensialı.

Müəssisənin strateji potensialının elementləri.




Şəkil 8.3. Müəssisənin strateji potensialının optimallaşdırılmasının konseptual modeli.

MUHASIBAT.AZ

Bir halda ki, konsepsiyalar regional iqtisadi siyasətin federal mərkəzin və federasiya subyektlərinin marağını əks etdirir, belə halda yəqin etmək olar ki, müəssisələrin bu formadakı fəaliyyəti Milli iqtisadiyyatın, eyni zamanda müəssisənin öz tərəfdaşlarının marağına uyğundur.

Beləliklə, «maraqlar şaquli»nin qurulması konsepsiyası xarici ölkələrdə geniş tətbiq olunan indiqativ planlaşdırma təcrübəsinə əsaslanır. Bu təcrübənin mahiyyəti, dövlət təmayülünün ölkənin iqtisadi inkişafının və iqtisadi siyasətinin formalaşmasının regional indiqativ strateji inkişaf və planı ilə əlaqələndirilməsindən ibarətdir.

## NƏTİCƏLƏR

1. İxtiyari bir iqtisadi vəziyyətdən digərinə keçid, iqtisadi fəaliyyətin morfologiyasında əhəmiyyətli dəyişikliklərlə müşayiət olunur. Bu zaman nəinki, mülkiyyət münasibətləri formasında, institusional sistemdə, dövlətin iqtisadi fəaliyyətə təsir metodlarında, habelə istehsalın strukturunda, məşğulluqda və insanların psixologiyasında dəyişikliklər baş verir.
2. Adətən keçid prosesi özündə üç əsas mərhələni əks etdirir: stabilləşmə və ya kritik mərhələ – məqsədi, əvvəlki iqtisadi vəziyyətin fəaliyyətinin nəticələrinin ləğv edilməsidir; yeni iqtisadi qaydanın yaranması mərhələsi- məqsədi, yeni institusioanl mühitin formalaşdırılmasıdır; struktur yenidənqurma mərhələsi – Milli iqtisadiyyata dövlətin təsirinin (tənzimlənməsinin) təshih edilməsidir.
3. Siyasi, ictimai və iqtisadi yeniləşmənin əsasında bu və ya digər ölkədə islahatların həyata keçirilməsinin başlanğıcında və gedişində mövcud şəraitin dəqiq təhlili, həmin şəraitə dəqiq plan və proqramların uzlaşdırılması haqqında qaydalar durur. Bu və ya digər ölkənin xüsusiyyətlərindən asılı olaraq yeniləşdirmə

MUHASIBAT.AZ

prinsiplərinin dəyişdirilməsi zəruridir. Hər hansı bir ölkənin təcrübəsi müsbət olsa da belə, onun kor-koranə təqlid edilməsindən yayınmaq lazımdır.

4. Yeniləşdirmənin həyata keçirildiyi dövrə qədər və gedişatında Milli iqtisadiyyatın xüsusiyyətini və səviyyəsini qiymətləndirmək üçün, Milli iqtisadiyyatın tarixi inkişaf təmayülünü, əhalinin əsas hissəsinin mentalitetini, ölkənin geosiyasi və iqtisadi-coğrafi vəziyyətini, islahata qədərki dövrdə ölkələ mövcud olan iqtisadi qaydanı, ictimai və dövlət xüsusiyyətlərini, ölkə əhalisinin əksəriyyətinin həyat səviyyəsi və keyfiyyətini, istehsal aparatının inkişaf səviyyəsini, islahata qədərki dövrdə Milli iqtisadiyyatın nailiyyətlərini, Milli iqtisadiyyatın rəqabət üstünlüyü imkanlarını, ölkənin investisiya imkanlarını əks etdirən indiqatorlardan istifadə oluna bilər.

5. Qeyd olunan indiqatorların mahiyyəti ölkənin «prioritet»ini göstərir, Milli iqtisadiyyatın yenidən formalaşmasını əks etdirir. Belə «prioritet»in dəqiq tədqiqi, ölkə üçün uyğun gələn iqtisadi qaydaların seçilməsinə imkan verir. Bu tədqiqatın əsas məzmunu, islahata qədərki dövrdə, ölkədə mövcud olan iqtisadi qaydaların yeni iqtisadi şəraitə uyğunlaşması imkanlarını müəyyən etməkdən ibarətdir.

6. İqtisadi fəaliyyətə dövlətin təsiri, Milli iqtisadiyyatın effektli inkişafı, ekzogen şəraitdə maksimum sinergetik effektin alınması imkanlarının təmin olunması üçün yaradılmış elementlərin qarşılıqlı əlaqələrini əks etdirməlidir. Bu effekt, ölkə əhalisinin yüksək həyat keyfiyyətində və uzunömürlülüyündə ifadə olunur.

7. Dövlət təsirinin qlobal məqsədi ölkənin iqtisadi gücünün təmin olunmasıdır. Dövlət təsirinin aqreqat məqsədi, dövlət tənzimlənməsinin hesabına qlobal məqsədə nail olmaq üçün, ekzogen və endogen şəraitin əlverişli dəstəklənməsidir. Məqsədin detallaşdırılması, ekzogen və endogen şəraitin dəqiqləşdirilməsinə istiqamətləndirilir.

8. İqtisadi fəaliyyətə dövlətin təsiri prosesində Milli iqtisadiyyatın inkişafının, federasiya subyektlərinin, müəssisələrin strateji məqsədlərinin razılaşdırılmasının təmin olunması zəruridir. Bu zaman ierarxiyanın bütün səviyyələrində maraqlı olanların, ölkənin strateji inkişafının qarşılıqlı əlaqələrini əks etdirən «maraqlar şaquli»nin qurulması həyata keçirilməlidir.

MUHASIBAT.AZ

9. «Maraqlar şaquli»nin yaradılması konsepsiyasının əsasında xaricdə geniş təşəkkül tapmış indiqativ planlaşdırma təcrübəsi durur. Onun mahiyyəti, dövlət tərəfindən ölkənin iqtisadi inkişafının, iqtisadi agentləri stimullaşdıran iqtisadi siyasətin formalaşmasının, ölkənin sosial-iqtisadi inkişafında dövlətə regionların indiqativ strateji planlarının istiqamətlərinin müəyyənləşdirilməsidir.

## Yoxlama sualları və tapşırıqlar

1. Dövlətin iqtisadi fəaliyyətə müdaxiləsi probleminin mahiyyətini izah edin.
2. Keçid prosesi dedikdə nə başa düşülür? Onun hansı mərhələləri vardır?
3. Hansı amillər keçid prosesinə təsir göstərir? Bu amillərin birinci qrupunu təhlil edir.
4. Keçid prosesinin xüsusiyyətlərinin üstünlüyünü necə qiymətləndirmək olar? Keçid prosesinin üstünlük xüsusiyyətini müəyyən etmək üçün hansı indiqatorlardan istifadə edilməlidir.
5. Üstün iqtisadi qaydanın seçilməsi zamanı, ölkənin tarixi inkişaf təmayülü necə qiymətləndirilməlidir?
6. Əhali əksəriyyətinin mentalitet xüsusiyyəti necə qiymətləndirilməlidir?
7. Yeniləşdirməyə qədər ölkədə mövcud olan iqtisadi, dövlət və ictimai qaydalar hansı göstəricilərlə qiymətləndirilə bilər?
8. İslahat başlanan dövrə qədər ölkənin istehsal aparatının inkişaf səviyyəsi necə qiymətləndirilir?
9. Ölkədə yeniləşdirmə anına qədər, investisiya cəlbediciliyi və nail olunmuş üstünlüyü hansı göstəricilərlə qiymətləndirmək olar?
10. İqtisadi fəaliyyətə dövlət təsirinin qlobal, aqreqat və detallaşdırılmış məqsədləri hansılardar?
11. «Dövlət şaquli» və «Maraqlar şaquli»nin formalaşması prinsiplərinin fərqi hansılardır? Hakimiyyət strukturunun federal və regional səviyyələrdə fəaliyyəti nə ilə ifadə olunur.
12. Dövlət və sahibkarlığın strateji məqsədləri necə uzlaşdırılmalıdır? İqtisadi agentlər özlərinin strateji fəaliyyətini necə seçməlidirlər?

MUHASIBAT.AZ

# Nəticə

Rusiyanın milli iqtisadiyyatı çox səviyyəli, mürəkkəb bir sistem olmaq etibarilə, ölkənin iqtisadi, hərbi-siyasi qüdrətini artırmaq əsasında vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi məqsədlərinə xidmət etməlidir. İqtisadi, siyasi və sosial inkişafın strateji məqsədlərini həll etmək, milli, o cümlədən, iqtisadi təhlükəsizliyi təmin etmək üçün ölkənin iqtisadi qüdrətinin başlıca meyarı milli sərvətdən istifadə dərəcəsi hesab olunur.

Bu strateji məqsədlərə çatmağın başlıca vasitəsi dövlətin investisiya siyasətinin həyata keçirilməsidir. Bu siyasətin əsasında təhsilin, elmin, bütün sosial sfera sahələrinin prioritet inkişafı, milli iqtisadiyyatın, onun sahələr və müəssisələrində daxili və xarici əmtəə bazarlarında istehsal amillərinin yüksək rəqabət qabiliyyətinin daima təmin etmək vəzifəsi durur. Milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyası ölkənin iqtisadi qüdrətinin mühüm stimulu olmaqla onun beynəlxalq miqyasda rəqabət mövqelərini, bazarlarda əlavə dəyərin yüksək səviyyəsi ilə xarakterizə olunan elmtutumlu məhsullarla iştirakını təmin edir. Ölkə daxilində və xaricində mövcud vəziyyətin daimi monitorinqinin aparılması və mümkün ola bilən potensial təhlükənin və nəticələrinin kompleks təhlili bu təhlükələrin aradan qaldırılması və məhdudlaşdırılması probleminin effektiv həllinə sistemli yanaşmanın zəruri şərtidir. İqtisadi təhlükəsizliklə bağlı təhdidlərinin qarşısını almağın əsas prinsipi bu problemin həlli ilə məşğul olan bütün strukturların fəaliyyətinin koordinasiya edilməsidir. Bu cür koordinasiya məhdud intellektual resurslardan əlavə sinergetik effektin alınmasının mühüm mənbəyidir. Stimullaşdırıcı institusional sistemin formalaşdırılması vasitəsilə milli iqtisadiyyata dövlətin təsiri

MUHASIBAT.AZ

iqtisadi agentlərin təbii cəhdlərinin ictimai nemətlərdən mənfəət əldə olunmasına istiqamətlənməlidir.

Strateji məqsədlərin federal, regional və ayrı-ayrı iqtisadi agentlər səviyyəsində uzlaşdırılması dövlətin iqtisadi fəaliyyətdə daha səmərəli iştirakının mühüm vasitəsidir.

MUHASIBAT.AZ

# ƏDƏBİYYAT SİYAHISI


1. Австрийская школа в политической экономии. К. Менгер, Е. Бем-Баверк, Ф. Визер; Пер. с нем. — М.: Экономика, 1992.

1. *Алаев Э. Б.* Экономико-географическая терминология. — М.: Мысль, 1977.
2. *Албегова И. М., Емцов Р. Г., Холопов А. В.* Государственная эко номическая политика: опыт перехода к рынку / Под общ. ред.
А. В. Сидоровича. — М.: Дело и Сервис, 1998.
3. *Барр Р.* Политическая экономия: В 2 т. / Пер. с фр. — М.: Меж дународные отношения, 1994.
4. *Вебер М.* Протестантская этика и дух капитализма // Избран ные произведения / Пер. с нем. — М.: Прогресс, 1990.
5. *Витте С. Ю.* Воспоминания: В 2 т. - М.: ТЕРРА, 1997.
6. Власть и реформы. От самодержавной к советской России. — СПб.: РАН. Ин-т российской истории, Санкт-Петербургский филиал, 1996.

8. *Волкова В. Н., Денисов А. А.* Основы теории систем и системно го анализа.

9. География России для инвесторов и предпринимателей. 3-е - изд., перераб. и доп. — М.: «Начала пресс», 1997. — СПб.: Изд-во СПбГПУ, 2003.,

10. *Глазьев С.* Основа обеспечения экономической безопасности страны — альтернативный реформаторский курс // Российский экономический журнал. 1997. №:1. С. 3—19.


MUHASIBAT.AZ

*Глухое В. В.* Региональная экологическая ситуация (состоя ние и методика оценки. - СПб.: ИРЭ РАН, 2000.

11. *Градов А. П.* Отраслевая дифференцйадия и специализация производства в машиностроении. — Л.: Машиностроение, 1976.
12. *Градов А. П.* Экономическая безопасность страны и приорите ты инвестиционной политики // Экономика .новой России РАН. 2001. № 3. С. 70-78.
13. *Градов А. П.* Экономическая теория. Введение в институцио нальную экономику: Учеб.- пособие. — 2-е изд., доп. — СПб.: Нестор, 2004.
14. *Данилевский Н. Я.* Россия и Европа: Взгляд на культурные и политические отношения Славянского мира к Германо-Ро манскому. — 6-е изд. — СПб.: «Глаголъ», 1995.
15. *Донченко В. К.* Экономическая интеграция. Ч. 1. Социально-экологические аспекты экологической интеграции России в мировое сообщество. - СПб.: НИЦЭБ РАН, 1995.

*П.Друкер П. Ф.* Задачи менеджмента в XXI в.: Учеб. пособие/ Пер: с англ. — М.: Издательский дом «Вильяме», 2000.

18. *Дугин А. Г.* Основы геополитики. Геополитическое будущее России. - 3-е изд., доп. - М.: «АРКТОГЕЯ-центр», 1999.
19. *Захаров Н.* А- Система русской государственной власти. — Новочеркасск, 1912.
20. История мировой экономики, Хозяйственные реформы **1920—** 1990^ гг.: Учеб. пособие / А. Н. Макарова и др. — М.: Закон и право: ЮНИТИ, 1995.
21. *Казанский П. Е.* Власть Всероссийского Императора. — Одесса, 1913: Москва, 1999..
22. *Карлик Е. М., Градов А. П.* Экономическая эффективность кон центрации и специализации производства в

MUHASIBAT.AZ

машиностроении:
основы теории и методики. — 2-е изд., перераб. и доп. — Л.: Машиностроение, 1983.

23. Качество населения Санкт-Петербурга / Отв. ред. Б. М. Фирсов. — СПб.: филиал Ин-та социологии РАН, 1996."

24. *Клейнер Г. Б.* Эволюция институциональных систем. — М.: Наука, 2004.
25. *Ключевский В. О.* Русская история: Полный курс лекций. Т. 1. - М: АСТ: Мн.: Харвест, 2002.
26. *Коуз Р.* Фирма, рынок и право. — Нью-Йорк, 1991 (М., 1993).
27. *Кульман А.* Экономические механизмы / Пер. с фр. — М.: АО Прогресс, 1993.
28. *Маршалл А.* Принципы экономической науки: В 3 т. / Пер. англ. — М.: Прогресс, 1993.
29. *Нельсон Р., УинтерДж.* Эволюционная теория экономических изменений / Пер. с англ. — М.: Дело, 2002.
30. *Новожилов В. В.* Проблемы измерения затрат и результатов при оптимальном планировании. — М.: Наука, 1972.
31. *Ойкен В,* Основные принципы экономической политики. — М.: Прогресс: Универс, 1995.
32. *Портер М.* Международная конкуренция / Пер. с англ. под
ред. В. Д. Щетинина. — М.: Международные отношения, 1993.
33. Региональная экономика / А. П. Градов, М. Д. Медников, Б. И. Кузин, А. С. Соколицын. - СПб.: Питер, 2003.
34. *Робсон М., Уллах Ф.* Практическое руководство по реинжини рингу бизнес-процессов / Пер. с англ. — М.: Аудит: ЮНИТИ,-. 1997.
35. Стратегия и тактика антикризисного управления фирмой / Под ред. А. П. Градова и Б. И. Кузина. — СПб.: Специальная лите

MUHASIBAT.AZ

ратура, 1996.

36. *Сумароков В. Н.* Государственные финансы в системе макро экономического регулирования. — М.: Финансы и статисти ка, 19%.

37. *Тамбовцев В. Л., Шаапигпко А. Е.* Три исследования по конку рентной политике / Под ред. А. Е. Шаститко; Бюро экон. ана лиза. - М.: ТЕИС, 2002.

38. *Федоренко Н. П.* Россия на рубеже веков. — М.: ЗАО «Изда тельство "Экономика"», 2Й03.

39. *Шумпетер Й.* Капитализм, социализм, демократия / Пер. с англ..— М.: Экономика, 1995.

40. Экономическая стратегия фирмы — 4 е,изд., переработ. / Под ред. А. П. Градова. — СПб.: Специальная литература, 2003.

41. *Фишер П.* Стратегия привлечения инвестиций в промышлен ность России

**Александр Павлович Градов**

MUHASIBAT.AZ

**НАЦИОНАЛЬНАЯ ЭКОНОМИКА**

**Учебное пособие**

2-е издание

-----------------------------------------------

Azərbaycan dilində

**Çapa imzalanıb 29. 05. 2008. Kağız formatı 60x84 1/16.**

**Həcmi 14,5 ç.v. Sifariş 55 . Sayı 500.**

---------------------------------------------------------------------------

**" İqtisad Universiteti " nəşriyyatı.**

**AZ 1001, Bakı, İstiqlaliyyət küçəsi, 6**

**Qrant layihəsi əsasında qeyri-kommersiya xarakterli nəşr**

MUHASIBAT.AZ

MUHASIBAT.AZ